**Mübariz Süleymanlı**

# AZƏRBAYCAN KULTUROLOJİ FİKİR TARİXİNDƏN
## (XX əsrin əvvəlləri)

*Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun Elmi Şurasının 17 aprel 2009-cu il tarixli (protokol № 3) qərarı ilə çap olunur*

**Bakı – 2011**

Elmi məsləhətçi və ön sözün müəllifi:
**Kamal Talıbzadə**
*Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor*

Redaktor:
**Minaxanım Əsədli**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

Rəyçilər:
**Azad Nəbiyev**
*AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor*

**Babək Qurbanov**
*fəlsəfə elmləri doktoru, professor*

**Rahid Xəlilov (Ulusel)**
*fəlsəfə elmləri doktoru*

**Çingiz Abdullayev**
*kulturologiya elmləri doktoru*

**Mübariz Süleymanlı.** Azərbaycan kulturoloji fikir tarixindən (XX əsrin əvvəlləri). Bakı, "Nafta-Press", 2011, 208 s.

Kitabda XIX əsrin II yarısından etibarən Azərbaycan cəmiyyətində müşahidə edilən yeniləşmə prosesinin tarixi-kulturoloji təhlili verilir. XX əsrin əvvəllərindəki milli-mədəni intibahın kulturoloji qaynaqları araşdırılır. Milli-ictimai şüurun formalaşmasını şərtləndirən tarixi-mədəni mühit öyrənilir. Milli həmrəylik ideyasını aktuallaşdıran kulturoloji fəaliyyətlərdən və milli özünüdərketmə prosesində dil və kültür birliyinin əhəmiyyətindən bəhs edilir. Mədəniyyət quruculuğu məsələləri milli istiqlal kontekstində dəyərləndirilir.

$$S\frac{4901000000-1}{071-2011}$$ **Qrifli nəşr.**

**© "Nafta-Press" nəşriyyatı, 2011**

## Kulturoloji irsə yeni baxış

Bəşər mədəniyyəti tarixini öyrənmədən, dünya xalqlarının kültürləri ilə tanış olmadan, elm və incəsənəti dəyərləndirmə meyarlarına yiyələnmədən, obyektiv və demokratik düşüncə tərzinə, humanist və bəşəri hisslərə sahib olan vətəndaş yetişdirilməsi, insan tərbiyəsi, mütəxəssis hazırlığı mümkün deyil. Bu məqsədə nail olmaq üçün isə öncə milli kültürə sahib durmalı, milli-mənəvi dəyərlər əxz edilməlidir. Çünki millət əsasına, kültürəl özəlliklərə söykənmədən, xalqın adət-ənənəsini, şifahi və yazılı ədəbiyyatını, dilini, dinini, musiqisini, əxlaqını mənimsəmədən müasir sivilizasiya nailiyyətlərinin cəmiyyət quruculuğuna tətbiqi milli mənafelər baxımından zərərli nəticələrə gətirib çıxara bilər. Tarixən kulturoloji fikrimizdəki mövcud nöqsanların, naqisliklərin əsas səbəblərindən biri də elə məhz bu amillərin dəyərincə qiymətləndirilməməsi və hesaba alınmaması olmuşdur. Halbuki Azərbaycan mədəniyyət tarixinin elə mənbələri var ki, bunların böyük əksəriyyətindən hələ lazımınca yararlanmamışıq. Mədəniyyət tarixi və nəzəriyyəsinə dair dəyərli əsərlər yazmış mütəfəkkirlərimizin yaradıcılıqlarının tədqiqatdan kənarda qalması səbəbindəndir ki, bəzən özümüzdə aranmalı olan milli-mənəvi dəyərləri, mədəni irsi, kulturoloji düşüncə və baxışları yad örnəklərdən iqtibas edirik. Bu mənada Mübariz Aslan oğlu Süleymanlının "XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri" mövzusunda yazdığı tədqiqat işi bu sahədəki boşluğun doldurulması istiqamətində atılmış ciddi bir araşdırma kimi dəyərləndirilə bilər.

Kulturoloji irsimizə diqqət və marağın yeni mərhələsinin başlanmasının təzahürü hesab edə biləcəyimiz monoqrafiyada XX əsrin əvvəllərinə aid mədəniyyət hadisələri, dövrün ictimai-elmi mühitini formalaşdıran mütəfəkkirlərin mədəni irsi milli tariximizlə, cəmiyyətin ümumi tərəqqisini şərtləndirən amillərlə vəhdətdə, bir-biri ilə qarşılıqlı çulğalanmış şəkildə təqdim edilir.

Azərbaycan kulturoloji fikrinin təşəkkülü və inkişafı tarixinə yeni baxış tərzi ilə yanaşan tədqiqatçı milli-kulturoloji düşüncə sisteminin formalaşmasına təsir göstərən Şərq və Qərb sivilizasiyası meyllərini də diqqətdən yayındırmır. O, Azərbaycan xalqının XIX əsrin sonu və XX əsrin əvvəllərindən etibarən kulturoloji dəyərlərdən milli-siyasi gerçəkliyə doğru istiqamətlənmiş istiqlal hərəkatını regionun və bütövlükdə dünyanın həm ictimai-siyasi, həm də elmi-mədəni hadisələri fonunda təhlil edir və ümumiləşdirilmiş elmi nəticələrini ortaya qoyur.

Monoqrafiyada qaldırılan problemlər, mövzu ilə bağlı təhlil, şərh və qənaətlər bütövlükdə Azərbaycan mədəniyyət tarixində daima yüksək dəyərləndirilmiş və mühafizə edilmiş varislik ənənələri və milli-mənəvi dəyərlərin transformasiyası amilləri ilə vəhdətdə nəzərdən keçirilir. Belə bir araşdırma üsulu və tədqiqat metodu həm tariximizin qaranlıq qatlarının, mədəniyyətimizin uzun illər xalqdan gizlin saxlanılmış tərəflərinin öyrənilməsi, həm də Azərbaycanın bugünkü müstəqilliyinin, istiqlaliyyətinin qorunması və yaşadılması baxımından əhəmiyyətlidir.

Tədqiqatçı XX əsrin əvvəlləri üçün xarakterik və sosial dayağı möhkəm olan təmayül və cərəyanların mahiyyətini açıqlayarkən əsasən "Türkləşmək, islamlaşmaq və müasirləşmək" düsturunun ehtiva etdiyi xüsusiyyətlərə daha çox üstünlük verir. Milli xarakterin də tələblərinə cavab verən bu milli-ideoloji prinsiplərin mətbuat və ədəbiyyat vasitəsilə təşəkkül və inkişaf taparaq istiqlalçılıq ideallarına çevrilməsinin elmi-nəzəri əsaslarını araşdırarkən müəllif öz mülahizələrini ilkin qaynaq və mənbələrdən gətirilən istinadlarla təsdiqləməyə çalışır.

Araşdırma zamanı XX əsrin əvvəllərindəki Azərbaycan mədəni həyatının ümumi mənzərəsi əsasən Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Yusif Vəzir Çəmənzəminli, Üzeyir Hacıbəyov, Abdulla Şaiq, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Firudin bəy Köçərli və dövrün digər ziyalılarının elmi-nəzəri irsi əsasında verilsə də müəllif,

ümumilikdə kulturoloji problemlərə daha geniş miqyasda yanaşmağa çalışır. Belə ki, Azərbaycan kulturoloji düşüncəsində türkçülük, islamçılıq, müasirləşmək kimi möhkəm və əsaslı yer tutmuş mədəniyyət cərəyanlarının qaynaqlandığı digər tarixi, elmi, ideoloji mənbələr də tədqiqat obyektinə çevrilir.

Yeni dövrün, Azərbaycanda Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Rusiyada İsmayıl bəy Qaspıralı, müsəlman şərqində Şeyx Cəmaləddin Əfqani kimi mütəfəkkirləri ilə başladılan fikri cərəyanlarının XX əsrin əvvəllərindəki əks-sədası və təsir dairəsi də tədqiqatın bəhs mövzularındandır. Müqayisəli tədqiqat metoduna üstünlük verən müəllif kulturoloji prosesləri dəyərləndirərkən Azərbaycan mühacirət mədəniyyətşünaslığının mahiyyətini özündə ehtiva edən ən mühüm mənbələrə, eləcə də dünya şərqşünaslarının və kulturoloqlarının fikirlərinə yer verir.

Razılıq hissi ilə bildirirəm ki, qaldırılan elmi problemlərin tarixiliklə müasirliyin vəhdətində araşdırıldığı əsər zəngin və tutarlı material əsasında, səriştəli tədqiqatçı təfəkkürü ilə yazılıb. Müəllif XX əsrin əvvəllərinin kulturoloji irsinə hazır nəzəri stereotiplərlə yanaşmır, bu zəngin və mənalı irsin özündə ehtiva olunmuş nəzəri müddəaları ümumiləşdirir və bu bünövrə üzərində Azərbaycan kulturoloji fikrinin perspektivləri ilə bağlı qənaət və təkliflərini irəli sürür.

Tədqiqat işinin ciddi elmi-təcrübi əhəmiyyəti var. Əsər Azərbaycan kulturoloji fikir tarixini, xüsusilə də XX əsr mədəniyyətini, mətbuatı və ədəbiyyatını öyrənən mütəxəssislər üçün orijinal bir elmi-nəzəri mənbə kimi dəyərləndirilə bilər.

***Kamal Talıbzadə***
*AMEA-nın həqiqi üzvü,*
*filologiya elmləri doktoru, professor*

## Bir neçə söz

Nəinki Azərbaycan kulturoloji irsinin, bütövlükdə dünya mədəniyyətinin bəşəri dəyərlər (ən yaxşı formalar, fəaliyyət nümunələri, dünya duyumu vasitələri, bəşəriyyətin uzun əsrlər boyu yaratdığı intellektual və maddi dəyərlər) üzərində qurulması, bu təcrübənin diktə etdiyi reallıqdır. Lakin bəşəri mədəniyyətin təkamülü müxtəlif xalqların mədəniyyətinin eyniləşdirilməsi yox, regional və milli mədəniyyətlərin harmonik qarşılıqlı təsiri, qarşılıqlı fəaliyyəti və qarşılıqlı asılılığıdır. Hər bir mədəniyyətin öz dəyəri, öz spesifik xüsusiyyətləri və unikal nailiyyətləri vardır. Müxtəlif milli mədəniyyət tipləri nümunələrinin varlığı təsdiqləyir ki, müasir dünyada milli mədəniyyətlərin hər biri bəşəriyyətin inkişaf formalarını spesifik olaraq, yaradıcılıqla mənimsəyir və bəşər mədəniyyətinin təkamül prosesinə öz töhfələrini verir. Ona görə də mədəniyyət sahəsində fundamental elmin – kulturologiyanın strateji məqsədi həm də Azərbaycan xalqının mənəvi irsini dünya mədəniyyətinin inkişafı kontekstində təqdim etmək, müasir Azərbaycan cəmiyyətinin milli-mədəni inkişaf proseslərini müəyyən etməkdir. Bu mənada kulturoloji fikir Azərbaycanda da milli-sosial inkişafın, ədəbi-mədəni hərəkatın təhlilində müstəqil dövlətçilik ideologiyasının tələb və meyarları ilə səsləşən yeni məzmun kəsb edir. Dəyişkən siyasi, iqtisadi və sosial-mədəni paradiqmaların mövcudluğu şəraitində milli varlığın və mənəvi dəyərlərin mühafizəsi istiqamətindəki vəzifələr də məhz belə bir kulturoloji məzmundan irəli gəlir.

Mütəxəssislər üçüncü minilliyin başlanğıcında planetar mədəniyyət konsepsiyasının formulu ilə bağlı əsasən belə bir ortaq qənaətdədirlər ki, milli mədəniyyətlərin mövcudluğu ümumbəşəri mədəniyyətin formalaşmasına nə tarixən, nə bu gün əngəl olmamış, nə də gələcəkdə olmayacaqdır. Əksinə, ümumbəşəri mədəniyyət milli mədəniyyətlərdən ibarətdir. Bu baxımdan qloballaşmanı milli mədəniyyətlərin itirilməsi kimi yozmaq və

onu həmin istiqamətdə yönəltmək yolverilməzdir. Qloballaşma labüd olsa da onun reallaşması yalnız milli mədəniyyətlərin saxlanılması və inkişaf etdirilməsi şərtilə qəbul edilə bilər. Milli mədəniyyətlərsiz ümumbəşəri mədəniyyət təsəvvür edilmədiyi kimi, bu əsaslarda təşəkkül tapmayan ümumbəşəri mədəniyyətsiz də qloballaşma ağlasığmazdır, mənəvi dayaqlardan məhrum sırf maddi-iqtisadi mövcudluqdur. Maddi mövcudluq isə mənəviyyatsız düşünülə bilməz. Çünki bəşər sivilizasiyasının mahiyyəti və özünün bütün tarixi ərzində qazandığı bədii-estetik, siyasi-fəlsəfi dəyərləri onun maddi və mənəvi bütövlüyünü şərtləndirir.

Mədəni dünya tərəfindən xalqların kulturoloji irsinə belə bir dəyər verməsi səbəbindəndir ki, müstəqilliyin bərpasından sonra Azərbaycan milli mədəniyyət tarixinin obyektiv tədqiqi və təbliği sahəsində də canlanma müşahidə olundu. Sovet rejiminin yaratdığı stereotiplərin dağıdılması bir sıra məsələlərin yenidən təhlil və tədqiq edilməsinə imkan verdi. Milli dövlətçiliyin bərpası ilə xalqın mənəviyyatının, tarixi-mədəni keçmişinin öyrənilməsinə real şərait yarandı. Milli özünüdərk prosesinin gücləndiyi, milli mədəniyyət tarixinə marağın artdığı bu illərdən etibarən Azərbaycan mədəniyyətinin formalaşma və inkişaf tarixinin, onun qaranlıq səhifələrinin, adları uzun müddət xalqa unutdurulmuş şəxsiyyətlərin yaradıcılığının araşdırılmasının aktuallıq kəsb etməsi tədqiqatçılar qarşısında yeni vəzifələr qoydu. O cümlədən, çağdaş Azərbaycan mədəniyyəti tarixində milli-mədəni intibah dövrü hesab edilən XX əsrin əvvəllərinə dair müxtəlif aspektli tədqiqatlar aparılmağa başlanıldı.

XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikri monoqrafik və sistemli şəkildə öyrənilməsə də müxtəlif elmi və publisistik əsərlərdə mövzuya dair dəyərli məlumatlar öz əksini tapdı. Azərbaycan cəmiyyəti üçün xarakterik olan yeniləşmə prosesi, milli-mədəni intibah yolundakı fəaliyyətlər, islahatçılıq meylləri, müasirləşmə təşəbbüsləri, Azərbaycan Xalq Cümhu-

riyyəti dövründə mədəniyyət quruculuq problemləri və s. Kulturoloji məsələlərə dair tutarlı fakt və təhlillər bir çox əsərlərdə yer aldı. Tarixi, fəlsəfi, filoloji, sənətşünaslıq və s. aspektlərdən yazılmış həmin tədqiqat əsərlərində kulturoloji problemlərlə bağlı yeni-yeni faktlar təqdim edildi, mədəni irsin tədqiqi ilə əlaqəli olan bir sıra suallara cavab axtarıldı.

Ümumilikdə bu əsərlərin bir qismində mədəniyyətin nəzəriyyəsi və tarixinə, milli-mənəvi irsin mühafizəsinə dair məsələlərə yer verilmişdir. Qeyd edilən müxtəlif aspektli elmi-tədqiqat əsərlərindən başqa araşdırılan dövrün ictimai-siyasi, elmi-mədəni, ədəbi-bədii, pedaqoji və publisistik irsinin təqdim olunduğu toplular da çap edilmişdir. Bu nəşrlərdə XX əsrin əvvəllərinin milli-mədəni intibah hərəkatı, Azərbaycan xalqının istiqlal mübarizəsi və ictimai fikir tarixinin ən mühüm məqamları, azadlıq hərəkatının görkəmli nümayəndələrinin həyat və fəaliyyəti, Azərbaycan Xalq Cümhuriyyətini doğuran tarixi şərait, Cümhuriyyət xadimlərinin həyat və mübarizəsi, parlamentin və hökumətinin fəaliyyəti və s. mövzularla yanaşı mədəniyyət quruculuğu, kulturoloji fikir, mədəni-maarif həyatı, habelə mühacirət ədəbiyyatı, mətbuatı və mədəniyyəti məsələləri yer almışdır. Lakin mövzuya dair bu qədər zəngin və çoxaspektli tədqiqatların aparılmasına baxmayaraq XX əsrin əvvəllərinin kulturoloji fikri ayrıca olaraq tədqiqat obyekti kimi araşdırılmadığından həmin dövrün kulturoloji məsələlərinin öyrənilməsi aktuallıq kəsb etdi.

## Yeniləşmə prosesinin tarixi-kulturoloji aspektləri

XX əsrin əvvəllərində Azərbaycanda reallaşmış milli-mədəni intibah faktı, təbii ki, birdən-birə baş vermiş, hazır şəkildə alınmış, mənimsənilmiş bir mədəniyyət hadisəsi deyildi. Bu intibahın zəminində XIX əsr boyunca tədricən formalaşmış bir yeniləşmə hərəkatı dururdu. Milli-mədəni intibahın mütərəqqi fikirli şəxsiyyətlərinin, qabaqcıl ziyalılarının yetişməsində də ilk növbədə əvvəlki yüzilliyin oyanış və yeniləşmə proseslərinin təsiri şəksizdir. Həmin zamana qədər Azərbaycanda A.A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutaşınlı ilə başlayan maarifçilik və millət davasının M.F.Axundzadə və H.B.Zərdabi ilə davam etdirilən böyük bir "mədəni hərəkat" mərhələsi, daha sonra Ə.Hüseynzadə, Ə.Topçubaşov, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, N.B.Yusifbəyli kimi ziyalılarla təmsil olunan qısa bir "siyasi hərəkat" dövrü vardır. Bu mənada mədəni intibah dövrünün ümumi kulturoloji fikrinin və ictimai-siyasi görüşlərinin ideya mənbəyini milli və bəşəri dəyərlərin vəhdəti təşkil edirdi. Belə bir kulturoloji fikrin ideya zəminində Şərqin əsrlər boyu qazandığı fikri və mədəni nailiyyətləri dayanırdı. O dövrün ziyalıları dünya elminin keçdiyi inkişaf yolunu izləyərək, Avropa demokratik fikrindən, qabaqcıl ideyalarından faydalanmış, onları yeni tarixi şəraitə uyğun olaraq daha da inkişaf etdirərək böyük məharətlə Azərbaycan mühitinə tətbiq etmişdilər. Bu ziyalılar öz yaradıcılıqlarını ancaq milli ənənələrlə, milli zəminlə məhdudlaşdırmamış, bu çərçivəni cəsarətlə qırmağa çalışaraq müasir dünya mədəniyyəti səviyyəsinə yüksəlmək yollarını axtarmışdılar. Ona görə də dünyagörüşləri zəngin milli ədəbi-bədii, fəlsəfi-kulturoloji fikrin zəminində, ümumşərq mədəniyyəti dəyərləri və ümumbəşəri sivilizasiya nailiyyətlər kontekstində təşəkkül tapmışdır. Milli-mənəvi dəyərlərlə sintezinə çalışdıqları mədəni dünya təcrübəsinin mənimsənilməsi isə onlara Azərbaycan cəmiyyətini yeni dövrün ümumi tələbləri səviyyəsinə yüksəltmək üçün geniş imkanlar açmışdır.

Azərbaycandakı sözügedən yeniləşmə proseslərini araşdıran tədqiqatçılar bu tarixi mərhələni iki yerə – “Oyanış” və “Yeniləşmə” dövrlərinə bölürlər. Belə ki, XIX əsrin birinci yarısını “Oyanış” çağı, ikinci yarısını isə “Yeniləşmə” çağı adlandırırlar. Məsələn, bu mərhələni Avropadakı “Renosans” və “Reformasiya” prosesləri ilə müqayisə edən Hüseyn Baykaraya görə “bu hər iki çağın sosial və iqtisadi şərtləri də şübhəsiz ki, ayrı-ayrı olmuşdur” (99, s. 9). Təbii ki, belə bir mədəni oyanış faktı həm sosial-iqtisadi şərtlər, həm də ictimai-siyasi amillər kontekstində dəyərləndirilməlidir. Çünki çar imperiyasının işğalına məruz qaldığı XIX əsrin ilk illərindən etibarən Azərbaycan türklüyü qərəzli və şovinist siyasətin məngənəsində sıxılmışdır. Türk xalqlarını bir-birindən təcrid etmək, qədim mədəniyyətə malik olduğunu danmaq və inkişafına əngəl törətmək, mədəni irsin varisliyini yeni nəsillərin yaddaşından pozmaq, dünyagörüşündən silmək çar imperiya siyasətinin başlıca məqsədlərindən olmuşdur.

Belə bir siyasət daha çox çarizmin dini, elmi və mədəni tədbirləri vasitəsilə həyata keçirilirdi. Belə ki, işğalın ilk illərindən başlayaraq rus və erməni əhalisinin Azərbaycanda yerləşdirilməsi, Tiflisin idarə mərkəzi olması və maarif müəssisələrinin orada yerləşdirilməsi mədəni mühitin formalaşmasına əngəllər törədirdi. Milli birliyi və mədəni intibahı çətinləşdirəcək tədbirlər çarizmin diqqət mərkəzində dururdu. Bu yolda dini vasitələr də unudulmur, düşünülmüş siyasətlə məzhəb ixtilafı qızışdırılırdı. Ruhani idarəsi adı ilə yaradılan və rəsmi hökumət müəssisəsinə çevrilən dini təşkilat şiələr üçün “şeyxülislam”, sünnilər üçün isə “müfti” yetişdirirdi. “Əli” və “Ömər” məktəbləri yaradılır və sünni məzhəbinə qulluq edənlər “Ömər”, şiələr isə “Əli” məktəblərində oxutdurulurdu. Gürcü əsilzadələri ilə Azərbaycan bəyləri arasında yaratdığı qərəzli fərqi, çarizm müsəlman əhli üçün ixtilaf yuvası olan bu təşkilatda da nəzərdən qaçırmamışdı. Gürcü patriarxı ilə erməni katolikosu kimi müsəlmanların da “şeyx” və “müfti”ləri vardı (140, s. 24). Lakin onların rütbə və ehtiramına gəlincə, müsəl-

manlara qarşı qərəzli siyasət aşkar duyulurdu. Erməni və gürcü din xadimləri kilsəni və camaatı təmsil edən möhtərəm nümayəndələr sayılırdısa, islam din xadimləri hətta polis zabitindən də az maaşa qulluq göstərən çar məmuru səviyyəsinə endirilmişdi. Çarizmə xidmətləri ilə yanaşı mənşə və təkamülünü eyni zamanda milli tarixlərindən alan gürcü əsilzadəgan təşkilatı ilə erməni kilsə təşkilatı bu iki qonşu millətin həyatında mühüm əhəmiyyət kəsb etdiyi halda, sırf rus intriqasının məhsulu olan Qafqaz bəyləri ilə "dəftər mollalarının" milli Azərbaycan həyatında heç bir rolları olmamışdır (75, s. 16-17). Daha doğrusu "əksəriyyətlə rus məktəbinə alınaraq tərbiyə olunan bəy uşaqlarını ruslaşmış kimi görən xalq, rəsmi hökumət xidmətinə girən mollaya da "dəftər mollası" demiş, ona qətiyyən isinə bilməmiş, bir çox "möminlər" bu kimi "molla"ların arxasında camaat namazı qılmağı belə caiz görməmişlər" (140, s. 24-25).

Yaranışından bəri, təbii ki, xristianlıq məfkurəsi ilə formalaşan və I Pyotrun vəsiyyətnaməsindən bəhrələnən çar imperializmi islam dünyası və xüsusilə türk aləmi ilə mübarizəni üzərinə düşən əsas tarixi vəzifələrdən biri hesab edirdi. Bu mübarizənin amansızlığı Azərbaycanın əsrlərdən bəri məruz qaldığı farslaşdırma və ruslaşdırma siyasətlərinin müqayisəsində daha qabarıq görünür. Belə ki, beş yüz ilə yaxın müddət ərzində İran imperiyasının hakim sinfini türklər təşkil etdiyi halda Azərbaycan türkləri mənəviyyatca fars təsirində olmuşlar. Fars təhsil və tərbiyəsi alan, fars kimi düşünən və özünün həqiqətən iranlı olduğuna qane olan hakim sinif türk olduğu üçün avam camaat da farslaşdığını hiss etmirdi. Xalqın mənəviyyatına hakim olan üləma sinfi də eyni ruh və tərbiyənin təsirində olmuşdur ki, bu səbəbdən çox vaxt hətta türkün özünə və dilinə xor baxılmışdır (75, s. 14). İranın qüvvətli mənəviyyatı, ümumdünya şöhrətli ədəbiyyatı qarşısında qaynayıb-qarışmış türk hakim təbəqəsi və onların təsiri ilə də əhalinin sadə təbəqəsi öz dilindən uzaqlaşmış, dili başqa, yazısı başqa olan gülünc bir millət halına gəlmişdi. Türkcə danışılır, farsca

yazılırdı. Nəhayət, xoşbəxtlikdən xalqın zövqünü təmin edən, türkcə şerlər yazmağa başlayan Azərbaycan şairlərinin zəhməti sayəsində xalq şifahi ədəbiyyatı ilə yanaşı yazı ədəbiyyatı da meydana gəldi. Əvvəl-əvvəl yalnız farsca yazıldığı halda, sonralar sırf Azərbaycan məhəllə şivəsi ilə yazan Füzuli kimi şairlər böyük bir dövrü əhatə etdilər ki, Qövsi, Nəbati, Vaqif, S.Əzim, Ləli, Raci də həmin dövrdə yetişmişlər. Daha sonrakı mərhələyə isə Rusiya və Osmanlı ədəbiyyatı təsirində olan M.Hadi, M.Ə.Sabir, H.Cavid, Ə.Cavad, A.Səhhət, Müznib və digər şairlər daxildirlər. XIX əsrin başlanğıcından – Azərbaycanın çar hakimiyyətinə tabe etdirilməsindən sonra isə xalq siyasi hüququnu tamamilə itirmiş, məhkumiyyətin acısını bütünlüklə dadmışdı. Azərbaycan türkləri dili, dini, tarixi, mədəniyyəti, ənənəsi yad olan, heç bir bağlılığı olmayan ruslardan fərqli bir milliyyət olduğunu dərk etməyə başladılar.

Azərbaycan türklərinin əsrlərlə məruz qaldıqları farslaşdırma və ruslaşdırma siyasətlərini müqayisəli təhlil edən tədqiqatçıların qənaəti belədir ki, milli mənlik şüurunun hələ oyanmadığı fars təsiri dövründə, xalq bu məhkumiyyəti müştərək din və mədəniyyət səbəbindən dərk etməmişdi. XIX əsrdən etibarən isə farslaşma təsirindən yaxa qurtarmağa macal tapmamış, üstəlik ruslaşdırma siyasətinə məruz qalırdı. Təbii haldır ki, bu vəziyyət xalqın qüruruna toxunur, həssas qəlbini qıcıqlandırırdı (138, s. 14; 75, s. 16). Lakin xalqın müqaviməti ilə müqayisədə çarizm öz siyasətində böyük uğurlar qazanmaqda idi.

Həmin dövrün siyasi və mədəni mənzərəsinin verildiyi tədqiqat əsərlərində bunun iki mühüm vasitə ilə həyata keçirildiyi xüsusilə qeyd edilir (63; 75; 139; 140). Göstərilir ki, çarizm ruslaşdırma siyasətini bir tərəfdən islam dininin üləma və mollalarını öz nəzarətinə tabe etdirməklə, digər tərəfdən isə milli ruh və tərbiyəyə meydan verməyərək xalqı rus məktəblərində oxumağa məcbur etməklə həyata keçirirdi. Birinci məqsədi həyata keçirməkdən ötrü çarizm, məzhəb ixtilafları üçün mənbə olan şiə

və sünnilərə ayrı-ayrılıqda iki ruhani idarəsi təsis etmişdi. Bu idarə vasitəsilə də molla və əfəndiləri öz tabeliyində olan məmur xidmətinə cəlb etmişdi. İkinci məqsədinə nail olmaq üçün də ruslaşdırma proqramı əsasında "uşkollar" açmışdı. Lakin xalq hökumət məmuru mollalara etimad göstərmir, rus məktəblərini qurtarmış bəyzadələrə də etibar etmirdi. Çar hökumətinin məmuru olan mollalara "dəftər mollası", rus "uşkolu"nda oxuyan gənclərə də "rus balası" deyən xalq öz hissiyyatı ilə sezdiyi ruslaşdırma siyasətinə qarşı bacardığı formada mübarizə aparmış, öz "axund"unu, "məktəbxanə"sini dəftər mollasına və rus uşkoluna qarşı qoymuşdu.

Belə bir ictimai-siyasi, dini-mədəni situasiyanın çox dəqiq məntiqi bir icmalını verən M.Ə.Rəsulzadə "axund" və "məktəbxanə"nin xalq tərəfindən üstün tutulmasının səbəbini onunla izah edir ki, bu müəssisələr İran təsir dairəsində olmasına baxmayaraq, ruslaşdırma siyasəti qarşısında daha milli, daha doğma görünürdü. Siyasi cəhətdən məğlub olmuş xalq, mənəviyyatını qorumaq uğrunda mübarizə aparırdı. Əsrlərlə fars mədəniyyətinə aludəçiliklə farslaşan yuxarı təbəqəyə gəldikdə isə, onlar bu dəfə rus mədəniyyətinə vurularaq ruslaşırdı. "Mirzə"lərin yerini tədricən "uçitel"lər tuturdu ki, bunlar da uzun zaman bir-birilərini başa düşməmiş, anlamamışlar: "Farslaşmış mirzə kimi ruslaşmış uçitel dəxi xəlqin hadsen duyduğu mətləbi bir çox zaman dərk edəmədi. Nəhayət, bir çox kəcavəclər keçildi. Məktəb və mədrəsələrə qarşı üsulsuz mübarizələrdən sonra "uçitel" məqsədi anladı, bildi ki, Sədini də, Tolstoyu da türk xəlqinə öyrətmək, türkü onlarla aşina etmək həm lüzumlu, həm faydalıdır. Fəqət bununla bərabər türkü öz Sədisindən, Tolstoyundan məhrum etmək olmaz. Sədini, Tolstoyu və sair dünya məşahirati ədəbini anlamaq üçün öz Füzulilərini, Nəbatilərini, nə qədər kiçik də görünsələr Seyidlərini, Sabirlərini, Cavidlərini, Cavadlarını öyrənməliydilər" (138, s. 15; 75, s. 17).

Doğrudur, Qərb mədəni təcrübəsinin Azərbaycana müəyyən qədər Rusiya vasitəsilə ötürülməsi faktını da danmaq olmaz. Tarixən çoxtərəfli tellərlə bağlı olduğumuz İran və Osmanlının Azərbaycan mədəni həyatına təsiri ilə müqayisədə Rusiya mədəni mühitinə üstünlük verən tədqiqatçılara müəyyən mənada haqq qazandırmaq olar. Çünki XIX əsrdə inkişaf etməkdə olan mədəniyyəti ilə Rusiya yalnız böyük bir imperatorluq deyil, həm də Qərb mədəniyyətinin bir parçası olmağa səy göstərən Avrasiya gücü olduğunu təsdiqləməkdə idi. Rusiyanın L.Tolstoy, Dostoyevski, Puşkin, Çexov, Belniski, Çernişevski kimi böyük mütəfəkkirlər vasitəsilə Avropanı belə təsiri altına alan böyük bir dövlət olmasını yazan G.Gəncalpa görə bu imperiya "Qacariyə və Osmanlı kimi özünə qapanmış deyil, xarici dünyaya açıq bir dövlət idi. Bu səbəblə də türkçülük məktəbləri nə Qacariyədə, nə də Osmanlıda doğdu. Türkçülük axımları Ziya Göyalpın da bildirdiyi kimi Rusiya istilasında olan türk xalqları arasında boy göstərdi" (32, s. 86).

Bununla belə, nəticə etibarilə Azərbaycanın gələcək mədəni inkişafına təkan vermiş mədəni-iqtisadi tədbirlərində də, heç şübhəsiz, çarizmin siyasi-ideoloji məqsədləri prioritet təşkil edirdi. Başqa sözlə, ilk baxışda Azərbaycanın həyatına mütərəqqi təsir göstərən amillər kimi qeyd olunan hadisələrdə də çarizm yalnız öz məqsədini güdmüşdür. Məsələn, Qafqaz həyatında çox mühüm bir tərəqqi amili olan Bakı-Batumi yolu çəkilərkən belə Azərbaycanın iqtisadi inkişafı və mədəni ehtiyacları nəzərə alınmamışdır. Lakin bütün bunlarla yanaşı Rus istilasının nisbi sakitliyi, dəmir yolunun çəkilişi, Bakı neftinin ixracı yarımfeodal Azərbaycanı istər-istəməz tərəqqi və inkişaf yoluna sövq edirdi. Erməni burjuaziyası ilə rəqabət edən tacir və türk burjuaziyası meydana gəldi. Kənddən şəhərə axın başladı. Əvvəlcə bəylərin, sonra da burjuaziyanın uşaqları təhsilə qoyulurdular. "Feodal türk xanlıqlarının yerini türk demokratiyası tuturdu" (140, s. 26). Kapitalizmin təsiri ilə iflas edən gürcü əsilzadələrinin iqtisadi qüdrəti (torpaq mülkiyyəti)

möhtəkir erməni tacirlərinin əlinə keçdiyi halda, türk bəyinin yerini erməni deyil, yenə türk burjuaziyası tuturdu. Tiflisdəki binalar əksəriyyətlə ermənilərin əlinə keçdiyi halda Bakı mülkləri əksəriyyətlə türklərdə idi. Azərbaycanın istilasından sonra çarizmin məqsəd kimi deyil, vasitə kimi nəzərdə tutulan elə tərəfləri olmuşdur ki, bu da düşünülmədən Azərbaycan türklərinin mədəni intibahına xidmət etmişdir. Misal üçün, Şərqi Qafqazdakı İran əhalisinə qarşı milli Azərbaycan türkcəsində yazı yazdırmağı təşviq etmiş Rusiya bunu heç də xoş niyyət üçün etməmişdir. Eləcə də M.F.Axundzadə məşhur komediyalarını Qafqaz valisi Voronsovun təşviqi ilə yazmış, ilk türk komediyası Tiflis sarayında oynanılmış, əsərləri də məhz valinin mətbəəsində çap edilmişdir.

İşğal dövrünün bütün yasaq və məhrumiyyətlərinə, imperiyanın qərəzli siyasətinə baxmayaraq Azərbaycan xalqı kiçik də olsa bir cığır açaraq tədricən mədəni dünyanın ümumi tərəqqi yoluna çıxa bildi. Belə bir tərəqqi yoluna çıxmaqda çarizm siyasətinin yuxarıda sadalanan mənfi təzahürləri ilə yanaşı, xalqın milli-mədəni oyanışına müsbət təsir göstərən bir sıra müsbət amillər də olmuşdur. Məsələn, XIX əsrin əvvəllərindən etibarən Qafqaza sürgün edilən inqilabçıların və fransız inqilabı fikir cərəyanlarının təsiri altında olan müxalif fikirli ziyalıların, o cümlədən hər biri bir neçə Qərb dili bilən "Dekabristlər"in və onların yoldaşlarının yerli əhaliyə təsirləri bu mənada danılmazdır. Hərçənd ki, "bunların istədikləri də Rusiyada "Məşrutəli bir çarlıq idarəsindən" başqa bir şey deyildi. Məhz bu inqilabçıların Azərbaycan ziyalılarına ötürdükləri fikirlər Qərb azadlıq fikirləri idi. Köləlik rejimi, dövlət təşkilatının təməli sayılan müstəbid rus çarlıq idarəsi ilə mücadilə edən və qafaları Qərb hürriyyət fikirləri ilə dolu olan rus inqilabçılarının Azərbaycana gətirdikləri mədəni fikirlər" (99, s. 58-59) Azərbaycan ictimai fikrinə də təsirsiz ötüşməmişdir. Tədqiqatçıların qənaətinə görə Azərbaycanda yeniləşmə, kültür və mədəniyyət hərəkatı məhz belə başlamışdır. "Bu mədəniy-

yəti rusların Azərbaycana gətirmədikləri, ancaq vasitəçi olduqlarını sanıram ki, yuxarıda verdiyimiz qısa açıqlamadan anlaşıla bilir" (99, s. 59).

Mədəni oyanışa təkan verən amillərdən biri də Azərbaycan mühitində görkəmli şəxsiyyətlərin yetişməsi idi. Məsələn, dini etiqadı baxımından bir çoxları tərəfindən tənqidə məruz qalmış Mirzə Kazım bəy belə, yazdığı əsərləri və göstərdiyi fəaliyyətləri ilə sübut etdi ki, "O, yenə Azərbaycan və Şərqin özlü və vətənpərvər bir övladı olaraq qalmışdır. Rus istibdadına və köləliyə düşmən olan ingilis missionerlərinin təsiri ilə xristianlığı qəbul etməsi, ona əsir türklər haqqında daha cəsur addımlar atmağa və söz söyləməyə imkan vermişdir. Misal olaraq Rus çarına verdiyi layihədə, Rusiyada yaşayan bütün müsəlman türklər üçün, hamısının anlaya biləcəyi tək bir türk dili proyektini göstərə bilərik" (99, s. 57).

XIX əsrin əvvəllərindən etibarən A.Bakıxanov, İ.Qutqaşınlı, M.Ş.Vazehlə təmsil olunan Azərbaycan maarifçiliyində elmi, maarifi yaymaq, şəxsiyyət azadlığının təbliği, mövhumata, despotizmə qarşı mübarizə məsələləri qabarıq şəkildə özünü göstərir. Azərbaycan maarifçiləri ümid edirdilər ki, maddi həyat tərzinin yaxşılaşdırılmasının əsas vasitəsi xalq kütlələrinin elmə, maarifə yiyələnməsidir. Elm, maariflə silahlanma yolu ilə ictimai bəlalardan, o cümlədən mədəni gerilikdən xilas olmaq olar. Əgər dövlət başçıları müdrik maarifpərvər adamlar olsalar, insan zəkası hər şeydə meyar olsa, ümumi rifaha qovuşmaq olar (52, s. 217-218). İstər M.F.Axundzadə, istərsə də onun ənənələrini davam etdirənlər (H.Zərdabi, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, S.S.Axundov, Ü.Hacıbəyov, Z.Marağalı, İ.Talıbov, F.Köçərli, İ.Musabəyov, S.Qənizadə, R.Əfəndiyev və b.) məktəbin, mətbuatın, elmin və maarifin, kənd təsərrüfatının, sənaye və ticarətin müasir mədəni əsaslarda yenidən təşkilini və inkişafını xalqın ictimai və inqilabi tərəqqisinin əsas şərti və zəmini hesab edirdilər.

Tədqiqatçılar yeniləşmə dövrünün ilk yaradıcılıq nümunələri olaraq A.Bakıxanovun əsərlərini qeyd edirlər. Ona görə ki, A.Bakıxanovun bədii və elmi əsərləri ilə orta əsrlərə yekun vurularaq yeni dövrə keçidin təməli qoyulur. Bu mənada "Bakıxanov – orta əsrlərdən yeni dövrə, Asiyadan Qərbə, sxolastik-ifratlardan, ənənədən müasir mənada elmə keçidi hazırlayan ilk böyük maarifçi ədib və alimdir" (52, s. 194).

Çarizmin mövcud şərtləri altında belə A.A.Bakıxanov çarlıq hökumətinə məktəb açmaq üçün layihə təqdim etmiş və "Dünyada olan bütün şeylərin hamısı bütün fəzilətlərin dövləti olan elmlə bağlıdır" demişdir (99, s. 59). Mirzə Şəfi Vazeh Gəncədə ilk üsuli-cədid məktəbini açmışdır ki, bu məktəb də Azərbaycana Mirzə Fətəli kimi bir reformator yetişdirmişdir. Mirzə Kazım bəy uşaqlar üçün dərs kitabı tərtib etmiş, məktəb açılması zərurətini göstərmişdir. İsmayıl bəy Qutqaşınlı və Qasım bəy Zakir daima cəhalətlə mübarizə aparmağı tövsiyə etmişlər. Bu böyük şəxsiyyətlərin başladıqları yeniləşmə fəaliyyətlərinin əsasında həmişə məktəb məsələsi və cəhalətin aradan qaldırılması problemi durmuşdur. Zamanına görə modern düşüncə sahibi olan bu yenilikçi ziyalılar xalqın cəhalət girdabından qurtulmasının zəruri diaqnozunu qoyaraq səbir və əzmlə Azərbaycanın maddi və mənəvi inkişaf üçün çalışmışlar.

Türkiyəli tədqiqatçılar (106; 124) da bu fikri təsdiqləyirlər ki, "Azərbaycan ədəbiyyatında modernləşmə çalışmalarının başladıldığı dönəm XIX yüzildir. Bu dönəmdən etibarən özəlliklə Rusiya vasitəsi ilə Batılı etkilər çərçivəsində yeni bir ədəbi tərz diqqətləri çəkməyə başlar". XX əsrin əvvəllərində Azərbaycan ədəbi-bədii irsini araşdıran tədqiqatçı Əli Erol yazır ki "Rusiyanın Azərbaycanı işğalı ilə birlikdə Fransa İnqilabının yaratdığı düşüncə cərəyanlarının təsirləri, Rusiyada baş verən hürriyyətçi fəaliyyətlər və təhsil sahəsindəki irəliləyişlərin ardından yaşanacaq olan bu "çiçəklənmə" dövrünün ilk nəticələri daha çox fərdi səylər şəklində olsa da XIX əsrin ilk yarısına aiddir" (106, s. 16-17).

Ümumilikdə, XIX əsr Azərbaycan mədəniyyəti üçün yeni bir mərhələ təşkil etmişdir. Azərbaycan Rusiya hüdudları içərisinə salınmış, Azərbaycan oğullarının bir qismi Rusiyanın içərilərinə sürgün edilmiş, əli qələm tutanlar həbsxanalara salınmışdı. Bu dövrün mədəni səciyyəsini təhlil edən Ə.Cəfəroğlu yazır ki, belə bir şəraitdə "yeganə xilas yolu, milli kültür istiqlaliyyətini davam etdirmək, dil və ədəbiyyat sahəsində heç bir fədakarlığa yol açmamaqdı (103, s. 22). Milli mədəniyyətin mühafizəsi qayğısına isə ilk növbədə yenə qabaqcıl ziyalılar qaldılar. "Nəsimi ilə başlayan Azərbaycan dil və ədəbiyyatı, Həbibi, Füzuli və Xətai kimi üç vəfakar övladının şəxsində özünü buldu" və bu "bəxtiyar üçlər"dən – bu üç ustadından ilham alaraq yeni bir məcraya yönəldi (103, s. 11-16). Yeni bir "üçlər" Azərbaycan "kültür tarlasını əkməyə, biçməyə və olğunlaşdırmağa qoyuldular". Bunlar: Abbasqulu Ağa Bakıxanlı, Mirzə Şəfi və Mirzə Fətəli Axundzadə idi. Ə.Cəfəroğluna görə bu ziyalıları ideoloji baxımından öz sələfləri olan "üçlər"dən ayrılmamaqla bərabər, yetişmə və çalışma cəhətindən müəyyən dərəcə fərqli idilər. Vəzifələri yalnız qələmləri ilə iş görmək deyildi, eyni zamanda gerçəkdən xalqın içərisinə enmək, ona yol göstərmək idi. Bu isə "millət xadimi" olan bu üçlərin yetişdirdikləri digər fədakar ziyalılarla bərabər Azərbaycanın "renesans dövrü"nü hazırlamışdılar (103, s. 22).

Bu ziyalılar ilk növbədə rus dili, daha sonralar isə qərb dilləri vasitəsilə Avropa, Qərb elm və mədəniyyətinin ayrı-ayrı nümunələrinə, o dövrün müasir nailiyyətlərinə dərindən bələd olur və yeni inkişaf səviyyəsinə qovuşurdular. Tədqiqatçı T.Abdullayevaya görə tədricən ümumdünya sivilizasiyasına inteqrasiya olmaq üçün imkan və şərait yaranırdı. Özü Qərb azadfikirliyi və maarifçiliyindən bəhrələnən və getdikcə zənginləşən rus mədəniyyəti, elm və incəsənəti müstəmləkə boyunduruğu altında olan xalqlara, o cümlədən Azərbaycan xalqına mütərəqqi təsir göstərirdi. Rusiya və Avropaya açılan elm, maarif və mədəniyyət pəncərələri Azərbaycanın şərq

ədəbi-bədii ənənələrini yeni bir istiqamətdə daha da zənginləşdirir, onu dünya standartlarına cavab verən müasir bir səviyyəyə qovuşmağa yönəldirdi. Elə bu dövrdə özünü ədəbiyyat və incəsənətin sonrakı inkişafına həsr etmiş mütəfəkkir, ictimai xadim və şairlərin yeni nəsilləri yetişirdi (1, s. 9).

Təbii ki, yeniləşmə dövründə Azərbaycan mədəniyyətinin tərəqqisində Şərq, Qərb və ya Rusiya amillərindən hansının daha çox payı olmasına dair fikirlər fərqli ola bilər. Amma bunlardan birini şişirdib, o biriləri kölgədə qoymaq nə qədər subyektiv yanaşmadırsa, Azərbaycan mədəni dəyərlərinin mənimsənilməsində Rusiya amilinin rolunu da hədsiz qabartmaq bir o qədər obyektivlikdən uzaqdır. Eləcə də heç bir halda Azərbaycanın milli-mədəni irsindən nəinki imtina edilməmiş, hər bir yeni nəsil özündən əvvəlki yaradıcılıq təcrübəsinin dəyər və meyarlarına ehtiramla yanaşmışdır. Azərbaycan "renosans dövrü"nün "eşiyində bulunan" bu üç mütəfəkkir – A.A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov da bu mənada istisna deyildilər. Bu məqama toxunan Ə.Cəfəroğlu yazırdı ki, Abbasqulu Ağa həqiqi Azərbaycan "tarixçiliyini" qurarkən, Mirzə Fətəli həqiqi realizmin təməlini təşkil edən sosial-kiritik ədəbiyyatı vücuda gətirmiş, Mirzə Şəfi də Azərbaycan kültürünün məmləkəti dışında yayılmasının ələmdarı olmuşdur. Ə.Cəfəroğlunun qənaətinə görə bir-birinə dəstək olan bu üçlərin ən böyük məziyyətləri, həm öz yetişmələrində, həm də Azərbaycan mədəniyyətinin inkişafında ciddi bir "işbirliyi yapmaları" olmuşdur (103, s. 22-23).

Ə.Cəfəroğlu mədəni inkişafda varislik amilinə xüsusi diqqət yetirmiş, yaradıcılıq ənənəsinə dialektik aspektdən yanaşmışdır. "Azərbaycan dil və ədəbiyyatının dönüm nöqtələri"nin tarixi xronologiyasını verən Ə.Cəfəroğlu XX əsrin əvvəllərində Azərbaycan kulturoloji fikrinin formalaşmasında mühüm xidmətləri olmuş ziyalıların fəaliyyətini də şükranlıqla yad etmişdir: "Azərbaycan kültürünə xidmət etmiş olan üç mümtaz vətəndaşımızı burada xeyirlə anmadan keçə bilməyəcəm. Bu

üçlər: Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə və Məmməd Əmin Rəsulzadədir. Bunlardan Ağaoğlu "İrşadçı", Hüseynzadə "Füyuzatçı", Rəsulzadə isə "Açıq sözçü" idi. Azərbaycan kültür hərəkatının müxtəlif cəbhələrində söz və qələm sahibi olan bu üç millət xadimi, milli şüurumuzun yüksəlişində, dil və ədəbiyyatımızın gəlişməsində, nəhayət, istiqlalımız uğrunda canü dildən çalışmış, tariximizə ölkəmizin etibarlı övladları olaraq keçmişlər" (103, s. 25-26).

Bu ziyalıları həm də ümumilikdə Şərq mədəniyyətinin Rusiyada və Qərb ölkələrində təmsilçiləri saymaq olar. Təbii ki, belə qarşılıqlı əlaqələrin bir sıra müsbət təzahürləri də özünü göstərdi. Lakin tədqiqatçılar bu fikirdədirlər ki, rus ictimai və elmi fikrinin Azərbaycanda mənəvi mədəniyyətin inkişafı tarixinə təsirini bayağılaşdırmaq və şişirtmək olmaz: "Milli azəri-türk elmində Şərq dillərinə və filologiyasına ardıcıl və sistemli maraq Azərbaycanın Avropaya (Rusiyaya) qatılmasından sonra başlamışdı. Peterburqda da, Moskvada da Rusiya şərqşünaslığını, əslində, azərbaycanlı alim və mütəfəkkirlər yaratmışdılar. A.A.Bakıxanov da, İ.Qutqaşınlı da, Mirzə Cəfər Topçubaşov da, Mirzə Kazım bəy də... milli mədəniyyətə xidmət missiyası ilə yanaşı, həm də (hüquqi, rəsmi vəzifələri etibarilə də) geosiyasi strategiyasında hakim rus doktrinasına qulluq göstərmiş və elə bununla da Rusiyanın Şərq siyasətinə kömək etmişlər" (52, s. 174).

İqtisadi və siyasi həyatın ümumi mənzərəsinin dəyişməsi də mədəni canlanmaya rəvac verən faktorlardan biri olmuşdur. Belə ki, artıq XIX yüzilliyin sonlarından rus çarlığı əcnəbi kapitalının Rusiya imperiyasına daxil olmasına icazə verir və məşhur Avropa kapitalistlərinin Azərbaycana axını başlanır. Qərbin məşhur kapitalistlərindən Nobel, Rotşild, Simens, Vişau və b. neft çıxarılan yerləri çox yüksək qiymətə satın alırlar. Neft mədənlərindən bəzilərini rus kapitalistlərindən Koqorev, Şibayev, Bengendorf, Çubonin və başqaları, ermənilərdən isə Mirzoyev, Sarkisov, Kukasov və digərləri ələ

keçirirlər. Bunlar və başqa kapitalistlər Azərbaycanın neftini, misini, duzunu, kənd təsərrüfat məhsullarını və s. xam mallarını Rusiyaya və Qərb ölkələrinə daşıdırdılar. Sənayedə Azərbaycan türklərini H.Z.Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Mirbabayev və b. təmsil edirdilər. "Artıq Bakı Avropa anlamında sənaye şəhərinə çevrilmişdi" (91, s. 95-96). Bu illərdə yerli kapitalistlərlə əcnəbi kapitalistlər arasında kəskin rəqabət başlamışdı. Əcnəbilərlə mübarizədə yerli kapitalistlər milli ziyalı zümrəsinə böyük ehtiyac hiss edirdi.

Həm bu amillər səbəbindən, həm də hələ XIX əsrin 70-80-ci illərindən Azərbaycan ictimai-siyasi fikrinə sızan müxtəlif inqilab nəzəriyyələrinin təsirindən milli ruhlu zənginlərlə, mütərəqqi düşüncəli ziyalıların həmrəyliyi formalaşmağa başladı. Onların maarif, mədəniyyət işlərinə yardım göstərmələri, xeyriyyə cəmiyyətləri yaratmaları, mətbuat, nəşriyyat sahələrini himayə etmələri və s. məhz bu ehtiyaclardan doğurdu. M.B.Məmmədzadə bu barədə belə yazırdı: "Bakıya hər tərəfdən əcnəbi kapitalistlər dolurdu. Azərbaycanın bu quru, duzlaq torpaqlarının məgərsə hər parçası bir altun imiş. Əcnəbi istilasına qarşı məhəlli burjuazisinin müdhiş rəqabəti başlamışdı. Vücudə gələn yeni sənaye burjuazisi mühitin milli şüurunu qıcıqlıyor və bu yolda çalışanları təmin ediyorlardı. Topçubaşi Əlimərdan bəy, Hüseynzadə Əli bəy və Ağaoğlu Əhməd bəy yüksək Avropa kültürünü mənimsəmiş və eyni zamanda milli tərbiyə ilə mücəhhəd hazırlanan bu üç şəxsiyyət Hacı Zeynalabdin Tağıyevin maddi yardımları ilə 1905-dən sonra mətbəələr və qəzetlər təsis ediyorlardı. "Həyat", "İrşad", "Füyuzat" və rusca "Kaspi" bu zaman meydana gəlmişdi" (121, s. 35; 91, s. 96).

Rusiyanın bir çox qəzetlərinə nisbətən, "Kavkaz" və "Kaspi" qəzetləri Şərq mövzularına daha artıq diqqət yetirdiyi üçün M.Şahtaxtinski, H.Zərdabi, S.Mehmandarov, E.Sultanov, T.Bayraməlibəyov, Ə.Ağaoğlu kimi Azərbaycan ziyalıları bu

qəzetlərdə yayınladıqları yazıları vasitəsilə xalqı maarifləndirməyə çalışırdılar. Belə bir tarixi gedişat nəticəsində XIX əsrin əvvəlində "Zakirlə doğan "vətən" anlamı, bu yüzilin sonlarına doğru təkamül edərək "millət" anlamı ilə birləşmişdi (67, s. 45).

XVIII əsrin sonları və XIX əsrin əvvəllərindən etibarən mədəniyyət dünyası tarixində ən böyük rol oynayan fikir cərəyanları XX əsrin astanasında daha qüvvətli xarakter daşımış, Avropa və Amerika hüdudlarını aşaraq Yaxın və Uzaq Şərq ölkələrini də öz təsir dairəsinə almışdı. Milliyyət, cümhuriyyət, demokratiya və müasirlik kimi dörd mühüm əsasa istinad edən bu fikir cərəyanları artıq Azərbaycanda da cövlan etməkdə idi (126). Milli Azərbaycan hərəkatını ideoloji mənşəyi etibarilə Şərqdəki milli qurtuluş ideyaları ilə Qərbdəki kültür və demokratiya cərəyanlarını öz növündə birləşdirmiş bir hərəkat hesab edən M.Ə.Rəsulzadə yazırdı: "Müsəlman və türk məmləkəti olması etibarı ilə Qafqaz Azərbaycanı nə din, nə irq, nə də kültür baxımından onunla qətiyyən əlaqəsi olmayan Rusiya tərəfindən, ancaq silah gücü ilə tutulmuşdur və məlum olduğu kimi, tarixi ənənəsi türk və islam düşmənliyinə dayanan bu dövlətə heç bir zaman isinə bilmədiyindən istər türkçülük və istərsə islamçılıq ideyaları burada canlı inikasını tapmışdır. Zamanın keçməsi və ictimai qüvvələrin açılması sayəsində, cəmiyyət hərəkatına geniş xalq təbəqələrinin daha çox qovuşması nisbətində, Müsəlman Şərqin digər hər hansı bir məmləkətindən daha əvvəl Azərbaycandakı milli hərəkat "avropai" bir şəkil almışdır" (127, s. 163).

Milliyyət və millət anlayışları ilə bağlı mənbələrdəki ümumi fikir əsasən belədir ki, dilləri, dinləri, adətləri, ənənələri, tarixləri, vətənləri və sairələri bir olan insanlar bir milliyyət təşkil edirlər. Bir milliyyətin millət halına keçməsi üçün isə ümumi şüur və kollektiv iradənin formalaşması zəruridir. Bu da "ictimai hafizə" vəzifəsini daşıyan orqanın vasitəsilə mümkündür. M.Ə.Rəsulzadəyə görə müxtəlif zamanlara görə bu orqan dəyişik olmuşdur. Məsələn, orta əsrlərdə bu vəzifəni

feodal zümrə görürdü. Millətin sosial həyatını tənzimləyən, tarixi hadisələri, adət-ənənələri qeyd edən və yaşadan orqan rolunu, vəzifəsini cəngavər qalaları və xan sarayları oynayırdı. Zamanın gedişatı ilə bu orqan da dəyişirdi. Feodalizmin dağılması və kapitalizmin inkişafı nəticəsində mənəviyyat mərkəzi "qala"lardan şəhərlərə keçdi. Millətin ümumi şüurunu formalaşdıran, onu tərbiyə edən, iradəsini təmsil edən bir sinif kimi ziyalı zümrəsi zühur etdi, yetişdi. Bu təbəqənin öz tarixi vəzifəsinin icrası üçün istifadə etdiyi ən böyük vasitə və alət isə mətbuat olmuşdur. İctimai rəyin və kollektiv iradənin formalaşması məhz mətbuat sayəsində mümkün olmuşdur. Ziyalılar bu orqan vasitəsilə öz içərilərindən ictimai rəyi və milli özünüdərk prosesini sürətləndirən fikir adamları və sənətkarlar yetişdirdilər (136, s. 2-3; 125, s. 2-3; 63, s. 23).

Bu səbəbdəndir ki, Azərbaycan ziyalıları da tədricən, ictimai hafizə daşıyıcıları sayılan qəzet və dərgilər ətrafında toplanırdılar. Bundan başqa onlar "Nicat", "Səfa", "Ədəb yurdu", "Nəşri Maarif", "Cəmiyyəti Xeyriyyə" və başqa mədəni-maarif cəmiyyətləri və dərnəkləri ətrafında cəmləşərək Azərbaycan cəmiyyətinin o zamana görə olan məsələləri üzərində müzakirələr aparırdılar. Kitablıqlar və qiraətxanalar yaradılırdı. Belə ki, Azərbaycandakı ilk qiraətxanaları Bakıda Həbib bəy Mahmudbəyli və S.M.Qənizadə açdılar. Bu qiraətxanalar üçün Bakının rus valisindən 1894-cü ildə Nəriman Nərimanov izin almışdı. Bu hadisə dövrün türk ziyalıları və oxuyub-yazanları arasında sevinclə qarşılanmışdır. Hüseyn Baykaranın yazdığına görə artıq 1887-ci ildə Şamaxı, Quba, Lənkəranda kitabxanalar vardı. M.T.Sidqi, C.Məmmədquluzadə, G.A.Şərifov və A.M.Əkbərovun təşəbbüsü ilə Naxçıvanda da qiraətxanalar açılmışdı. Habelə XIX yüz ilin sön rübündə Azərbaycanın bölgələrində kitab ticarəti ilə məşğul olan mağaza və dükanlar açılmağa başlamışdı. Artıq 1905-ci ilin əvvəllərində Tiflisdə M.E.Bağırzadə adlı vətənpərvər və milli mübarizəni dəstəkləyən bir tacirin yardımı ilə Cəlil Məmmədquluzadə və Ömər

Faiq Nemanzadə “Qeyrət” adlı nəşriyyat qurmuşdular (100, s. 59-61).

Azərbaycanda tarix elmi sahəsində yazılan ilk əsərlərə gəldikdə isə deyə bilərik ki, XIX əsrin ikinci yarısında (Mirzə Kazım bəyin “Dərbəndnamə”sindən və A.A.Bakıxanovun “Gülüstani İrəm”indən sonra) tarix elmi Mirzə Yusuf Nersesov Qarabaği, Rza Qulu Mirzə Cəmal oğlu, Mir Mehdi Haşım oğlu Hazani, Həsən Əli Xan Qaradaği, Əhməd Bəy Cavanşir və Mirzə Əhməd Mirzə Xudaverdi oğlu ilə təmsil edilmişdir. Ədəbi tənqid və ədəbiyyat tarixçiliyinin təşəkkülü öz təsdiqini bunda tapdı ki, M.F.Axundzadə “Sənət sənət üçündür” fəlsəfəsini rədd edərək “Sənət həyat üçündür” görüşünü irəli sürdü və forma üçün mövzunu fəda edən yazıçıları amansız bir şəkildə tənqid etdi (100, s. 64-65).

Beləliklə, XIX əsrin sonlarına doğru xalqın səbirsizliklə gözlədiyi “yeni ictimai zümrə – sənaye burjuaziyası və avropavi ziyalı zümrəsi meydana çıxdı” (63, s. 17). Bu da Rusiya çarlığının sistemli surətdə tətbiq etdiyi ruslaşdırma siyasətinə qarşı mübarizəyə və Azərbaycanın öz mənliyini mühafizəyə yardım etdi. Bununla da “XIX əsrdə feodal ayrılıqların ortadan qalxması və ağır olsa da, inkişaf edən iqtisadi münasibətlərin formalaşması nəticəsində, başda ziyalılar zümrəsi olmaqla meydana ictimai yeni bir zümrə çıxdı. Bu aydınlar vasitəsilə Azərbaycan XVIII əsrin aydın fikirləri ilə təmasa gəldi. “Məmləkətdə yeni rasional fikirlər yayılaraq realist bir ədəbiyyat doğdu. İslam dünyasının ilk dramaturqu, Avropada “Şərqin Molyeri” dedikləri M.F.Axundzadə bu ədəbiyyatın qurucusudur. O, eyni zamanda ərəb hərflərinin dəyişdirilməsini tələb edən ilk islahatçıdır. Publisistik yazılarında M.Fətəli cəmiyyət həyatının kökündən dəyişilməsini tələb edirdi” (129, s. 6).

Azərbaycanın milli-mədəni tarixini araşdıran tədqiqatçılar əsasən bu fikirdədirlər ki, XIX əsrin II yarısında Azərbaycan mədəniyyəti üçün xüsusi əhəmiyyət kəsb edən üç mühüm hadisə baş verir: Azərbaycan teatrının, mətbuatının, yeni tipli

məktəbin əsası qoyulur (7, s. 43). İlk mühüm hadisə 1873-cü ilin mart-aprel aylarında H.Zərdabi və N.Vəzirovun rəhbərlik etdiyi ilk teatr truppası tərəfindən "Sərgüzəşti Vəziri-xani Lənkəran" və "Hacı Qara" tamaşaları ilə Azərbaycan milli peşəkar teatrının təməlinin qoyulmasıdır (7, s. 43). Bununla da realist bədii nəsrin, demokratik fəlsəfi və estetik fikrin, ilk əlifba inqilabı ideyasının, ümumiyyətlə, mənəvi mədəniyyətimizin bütün sahələrində "yeni dövr"ün banisinin daha bir ideyası gerçəkləşdi – peşəkar milli teatr sənətinin təməli qoyuldu. Bu mədəniyyət hadisəsindən sonra M.F.Axundzadənin zəngin və çoxcəhətli yaradıcılığı milli çərçivələri aşıb-keçirərək bütün islam xalqları miqyasında ümumşərq və ümumbəşəri bir tarixi məna kəsb etdi.

Azərbaycanın mədəniyyət tarixində misli görünməmiş bu hadisənin əsas səbəbkarı haqqında Y.Qarayevin fikirləri daha çox diqqəti çəkir: "Maarifçiliyin banisi və klassiki rolunda Axundovun bütün Şərq üçün tarixi rolu, əhəmiyyəti və xidməti bir də ondadır ki, vətəni Azərbaycandan və bir sıra Asiya ölkələrindən kənarda da həm filosof, həm də sənətkar kimi onun nüfuzu etiraf və təsdiq olunur, üstəlik, XVIII əsrin Avropa maarifçiliyi və maarifçi teatrı ilə müqayisədə mütəxəssislər Axundovun üstünlüyündən bəhs edirlər" (50, s. 225). Teatrın mədəni inkişafda oynadığı rolun əhəmiyyətini göstərmək üçün Yaşar Qarayev, hələ M.F.Axundzadədən bir qədər əvvəl, Avropanın başqa bir qütbündə yaşayan digər böyük maarifçi, mütəfəkkir və sənətkar Fridrix Şillerin tarixi bir intizar və narahatlıqla yazdığı bir fikrə diqqəti çəkir: "Əgər milli teatra qədər yaşasaydıq, onda biz millət olardıq". Axundzadə sözün müasir, professional mənasında milli teatra qədər yaşayır, milli teatrı və milləti yaradan sənətkarlar sırasına daxil olur!.. (52, s. 218-219).

Bu hadisədən sonra teatrın böyük ictimai və mədəni əhəmiyyətini dərk edən Azərbaycan ziyalıları Bakıda olduğu kimi Qubada, Şəkidə, Şuşada, Naxçıvanda, həmçinin Tiflisdə və İrəvanda da teatr tamaşaları təşkil etməyə başladılar. N.Vəzirov,

Ə.Haqverdiyev, N.Nərimanov və digər görkəmli ziyalılar dövrün mühüm hadisələrinin real bədii təsvirini verən pyesləri ilə teatr repertuarlarını zənginləşdirdilər. Rusiyada və Avropada təhsil aldıqdan sonra Vətənə qayıtmış azərbaycanlı gənclər dünya klassiklərinin əsərlərini tərcümə edərək tamaşaya qoymaqla teatr həvəskarlarını dünya ədəbiyyatının nümunələri ilə tanış edir, Azərbaycanda milli dəyərlərə söykənən yeni tipli dünyəvi peşəkar teatrın yaradılması işinə xidmət edirdilər. Mütərəqqi, demokratik ruhlu ziyalıların yaradıcılığı və təbliğatı, milli Azərbaycan zənginlərinin maddi yardımı, H.Ərəblinski, C.Zeynalov, H.Sarabski, A.M.Şərifzadə, M.Əliyev, S.Ruhulla, Ü.Rəcəb kimi rejissor və aktyorların səyləri nəticəsində Azərbaycanda milli peşəkar teatrla bağlı digər sənət növləri də inkişaf etdirildi, xüsusi teatr binalarının inşasına başlanıldı (14).

Dövrün ikinci mühüm hadisəsi isə H.Zərdabinin nəşr etdiyi "Əkinçi" qəzeti (1875-1877) ilə Azərbaycan dövri demokratik mətbuatının əsasının qoyulmasıdır. Dramaturgiya və teatrımızın Azərbaycan mədəni həyatındakı rolunu, eləcə də türk-islam aləminə təsirini dəyərincə qiymətləndirən M.Ə.Rəsulzadə "Əkinçi"nin mədəniyyət tariximizdəki əhəmiyyətindən bəhs edərkən yazır ki, "Tiyatroçuluqda bütün Türk İslam aləmində birincilik şərəfinə nail olduqları kimi, Azərbaycan bu təcrübədə də Rusiya Türkləri arasında birincilik şərəfini qazanmışdır" (140, s. 32). Hər bir millətin tarixində qəzet təsisi mühüm bir hadisə olduğu üçün, M.Ə.Rəsulzadə Azərbaycan türklərinin də ana dilində ilk qəzetə malik olmalarını bu cəmiyyətin milliyyət halından millət halına keçməsi, millət olaraq formalaşmağa başlaması kimi səciyyələndirir. Onun fikrincə həyatında mətbuat ənənələrinə malik olan bir xalq artıq təşəkkül tapmış bir millət olduğunu sübut edir: "Milli şüura, məfkurəyə sahib olmaq isə milliyyət içərisindən yetişən rəhbər zümrənin digər ictimai zümrələr və fərdlərlə daimi və üzvi bir münasibətinin təmin edilməsi sayəsində mümkündür" (128, s. 2). Mətbuatın yaradılması ideyasının təcrübi olaraq həyata keçirilməsində

H.Zərdabinin rolu təbii ki, danılmazdır. Əvvəlcə xeyriyyə Cəmiyyəti qurmağa təşəbbüs edərək müvəffəqiyyətsizliyə uğrayan, sonra "teatr otağı"nın boş qaldığını görən fədakar insan, mədəniyyət qurucusu H.Zərdabi "Bu dünyada elmsiz olaraq dolanmağın mümkün olmadığını" dərk etmiş, "Nə qayırmalı" deyə düşünmüş..." (128, s. 2).

H.B.Zərdabi "Həyat" qəzetinin 28 dekabr 1905-ci il tarixli (№ 129) sayında çap etdirdiyi "Rusiyada əvvəlinci türk qəzeti" başlıqlı məqaləsində bu barədə yazırdı: "Dünyada ittifaq olmasa, heç bir cəmiyyət işi bina tutmaz. Bizim sabiq cəmiyyəti-xeyriyyə bina tutmadığından, teatr oynanan otaq boş qaldığından aşkar oldu ki, müsəlman qardaşlarımızı bir yerə cəm edib, zəmanəyə müvafiq məktəbxanalar açdırıb, küçə və bazarlarda qalan uşaqları oxutmaq olmayacaq. Elmsiz də bu zəmanədə dolanmaq mümkün deyil. Ələlxüsus, bizim yerlərdə ki, qonşularımız elm, təhsil edib günü-gündən irəli gedir, bizim əlimizdə olan mülkü malımıza sahib olurlar və bir az vaxtdan sonra biz onlara rəncbərlik edib, onların malını daşımaqdan ötrü kirəkeşlik edəcəyik. Belədə nə qayırmalı? Hər kəsi çağırıram gəlməyir, göstərirəm görməyir, deyirəm qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç biri qanan olmasın! (...) Belədə qəzet çıxarmaqdan savayı bir qeyri əlac yoxdur ki..." (13, s. 15-16).

Yeri gəlmişkən bir faktı da qeyd edək ki, ittifaq, ittihad, elm, təhsil kimi məsələlər o dövrün demək olar ki, bütün ziyalılarını düşündürən əsas milli problemlərdən idi. Məsələn, Ə.Hüseynzadə ittihadı "bir millət üçün hər şeydən əqdəm arzu ediləcək qüvvət" adlandırırdı (37). Ə.Hüseynzadə təsadüfi demirdi ki, "Maarif, ittihad, hürriyyət. Nə qədər gözəl nemətlər! Bunları unutmayalım. Çünki əsil nicat bu üç qüvvədədir" (38). Yaşar Qarayev, düstur şəklinə salınmış bu fikrə münasibət bildirərək yazırdı ki, "həmin "üç qüvvətdən" bircəciyinin bu vəhdətdən kənarda qalması naqislik, böhran olardı və necə ki,

bizim təcrübədə oldu da" (50, s. 313-314). Ofeliya Bayramlıya görə isə, XX əsrin əvvəllərində Ə.Hüseynzadənin gördüyü işin böyüklüyü və qiyməti də məhz elə bunda idi. Ona qədər Türk dünyasının heç bir ideoloqu türkün qurtuluş, nicat yolunun ünvanını, yəni türk ittihadını bu cür qətiyyət və inamla ucadan elan etməmişdir. Bu sözlər, heç də görkəmli tatar mühərriri İ.Qaspıralının XIX əsrin 80-ci illərində "Dildə, fikirdə, işdə birlik" şüarı ilə nəşrə başladığı "Tərcüman" qəzetinin "ittihadi-türk" ideyalarından xali olduğunu göstərmir. Lakin İ.Qaspıralının ittihad məramında siyasi məqsəd yox idi. Bu hərəkat hələ üsuli-cədid (yeniləşmə) mahiyyətində idi. Ə.Hüseynzadənin başçılıq etdiyi bu ittihad hərəkatı isə tamamilə yeni məfkurəli, siyasi məramlı turançılıq ideologiyası idi (31, s. VIII).

M.B.Məmmədzadə yazırdı ki, hələ Azərbaycanın müstəmləkə şəraitində olmasına baxmayaraq işğaldan keçən "25-26 il içərisində Azərbaycanda dram və komediya, ümumiyyətlə ilk teatr əsərlərini yazan Mirzə Fətəli həmən əsrin ortalarında Azərbaycan ədəbiyyatında Avropa fikri, dram və komediya üsulları salmağa müvəffəq olmuşdu. Bu fikirləri daha genişləndirmək və ümumiləşdirmək üçün ikinci bir islahatçıya ehtiyac hiss olunurdu. Həmən islahatçı da on doqquzuncu əsrin ortalarında – 1841-ci ildə Azərbaycanın Zərdab adlı bir kəndində doğulan Həsən bəy Məlikov Zərdabi oldu" (60, s. 6). H.Zərdabinin "Əkinçi" qəzetinin nəşrilə maarifçilik ideyalarının yayılması, S.M.Qənizadə və H.Mahmudbəyovun "Rus-tatar" məktəbi və onun təsirilə yeni üsulda məktəblərin genişlənməsi, mətbuat və nəşriyyat sahəsindəki tərəqqi, ədəbiyyat və incəsənət aləmində baş verən dəyişikliklər, xeyriyyə cəmiyyətlərinin fəaliyyəti, çarizmin qəddar müstəmləkəçilik siyasətinə qarşı mübarizə, inqilabi çıxışlar, yeni ziyalı nəslinin yetişməsinə, cəmiyyətdə yeni mütərəqqi ideyaların, xüsusən milli şüurun formalaşmasına böyük təsir göstərmişdi (91, s. 96). "Tarix isə kəskin qələmlə yazır ki, azəri türklərinin əlli ilin müddətində mədəniyyət və milliyyət yolunda göstərdikləri diriliyi Asiya

dünyasında Yaponiyadan başqa heç millət göstərməmişdi. Heç millət iyirmi beş sənədə milli bir ədəbiyyat, milli bir teatro, milli bir musiqi və milli bir mətbuat yaratmamışdır. Heç bir millət on iki sənə içində milli bir tərpəniş, siyasi bir sima və milli bir dirilik göstərməmişdir" (64, s. 18-19).

"Azərbaycan milli xartiyası" adlı əsərində (61, s. 135-136) M.B.Məmmədzadə yazır ki, Həsən bəy yalnız sözlə kifayətlənmirdi. O, təbliğ etdiyi bu böyük fikir uğrunda felən işləyirdi. Həsən bəy Azəri türklərində ilk müəllim, ilk mühərrir, ilk aktyor və teatr banisi, ilk mətbəə müəssisi, ilk qəzetə naşiri, ilk cəmiyyəti-xeyriyyə banisi olmuşdur. Əlli il əvvəl vaqe olan bu işlər Həsən bəy üçün yalnız birər vasitədən, ümumi qayəyə gətirən müxtəlif yollardan ibarət idi. Onun məqsədi və qayəsi millətin oyanması, tərəqqisi, mədəniyyət sahibi olması və bu mədəniyyət ilə təchiz edilərək öz ana torpağına sahib olması onu, o müqəddəs torpağı əldən buraxmaması idi. "Zindəganlıq davası" adlı bir məqaləsində Həsən bəy sübut edirdi ki: "Bu zamanda məişətin bu ağır günlərində heç bir millət elmsiz keçinə bilməz. Bir millət növbənöv fəndlər ilə nadan qonşusunun əlindən ruzisini alıb onu fəlakətə düçar edəcəkdir. Elm təhsil etmiş dövlətli tayfa 20-30 ildə birə-bir artdıqda, elmsiz tayfa ilbəil azalır. Bu zindəganlıq davası insanlarda da, heyvanlarda da mövcuddur" (61, s. 135-136).

Sonrakı proseslər də təsdiqlədi ki, "Əkinçi" nin zühuru yalnız milli deyil, eyni zamanda demokratik bir hadisə idi. Təbii ki, tək-tənha qəzet nəşr edən H.Zərdabi üç il ərzində bir çox müşkülatlarla qarşılaşmışdır. Şərqin ilk modern müsəlman qəzetinin, ilk türk milli mətbuatının əsası olan "Əkinçi" bu xüsusda yazırdı: "Ey bizə diqqət edənlər, bu qəzetin kəsrini görəndə gülməyin, gülmək yeri deyil, siz ağlayın ki, bizim müsəlmanların bircə qəzeti də basdırmağa adamı yoxdur" (92, s. 45). H.Zərdabi "Əkinçi" vasitəsilə ziyalılara "Türklər öz dillərini itiriblər. Sizin sözlərinizi onlar anlamırlar; onların dilini tapın verin yaşasın, irəli getsinlər" (128, s. 2-3) deyə

müraciət edir, xalqı cəhalətdən yaxa qurtarmağa çağırır, tərəqqiyə səsləyirdi. M.F.Axundzadə, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Gorani, Ə.Heydəri, M.Əlizadə kimi dövrün ən qabaqcıl ictimai-ədəbi qüvvələrini başına toplayan "Əkinçi" öz səhifələrində qədim islam və türk dəyərlərini inadla dəstəkləməklə yanaşı, mədəniyyət və ədəbiyyatın, elmin, kənd təsərrüfatının, sənaye və texnikanın bütün sahələrində islahat ideyasını, müasir, modern bir dünyagörüşünü təbliğ edirdi.

"Əkinçi" ilə başladılmış və təbliğ edilmiş mədəni yeniləşmə prosesini sonrakı mətbuat orqanları da davam etdirmişlər. Rus çarlığı isə hər yolla Azərbaycan xalqının tərəqqisinə səbəb ola biləcək təşəbbüslərin qarşısını amansızlıqla alırdı. "Əkinçinin" bağlanmasından sonra uzun illər Azərbaycan milli mətbuatında boşluq yarandı. Arxiv sənədlərinə istinadən Ağarəfi Zeynalzadə yazır ki, "1891-ci ildən, yəni C.Ünsizadənin "Kəşkül" qəzetinin bağlanmasından 1903-cü ildə M.Şahtaxtlının "Şərqi-rus"unun nəşrinədək keçən 12 il ərzində ziyalılarımızdan Ünsizadə qardaşlarının "Azərbaycan", "Uçan yarpaq", "Daniş", Əhməd bəy Ağaoğlunun "Məşriq", M.Şahtaxtlının "Tiftis", N.Nərimanovun müəllim dostu S.M.Qənizadə ilə "Sovqat", yenə N.Nərimanovun müstəqil "Təzə xəbərlər" və "Məktəb", S.M.Qənizadənin H.Mahmudbəyovla "Nübar" və s. qəzet və jurnal çıxarmaq üçün verdikləri ərizələrə dövlət orqanları yalnız yox cavabı vermiş, beləliklə də xalqımız mətbuat nəşrindən tamamilə məhrum edilmişdir. Halbuki, həmin illərdə ermənilərə 5, gürcülərə isə 4 adda qəzet və jurnal nəşr etməyə icazə verilmişdi" (91, s. 96). Vəziyyət belə olduğu təqdirdə H.Z.Tağıyev Bakıda rus dilində çıxarılan "Kaspi" qəzetini mətbəəsi ilə birlikdə satın alıb ziyalılarımızın ixtiyarına verir və bundan sonra qəzeti əvvəl H.Zərdabi, sonra M.Şahtaxtlı, daha sonra Ə.Ağaoğlu və Ə.Topçubaşov redaktə etməyə başlayır. Təsadüfi deyildir ki, bu illərdə "Kaspi"nin fəaliyyətini izləyən hakim dairələr ondan "müsəlman" qəzeti kimi bəhs edib, üzərində senzura nəzarətini artırmağı təkidlə

tələb etmişdilər (91, s. 96-97). Bununla belə məqsədlərində qətiyyətli olan ziyalılar milli mətbuatın bərpası sahəsindəki fəaliyyətlərindən qalmır, bütün səylərlə cəmiyyətin maariflənməsi və mədəniləşməsi qayğısına qalırdılar. M.Şahtaxtlı "Türk və tatar qövmünə müraciət" başlıqlı yazısında bəyan edirdi ki, məsləkimizi hər kəs bilir: "Millətimizin mədəniyyətinə xidmətdir. Mədəniyyət ehtiyacımız felidir, həyatidir. (...) Bir millətin həqiqətən təməddün edə bilməsi üçün ümdə şərt odur ki, ümumə aid məsələlərdə hər fikirlərini, rəy və əqidəsini kamali-azadlıq və hürriyyətlə bəyan edə bilsin. "Şərqi-Rus" açdığı yolunda davam edəcək kamali-qeyrət və istiqamət, şövq və zövqlə türk və tatar cinsinin mədəniyyətinə, səadətinə şan və şərəfinə xidmət edəcək" (13, s. 32).

Çarizmin qərəzli siyasəti nəticəsində Azərbaycan türkləri "Əkinçi"dən sonra uzun illər milli mətbuat intizarında qaldılar. "Kəşkül"lə mətbuat boşluğu qismən aradan qalxsa da, onun da bağlanmasından sonra, bir də ziyalılar "Şərqi-Rus"la (1903-1905) istəklərinə çatdılar. Arada qalan müddət ərzində milli ziyalıların əksəriyyəti qeyri-ana dilli (rus, tatar, osmanlı türkcəsi) mətbuat orqanlarında çıxış etməyə məcbur oldular. Bu qəzet və dərgilərdə Azərbaycan ziyalılarından əsasən aşağıdakıların imzalarına rast gəlinirdi: M.Şahtaxtlı, Ə.Cavanşir, F.Köçərli, E.Sultanov, T.Bayraməlibəyov, S.Mehmandarov, N.Nərimanov, S.Ağamalıoğlu və Ə.Ağayev. Bu ziyalıların "Kavkaz", "Novoye obozreniye" (Tiflis), "Kaspi" (Bakı), "Həblülü-mətin" (Kəlküttə), "Əxtər" (İstanbul), "Ədəb", "Nasiri", "Sürəyya" (Təbriz, Tehran), xüsusən "Tərcüman" (Bağçasaray, türkcə və rusca) qəzetlərində çıxışlarını xüsusilə qeyd etmək lazımdır. Mərkəzi rus mətbuatında isə ("Sovremennik", "Rossiya", "Oteçestvenniye zapiski", "Sankt-Peterburqskiye vedomosti"...) daha çox M.C.Topçubaşovun və Mirzə Kazımbəyin imzalarına rast gəlinirdi.

Belə bir milli mətbuat boşluğuna son qoyan "Şərqi-Rus"un xidmətlərini dəyərləndirən Yaşar Qarayevə görə Tiflisdə,

Leypsiqdə, Parisdə və Peterburqda təhsil almış və dövrünün hərtərəfli hazırlığa malik, universal bilikli qabaqcıl ziyalısı olan Məhəmmədağa Şahtaxtlının (1846-1931) Tiflisdə çıxardığı “Şərqi-Rus” qəzeti “Mollanəsrəddinçi”lərin (C.Məmmədquluzadə, Ömər Faiq, M.Ə.Sabir, Əli Nəzmi, M.S.Ordubadi, həmçinin A.Səhhət, F.Köçərli, M.Sidqi, R.Əfəndiyev, H.Zərdabi, A.Tofiq...) də “Molla Nəsrəddin”ə qədərki xitabət kürsüsü oldu. Dərginin əlifba, mədəniyyət sahəsində milli intibah konsepsiyası hələ bu qəzetin səhifələrində yetişməyə başlamışdı. A.Səhhətin (“Ey könül”), M.Ə.Sabirin (“şükr lillah...”), hətta C.Məmmədquluzadənin özünün (“Poçt qutusu”, “Kişmiş oyunu”) ilk mətbu əsərləri “Şərqi-Rus”da işıq üzü görmüşdü. Əgər gələcəkdə bütün tənqidi-realist nəsr “Poçt qutusu”ndan çıxdısa (“Biz hamımız “Poçt qutusu”ndan çıxmışıq” – Mir Cəlal), “Poçt Qutusu” da “Şərqi-Rus”dan çıxdı. Lakin bu son mətbuat orqanları da uzun müddət yaşaya bilmir. (...) Beləliklə, mətbuat da, bu dövrdə maarifçi məktəbin işini və rolunu müdafiə və davam etdirir (52, s. 258-259).

Bu dövrdə Rusiyanın mərkəzində olduğu kimi onun ucqarlarında da inqilabi çıxışlar ara vermirdi. Qafqaz, xüsusən Azərbaycan inqilabi hərəkatın ən qaynar bölgələrindən biri hesab edilirdi. Belə bir şəraitdə çar, dövlət şurasının üzvü, qraf, generpal-adyutant Voronsov-Daşkovu Qafqaza canişin təyin edir. Həmin dövrü tədqiq edən A.Zeynalzadə yazır ki, “Qraf Voronsov-Daşkovun geniş səlahiyyətlə Qafqaza vali təyin olunduğunu eşidən ziyalılarımızdan Ə.Topçubaşov, Ə.Ağaoğlu və Ə.Hüseynzadə H.Z.Tağıyevin yüksək nüfuzundan istifadə edərək Peterburqda Voronsov-Daşkovdan türk dilində qəzet nəşrinə icazə alırlar. Onlar qrafın məktubu ilə Baş mətbuat işləri idarəsinə gedib “Həyat” qəzetinin nəşrini qanuniləşdirirlər” (91, s. 97). Beləliklə, 1905-ci il iyul ayının 7-də Ə.Topçubaşovun naşirliyi, Ə.Ağaoğlu və Ə.Hüseynzadənin redaktorluğu ilə “Həyat” qəzeti nəşrə başlayır. “Həyat” H.Zərdabinin “Əkinçi”sindən sonra Bakıda türk dilində nəşr edilən ilk qəzet

idi. Təsadüfi deyildir ki, Nadir Dövlət Azərbaycanda gerçək qəzetçiliyin "Həyat" qəzetinin nəşri ilə başladığını ifadə etməkdədir (104, s. 194; 106, s. 28). Ciddi senzura nəzarətində nəşrini davam etdirməsinə baxmayaraq "Həyat" Azərbaycanda ictimai-siyasi fikrin formalaşmasına, inkişafına səmərəli təsir göstərməklə həm də özündən sonrakı mətbuat orqanlarının nəşrinə təkan vermişdir.

F.Köçərli 1906-cı ildə yazmış olduğu "Azərbaycan dövri mətbuatının qısa icmalı" adlı məqaləsində həmin dövrün mətbuatındakı mənzərəni belə şərh edirdi: "1905-ci ilin payızında, təxminən 17 oktyabr manifesti ərəfəsində Bakıda həftəlik "Həyat" qəzeti çıxmağa başladı. Deyəsən "Həyat" ona qədər nəşr edilmiş Azərbaycan qəzetlərinin hamısından ən mötəbəri idi. Onu müsəlmanların ən yaxşı ədəbi qüvvələri – Ə.Hüseynzadə ilə Ə.Ağayev birlikdə redaktə edirdilər. Qəzetin böyük formatı, yaxşı kağızı, gözəl və aydın çapı, ən başlıcası isə əməli və dərin məzmunlu məqalələri oxuculara yaxşı təsir bağışlayırdı. Lakin qəzet 3-4 ay çıxdıqdan sonra Ə.Ağayev ondan ayrıldı və Bakıda öz "İrşad" qəzetini təsis etdi. Əhməd bəyin getməsi ilə "Həyat"da işlər zəifləməyə başladı. (...) Yaxşı əməkdaşlar heyəti və Ağayev kimi təcrübəli publisistin rəhbərliyi altında nəşr edilən "İrşad" ən canlı, məzmunlu və gözəl mətbuat orqanıdır" (13, s. 77-78). 1905-ci il dekabrın 17-dən nəşrə başlayıb cəmisi 436 nömrəsi çıxan "İrşad"ın redaktoru və imtiyaz sahibi Əhməd bəy Ağaoğlu, ilk iki ildə naşiri İsabəy Aşurbəyov idi. Ayrı-ayrı vaxtlarda Ə.Ağaoğlu abunə təşkili ilə əlaqədar Azərbaycan şəhər və kəndlərinə getdiyinə və xəstələndiyinə görə bir neçə nömrə Ü.Hacıbəyov (1906-cı ildə), H.Vəzirov (1907-ci ildə) və M.Rəsulzadənin (1908-ci ildə) müvəqqəti redaktorluğu ilə buraxılmışdır. Ə.Ağaoğlunun qəzeti ictimai fikir və mətbuat aləmində çox fəal, müxtəlif əks-səda oyatmışdı. Ünvanına çoxlu təbriklər, təşəkkürlər, arzular yağan "İrşad" bir müddət Rusiya müsəlmanları arasında nüfuzlu mətbuat orqanlarından sayılır, müəllif və müxbirlərinin sayını

artırırdı. Bunun bir səbəbi dövrə xas olan sosial intibah idisə, digər səbəbi redaktorun "İrşad" səhifələrini ideyalar mübarizəsinin aynası etməsində və özünün də bir müddət qorxu bilmədən, müstəsna cəsarət və fədakarlıqla xalqın ürəyindən xəbər verən məqalələrlə çıxış etməsi idi. Redaksiya ətrafına Azərbaycanın inqilabçı, tərəqqipərvər qələm əhlinin – N.Nərimanov, M.Ə.Sabir, Ə.Haqverdiyev, S.Əfəndiyev, Ö.Faiq, M.Hadi, Ü.Hacıbəyov, F.Köçərli və başqalarını toplaması hər kəsdən əvvəl Ağaoğlunun xidməti idi (68, s. 48). Mübaliğəsiz demək olar ki, bu müəlliflərin 1905-ci il inqilabi ideyalarını mənimsəyib təbliğ etmələrində sosial-demokrat partiyası və yerli bolşevik mətbuatından sonra ən müsbət, faydalı işi "İrşad" görmüşdü. "Həyat" qəzetində gördüyümüz ikitirəlik "İrşad"da daha qabarıq şəkildə idi. "İrşad"ın da müəlliflər heyətində iki bir-birinə zidd sosial qütbün nümayəndələri vardı: inqilabçı və demokrat ziyalılar – N.Nərimanov, S.Əfəndiyev, Ü.Hacıbəyov, M.Rəsulzadə və liberal, burjua-millətçi ziyalılar – Ə.Ağaoğlu, H.Vəzirov, M.Tahirzadə və b." (65, s. 306). "İrşad"dan sonra Azərbaycan dilində mətbuat sahəsində "Molla Nəsrəddin" kimi ilk nömrələrindən böyük nüfuz qazanan orijinal satirik jurnalın, bolşevik qəzetləri "Dəvət" və "Təkamül"ün, habelə təlim-tərbiyə və pedaqoji təmayüllü "Dəbistan" və "Məktəb" jurnallarının meydana çıxması təkcə senzuranı yox, ümumiyyətlə mürtəce-millətçi dairələrin təşvişinə səbəb oldu.

Yeniləşmə hərəkatının üçüncü mühüm hadisəsi isə 1887-ci ildə Bakı şəhərində yeni tipli ilk rus-müsəlman məktəbinin yaradılması idi. Mədəniyyət tariximizdə fəxri yer tutan bu məktəblərin meydana gəlməsi və inkişafı ilk növbədə S.M.Qənizadə (1866-1937) və H.N.Mahmudbəyovun (1864-1928) adı ilə bağlıdır (25, s. 159-176; 73, s. 15). Təbii ki, yeni tipli məktəblər heç də əvvəlki tədris təcrübəsinə qarşı tamamilə inkarçılıq mövqeyində durmurdu. Şübhəsiz ki, ənənəvi Şərq mədrəsə tədrisi də vaxtilə öz böyük tarixi rolunu oynamışdı. Lakin məsələ onda idi ki, yeni dövrdə də qədim mədrəsə

dəyişməz və sabit durur, XIX əsrdə də məktəb orta əsrlərin “orqanı” olaraq qalırdı. Dünyanın müasir mədəniyyətə yiyələndiyi bir dövrdə Azərbaycanda hələ də orta əsrlərin təlim-tərbiyə üsulları, yad dildə ilahiyyat və şəriət dərsləri, fənlərin təlimində sxolastika və ibtidailik dözülməz bir arxaizm kimi getdikcə daha aydın dərk edilirdi. Ona görə də məktəblərdə milli dil məsələləri uğrunda mübarizə özünü qabarıq şəkildə göstərməyə başlamışdı. “Aşkar idi ki, köhnə mədrəsə yeni maarifçiliyin ideya və təşkilati mərkəzi hərəkət və fəaliyyət orqanı ola bilməz. Odur ki, “Üsuli-cədid” hərəkatının qarşısında onu dəyişmək, yeni dövr məktəbinə çevirmək vəzifəsi dururdu. Həm tədrisin, həm də tərkibin demokratikləşməsini (məktəbin bütövlükdə millətin balalarının üzünə açılmasını), dünyəvi elmlərin, rus və ana dillərinin proqrama daxil edilməsini nəzərdə tutan islahat uğrunda mübarizə çarizmin və yerli ruhani irticanın qatı müqaviməti şəraitində davam edir” (52, s. 254-255).

Bu dövrdən başlayaraq Azərbaycan milli mədəniyyətində köklü dəyişikliklər, inkişaf, tərəqqi meylləri özünü büruzə verir, M.F.Axundzadə məktəbinin davamçıları Azərbaycan mədəniyyətinin mütərəqqi milli mətbuat, teatr, məktəb və pedaqoji fikir, tərcümə, tənqid, estetika kimi sahələrində ciddi fəaliyyət göstərir və yüksək nailiyyətlər qazanırdılar. Nəzəri səciyyə daşıyan M.F.Axundzadə dövrünün milli maarifçiliyi öz yerini tədricən öz kütləviliyi, canlı və əməli xüsusiyyətləri ilə xarakterik olan milliyyətçi-maarifçiliyə verir. S.Ünsizadə, Ə.Topçubaşov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu kimi yeni keyfiyyətli maarifçi-romantik mühərrir və publisistlərin ilkin fəaliyyəti də məhz bu dövrə təsadüf edir (7, s. 44). Ə.Gorani, R.Əfəndiyev tərəfindən əsası qoyulan yeni tipli realist uşaq ədəbiyyatı yaranmağa başlayır. A.Çernyayevski, A.Şaiq, S.M.Qənizadə, N.Nərimanov, C.Məmmədquluzadə kimi ziyalılar müasir pedaqoji prinsiplər əsasında ana dilli dərsliklər yaradılması sahəsində xeyli iş görürlər, rus dilindən dərslik nümunələri tərcümə edirlər. Xalq folkloruna maraq artır, xalq

ədəbiyyatı nümunələrinin kütləvi və nizamlı bir şəkildə toplanması işinə başlanılır. "Məhz maarifçilik təlimi ilə və maarifçi fəaliyyət üsulları ilə o illər ədəbiyyatına qədəm basanların hamısı – N.Vəzirov, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, C.Məmmədquluzadə, N.Nərimanov səhnə işi ilə mətbuatçılığı, müəllimliklə yazıçılığı, folklorçuluqla mütərcimliyi öz simasında birləşdirir" (7, s. 46).

Bu dövrün mədəni həyatı üçün ən səciyyəvi cəhət məktəb və ədəbiyyatın, pedaqoji və bədii fikrin, ümumiyyətlə, mənəvi sahənin qarşılıqlı təsir və əlaqə prosesində bir-biri ilə qaynayıb qarışmasıdır. Teatrdan və mətbuatdan sonra ictimai-mədəni inkişafa güclü təsir göstərən məktəb maarifçiliyin üçüncü əsas ideya-əməli iş silahına çevrilir. Artıq mətbuat, məktəb və maarifin istiqaməti ilə yanaşı ziyalıları milli və dini mənsubiyyət fərqi də düşündürməyə başlamışdı. Xalqın adı, tarixi, milli taleyi haqqında "Əkinçi", "Kəşkül", "Kaspi", "Kavkaz", "Baku" kimi qəzetlərdə aktual yazılar dərc olunurdu. Xalqın tarixinə və mədəniyyətinə artan maraqla məktəb hərəkatının bağlılığı bir də onda idi ki, bu məktəblərdə milli dil, onun tarixi, qrammatikası və abidələri öyrənilməyə başlayırdı.

XIX əsrdə dramaturgiya, teatr, mətbuat, yeni tipli məktəblərin təşəkkülü ilə daha da geniş vüsət alan maarifçilik və mədəniləşmə prosesləri təbii ki, bir-biri ilə bağlılıq və qarşılıqlı təsirlənmələr şəraitində gedirdi. Məsələn, ana dilli dərslik üçün bədii ədəbiyyata ehtiyac maarifçi uşaq nəsrinin, şeirinin və dramaturgiyasının sürətli yüksəlişinə stimul verirdi. Bu mədəni ehtiyacları qarşılamaq axtarışları isə maarifçi məktəb və mətbuat xadimlərinin diqqətini şifahi xalq ədəbiyyatına, həmçinin, maarifçi dünya (Avropa və rus) ədəbiyyatından təbdil və tərcümə işinə cəlb edirdi.

Mədəniyyət sahələrinin belə bir qarşılıqlı təsirlənmələr şəraitində inkişaf etməsi, ziyalıları ehtiyac hiss olunan digər mədəni fəaliyyətlərə də sövq edirdi. Digər tərəfdən, artıq XIX əsrin 70-80-ci illərində cədidçilik bir ictimai-siyasi hərəkat

kimi formalaşmışdı. Mollaxanalarda köhnə üsulla – "üsuli-qədim" metodu ilə savadlanma prosesi 3-5 il çəkirdisə, üsuli-cədid metodu ilə savadlanma 1 il çəkirdi. Azərbaycanda da 70-ci illərdən açılmağa başlayan üsuli-cədid məktəblərində başlanğıc fikir dini məktəblərin islahatı olsa da, bu hərəkat bununla kifayətlənməyərək, Rusiya müsəlmanlarında, türklərində yeni təfəkkürün formalaşmasına yönəldi. Artıq XIX əsrin sonlarına doğru Rusiya ilə qurduqları əlaqələr nəticəsində Qərbə "mədəniyyət pəncərəsi" açan və aldıqları yeni fikirlərlə Azərbaycan cəmiyyətini modernizə etməyə çalışan ziyalılar, bu dövrdən etibarən aparılacaq mübarizəni sadəcə bir tərəqqi məsələsi olaraq görməyib milli şüur çərçivəsində dəyərləndirməyə başlamışdılar. Bu mənada "başda Türkiyə olmaqla digər Türk toplumlarındakı çalışmalarla koordinasiya saxlanılmış, birlik və bərabərlik düşüncəsi içərisində hərəkət edilmiş, "Molla Nəsrəddin", "Füyuzat", "İrşad" və "Həyat" kimi qəzet və dərgilər, digər türk coğrafiyalarındakı mətbuat orqanları ilə əməkdaşlıq içərisində səhifələrində başda "Tərcüman" olmaqla eyni məqsəd yolunda çalışan digər periyodiklərin yazılarına yer vermişdilər" (106, s. 24). XX əsrin əvvəllərindən etibarən isə Əbdülnasir Kursavi (1770-1814), Şəhabəddin Mərcani (1815-1889), Əbdülqəyyum Nasiri (1824-1907) və Hüseyn Feyizhai (1826-1866) kimi şəxslərin öncüllüyündə dini, siyasi və kültürəl bir aydınlanma hərəkatı olaraq başlayan "Cədidizm", xüsusilə İsmayıl Qaspıralının səyləri ilə bütün Türk dünyası üçün təhsil islahatını əsasa alan bir hərəkata çevrilmiş və yeni proqramların qəbulu ilə bu sahədə əsaslı addımlar atılmışdır (106, s. 19-20).

Bu mənada, üsuli-cədidi sadəcə təhsil islahatı kimi qiymətləndirməyin düzgün olmadığı qənaətində olan H.Əzizoğluna görə, bu hərəkat, ümumiyyətlə, müsəlman, türk xalqlarının mədəniyyətinin yeni yollarının formalaşması üçün cəhdlər demək idi. Bu üsulun baniləri və tərəfdarları əslində Çar Rusiyasının sıxıntıları və təqibləri şəraitində böyük cəsarət göstərdilər. Əslində özündə ictimai-siyasi, milli-vətənpərvər və demokratik

məna daşıyan cədidçilər hərəkatının, Rusiyanın müsəlman, türk xalqlarının milli özünüdərketməsi yolunda, yeni təfəkkürün formalaşması və millətlərin dirçəlişi yolunda əvəzsiz xidmətləri vardı. Cədidçilər mollaxanaların dünyəvi məktəblərlə əvəz edilməsini, tədrisin ana dilində aparılmasını, milli dillərdə qəzetlərin nəşrini, mədəniyyət ocaqlarının açılmasını, məişətə Avropa elementlərinin daxil edilməsini irəli sürürdülər. Beləliklə, Rusiyada cədidçilik dörd istiqamətdə inkişaf edirdi: dinin təbliğində yeniləşmə, mədəniyyətdə yeniləşmə, siyasi düşüncənin inkişafı və nəhayət, milli düşüncənin dirçəlişi (29, s. 142-143). Cədidçilər hərəkatının siyasi və mədəni əhəmiyyətini yüksək qiymətləndirən H.Əzizoğlunun fikrincə, "Müsəlmanlar arasında 1905-ci ildə baş vermiş siyasi dirçəliş də bir növ cədidçilik hərəkatının nəticəsi idi. Cədidçiliyin ən ümdə nəticəsi türk-müsəlman xalqlarında milli düşüncəyə qayıdışın inkişafı, xalqların dini düşüncənin hökmündən azad olub, ilk əvvəl öz milli düşüncələrini dirçəltmələri, sonra isə müasir milli düşüncəyə yiyələnmələri oldu" ( 29, s. 143).

Təbii ki, hər sahədə olduğu kimi məktəb və təhsildə də yeniliklər birmənalı qarşılanmırdı. Çarizm siyasətinin təzahürləri ilə yanaşı xurafatla mövhumat da bu inkişafın ən böyük əngəllərindən idi. Tədqiqatçı Ə.Süleymanov problemi nəzərdə tutaraq yazır: "Təhsil və tərbiyə planına görə, Azərbaycanda açılan bu cür məktəblər rus idarəçiliyinin təzyiqləri ilə yanaşı, din adamlarının da təzyiqlərinə köks gərmək zorunda idi. Din adamları bu məktəblərin açılması ilə birlikdə xalqın uşaqlarını mədrəsəyə göndərə bilməyəcəklərindən narahat idilər" (143, s. 69).

Azərbaycanda qurulan üsuli-cədid məktəbləri arasında M.Sidqinin (1854-1904) 1892-ci ildə Naxçıvanın Ordubad şəhərində açdığı "Ahtar" məktəbinin də xüsusi bir yeri vardır. Bu məktəbi əski sistem məktəblərindən fərqləndirən əsas xüsusiyyət təhsilin ana dilində olması və yeni təhsil və tərbiyə metodlarının tətbiqi idi. Ahtar məktəbinin uğurunu görən Naxçıvan camaatı M.Sidqiyə 1894-cü ildə "Tərbiyə" adlı yeni

bir məktəb açması üçün dəstək göstərdilər. Bu məktəb qısa zamanda bir mədəniyyət ocağına çevrilərək, bütün aydınlıq tərəfdarı şəxsləri öz bünyəsində birləşdirdi. Son dövrün tədqiqatlarında da (143, s. 69-70) M.Sidqinin türkcə hazırladığı "Nümunəyi əxlaq", "Müxtəsər coğrafiya risaləsi", "Qiraəti fənniyə", "Pedaqogika" və digər dərs kitabları, Azərbaycanda ana dilində kitabların hazırlanması istiqamətində atılmış önəmli addım kimi dəyərləndirilməkdədir.

Bu məktəb hərəkatı XIX yüzilliyin 80-ci illərindən etibarən daha da geniş vüsət alaraq Azərbaycanın əksər bölgələrini əhatə etmişdi. Ziyalıların məqsədyönlü fəaliyyəti nəticəsində Şuşa, Naxçıvan, Nuxa, Şamaxı və digər şəhərlərdə də dərslərin ana dildə keçirildiyi üsuli-cədid məktəbləri açıldı.

XIX yüzilliyin sonlarında pedaqoji fəaliyyətə xüsusi önəm verən Azərbaycan ziyalıları xalqın və zənginlərin yardımına güvənərək digərləri ilə müqayisədə milli məktəblər deyilə biləcək "üsuli-cədid"lərin sayını artırırdılar. Bu məktəblərdə ruslaşdırma yox idi. Rus dili də, oxudulan dərslərdən yalnız biri idi. Şamaxıda şair və pedaqoq Hacı Seyid Əzimin vaxtilə açmış olduğu üsuli-cədid məktəbini dostu Mirzə Rza davam etdirirdi. Qubada Molla İbrahim Xəlil, Salyanda Molla Əbülhəsən, Bakıda Mirzə İsmayıl Qütsi yeni üsul məktəblərin qurucuları idilər.

Forma etibarilə ənənəyə bağlı olmaqla yanaşı, bu ziyalıların mahiyyətcə yenilikçi təşəbbüs və fəaliyyətləri təhsil, sənət, ədəbiyyat sahəsində irəliləyişlərə stimul verdi. Bu dövrdə görkəmli ziyalıların təşkil etdikləri ədəbi-mədəni məclislər içərisində M.Ş.Vazehin "Divani-hikmət" (Tiflis), X.Natəvanın "Məclisi-üns" (Şuşa), M.M.Nəvvabın "Məclisi-xamuşan" (Şuşa), M.Sidqinin "Əncüməni-şüəra" (Ordubad), S.Ə.Şirvaninin "Beytüs-Səfa" (Şamaxı) Azərbaycan cəmiyyətinin mədəni inkişafına böyük töhfələr vermişdir. Şamaxıda Mahmud ağanın himayədarlıq etdiyi musiqi məclisləri isə elm və sənətin inkişafına təsir

göstərməklə yanaşı, Azərbaycanın mədəni əlaqələrində də mühüm rol oynamışdır.

XIX yüz ilin son rübü və XX yüz ilin əvvəlində Azərbaycandakı mədəni vəziyyəti tədqiq edən H.Baykara yazır ki, 1880-ci ildən sonra maarifçilərdən H.Mahmudbəyli və S.M.Qənizadənin səyi ilə Azərbaycanda ilk məktəb dərəcəsində "rus-tatar məktəbi" adlı bir çox məktəblər açılmışdı. Bu məktəblərin Azərbaycan irfan həyatındakı rolu inkar edilə bilməz. Ancaq zaman keçdikcə xalq bu məktəblərdə çarlıq idarəsinin ruslaşdırma siyasəti yürütdüyünü görüncə bu məktəblərdən soyudu. Azərbaycan xalqı, uşaqlarına milli tərbiyə verəcək məktəblər istəyirdi (100, s. 57-58).

Lakin bu yasaqlar belə Azərbaycandakı ümumi mədəni inkişaf prosesini tamamilə dayandıra bilməmişdir. Belə ki, artıq Şuşada Mir Möhsün Nəvvab öz həmfikirləri ilə birlikdə üsuli-cədid ənənəsini davam etdirir və xalqı yeni həyatın ehtiyaclarına uyğun olaraq məlumatlandırırdılar. Digər tərəfdən "Kaspi" qəzeti, əski dini üsuldakı məktəbləri tənqid edir və "Bu məktəblər fanatik və cahil mollaların ağalığı altındadır" (100, s. 58) deyə yazırdı. Azərbaycanın başqa vilayət və qəzalarında da açılan üsuli-cədid məktəblərində dərslər, fonetik metodla verilirdi. Dərslər türkcə – ana dili, hesab, coğrafiya və digər fənn dərsləri və rus dilindən ibarət idi. Lənkəranda üsuli-cədid məktəbini açan Mirzə İsmayıl Qasir idi. Ancaq bu yeni açılan məktəblər Azərbaycan xalqının ehtiyaclarına cavab verməyəcək qədər az idi.

Bu fakt demək olar ki, bütün tədqiqatçılar tərəfindən təsdiqlənir ki, Rusiyanın müsəlman xalqları arasında yeni təfəkkürün yaranmasında əvəzsiz rol oynayan cədidçilərin ən böyük nümayəndəsi İsmayıl bəy Qaspıralı olmuşdur. Onun fəaliyyətinin əsas mahiyyəti üç istiqamətə yönəlmişdi: birincisi, müsəlman icmalarının maarif vasitəsi ilə müasirləşməsi, ikincisi, Rusiya müsəlmanlarının siyasi və mənəvi birliyinin yaradılması, üçüncüsü, Rusiya müsəlmanlarının Qərblə əlaqəsinin yaradılması. İ.Qaspıralı türk xalqlarını maarif, elm, mədəniyyət sahəsində

türk birliyini və Qərbi öyrənməyə çağırırdı. Maarifləndirmədə etdiyi inqilab ondan ibarət oldu ki, yeni yaranmış türk məktəblərində əlifba, yuxarıda da qeyd etdiyimiz kimi artıq ərəb fonetikası əsasında deyil, daha asan olan Avropa fonetikası əsasında aparıldı.

XIX əsrdə Azərbaycanın ictimai və sosial-mədəni həyatına təzəlik gətirən, yeni dövrün əsasını qoyan və bu mərhələnin ən görkəmli siması olan şəxs M.F.Axundzadədir. Mənəvi mədəniyyətimizin bütün sahələrində "yeni dövrün" banisi hesab edilən M.F.Axundzadə Azərbaycan xalqının milli mənlik və istiqlal şüurunun tarixində mühüm yer tutur. Akademik K.Talıbzadənin təbirincə desək, "yeni ictimai qüvvələrin qarşısında duran vəzifələri aydın dərk edə bildiyi üçündür ki, o özünə qədərki fikri cərəyanları, mütərəqqi ideyaları mənimsəməklə kifayətlənmədi, onları daha da inkişaf etdirdi və Azərbaycanda qabaqcıl ideologiyanın bayraqdarı səviyyəsinə qədər yüksəldi (88, s. 223). A.Bakıxanovun simasında maarifçi mütləqiyyət ideyası ilə meydana atılan və qısa müddət ərzində M.F.Axundzadə inqilabiliyinə və demokratizminə qədər tarixi inkişaf yolu keçən Azərbaycan maarifçilik məktəbində elmi, maarifi yaymaq, şəxsiyyət azadlığının təbliği, mövhumat, despotizmə qarşı mübarizə məsələləri qabarıq şəkildə özünü göstərirdi. Klassik maarifçilik məktəbi üçün xarakterik xüsusiyyətlər Azərbaycan maarifçilik hərəkatı üçün də səciyyəvi idi: maddi həyat şəraitinin, tərzinin yaxşılaşdırılmasının əsas vasitəsi xalq kütlələrinin elmə, maarifə yiyələnməsidir; elm, maariflə silahlanma yolu ilə ictimai bəlalardan, o cümlədən mədəni gerilikdən xilas olmaq olar; ideal (müdrik, maarifpərvər) dövlət başçısı və hər şeydə meyar olan insan zəkası – ümumi rifaha qovuşmağın yolu budur (7, s. 14-15). İstər M.F.Axundzadə, istərsə də maarifçilik məktəbinin H.Zərdabi, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, S.S.Axundov, Ü.Hacıbəyov, Z.Marağalı, Ə.Talıbov, F.Köçərli, A.Şaiq, İ.Musabəyov, S.Qənizadə, R.Əfəndiyev və digər sonrakı nümayəndələrinin çatmaq istədikləri yalnız bir

əsas məqsədləri vardı: ideal cəmiyyət yaratmaq, xalqın ictimai və inqilabi tərəqqisinə nail olmaq.

Bu günün prizmasından baxdıqda görürük ki, XIX əsrin sonlarının nəzəri və əməli təcrübəsi də belə bir faktı sübut edir: "ictimai və mədəni fikrimizin tarixində "Axundzadə möcüzəsi"nin bütün əlamətləri – formalaşmış professional teatr olmadan dramaturgiya, mətbuat olmadan mətbuat nəzəriyyəsi, qərarlaşmış milli burjuaziya olmadan milli cümhuriyyət, dövlətçilik və demokratiya ideyaları – bütün bunlar heç bir həyati əsası və real perspektivi olmayan qəribə paradokslar deyilmiş, ən yaxın tarixi gələcəyin bünövrəsini, təməl daşlarını vaxtında qoymaq nümunəsi demək imiş..." (52, s. 260). Ümumiyyətlə, Y.Qarayevin də dürüst ifadə etdiyi kimi yeni məktəb, yeni teatr, yeni mətbuat uğrunda mübarizə bütünlükdə mədəni düşüncənin istiqamətini yeniləşdirmək məqsədi ilə bilavasitə bağlı idi və ona xidmət edirdi.

Bütövlükdə isə tədqiq etdiyimiz bu dövrün ziyalılarını məşğul edən yeganə bir ümumi mövzu vardı: Qəflət yuxusundan oyanmaq, elmə yiyələnmək və tərəqqi etmək. Həmin dövrün elmə, maarifə, ədəbiyyata, incəsənətə, bir sözlə, mədəniyyətə dair yazılmış əsərlərinin ana məqsədini M.Ə.Rəsulzadə belə səciyyələndirirdi: "Teatrın, hekayənin, şerin ifadə etdiyi yeganə məna: Əsri mədəniyyətə intibak fikrini tərvic idi" (140, s. 31). Doğrudan da dini təəssübkeşliklə yanaşı milli mənsubiyyətin araşdırılması və müasir mədəniyyətə yiyələnməyin təbliği yolunda "Türkləşmək, islamlaşmaq və müasirləşmək" şüarına doğru istiqamət almış mədəni hərəkat getdikcə daha böyük vüsət alırdı.

Artıq Qafqazın bir parçasını təşkil edən məmləkətin – Azərbaycanın Rusiya imperatorluğu tərəfindən işğalından yüz ilə yaxın bir zaman keçirdi. Bu müddət ərzində bütün milli təşkilatları dağıtmaq siyasəti güdən çarizm məqsədinə heç də tamamilə nail ola bilməmişdi. Milli xüsusiyyətləri heç bir zaman unutmamış xalqımızda hürriyyət və milli istiqlal fikirlə-

rini mənimsəyən yeni bir ziyalı nəsil yetişmişdi ki, onlar da mənsub olduğu kütləyə istifadə edə bildiyi vasitələrlə xidmət göstərmək istəyirdi (77, s. 10).

Belə bir tarixi gedişatla Azərbaycan, dünya sivilizasiyasının o vaxta qədər ən yüksək pilləyə çatdığı XX əsrə qədəm qoyur. "Demokratik fikirlərin cövlan etdiyi bu əsrdə cəngavərliyin, aristokratiyanın yerini mütəfəkkir və texniki bilik sahibi, sadə xalq demokratiyası tutmağa başlayır" (76, s. 30). İnsan zəkası hər şeyə hakim kəsilir. Firon qəhrəmanlarının, despot hökmdarların taxtında xalqın ümumi idrakının daşıyıcısı olan fikir sahibləri oturmağa başlayır. "Daha sadəsi – hakimiyyət imperatorlardan, sultanlardan, şahlardan xalqa; bilgi kahinlər, sehirbazlar və ilahilərdən alimlərə, texniki elm sahibləri və yazarlara keçir" (76, s. 30-31).

Nəhayət, 1904-cü ildə Uzaq Şərqdə baş vermiş tarixi bir hadisə ilə Rusiya İmperatorluğunun dayaqları laxlamağa başladı. Avropa mədəniyyətinə uyğunlaşmış Yaponiya Çar Rusiyasının Baltik dənizindən qalxaraq gələn hərb gəmisini bir həmlədə suyun dibinə batırdı. Dalınca Port-Arturun fəthi və bir-birini təqib edən Yapon zəfərləri Rusiyanı iflic vəziyyətinə saldı. Bütün dünyanı, xüsusilə Rusiya ilə Yaxın Şərqi həyəcanlandıran bu hadisə çarlığın əsrlər görmüş binasını sarsıtdı. Rusiya daxilindəki azadlıq və inqilab mücahidləri ayağa qalxdılar. Çar rejimindən narazı olan xalq kütlələri bu hərəkata qoşuldular. Hər tərəfdə azadlıq və demokratik fikirlər yayan təşkilatlar quruldu ki, bu da gələcək inqilablar üçün zəmin oldu (77, s. 11).

1905-ci il ərəfəsində Azərbaycan artıq Rusiya imperiyası tərkibinə qatılmasının təxminən bir əsrini yaşayırdı. Vəziyyət acınacaqlı idi. Azərbaycanlıların pis güzəranının səbəbi ilk növbədə Çar Rusiyasının dövlət siyasəti idi. Başlıcası o idi ki, yerli hakimiyyət strukturlarında azərbaycanlıların sayı süni şəkildə məhdudlaşdırılırdı və 5%-dən çox olmamalı idi. Bunun nəticələri milli durumumuzun bütün sahələrində özünü büruzə

vermәkdә idi. Azәrbaycanlılarda hәr hansı dövlәtçilik meyllәri çarizm tәrәfindәn qәtiyyәtlә boğulurdu (29, s. 177). Mәnbәlәrdә xanlıqlar, bәyliklәr vә sultanlıqların bir dövlәt qurumu kimi tam mәhv edilmәsinә dair bir çox elmi tәhlillәrә rast gәlmәk mümkündür ki, bunlar içәrisindә M.B.Mәmmәdzadәnin "Milli Azәrbaycan hәrәkatı" (63; 121) әsәri xüsusilә qeyd edilmәlidir. Müasir tәdqiqatçılardan H.Әzizoğlu da mövzuya dair maraqlı tәhlillәr vermәkdәdir. O, XX әsrin әvvәllәrini nәzәrdә tutaraq yazır ki, "dövlәtsizlik şәraitindә artıq dörd-beş nәsil insan böyümәkdә idi. Yeni nәslә belә gәlirdi ki, ümumiyyәtlә, azәrbaycanlıların heç bir vaxt nә dövlәti olub, nә dövlәt başçısı, nә mәmuru, nә ordusu, nә dә milli maliyyәsi. Dövlәt idarәçiliyi tam müstәmlәkә sisteminә uyğun, yәni yerli әhaliyә tamamilә yad şәkildә qurulmuşdu. Azәrbaycanlılar ictimai düşüncәsi ilә birlikdә milli düşüncәni dә itirirdi. İctimai düşüncә bir çox hallarda mahal çәrçivәsindәn o yana keçmirdi. (...) Mәdrәsәlәrin açılışı tәqdir olunurdu, amma bu şәrtlә ki, orada savadlanma aşağı sәviyyәdә olsun. Mәhz belә hala müsbәt baxılırdı" (29, s. 177-178).

"Türkçülüyün tarixi" әsәrindә (6; 97) Yusuf Akçura da 1906-1907-ci illәri Quzey türklәri arasında milliyyәtçilik, türkçülük hәrәkatının әn canlı bir dövrü kimi xarakterizә edir. O, da müasiri olduğu әksәr ziyalıların fikrini tәsdiqlәyәrәk yazır ki, Rusiya imperatorluğunun Yaponiya önündә mәğlub olaraq geri çәkilmәsi, Rusiyanın hürriyyәtçi, mәşrutәçi, bәrabәrlikçi, inqilabçı, sosialist müxtәlif ünsürlәri ilә Rusiyada yaşayan rus olmayan millәtlәrin hamısını mәmnun edәrәk hәrәkәt vә fәaliyyәtә yönәltmişdi. Bәzi rus olmayan millәtlәr tam bir müstәqillik, bәzilәri mәdәni muxtariyyәt, müstәqillik qazanmaq sevdasına düşmüşdülәr. Bu ümumi hәrәkat vә hәyәcan Rusiyada yaşayan müsәlman türklәrin dә müxtәlif tәbәqәlәrinә kültür sәviyyәlәri nisbәtindә tәsir etmişdi. Yapon zәrbәsi ilә zәiflәmiş despotik idarә, qabaqcıl ünsürlәrә vә müxtәlif millәtlәrә qarşı, heç olmasa bir müddәt üçün, yumşaq davran-

maq məcburiyyətini hiss etmişdi. (...) Bunun üzərinə, çar hökuməti yelkənləri endirərək bir növ məşrutə elan etməyə məcbur oldu. Bütün bu hərəkatları təqib edən və qismən bunlara qatılan Quzey türkləri, hazırlığı nisbətində, milliyyətinin ortaya çıxması, müxtəlif qisimlərinin birləşməsi yolunda çalışmağa başlamışdı. Məhz bu çalışma 1906-1907-ci illərdən etibarən yüksək dərəcəyə çatmışdı (97, s. 137).

Hadisələrin belə bir istiqamətdə cərəyan etdiyi vaxtda Bakı artıq iqtisadi qüdrəti və mədəni tərəqqisi ilə diqqət mərkəzində idi. Bu şəhər “neft burjuaziyasının sayəsində Qafqazda yeganə dünya şəhəri səviyyəsinə yüksəlmişdi. Bu status XIX əsrdə çar-rus imperiyasının departamentləri yerləşən, rus imperiyasının Şərq siyasətinin baş qərargahı olan Tiflisdən Bakıya keçmişdi (85). Bakı bir tərəfdən Rusiyada sosialist cərəyanlarının və çar əleyhinə fəaliyyətdə olan hərəkatların qaynar bir ocağı, digər tərəfdən də Qafqaz müsəlmanlarının, xüsusilə Azərbaycan türklərinin milli hərəkatına rəhbərlik edən bir mərkəz rolu oynayırdı (77, s. 13). Milli Azərbaycan hərəkatının hər cür siyasi, sosial, iqtisadi və mədəni təşkilatlarının mərkəzləri də əksəriyyətlə burada yerləşirdi (77, s. 13). Yerli burjuaziya təkcə iqtisadi məsələlərlə deyil, eyni zamanda millətin taleyi, təhsil və mətbuatla maraqlanır, xalqın dünyəvi səviyyədə maariflənməsinə güclü maddi yardım göstərirdi (85).

Azərbaycanlılar arasında sinfi mübarizənin kəskin şəkil almamasının əsas səbəbini H.Əzizoğlu Rusiya imperiyası tərəfindən azərbaycanlıların, müsəlmanların hüquqlarının kütləvi surətdə tapdalanmasında görərək yazır ki, “İşğalın ilk illərində Rusiya imperiyası bütün Azərbaycan zadəganlarını ələ alaraq, onlara lazımi hüquqlar və imtiyazlar verdiyi halda, müstəmləkəçilik möhkəmlənəndən sonra onları bütün imtiyazlardan məhrum etdi. Azərbaycan bəylərinin və xanzadələrinin Rusiya zadəganları səviyyəsində hüquqları yox idi. Rus köçkünləri üçün lazım olanda torpaqları nəinki kəndlidən, hətta bəylərdən də alırdılar. Azərbaycan burjuaziyası istədiyi sahələrə maya

(investisiya) buraxa bilmirdi. Azərbaycan ziyalıları öz xalqına istədikləri kimi qulluq etməkdən məhrum idilər. Bütün türk xalqları ikinci dərəcəli xalq, müsəlman dini isə ikinci dərəcəli din sayılırdı" (29, s. 186).

Belə bir mühitdə Şərq müdrikliyi və Qərb müasirliyini, milli və bəşəriliyi üzvi şəkildə özündə birləşdirən yeni tipli Azərbaycan ziyalıları, maarifçiləri xalqın taleyüklü məsələlərinin həllini öz üzərlərinə götürdülər. Demokratiya və azadlıq uğrunda Ümumrusiya hərəkatının yüksəlişi və Çar Rusiyası xalqlarının milli oyanış dövrü kimi xarakterizə olunan bu dövrdə Azərbaycanın Əlimərdan bəy Topçubaşov, Əbdürrəhim bəy Haqverdiyev, İsmayılxan Ziyadxanov, Məmmədtağı Əliyev, Əsədulla bəy Muradxanov kimi parlaq simaları Rusiyanın siyasi tarixində ilk parlament sayılan I Dövlət Dumasında təmsil olundular. İctimai-siyasi və mədəni həyatın ən mühüm problemlərində milli burjuaziyanın mənafeyi ilə hesablaşan ziyalılara gəldikdə isə, bu sahədə Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov, S.İbrahimov daha fəallıq göstərirdilər. Ümumi nəzəri hazırlıqları, hərtərəflilikləri, məlumatlarının genişliyi baxımından seçilmələri ilə yanaşı onların yetişməkdə olan millətçi gəncliyə də güclü təsiri vardı (87, s. 99).

Cümhuriyyətə qədərki Azərbaycan mədəniyyət tarixinin yüz ilinin yığcam xronoloji mənzərəsi M.Ə.Rəsulzadənin "Milli Azərbaycan hərəkatının xarakteri" adlı məqaləsində də aydın və məntiqi bir şəkildə şərh edilmişdir (127, s. 163-164).

XIX əsr, Azərbaycanda orta əsrlərdən sonrakı ilk yüzillik kimi, gələcək mədəni strukturların təməlinə çevrilmiş bir sıra mədəniyyət hadisələrinə şahidlik etmişdir. Tədqiqatçılar belə bir yeniləşmə dövründə digər şərtlərlə yanaşı şəxsiyyət amilinə də mühüm dəyər verərək bu mərhələnin başında M.F.Axundzadə, H.Zərdabi Ş.Ə.Səlyani, M.Ş.Vazeh kimi onlarca Azərbaycan ziyalısının mədəni tərəqqidəki rollarını xüsusilə qiymətləndirirlər. Belə bir inkişaf prosesində din xadimlərinin də iştirakı XX əsrin əvvəllərində yaranmış milli həmrəylik amilinə

güclü təsir göstərmişdir. Ümumiyyətlə, xalqın mədəni tərəqqisində, cəmiyyət həyatının yeniləşməsi prosesində din xadimlərinin mütərəqqi roluna dair Azərbaycan nümunəsində bir sıra örnəklər vermək mümkündr. Məhz belə dini rəhbərlərin xidmətlərinə nümunə olaraq O.Bayramlı yazır ki, Ş.Ə.Səlyani mütərəqqi din xadimi kimi dövrünün digər din xadimlərindən fərqlənirdi. Bunu onun özü də etiraf edərək, İranda 1871-ci ildə Rühul-Qüdsə göndərdiyi bir məktubda yazırdı ki: "Mən də şeyxülislamam, lakin İstanbul Şeyxülislamı kimi deyiləm, ərəb əlifbasının islahatını şəriətə zidd hesab etməyirəm, Axundovun və sizin əqidələri hər cəhətdən istisnasız təsdiq edib, onların doğruluğunu etiraf edirəm". Yaxud o, İranın baş nazirinə göndərdiyi məktubunda yazırdı: "Mən, cənab Şeyxülislam, sizə belə məsləhət görürəm ki, məhkəmə işləri ruhanilərin əlindən alınsın və ədliyyə nazirliyinə tapşırılsın". Şeyx Əhməd Səlyani M.F.Axundovla dostluğu nəticəsində nəinki onun mütərəqqi fikirlərini müdafiə etmiş, hətta onunla birlikdə dövrünün bir çox səmərəli əməl və tədbirlərinin həyata keçirilməsi uğrunda çalışmışdır". Axundovla birlikdə Qori müəllimlər seminariyasında Azərbaycan şöbəsinin açılmasında yaxından iştirak etmiş, bəzi xeyirli, faydalı işlər görmüşdür. Bu din xadimi o zaman Qafqaz xalqının təhsil və maarifinin inkişafında dövrünün bir çox mütərəqqi ziyalıları (M.F.Axundov, Q.B.Zakir, M.Ş.Vazeh, H.B.Zərdabi və b.) ilə səmərəli işlər görmüşdür (17, s. 35).

XX əsrin əvvəllərindən etibarən tədricən dünyaya açılan Azərbaycan cəmiyyəti bir tərəfdən, mütərəqqi, humanist, ümumbəşəri mənəvi dəyərlərlə daha da zənginləşirdisə, digər tərəfdən də burada min illik etnik-milli koloritə, əxlaqa və fəlsəfəyə yad sosial şüur, milli ideologiya, dəyişən estetika formalaşırdı (52, s. 169). M.B.Məmmədzadə siyasi-ictimai dəyişikliklərin məhsulu hesab etdiyi milliyyətçiliyin, əvvəlki ictimai düzənin və yaşam tərzinin fərqli bir məcraya yönəldilməsi və milli burjuaziya ilə mütərəqqi fikirli ziyalılar arasında yaranmış həmrəyliyin nəticəsində meydana çıxmasını

belə izah edirdi ki, bu iki ünsürün qovuşmasından milliyyətçilik doğmuş və qısa bir zaman içərisində bu mənafe və əqidə birliyi siyasi hərəkat halına gəlmişdir (148, s. 20). Məhz həmin həmrəyliyin nəticəsi idi ki, qısa bir zamanda Azərbaycan mətbuatı özünün intibah dövrünü yaşayırdı. H.Z.Tağıyev və İ.Aşurbəyli kimi zənginlərin maliyyə dəstəyi və Ə.Topçubaşov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu kimi ziyalıların gərgin fəaliyyətləri ilə başlanan bu milli nəşriyyatın yeni dövrü özündən sonrakı bir sıra mətbu orqanların nəşrinə təkan vermiş oldu. Təbliğatlarını "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Füyuzat", "Molla Nəsrəddin", və s. çoxsaylı qəzet və jurnallar vasitəsilə aparan Azərbaycan ziyalıları və burjuaziyası getdikcə ənənəvi düşüncədən uzaqlaşaraq modern milliyyətçi ideologiyaya yaxınlaşma səylərinə və yeni bir kimlik ətrafında birləşmə hərəkatına rəvac vermişlər. Əslində bu dövrün Azərbaycan milli mətbuatı, milli və ictimai kimliyin formalaşdırılmasına xidmət edən bir platformaya çevrilmişdir.

Ziyalıların modern məktəblər açaraq və təqaüdlər verərək təhsilin inkişafını tənzimləmək sahəsindəki fəaliyyətləri də öz bəhrəsini verməkdə idi. Bu məqsədlə Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə də Bakıda xeyriyyə və maarif təşkilatları yaradılmışdı. Xalqın yardımı və dəstəyi ilə fəaliyyət göstərən bu cəmiyyətlər yeniləşmə və milliyyətçilik hərəkatına önəmli təkan vermişdir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində təkcə azərbaycanlıların deyil, ümumiyyətlə türk xalqlarının ictimai-siyasi fikir tarixi üçün əlamətdar hesab edilən yeniləşmə prosesinin müsbət nəticələri çox keçmədən özünü göstərdi. Xüsusilə də, Ə.Hüseynzadə ittihada doğru tərəqqi məramı ilə mədəniyyət tariximizdə yeni bir səhifə açdı. Ofeliya Bayramlının təbirincə desək, deməli, "Ə.Hüseynzadə 1904-cü ildə "Məktubi-Məxsusi" məqaləsində "nə surətlə çalışmaq" dedikdə "maarif", "nəyə çalışmaq" dedikdə "ittihad", "nəyi öyrənmək" dedikdə "hürriyyət" məqamlarına işarə etmişdir" (31, s. IX). Türkçülüyün

babalarından saydığımız bu dahi şəxsiyyətin XX əsrin ilk onilliyində təqdim etdiyi həmin bu üç sözü böyük siyasi həqiqətlərin sadələşdirilmiş ifadəsi hesab edən tədqiqatçı O.Bayramlıya görə, Ə.Hüseynzadə bu məramları türk xalqlarının milli azadlıq hərəkatında zəruri sayır və bunlara əməl edilməsinin vacibliyini irəli sürürdü (31, s. IX).

Azərbaycanın XX əsrin əvvəllərinə qədərki yüzillik inkişaf mərhələsi təsdiqlədi ki, millətin və mədəniyyətin tarixləri bir-birindən ayrı yazıla bilməz. Mədəniyyətdə varislik amili də hər zaman aktuallığını saxlamaqdadır. Bu mənada Azərbaycan cəmiyyətin mədəni intibah faktı da yüz illik yeniləşmə prosesinə bağlanır, azadlıq, istiqlal və milli dövlətçilik idealları da. Yalnız ilk növbədə ədəbi-mədəni fikirdə formalaşdıqdan sonra bu ideallar təcrübədə təsdiqini tapmışdır. Necə ki, Azərbaycan Xalq Cümhuriyyətinin mənəvi babaları Axundovlar, Zərdabilər, Hüseynzadələr, Ağaoğlular, Rəsulzadələr, Məmmədzadələr, Sabirlər, Cavidlər, Nərimanovlar, Hacıbəylilər, Cavadlar, Cabbarlılar olmuşlar.

XIX-XX yüzilliklərin ən böyük ideyalarını da məhz bu mənəvi-intellektual babalarımız vermişlər. Necə ki, XX əsrin ən böyük şüarlarından birini səsləndirən C.Məmmədquluzadə bu amalı uğrunda həyatı boyu çarpımışdır: "Vətən, vətən, vətən! Millət, millət, millət! Dil, dil, dil!". Y.Qarayevin "Axundovdan sonra öz ictimai-siyasi görüşlərini bir ideoloq, dövlət adamı, ictimai xadim səviyyəsində şərh edən ikinci böyük yazıçımız" adlandırdığı (50, s. 242) Mirzə Cəlillə birlikdə mövcud ictimai mühitə, quruluşa, cəmiyyətə qarşı çıxarkən Sabirin də idealları "Molla Nəsrəddin"in vahid ideya təliminə uyğun idi (50, s. 275).

Beləliklə, yüz illik yeniləşmə prosesinin zəminində yeni bir əsrə qədəm qoymuş Azərbaycan cəmiyyətindəki mədəni tərəqqi hərəkatı bütün aşkarlığı ilə milli bir şəkil və mahiyyət almağa başlamışdı. İmperatorluq daxilində cərəyan edən liberal və istiqlalçı cərəyanlarla həmahəng olaraq irəliləyən bu hərəkat bir tərəfdən də, bütün Rusiyadakı müsəlmanların milli mədəni

haqlarını tələb edirdi. "Eyni zamanda bu hərəkatda başlıca iki cərəyan gözə çarpırdı: yaş etibarı ilə daha böyük nəslə mənsub, Rusiyada ali təhsil görən, əksəriyyətlə əski zadəgan siniflərindən çıxan münəvvərlər rus liberalizmi ilə bərabər getdikləri halda, daha ziyadə milli tərbiyə görən gənc nəsil Rusiya cəmiyyətçiliyinin radikal və inqilabçı cərəyanlarına təmayül göstərirdi" (127, s. 163-164). Müsəlman əleyhdarlığı mahiyyətində siyasət yürüdən çarizmin ümumi sıxıntısı altında olduqlarından Rusiya müsəlmanları siyasi fəaliyyətlərini eyni istiqamətə yönəldərək istər ideoloji, istərsə də təşkilati baxımdan sıx əlaqədə fəaliyyət göstərirdilər. Bu ümumrusiya müsəlman hərəkatında Azərbaycan cəmiyyətinin nümayəndələri bu və ya digər şəkildə aparıcı rol oynamışdır.

Azərbaycanın ictimai-siyasi və mədəni hadisələrlə çox zəngin olan bu dövrü – XX əsrin əvvəlləri artıq sinfi mübarizənin kəskinləşməsi, milli azadlıq hərəkatının coşması və tədricən yeni mərhələyə qədəm qoyması ilə müşayiət olunurdu. Azərbaycan milli burjuaziyası ilə millətçi ziyalıların həmrəyliyi və bu birlik ilə mübarizə mövqeyində duran sosializm ideyaları tərəfdarlarının çarpışmaları da bu dövrün səciyyəvi xüsusiyyətlərindəndir.

XX əsrin əvvəlinin böyük istiqlal hərəkatının öncə ədəbiyyatda və mətbuatda, böyük Azərbaycan ədəbiyyatının isə milli və ideoloji mübarizənin səngərində yaranması kimi çox məntiqi bir qənaəti Y.Qarayev də təsdiqləyərək yazır ki, "Molla Nəsrəddin" və "Füyuzat", "Açıq söz" və "Dirilik", "İqbal", "Həyat" və "İrşad" – az qala hərəsi bir partiya qədər bədii və ideya-siyasi iş görüb. Və əslində, istiqlalın fəlsəfəsi və ideologiyası ədəbi mətbuatda yaranıb, yayılıb, qalib gəlib. Milli quruluşun konsepsiyası, azadlıq və suverenliyin məfkurə və ideya təlimi böyük Mirzə Fətəlinin, Mirzə Cəlilin və Sabirin, Ə.B.Hüseynzadənin və Ə.Ağaoğlunun, Məhəmməd Hadinin və Üzeyir bəyin, M.B.Məmmədzadənin və M.Ə.Rəsulzadənin

elmi, ədəbi və təşkilati fəaliyyəti ilə hazırlanıb, bərqərar olub (7, s. 3).

Deməli, istiqlal və müstəqillik ideyası, 1918-1920-ci illərin Cümhuriyyət hərəkatı da əvvəlcə "ideya hərəkatı" kimi formalaşmışdır. Bu mənada tədqiqatçıların da yekdil fikri budur ki, mənəvi birlik və həmrəylik axtarışlarında olan Azərbaycan ədəbi-ictimai fikri bir neçə mərhələdən keçdi, milli ideya, bəxtini islamçılıqda, turançılıqda sınadıqdan sonra, nəhayət, özünü azərbaycançılıqda tapmış oldu. Həmişə olduğu kimi, yenə də xalq doğma torpaqdan, milli yaddaşdan, gendən doğulan ideyanı öz "mən"i, öz şəxsiyyəti, öz əxlaqı ilə ifadə və təmsil edənin – Rəsulzadənin ardınca getdi. Simvolikdir ki, məhz ən yeni Azərbaycan ideologiyasının öndəri olan Rəsulzadə ilk Azərbaycan Cümhuriyyətinin də banilərindən biri oldu. Başqa cür ola da bilməzdi: "Azərbaycan ideologiyası" yaranmadan müasir, azad, suveren Azərbaycan milləti, dili, dövləti yarana bilməzdi (7, s. 3-4).

Əsrlər boyu yürüdülən farslaşdırma və ruslaşdırma siyasətinin Azərbaycan mədəniyyətindəki mənfi təzahürlərinə baxmayaraq, artıq XX əsrin əvvəllərində milli özünüdərk, özünəqayıdış prosesi sürətlənmiş, milli mədəniyyətin qorunması və inkişafı yolunda mübarizədə xalqın müqavimət gücü artmış və nəticədə Azərbaycan xalqı bəşər mədəniyyəti tarixindəki mövqeyini mühafizə etməyə müvəffəq olmuşdur. Əzəldən təməlində demokratik dəyərlərin üstün olduğu Azərbaycan milli mədəniyyətinin XIX əsrin II yarısından etibarən Avropa mədəniyyətinə doğru meyllənməsi onun gələcək həyat yolunu, yaşayış tərzini müəyyənləşdirdi. XX əsrdə iqtisadi qüdrətə, siyasi fəallığa, mədəni intibaha nail olmuş Azərbaycan cəmiyyətində görkəmli şəxsiyyətlərin yetişməsi üçün münbit mühit yaranmışdı. Bu şəxsiyyətlərin – milli ruhlu zənginlərin və demokratik ziyalıların həmrəyliyi nəticəsində xalq öz etibarlı və təminatlı gələcəyi üçün istiqlalın zərurətini dərk etməyə başlamışdı.

Ömrünü xalqının, millətinin varlığına, onun mədəni intibahı yolundakı mübarizəsinə həsr etmiş Azərbaycan mütəfəkkirləri məhz belə bir mühitin yetirməsi idilər. Qədim tarixə, zəngin varislik ənənəsinə malik Azərbaycan mədəniyyəti ilə müasir Avropa mədəniyyətinin yüksək nailiyyətlərinin çulğaşdığı yeni mədəni mühitin yetirməsi olan bu ziyalılar ölkənin və xalqın gələcək taleyində mühüm rol oynadılar. Azərbaycan mədəniyyətinin son yüzillik boyu əldə etdiyi nailiyyətlər, qabaqcıl ideyalar həmin ziyalıların ictimai-siyasi görüşlərinin və kulturoloji baxışlarının təşəkkülündə mühüm rol oynamışdır. Hətta deyə bilərik ki, XX əsrin əvvəllərinin milli-mədəni intibahına öz töhfələrini vermiş bu şəxsiyyətlər Azərbaycan xalqının əsrlər boyu yaratdığı böyük və zəngin mədəniyyətinin, onun humanist hisslərinin, qabaqcıl ideyalarının, müqəddəs ideallarının məntiqi sonucu, qanunauyğun bəhrəsi idilər. Lakin onlar, keçmiş yolları təkrar etmədilər, mədəni irsdən yaradıcı şəkildə istifadə etməklə dövrün tələbindən doğan zəruri, müasir, demokratik və həm də orijinal fikirlərin bayraqdarı və carçısı oldular. Bununla da təkcə Azərbaycanın deyil, bütün Yaxın Şərq xalqlarının mədəniyyət tarixində örnək bir cəmiyyətin qurucuları səviyyəsinə yüksəldilər.

## Tarixi-mədəni mühit və milli şüur

XX əsrin əvvəllərindən etibarən Rusiyanın türk-müsəlman xalqlarında milli düşüncəyə qayıdış prosesi geniş miqyas alırdı. Tədqiqatçıların bir qismi həmin dövrə aid milli düşüncə anlayışını xarakterizə edərkən etnik düşüncə ilə dini düşüncənin müasir təfəkkür tərzində vəhdətini nəzərdə tuturlar. Bu mənada Azərbaycanda Qərbə baxış və ya Avropa mədəniyyətinin təcrübəsindən faydalanma təcrübəsi özünü ilk növbədə Osmanlı nümunəsində ortaya qoymaqdadır. Məsələyə digər tərəfdən baxıldıqda isə görürük ki, Osmanlı imperiyasında da milli düşüncə ilk növbədə Rusiya türkləri vasitəsilə gündəmə gəlmişdir. Bu mənada Azərbaycanda türk şüurunun yaranması bəzi tədqiqatçıların iddia etdiyi kimi heç də Türkiyədən gəlmiş emissarların xidməti deyildi (15, s. 17). Bu proses, ilk növbədə, keçmiş Rusiya imperiyasının türk xalqları arasında müşahidə olunan "milli ruhun güclü yüksəlişi" (79, s. 102) ilə bağlı idi. Çar Rusiyasında türkçülük ideyasının yayılmasına təkan verən əsas amillərdən biri isə türklərə qarşı ruslaşdırma və xristianlaşdırma siyasəti idi. Rusiya imperiyası tərkibində türkçülük bir neçə istiqamətdə özünü büruzə verirdi. Belə ki, başlanğıcda türklərə də sadəcə xaçpərəst xalqlarla bərabər hüquq verilməsi məsələsi qaldırılırdısa, getdikcə bu proses türk xalqlarının Rusiya tərkibində muxtariyyət hüququ uğrunda mübarizəsinə çevrildi və sonda türk xalqları milli istiqlal davasına başladılar.

Bu dövrdə Azərbaycan türklərinin özünüdərketmə, maariflənmə, həmrəylik meyllərinə istiqamət verən ziyalılar müxtəlif konsepsiyalarla çıxış etsələr də, ümumi gedişat milli bir məcraya yönəlirdi. Türk dilində maariflənmə işinə daha çox diqqət yetirilməsi, milli məktəblərin yaradılması istiqamətdə uğurlu addımların atılması, mətbuat sahəsində bu vaxtadək görünməmiş bir canlanmanın müşahidə edilməsi, türk dilində dramaturgiya, teatr, opera, operettanın inkişafı və digər mədəni-maarif fəaliyyətləri Azərbaycan türklərinin milli özünüdərkinin mühüm amilləri idi.

Milli düşüncəni və adət-ənənələri inkişaf etdirmək, ümumi türk xalqını vahid bir sistem şəklində dərk etmək, türk xalqları arasında dil və kültür birliyini inkişaf etdirmək ideyalarının cəmiyyətdə özünə sosial baza tapması artıq türkçülük meyllərinin yaranması idi. Bu meyl heç də xalqın islam dininə olan etiqadını zəiflətmir, əslində tarixən bir-birinə daha sıx bağlı olmuş türk xalqlarının min illik inanclarına yeni bir rəng qataraq imanlarını daha da kamilləşdirirdi. Doğrudur, siyasi türkçülüyün baniləri azərbaycanlıları müstəqil və əlahiddə bir millət kimi deyil, "vahid türk millət"inin tərkib hissəsi kimi qəbul edirdilər. Lakin Ə.Hüseynzadə və Ə.Ağaoğlu tərəfindən irəli sürülmüş ümumtürk ideyaları türklərin milli mənlik şüurunun ümummüsəlman kontekstindən aralanması prosesini sürətləndirərək, bununla da, gələcəkdə azərbaycanlıların milli özünüdərkinin formalaşması üçün zəmin yaratmış oldu.

Milli düşüncənin türkçülük istiqamətində inkişafını islamdan imtina kimi qələmə vermək istəyən tədqiqatçılar çox vaxt bu təmayülü "pantürkizm" və ya "panturanizm" kimi təqdim edərək burada adətən anti-humanist və anti-demokratik ünsürlər axtarmağa çalışırdılar. Əslində isə türkçülük ideyasının təməlində heç bir zaman kiməsə qarşı heç bir aqressiv məqsəd olmamışdır. Sonrada bu ideyadan siyasi məqsədlər üçün yararlanmaq istəyənlər də olmuşdur. Bu mənada türkçülüyün dövlətçilik ideyası üç mərhələdən keçmişdir: Rus imperiyası tərkibində muxtariyyət ideyası, Osmanlı imperiyası şəklində birləşmək ideyası və türk xalqlarının hər birinin müstəqil şəkildə inkişafını təmin edəcək milli istiqlal mərhələsi.

Təbii ki, bu ideyaların heç birindən məqsəd "dünyanı zəbt etmək", yaxud "başqa xalqlardan öz üstünlüyünü təsdiq etmək"dən ibarət deyildi. Əsas məqsəd, birləşərək, etnik həmrəyliyə nail olaraq, rus çarizminin istismarından, cəhalətdən, gerilikdən qurtararaq müasirləşmək, dövlətçiliyi və milli düşüncə yaddaşını bərpa etməkdən ibarət olmuşdur. Yalnız bütün türk xalqları bir dövlətdə birləşməlidirlər, yoxsa hər bir xalq öz

dövlətini yaratmalıdır dilemması qarşısında qalan ziyalılar bir müddət problemin müzakirəsi ilə məşğul oldular. Lakin tarixi gedişat və dünyanın diktə etdiyi gerçəklik ilk mərhələdə türk xalqlarını vahid ideallar mövqeyindən birləşdirərək inkişaf və azadlıq yoluna çıxartdı, sonra isə hər bir türk xalqı öz müstəqil dövlətini qurmaq uğrunda mübarizəyə başladı.

Türkçülüklə bağlı tədqiqat əsərlərində (28; 29; 97) türkçülüyün ideoloqlarından əsasən dörd nəfərin adı çəkilir: İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Yusif Akçura və Ziya Göyalp. İ.Qaspıralı türkçülüyün mahiyyətini "Dildə, fikirdə, işdə birlik" deyimində görürdü ki, bu düsturda dilin ortaq inkişafını, milli düşüncənin vahid türk düşüncəsi kontekstində formalaşmasını və nəzəri ideyaların əməli fəaliyyətə tətbiqində birliyi ön plana çəkirdi. Göründüyü kimi, burada türk birliyinə siyasi rəng qatacaq heç bir element yoxdur. Ə.Hüseynzadə isə əvvəldən milli düşüncə tərəfdarı olmaqla bütün türk xalqlarının osmanlıcanı ədəbi dil kimi mənimsəmələrinə çalışmışdır. Bununla yanaşı, həm də islam birliyi tərəfdarı olan Ə.Hüseynzadə bütün türk xalqlarını azadlıq uğrunda mübarizəyə səsləyirdi. Bu şəxslərin əsas məqsədi tarixən mövcud olmuş türk milli düşüncəsinə, birliyinə və həmrəyliyinə yeni can və ruh vermək olmuşdur. Klassik türkçülük dövrünün təmsilçilərinin əsas ideya istiqaməti, hətta siyasi baxımdan da bütün türk xalqlarını ehtiva edirdisə, sonrakı dövrün türkçülərində milli istiqlal ideyası ön plana çıxır. Belə demək mümkündürsə, artıq siyasi "pantürkizm" öz yerini daha çox milli-mənəvi birlik kontekstindən dəyərləndirilən turançılığa buraxdı. Türkçülüyün geniş siyasi dərki Türkiyədə "türkiyəçilik", Azərbaycanda isə "azərabcançılıq" şəklində anlaşılmağa başlandı. Həm Türkiyədə, həm də Azərbaycanda bu ideologiya tərəfdarları (Atatürk, Ə.Topçubaşov, N.Usubbəyov, M.Ə.Rəsulzadə, F.Xoyski, N.Nərimanov və b.) dünyanın siyasi gerçəkliklərindən çıxış edirdilər ki, hadisələrin sonrakı gedişatı da onların haqlı olduqlarını təsdiqlədi.

Azərbaycanda milli şüurun oyanmasının XX əsrin əvvəllərində reallaşması faktına əsaslanan tədqiqatçı A.Əliyevaya görə, Abbasqulu ağa kimi Mirzə Fətəli Axundovun əsərlərində milli şüur, millət anlayışı hələ yox idi. Tez-tez işlətdiyi "İslam xalqı", "İslam milləti", "Müsəlmanlar", "Müsəlman tayfaları" kimi ifadələr müsəlman xalqları əhatə edirdi və sırf ümmətçilik prinsiplərinə dayanırdı. "Qətiyyətlə demək olar ki, Bakıxanov, M.F.Axundov və Zərdabi dövrü Azərbaycanda ümmətçilik dövrü kimi səciyyələndirilə bilər. Mirzə Fətəli Axundovu Şərq xalqlarının, xüsusilə, vətən saydığı İranın, "İran millətinin" gələcəyi düşündürürdü. "İran milləti" dedikdə o, İranda yaşayan bütün xalqları nəzərdə tuturdu, özünü də bu millətə mənsub sayırdı" (28, s. 90; 5, s. 183). Yeri gəlmişkən, Ə.Ağaoğlu da məlum səbəblər üzündən Fransa dövrü yaradıcılığında özünü iranlı milli kimliyinə bağlamışdır (2). Bu mənada XX əsrin əvvəllərində Azərbaycan ziyalıları milli kimlik axtarışları istiqamətində ciddi işlər görürdülər.

Bəzən tərəqqi amili hesab edilən proseslərin arxasında da Rusiyanın gizlin niyyətlərinin dayanması gerçəkliyi bir sıra tarixi faktlarla təsdiqlənməkdədir. Məsələn, Çar Rusiyası Quzey Azərbaycanda fars dilinin nüfuzunu zəiflətmək, ölkəni İran, Türkiyə təsirindən uzaqlaşdırmaq üçün ədəbiyyatın "tatarca", Azərbaycan türkcəsində yaradılmasını məqsədəuyğun saymışdır. M.F.Axundov bu tələbin ilk və ən uğurlu icraçılarından biri kimi çıxış edirdi (28, s. 93). Yazdığı komediyaların Qafqaz valisi M.S.Vorontsovun diqqətini cəlb etməsi, bu əsərlərə görə maaşının 500 manat artırılması, komediyaların Vorontsovun əmri ilə xəzinə hesabına çap olunması və Tiflis teatrında tamaşaya qoyulması faktları barədə M.F.Axundovun öz qeydlərindən də bilgi ala bilirik (5, s. 51). O, bütün yaradıcılığı boyu yazdıqlarının rus hökuməti üçün "faydasız olmaması" qayğısına qalmaq məcburiyyətində idi. Yazdıqlarının bu hökumətin siyasətinə uyğun gəlməsinə çalışırdı. "Kəmalüddövlə məktubları"nda başqa dinləri kəskin tənqid etdiyi halda, xristianlıq

əleyhinə bir kəlmə də yazmaması, "ərəblərin mənfur dininə qarşı" olduqca sərt davranması həm də rus hökumətinin tədbirlərinə qarşı çıxmamaq məqsədi güdürdü. Tədqiqatçı A.Əliyeva bu gerçəkliyi nəzərdə tutaraq yazır ki, "bütün bunlar zamanla, dövrlə, mövcud şəraitlə şərtlənirdi və M.F.Axundov bu tələblərlə hesablaşmaya bilməzdi" (28, s. 93). M.F.Axundov Azərbaycanda elmin, maarifin yayılmasında islam dinini başlıca maneə sayır, dövrün əsas fikir cərəyanlarından olan islamlaşmağa qarşı çıxırdı. Lakin bu birtərəfli baxış onun müasirləri və ardıcılları tərəfindən haqlı olaraq ciddi etirazla qarşılanmışdı. Qafqaz şeyxülislamı şeyx Ə.Səlyani, H.Zərdabi, İ.Qaspıralı, Ə.Ağaoğlu, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə və s. islam dini ilə dünyəvi elmlər arasında heç bir ziddiyyət olmadığını, islamın müsəlmanların geriliyinin aradan qaldırılmasına əsla maneçilik törətmədiyini təsdiqləyirdilər (28, s. 94). Təbii ki, tədqiqatçıların bu xarakterli tənqidlərinin obyektiv əsasları da vardır. Bununla belə, M.F.Axundovun birmənalı şəkildə dinsiz, Allahsız adlandırılması və onun islam dininin düşməni kimi təqdim edilməsi səylərinə qarşı çıxan tədqiqatçılar da vardır. Məsələn, sovet ideoloji prinsiplərindən çıxış edən tədqiqatçıların əksinə olaraq mühacir Azərbaycan ziyalılarının, xüsusilə də M.Ə.Rəsulzadə və M.B.Məmmədzadənin yazılarında M.F.Axundaovun islam dininə mövqeyi tamamilə əks mövqedən şərh edilir (111; 114; 115; 132; 135).

Rusiya imperiyasının qərəzli mövqeyinə, milli özünüdərketmə prosesini əngəlləmək üçün yaratdığı bütün çətinliklərə baxmayaraq, yeniləşmə dövrünün mütərəqqi irsindən faydalanan ziyalılar artıq XX əsrin əvvəllərində milli şüurun inkişafına təkan verən hər bir fəaliyyətə rəvac verirdilər. Aydın məsələdir ki, milli özünüdərk prosesinin subyektiv amilləri obyektiv hadisələr kontekstində təhlil edilməlidir. Belə ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində dünyada müşahidə edilən millətçilik təmayülləri xüsusilə, müstəmləkə şəraitində yaşayan xalqlarda millətçilik ruhunun, milli düşüncənin, eyniadlı xalq-

lar arasında həmrəyliyin bərpasına gətirib çıxartmışdır. Təbii ki, milli düşüncə və ya millətçilik ehtiyacını doğuran səbəblər içərisində istismar, işğal və müstəmləkə zülmündən xilas olma istəkləri dururdu. Eyni zamanda bu qeyri-insani gerçəklik faktları "xalqların alçaldılması nəticəsində toplanmış düşüncələrdən, ağrılardan yaranıb, onları milli azadlıq yoluna çıxartdı. Hakim xalq müstəmləkə altında olan xalqı dilindən, dinindən, tarixindən çəkindirmək məqsədi güdürsə, milli azadlıq yoluna çıxan xalq məhz bu prinsipləri öz fəaliyyət proqramına daxil edir. Milli azadlıq hərəkatı milli düşüncə amili inkişaf etmədən yarana bilməzdi. Beləliklə, hakim xalqın milli ideologiyasına zidd olaraq müstəmləkə altında zülm çəkən xalqda millətçilik ruhu yaranır, o öz növbəsində milli ideologiya şəklində sistemləşir və milli azadlıq hərəkatının aparıcı qüvvəsi olur" (29, s. 162).

Fikrimizcə, ümmətçilik düşüncəsindən milli kimliyə keçidin şərtlərinə baxıldığı zaman bir məqam diqqətdən qaçırılmamalıdır. Yəni, milli özünüdərk prosesinin start götürməsinə kimi ziyalıların mədəni tərəqqiyə yönəlmiş fəaliyyətlərini dini mənsubiyyətə istinad edərək aparmalarının əsas səbəblərindən biri yerli müsəlmanlar arasında dominant olan türklərdən fərqli olaraq türk olmayan əhalinin də nəzərə alınması idi ki, həmrəylik və birlik baxımından bu amilin əhəmiyyəti, heç şübhəsiz, danılmazdır. Əslində isə türkçülük bir milli düşüncə olaraq tarixən türklərin həmrəyliyinin əsas amili olmuşdur. Bu amil bəzən diqqətdən yayınsa da tarixi zərurət türklük düşüncəni bərpa edərək yenidən gündəmə gətirmişdir. Tədqiq edilən dövrdə də türkçülük bir neçə istiqamətdə təzahür edirdi ki, A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlı, Mirzə Kazımbəy, M.F.Axundov, Q.Zakir, S.Ə.Şirvani, Ş.C.Əfqani, H.Zərdabi ilə başladılan bu yolu İ.Qaspıralı, Ə.Hüseynzadə, Z.Göyalp, Y.Akçura, M.Ə.Rəsulzadə, N.Yusifbəyov, Ə.Topçubaşov, F.Xoyski, M.B.Məmmədzadə kimi bir çox milli əqidə sahibləri uğurla davam etdirdilər.

Deyilməlidir ki, türkçülük ideyalarının yayılmasında obyektiv səbəblər öndə gəlirdi və bu, ilk növbədə Rusiya imperiyasının məhkum türk xalqlarının milli tərəqqi və mədəni inkişaf yoluna çıxmaq istəyinin təzahürü idi. Ona görə də Ə.Hüseynzadənin konsepsiyası türk şüurunun xalq kütlələrinə nüfuz etməsinə şərait yaradır və obyektiv olaraq özünəməxsus milli özünəməxsusluq axtarışlarının fəallaşmasına, paralel olaraq isə dini amilin rolunun azalmasına səbəb olurdu. Mahiyyət etibarı ilə, türkçülük ideyaları türk xalqlarının milli mənlik şüurunun dünyəviləşməsi, dini buxovlardan azad olması prosesinə təkan vermişdir.

Ə.Hüseynzadə və onun ardıcılları islami dəyərlərə sədaqət və ehtiramlarını nə qədər vurğulasalar da, türkləri "Məkkədən Altaya doğru" döndərən turançılıq obyektiv olaraq islamın mövqelərinin zəifləməsinə gətirib çıxardı. Belə ki, "vahid türk milləti" konsepsiyasının təşəkkülü və inkişafı Rusiya imperiyasının türk xalqları, ilk növbədə azərbaycanlılar və Volqaboyu tatarları arasında ümumtürk şüurunun formalaşması prosesinin başlanğıcını qoymuş oldu ki, tədqiqatçı A.Balayev haqlı olaraq bu hadisəni türk xalqlarının milli inkişafında dönüş nöqtəsi adlandırır (15, s. 19-20). Çünki Ə.Hüseynzadənin konsepsiyası obyektiv olaraq Azərbaycanda milli birlik və özünəməxsusluq axtarışlarını fəallaşdırırdı. M.Ə.Rəsulzadə də təsdiqləyir ki, bu dövrdə "ictimai ideologiyanın bütün sisteminin dini islamçılıq sistemindən milli türkçülük sisteminə keçidi başlandı". Məhz Ə.Hüseynzadənin türkçülük konsepsiyasına əsaslanan M.Ə.Rəsulzadə sonradan azərbaycançılıq nəzəriyyəsini işləyib hazırlayaraq, Azərbaycan türk millətinin suverenliyi və müstəqilliyini, onun öz milli dövlətini yaratmaq haqqını təsdiqləmişdir (15, s. 21). Deməli, Ə.Hüseynzadənin işləyib hazırladığı türkçülük konsepsiyasını Azərbaycan türklərinin ümmətçilikdən milli kimliyə doğru inkişafında keçid mərhələsi hesab edə bilərik. Bunu nəzərdə tutaraq M.Ə.Rəsulzadə yazırdı: "panislamizmdən xilas olan türk ictimai-siyasi fikri birdən-birə bu gün əsaslandığımız real-milli ideyaya gəlib çata bilməzdi. Psixoloji

cəhətdən bu anlaşılandır. Müharibə və ümumi təhlükə şəraitində islam birliyi kimi böyük və əhatəli şüardan imtina edən millətçilər onun əvəzinə eyni təsir gücünə malik bir şüar irəli sürməli idilər. Bu isə yalnız "Dunaydan Altaya qədər bütün türk xalqlarının birliyi" şüarı ola bilərdi" (79, s. 102). Azərbaycan cəmiyyətində məhz belə bir ideya bünövrəsi üzərində inkişaf edən milli özünüdərk və modernləşmə proseslərinin inkişafı nəticəsində "sırf Azərbaycan milli identikliyinə əsaslanan azərbaycançılıq konsepsiyası ortaya çıxmış oldu ki, həmin konsepsiyanın işlənib hazırlanmasında Azərbaycanın intellektual elitasının gənc nəslinin nümayəndələri – M.Ə.Rəsulzadə, N.Usubbəyov və başqaları həlledici rol oynadılar" (15, s. 28).

Türk dünyasının gələcəyini "türklərin mənəvi birliyi" şəklində təsəvvür edən Ə.Hüseynzadənin "Həyat" qəzetinin ilk sayında dərc edilmiş "Qəzetimizin məsləki" məqaləsindəki (36; 40, s. 66-71; 41, s. 102-106) məntiq bunu deməyə əsas verir ki, o, türk dünyasını nə müstəqil, nə muxtariyyət vəziyyətində deyil, hələlik Rusiya imperiyasının sərhədləri daxilində görürdü. Sonrakı yazılarında isə o, sadəcə, türklərin Rus imperiyasına qarşı mübarizəsi məsələsini qaldırır və hər hansı bir dövlət qurumundan söhbət açmır. Çünki 1904-1905-ci illərdə hələlik milli şüurun oyadılması uğrunda çalışan Ə.Hüseynzadə həmin məqaləsində üç həmrəylik sistemini açıqlayırdı: türkçülük, islamçılıq və rus vətəndaşlığı. Lakin sonrakı illərdə "türkçülüyün siyasi tərəfi onun üçün Rusiya çarizmi ilə mübarizədən ibarət" (29, s. 176) oldu. "Füyuzat"ın 23-cü sayında (1907) çap olunmuş "İntiqad ediyoruz, intiqad olunuyoruz" məqaləsində isə artıq Ə.Hüseynzadənin fikirlərində xeyli inkişaf nəzərə çarpır: "Fədai lazımdır, fədai. Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafəli fədai". Həmin məqalədə o, öz siyasi baxışının çox aydın bir tezisini verir: "Füyuzat"ın tutduğu yol türkçülük, müsəlmanlıq və avropalılıqdır. Türk hissiyyatı ilə mütəhəssis, islam dini ilə mütədəyyin və Avropa mədəniyyəti-hazirəsilə mütəməddin olmaqdır. Yoxsa farslaş-

maq, Zərdüştün sönmüş mədəniyyəti ilə mədəniləşmək deyildir" (41, s. 255-264).

Bu dövr yazılarından göründüyü kimi, Ə.Hüseynzadənin baxışlarında hələ ki, türk dövlətçiliyinə aid konkret bir konseptual ideya gözə dəymir. Əslində buna heç ictimai-siyasi şərait də imkan vermirdi və bu dövrdəki vəziyyətə diqqət yetirdikdə görürük ki, müsəlmanları dini və milli düşüncələrindən döndərmək hətta Çar Rusiyasının dövlət səviyyəsində yürüdülən bir siyasət idi. Məsələn, Kazan universitetinin professoru, xristianlaşdırma (ruslaşdırma) layihəsinin əsas müəllifi olan türkoloq və islamşünas alim N.İ.İlminski, məqsədyönlü şəkildə türk dilini öyrənmişdi, habelə müsəlmanları öz dinindən döndərə bilmək üçün islam dinini də öyrənməyə müvəffəq olmuşdu. Bu məsələdə çar hökuməti ilə razılaşdırılmış mövqedən çıxış edən və əsas məqsədi türk xalqlarının milli və dini assimilyasiyasını sistemli şəkildə həyata keçirmək olan İlminskinin siyasəti bəzi rus alimləri tərəfindən "İlminskinin xristianlıq maarifpərvər sistemi" adlandırılırdı. O, hesab edirdi ki, ilk növbədə xristianlaşma hər kəsin öz ana dilində aparılmalıdır. Tədricən yaranacaq xristian düşüncəsi onları öz ana dilindən və milli düşüncəsindən uzaqlaşdıraraq ruslaşdıracaq (29, s. 179).

Belə bir qərəzli siyasət bir tərəfdən Azərbaycan türklərinin milli-mədəni inkişafını ləngidirdisə, digər tərəfdən də məhz milli özünüdərkin inkişafına təkan verən əsas amillərdən birinə çevrilirdi. Həmin dövrdə Azərbaycanda mütəşəkkil siyasi təşkilatlar olmasa da, artıq xalq XX əsrə yeni ziyalı zümrəsi ilə daxil olmuşdu ki, onların əksəriyyəti mədəni-maarif fəaliyyəti ilə məşğul idilər. Ümidverici amillərdən biri də bu idi ki, Azərbaycan milli burjuaziyası xarici kapitalistlərlə rəqabətdə üstünlüyü ələ almaq üçün milli-mədəni tərəqqiyə, milli şüurun formalaşmasına çalışırdılar. Məhz bu yerli sərmayənin himayəsi sayəsində Azərbaycan mədəni mühiti formalaşır, mətbuat,

teatr, musiqi, ədəbiyyat inkişaf edir, texniki tərəqqi sahəsində modern təcrübə mənimsənilirdi.

Azərbaycanının həmin dövr milli-mədəni həyatını təhlil edən H.Baykaranın belə bir qənaəti bizə görə daha məntiqi görünür ki, əgər tarixi mühitin bu şərtləri yetişməsəydi, milli şüurun formalaşdırılması baxımından yalnız ziyalıların fəaliyyəti bu tezliklə öz bəhrəsini verməzdi: "Tarixin axışı içində şərtlər hazırlanmış deməkdir. Yoxsa Azərbaycana milliyyətçilik fikrini Əhməd Ağaoğlu Fransadan, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə İstanbuldan gətirdi düşüncəsi yanlış və əsassızdır. Zəmin hazır olmadıqca kənardan heç bir şəxs, heç bir fikri gətirib bir cəmiyyətin həyatına yerləşdirə bilməz" (100, s. 82).

Həqiqətən də tarixi təcrübə göstərir ki, xalqın bir millət olaraq meydana çıxması bir sıra tarixi, iqtisadi, sosial-mədəni şərtlərə bağlıdır ki, bunlar içərisində etnik birliyə və kökə bağlılıq da mühüm əhəmiyyət kəsb edir. Deməli, millət fərdləri arasında tarix birliyi, dil birliyi, ideal birliyi, kültür və mənfəət birliyi kimi ünsürlərin mövcud olması əsas şərtdir. Milləti təşkil edən insanlar arasında bir-birlərinə bağlılıq və tarixi keçmişə aid qürurverici xatirələr ümumi anlayış və ortaq bir düşüncə yaratmaqdadır.

Kapitalizm dövrünün sənaye, maliyyə, mexanikləşmiş kənd təsərrüfatı, çox geniş və qarışıq ticarət məsələlərini özündə ehtiva edən problemlər hər bir millətin mədəniləşmə dövrü üçün xarakterikdir. Çarlıq rejimi Azərbaycan türklərinə bu problemlərini həll etmək üçün imkan verməsə də xalqın yüksək yaradıcı zəkası bu işdə tənzimləyici rol oynamışdır. Belə bir mühitdə Azərbaycan türk cəmiyyəti bir millət olaraq ortaya çıxma şüuruna yiyələnməyi bacarmışdır. Çünki bir xalqın millət olaraq meydana çıxması üçün, hər şeydən öncə, o xalqın tarixi-etnoqrafik birliyə malik olması, bəlli bir torpaq üzərində birlikdə yaşaması və bir cəmiyyət olaraq sosial həyat sürməsi zəruridir ki, bütün bunlar tarixən Azərbaycan türklərində vardı.

Milli məsələ Çar Rusiyası miqyasında hələ XIX əsrin axırlarında, kapitalizmin sürətli inkişafı şəraitində müzakirə olunmağa başlamış, XX əsrin əvvəllərindən, xüsusilə 1905-ci ildən sonra isə bütün kəskinliyi ilə meydana çıxmışdı. Böhranı şərtləndirən başlıca amillərdən biri, şübhəsiz, artıq bütün imperiyanı bürüyən və getdikcə şiddətlənən milli və inqilabi azadlıq hərəkatı idi. Cəmiyyətdə bu məsələ bir yandan məzlum xalqların milli şüurunun, milli birliyinin təşəkkül tapıb qüvvətləndiyi, o biri yandan da çarizmin əks-inqilabi və şovinist siyasət yeritdiyi şəraitdə müzakirə olunurdu. Şəraitin mürəkkəbliyi milli özünüdərklə bağlı məsələlərin müzakirəsini də çox mürəkkəbləşdirmişdi. Əziz Mirəhmədov çox haqlı olaraq yazır ki, azərbaycanlıların həmin dövrdə milli özünüdərk sahəsindəki fəallığı təkcə göstərilən tarixi hadisələrdən irəli gəlmirdi. "Qonşu İran və Türkiyədə milli-mədəni oyanış hərəkatları şəraitində baş qaldıran milli azadlıq hərəkatları da məsələnin həllinə bir sıra zəruri, ciddi çalarlar verirdi. Nəhayət, vəziyyəti mürəkkəbləşdirən hər addımda milli məsələ ilə çulğaşan islam dini və onun ətrafında cərəyan edən siyasi-ideoloji hadisələr idi ki, bu son səbəb Azərbaycanın öndə gedən ziyalıları, xüsusilə, islam dininin elm və mədəniyyət dini kimi mənimsənilməsinə çalışan mütəfəkkirlər üçün daha səciyyəvi idi" (66).

Təbii ki, cəmiyyətin və ictimai fikrin ayrı-ayrı dövrlərdəki inkişaf səviyyəsi ilə əlaqədar məsələlərin həllində də müxtəliflik yaranmışdı. Bu hala ən əvvəl müzakirədə iştirak edənlərin sinfi mövqeləri və elmi-nəzəri səviyyələrinin müxtəlifliyi səbəb olmuşdu. Azərbaycan mütəfəkkirinin məsələyə münasibətinin mahiyyətini təyin edən amillər və elmi-metodoloji qaynaqlar da rəngarəng idi. Bu işdə başlıca amil milli tarixi varlıq olsa da, onun uzun illər Rusiya və Qərb elmi mühiti ilə bağlılığı da hər halda öz işini görməmiş deyildi. Xüsusilə də, XIX əsrdə və XX əsrin əvvəllərində Osmanlı İmperatorluğunda müşahidə edilən "osmanlıçılıq", "qərbçilik", "islamçılıq" və "türkçülük" kimi əsas düşüncə cərəyanlarının təsirləri Azərbaycan ziyalılarının

ümmət və millət anlayışlarına baxış tərzlərində də özünü büruzə verməkdə idi.

Ümumiyyətlə, XIX yüzildə dünya mədəniyyət tarixinə ən çox təsir göstərən fikir milliyyət fikri olmuşdur. Y.Akçuranın təbirincə desək, milliyyət fikrinə, bu böyük qüvvətə heç bir şey qalib gəlmədi. Yüz minlərlə müntəzəm ordular, bu fikir qarşısında məğlub oldu. Bu gün milliyyət fikrini məğlub edə biləcək qüvvət, şiddət, zülm, top, tüfəng deyildir. Bəlkə milliyyət fikrinin ana və atası olan hürriyyət və bərabərlik fikirləri onu məğlub edə bilər... (97, s. 139).

XX əsrin əvvəlində Azərbaycan millətinin formalaşması ölkənin intellektual elitasının məqsədyönlü fəaliyyətinin nəticəsi idi. Azərbaycanlılarda milli özünəməxsusluğun inkişafında Ə.Hüseynzadə və Ə.Ağaoğlu tərəfindən işlənib hazırlanmış siyasi türkçülük ideyalarının təkanverici rolu isə xüsusilə vurğulanmalıdır. Əsasən türk xalqlarının həyatında hökm sürən ruslaşma və farslaşma siyasətinə qarşı irəli sürülən türkçülük ideyalarının Azərbaycan xalqının gələcək həyatındakı rolu bu baxımdan misilsizdir.

Ə.Hüseynzadə türkləşmək məramını məhz türkçülük ideologiyasının milli təməl prinsipi kimi təqdim edirdi. Onun əqidəsinə görə "O millət, o qövm səadət və nicat tapa bilər ki, öz qövmiyyətini, dilini, dinini, tarixini, adət və əxlaqını öyrənir". Göründüyü kimi Ə.Hüseynzadə XX əsrin ilk illərində türk xalqlarının ictimai-siyasi fikir tarixinə milli özünüdərk problemini gətirir və həmin xalqların "türk" adını təsdiq edir. Sonralar üçlü düstur şəklini almış üç cərəyan arasında bir harmonik tarazlığın yaradılması da ilk növbədə Ə.Hüseynzadənin adı ilə bağlıdır və belə bir mədəniyyət konsepsiyasına görə türkçülük ideologiyasının mənəvi prinsiplərindən biri islamlaşmaq olduğu üçün islam dininin ümumbəşəri mənəvi-əxlaqi dəyərləri öyrənilməli və mənimsənilməlidir. Onun "Allahını tanıyan millət milli birliyini də dərk edəcəkdir" tezisindən gəlinən qənaət bu idi ki, islam dini türk birliyinin,

milli mədəniyyətlərinin və əxlaqi sağlamlığının təməli olduğu üçün Qurani-Kərimin bütün müsəlman xalqlarının dilinə tərcümə edilib yayılmasını təqdir edirdi.

Beləliklə, milli özünüdərk prosesinə güclü təsirləri danılmaz olan Ə.Hüseynzadə XX əsrin əvvəllərində türkçülük sahəsində göstərdiyi fəaliyyəti ilə türk xalqlarını "yeni həyat məcrasına saldı". Məhz onun kimi ziyalıların başlatdıqları mədəni tərəqqi yolu tezliklə öz doğruluğunu təsdiqlədi: "ruslaşma və farslaşma üzündən türklüyünü qeyb edən Azərbaycanda başladığı cihadla az bir zaman içində vətənini bir fars əyalətindən məfkurəli və imanlı bir "türk yurdu"na çevirdi və bu yurdu çar Rusiyasına və erməni millətçilərinə qarşı qoydu" (41, s. 7-8).

Bu illərdə Azərbaycan ziyalılarının millətçilik yönündə çap etdirdiyi yazılar içərisində Ə.Ağaoğlunun "Kaspi" qəzetinin 1903-cü il 28 sentyabr tarixli sayında dərc edilmiş "Bizim millətçilər" adlı məqaləsi çox təbii olaraq "millətçilik" anlayışının izahı ilə başlanır. Ümumiyyətlə, hər hansı ölkədə millətin meydana çıxıb formalaşmasını o ölkənin tarixi inkişaf qanunauyğunluqları kontekstində izah edən müəllifə görə, "millətçilik öz-özlüyündə çox hörmətə layiq və hətta böyük bir xüsusiyyətdir, çünki o, xalqların həyatında labüddür. Mən hətta elə düşünürəm ki, bəşəriyyətin təkamül tarixində millətçilik insanın mənəviyyatında dindən sonra ikinci böyük mərhələdir. O, tarixdə çox böyük igidliklərin mənbəyi olmuş və hələ də olacaqdır. O olmasaydı, bir çox xalqlar hələ də yadların zülmü altında inləməkdə davam edəcəkdilər" (66). Dünya tarixində dindən sonra ikinci mühüm fenomen saydığı millətin meydana gəlməsini xalqın inkişafında yüksək mərhələ kimi səciyyələndirirkən Ə.Ağaoğlu müəllimi E.Renanın fikirlərinə istinadən yazır ki, millət "mənə həyat verən hər şeydir, nəfəs aldığım havadır, məni əhatə edən ideyalar, etiqadlar, ənənələr, tərəqqi və əxlaqın bütün ali ideallarının yekunudur" (66). Hərçənd ki, bu tərifdə hər hansı millətin formalaşması üçün zəruri şərtlərin ancaq bir qismi, o da mücərrəd halda müəyyənləşdirilmişdir: məhdud ölçüdə götürü-

lən coğrafi şərait; psixologiya; adət və ənənələr; tərəqqi və əxlaqın ali idealları. Ə.Mirəhmədova görə, bu izahatda çatışmayan başlıca komponent dildir. Ə.Ağaoğlu milləti ictimai birliyin ali, fövqəltarixi və fövqəlsinfi forması hesab edir. Lakin o, müasiri və qələm yoldaşı olan mütəfəkkirlərdən bir sıra məsələdə müsbət mənada fərqlənir. Mütəfəkkirə görə, özünə ehtiram tələb etməklə bərabər, başqalarının milli duyğu və düşüncələrinə də hörmət bəsləmək həqiqi millətçi üçün vacib şərtdir. Yalnız belə olduqda "mədəni bir dövlətdə bir neçə millət birlikdə yola gedə bilər", "tərəqqi və əxlaqın ali idealları" onların arasında "bağlayıcı halqa" olar; o ideallar ki, milli dövlət quruluşunun əsasını təşkil edir.

Ə.Ağaoğlunun XX əsrin ilk illərində millət və millətçiliyə mövzuya həsr etdiyi çoxsaylı məqalələrlə çıxış etməsi, modernist nəzəriyyə tərəfdarlarının "millətin formalaşması prosesi məhz millətçilik ideologiyasının meydana çıxdığı andan başlayır" fikrinə haqq qazandırmış olur. Çünki millətin mənşəyi haqqında modernist nəzəriyyənin mahiyyətinə uyğun olaraq (15, s. 6-7) Azərbaycanda millətçilik ideologiyasının yaradıcısı rolunda intellektuallardan ibarət olan kiçik bir qrup, əksər hallarda şəhər elitası çıxış edirdi. Həmin dövrdə ilk növbədə intellektual ziyalı mühitində müzakirə olunan və formalaşdırılan milli maraqlar konsepsiyası və millət obrazı sonradan xalq kütlələrinə translyasiya olunurdu. Deməli, o zaman milli maraqların ifadə forması olan "millətçilik – intellektuallar tərəfindən yaradılmış millətin təşəkkülü layihəsidir" fikri də özünü təsdiqləmiş olur.

Qeyd edək ki, Ə.Ağaoğlunu sonrakı, xüsusilə də Türkiyə dövründə yazdığı əsərlərdə millət məfhumuna bir az fərqli yanaşmalar da müşahidə edilir ki, bu münasibət onu modernist nəzəriyyə tərəfdarları ilə daha da yaxınlaşdırır.

1922-ci ildə silsilə məqalələr halında yazılmış, 1942-ci ildə isə kitab halında yayınlanmış "İxtilalmı, inqilabmı" adlı əsərində Ə.Ağaoğlunun millətə verdiyi tərif əvvəlki şərhlərindən müəyyən qədər fərqlənir: "Nation – millət ünvanını yalnız hey-

siyyət və şərəfini duymuş, istiqlal və hürriyyət eşqini dadmış və şərəfi-nəfsibəşər üçün, hürriyyət və istiqlalı vücud üçün ölmək lazım olduğunu idrak etmiş və gərək daxil və gərək xaricdə bu hürriyyət və istiqlala və onları təmin və təyin edən qəvaidə qarşı icra olunan bir təcavüzə təhəmmül edəməyən cəmiyyətlərə verirlər" (94, s. 60). Modernist konsepsiyanın mahiyyətində də belə bir ideya dayanır ki, müasir millətlər etnik və mədəni birliklərin inkişafının qabaqcadan müəyyənləşmiş kulminasiyası olmayıb, sırf siyasi mənşəyə malikdirlər. Başqa sözlə desək, etnosun millətə çevrilməsi heç də etnik zəmində kortəbii, öz-özünə inkişafın nəticəsində baş vermir. Millət – siyasi çalışmaların, ilk növbədə ayrı-ayrı intellektualların fəaliyyətinin məhsuludur (15, s. 7). Millətin meydana çıxmasında siyasi amilin mühüm rolunu qeyd edən E.Qellner də göstərirdi ki, "millət millətçiliyi deyil, əksinə, millətçilik milləti yaradır" (151, s. 104).

Deməli, millətçilik ideologiyasının yaranması bütün hallarda millətin təşəkkülü prosesindən öndə gəlir və onu şərtləndirir. Azərbaycan mühitində isə bu ideologiya Ə.Hüseynzadə və Ə.Ağaoğlu kimi türkçü ziyalılarla başladılmış və M.Ə.Rəsulzadə başda olmaqla bir qrup siyasilər tərəfindən praktik həllini tapmışdır. Bu ziyalıların mövzuya dair ortaq qənaətləri əsasən budur ki, millətin birlik və həmrəyliyi üçün onu təşkil edən fərdlərin və zümrələrin fikirlərdə, duyğularda və qənaətlərdə müvazinət və sabitlik halında olmaları, təxminən eyni şəkildə düşünmələri, eyni hadisədən eyni şəkildə təsirlənmələri, eyni qənaət və etiqadları bəsləmələri lazımdır. Millətin ortaq məfkurə ətrafında birləşməsi, ortaq iradəsi və ortaq həmlələr göstərməsi bundan doğacaqdır. Millətçilik hərəkatına ümumi qiymət verən M.B.Məmmədzadəyə görə, fərdin yalnız milli dövlət içində xoşbəxt ola bilməsi əsasdır. Millət isə yaşayan və arzu bəsləyən ictimai bir vücuddur. Fərd milli cəmiyyət içərisində nə qədər bir həqiqət və canlı bir amil isə, millət də bəşəriyyət ailəsində elədir. Milli cəmiyyət həyatında fərd nə

qədər haqq sahibi isə, bəşəriyyət ailəsində millət də elə bir haqqa sahibdir. Mədəni cəmiyyət həyatı, haqq və azadlıq sahibi fərdlərin birlikdə yaşaması ilə meydana gəlir. Ümumi bəşəriyyət həyatı da haqq və azadlıq sahibi millətlərin iş ortaqlığı deməkdir (63, s. 238-240; 121, s. 226-227).

M.F.Axundov və H.Zərdabi tərəfindən təməlləri qoyulan türk milliyyətçiliyinin əsl ağırlıq səhifəsi XX əsrin əvvəllərində Ə.Hüseynzadənin banisi olduğu siyasi türkçülük görüşlərilə açılır. XX əsrin əvvəllərində çarizmə qarşı etirazlarla başlanan hərəkat Ə.Hüseynzadənin rəhbərliyi altında siyasi, milli, ideoloji hərəkata çevrilir. Milli və siyasi əsarətə qarşı mübarizədə, türk xalqlarını sosial-demokrat inqilabçılarının silahlı döyüş meydanlarından çəkindirən Ə.Hüseynzadə onları təkamül yolu ilə tərəqqiyə çağıraraq yazırdı: "Biz bir təbii sövq ilə bütün millətlərin getdikləri yol ilə gedəcəyik. Millətlərin bir qismi yolun ortasında getdikləri və ya nəhayətinə yetişdikləri halda, digərləri isə o yolu başlarlar... Bu bir qanuni-təbiidir ki, adına evolyusiya, təkamül qanunu deyərlər... Biz də bu yol ilə gediyoruz... bu yolda biz hürriyyət, ədalət, müsavat deyə-deyə qanuni-əsasiyə doğru dərəcə-dərəcə yüksələk tərəqqi edəcəyik" (41, s. 6).

XX əsrin əvvəllərində millətçilik düşüncəsinin bəzi hallarda fərqli məcraya yönəldilməsində çarizmin qərəzli siyasəti nəticəsində ortaya atılmış münaqişələrin, xüsusilə də erməni-müsəlman qarşıdurmasının da rolu vardı. Bu mənada milli hərəkatın cəmiyyətin bütün təbəqələrini əhatə etməsi onun məzmun və istiqamətində tam bir mürəkkəblik, hətta hərcmərclik törətdiyi kimi, ictimai fikirdə də saysız-hesabsız istiqamət və təmayüllər əmələ gətirmişdi. Ədavətin hər iki xalq üçün, onların azadlıq hərəkatı üçün faciəli nəticələr verə biləcəyini başa düşən tərəqqipərvər qüvvələr münaqişənin aradan qaldırılması yollarını arayırdılar (66).

"Difai"nin başçılarından Ə.Ağaoğlu bir sıra Azərbaycan şəhərlərinə gedərək yerlərdə partiyanın məhəlli şöbələrini təşkil etmişdi. Gəncədə təşkilat Komitəsinə Ələkbər və Ələsgər

Xasməmmədov qardaşları, həkim Həsən Ağayev, Ələkbər bəy Rəfibəyli, şeyxülislam Molla Məhəmməd Axundzadə və başqaları daxildi. Münaqişənin aradan qaldırılması üçün Azərbaycan ziyalıları yazılar yazır, çıxışlar edirdilər, o cümlədən 1905-ci ilin payızında Gəncə came məscidində Ə.Ağaoğlunun çıxışı da, Gəncə müsəlmanlarının deputatı Ədilxan Ziyadxanovun Dumadakı nitqi bu problemin mahiyyətinin şərhinə həsr edilmişdi. Hər iki xalqı barışmağa çağıranlar arasında Zaqafqaziyanın A.Sereteli, A.Şirvanzadə, M.Şahtaxtinski kimi qabaqcıl simaları vardı. 1906-cı ilin fevral ayında Tiflisdə Qafqaz canişin Voronsov-Daşkov, onun müavinləri – generallar Sultan Krım Girey, Malama və Şirinkinin başçılıq etdikləri yığıncağa azərbaycanlılardan Ə.Ağaoğlu, Ə.Topçubaşov, M.Şahtaxtinski, İ.Vəkilov, Q.Qarabəyov və başqaları, ermənilərdən Kalantar, A.Xatisov, S.Arutyunov, Taqionosov və başqaları toplanmışdı (66; 41, s. 136-140).

Münaqişəli hadisələrlə xarakterik olan 1905-1907-ci illər inqilabı dövrü Azərbaycan ziyalılarının dünyagörüşündən də yan ötməmiş, onların milli düşüncələrinə yeni ideya və konsepsiyalar da əlavə etmişdir. Bunlar içərisində milli inkişaf və milli hərəkatda birlik və həmrəylik ideyaları aktual və məntiqi olsa da, təəssüflər olsun ki, H.Zərdabi və N.Nərimanov, Ə.Haqverdiyev, Ə.Hüseynzadə və Ə.Ağaoğlu ilə başladılan bu təşəbbüs və səylər o zaman böyük müqavimətə rast gəlirdi. Bunun əsas səbəbləri, H.Z.Tağıyev kimi bir neçə zəngin istisna olmaqla, digərlərinin kapital yığımına aludəliyi, əhalinin dini-mövhumata uyması, milli mənliklərini lazımınca dərk etməmələri idi.

Amma milli-mədəni intibah yolundakı maneələrə baxmayaraq artıq özünüdərk prosesi başlamışdı. Azərbaycan cəmiyyəti özünün qaynar, coşqun və həlledici milli-mədəni mərhələsini yaşamaqda idi. Bu mərhələnin aparıcı və istiqamətverici əsas qüvvələri isə Bakı mühitində fəaliyyət göstərirdi. Sənaye sahələrində, neft mədənlərində çalışan fəhlələrin böyük bir qismi ilə orta məktəblərdə təhsil alan gəncliyin əksəriyyətini Azərbaycan

türklərinin təşkil etməsi səbəbindən Bakıda fəaliyyət göstərən ümumi inqilab və müxalifət cərəyanları ilə yanaşı müstəqil yerli və milli qruplar, təşkilatlar da vardı. Belə bir ictimai-siyasi mühitdə fəaliyyət göstərən Azərbaycan ziyalıları milli düşüncənin formalaşdırılması yönündə mədəni və siyasi təşkilatlanmalara xüsusi əhəmiyyət verməyə başladılar. Məsələn, M.Ə.Rəsulzadənin 1903-cü ildə yaratdığı ilk gənclər təşkilatı – "Gənc inqilabçılar" dərnəyi milli hisslərin oyadılmasına, ana dilinin və Azərbaycan müəlliflərinin əsərlərinin öyrənilməsinə, onların gənc ziyalılar və fəhlələr arasında geniş təbliğinə çalışırdı (77, s. 13-14).

Əsrlərlə davam edən farslaşdırma və ruslaşdırma siyasətlərinin təsiri və təzyiqi altında yaşayan Azərbaycanda özünəqayıdış prosesinin, milli dramaturgiyanın, teatr sənətinin, maarifin, mətbuatın təşəkkülü və formalaşması da hər şeydən öncə məhz türkçülük uğrunda aparılan mübarizənin bəhrəsi idi. Azərbaycanın mütərəqqi fikir sahibləri millətin mənəvi-mədəni deformasiyadan, parçalanmadan xilasının yalnız milli mədəniyyətə qayıdış vasitəsilə mümkünlüyünü artıq dərk etmişdilər. XIX əsrin ortalarından formalaşmağa başlayan və ümumtürk mədəniyyəti tarixinə M.F.Axundzadə, H.Zərdabi, İ.Qaspıralı kimi şəxsiyyətlər bəxş etmiş türkçülük hərəkatı XX əsrin əvvəllərində ən yüksək mərhələsinə çatmışdı (79, s. 116). İşğalın ilk dövrlərində Azərbaycandakı İran dil və kültür nüfuzuna qarşı, yerli Azərbaycan dil və kültürünü himayə edən Rusiya XIX əsrin sonlarından başlayaraq ruslaşdırma siyasətini gücləndirməkdə davam etsə də, bu ideologiyanın sıxıntıları içərisində məhrumiyyətin acısını dadmış Azərbaycan türklərində XX əsrin əvvəllərindən etibarən milli hisslərin güclənməsi müşahidə olunurdu.

1905-1907-ci il inqilablarından sonra çarizmin verdiyi vədlərin boşa çıxması, əhalinin güzəranının pisləşməsi ilə yanaşı, üstəlik təqiblərə, milli və dini ayrı-seçkiliyə məruz qalması Azərbaycanda millətçilik meyllərini daha da gücləndirirdi. Çarizmin müstəmləkəçilik siyasətinə qarşı olan etirazlar dalğasında milli-

ictimai fikirdə milli-azadlıq ideyaları formalaşır, daha da püxtələşirdi. Milli oyanış prosesində yeni mərhələnin başqa bir təkanverici amili isə Türkiyə ilə mənəvi bağlılıq və Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə başda olmaqla İstanbul mühitindən təsirlənmiş Azərbaycan ziyalılarının millətçilik yönündə apardıqları təbliğat olmuşdur. Çar Rusiyasının qadağanlarına, əngəllərinə baxmayaraq Bakı ilə İstanbul arasında qüvvətli mənəvi əlaqələr qurulmuş və münasibətlər getdikcə daha da yaxınlaşmağa başlamışdı. Hərəkatın aparıcı şəxsiyyətlərinin cəmləşdiyi İstanbul bu mərhələnin zirvəsini fəth edən mərkəz rolunu oynamaqda idi. Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə "Türk ocağı"nın fəaliyyətində yaxından iştirak edir, "Türk yurdu" jurnalında əhəmiyyətli mövzulara dair məqalələr yazırdılar.

Hərəkatda yaxından iştirak etməsi, fikir axınları arasındakı ziddiyyətləri müşahidə etməsi M.Ə.Rəsulzadənin də yaradıcılıq axtarışlarının, qurtuluş yolundakı gələcək mübarizəsinin püxtələşməsinə yardım etmişdir. M.Ə.Rəsulzadənin mədəniyyət və millət, milli dövlət və istiqlaliyyət haqqındakı fikirlərinin formalaşmasında İstanbul mühiti əhəmiyyətli yer tutur. Ş.C.Əfqaninin milli inkişaf konsepsiyasının və Z.Göyalp nəzəriyyəsinin əsas müddəalarının mənimsənilməsi isə M.Ə.Rəsulzadənin gələcək mübarizəsi üçün ən kəsərli silah olmuşdur. Əlbəttə ki, bu mənimsəmə Azərbaycan milli mədəniyyətindən, XIX əsr Azərbaycan maarifçiliyindən, xüsusilə M.F.Axundzadə, H.B.Zərdabi irsindən, İ.Qaspıralı ideyalarından bəhrələnirdi. (63, s. 20). Namiq Kamal, Ziya Paşa, İbrahim Şinasi və Ş.C.Əfqanidən təsirlənmiş İ.Qaspıralı ideyalarının mahiyyətini hələ Bakıda olarkən dəyərləndirən M.Ə.Rəsulzadənin C.Əfqani yaradıcılığı ilə yaxından tanışlığı da məhz İstanbuldan başlanır. Onun yaradıcılığında M.Ə.Rəsulzadəni cəlb edən əsas ideya da məhz "Milli birlik fəlsəfəsi" olmuşdur. Odur ki, bu illərdə o, C.Əfqaninin "Vəhdəti cinsiyyə fəlsəfəsi"ni fars dilindən türkcəyə tərcümə edərək "Türk yurdu" dərgisində nəşr etdirir. "Ümmət" dövrünü yaşayan İslam Şərqində milliyyət şüurunun

oyanmasına çox böyük təsir göstərən bu əsər M.Ə.Rəsulzadənin düşüncəsində, yaradıcılığında və gələcək mübarizəsində istiqamətverici amillərdən biri olmuşdur. “Milli birlik fəlsəfəsi”nin mahiyyətini ifadə edən əsas müddəalar bunlar idi: “Milliyyət xaricində səadət yoxdur. Dilsiz milliyyət olmaz. Bütün təbəqə və siniflərin ifadə və istifadəsini təmin etməyincə də bir dil qərarlaşmış olmaz” (147, II c., s. 38-42; 23, s. 8-21). Bu ideyalar əksər milliyyətçi türk ziyalıları tərəfindən qəbul edilmişdir. Ə.Ağaoğlu da “Üç mədəniyyət” adlı əsərində bu fikirləri inkişaf etdirərək geniş təhlilini vermişdir (95). M.Ə.Rəsulzadənin proqram xarakterli “Milli dirilik” (74) əsərində də bu ideyaların təsiri görünməkdədir.

Çarizm irticasının şiddətli dövründə ictimai-siyasi və mədəni həyatın mühüm bir hissəsini təşkil edən aparıcı şəxsiyyətlərin Vətəni tərk etmək məcburiyyəti üzündən müəyyən bir boşluq yaransa da, onlar yenidən qayıdışları ilə Azərbaycana yeni bir ruh, zəngin mübarizə təcrübəsi, türkçülük məfkurəsi gətirdilər. Bu dönüşün ən görkəmli və istiqamətverici şəxsiyyəti isə 1913-cü ildə Romanovlar sülaləsinin 300 illik yubileyi münasibətilə elan olunan ümumi əfvdən sonra doğma yurda qayıtmaq imkanı əldə etmiş M.Ə.Rəsulzadə oldu. İrandakı fəaliyyəti ilə Rus imperializminə qarşı mübarizəsini daha da qətiləşdirən, İstanbuldakı təmasları ilə isə milli və mənəvi düşüncələrini püxtələşdirən M.Ə.Rəsulzadə Bakıya yetkinləşmiş məfkurə sahibi kimi qədəm qoydu ki, bu da özünü yaradıcılığının bütün sahələrində göstərməkdədir. Onun 1913-cü ildən sonrakı fəaliyyəti mətinliyi, yazıları sanballılığı və dolğunluğu, irəli sürdüyü, təbliğ etdiyi fikirlər kəskinliyi ilə daha çox diqqəti cəlb edir. Fikirlərində məntiq, baxışlarında ardıcıllıq, düşüncələrində bütövlük, hadisələrə münasibətində dərin mühakimə yürütmək qabiliyyəti nümayiş etdirən M.Ə.Rəsulzadə xalqın taleyüklü məsələlərini öz çiyinlərinə almış ziyalıların cərgəsinə qoşuldu. Qısa müddət ərzində bu hərəkatın öndərinə və ideoloquna çevrildi. Lakin, M.Ə.Rəsulzadə istiqlal

fikrinə birdən-birə gəlməmişdir. İctimai-siyasi görüşləri, yaradıcılıq axtarışları zamanın və mühitin təsiri ilə cilalanmış, püxtələşmiş, yetkinləşmiş və nəhayət məfkurə halına çatmışdır (20, s. 18).

M.Ə.Rəsulzadə "Dirilik" jurnalında dərc etdirdiyi silsilə məqalələrində (74; 78, s. 461-487) ümmət və millət arasındakı əlaqəni müzakirə edərək, bunlar arasında qəti bir ayırım etmək zərurətini irəli sürürdü. Ümmətin özəl bir dini anlam daşıdığı və dünya miqyasında bir müsəlman ortaq düşüncəsi ifadə etdiyini söyləyirdi, halbuki millət ortaq bir dil, kültür, tarix və dini paylaşan insan topluluğu anlamına gəlirdi və din bir milləti meydana gətirən ünsürlərin sadəcə biri və sonuncusu idi. Dolayısı ilə, kəlmənin gerçək mənası ilə millət dini bir topluluq üçün işlədilməzdi, layiq bir səslənməsi vardı. Millətçiliyin laiq mənası daha sonra müsavatçılığın ideologiyası halına gələcəkdi (69, s. 109; 145).

Azərbaycanda milli şüurun təzahürləri hələ XIX əsrin axırlarında bir sıra bədii və publisistik əsərlərdə özünü büruzə verməyə başlasa da müstəqil Azərbaycan milləti layihəsinin yaranması M.Ə.Rəsulzadənin fəaliyyəti ilə bağlıdır. "Məhz M.Ə.Rəsulzadə bu ayrı-ayrı fraqmentlərən azərbaycançılıq konsepsiyasının bitkin və bütöv sistemini yaratmış oldu ki, onun da əsasını Azərbaycan millətinin özgünlüyü ideyası təşkil edirdi" (15, s. 8-9).

M.Ə.Rəsulzadə "Milli dirilik" məqalələr silsiləsində etnik birlik formalarını bu şəkildə sıralayır: qövmiyyət, milliyyət və millət. "Qüvmiyyət-narodnost" yalnız "nəsil və dil birliyini" ehtiva edirdi. Qövmiyyətlə müqayisədə milliyyət etnik birliklərin daha yüksək inkişaf pilləsini təşkil edirdi. Çünki, milliyyət üçün qan qohumluğu amili artıq öz əhəmiyyətini itirir, dil və mədəniyyət birliyi ön plana keçir. Millət isə, milliyyət üzvlərinin əksəriyyətinin öz mədəni və milli diriliyini dərk etdiyi və fərdlərin mənlik şüuruna malik olduğu zaman yaranır. Azərbaycanlılardan bir milliyyət kimi bəhs edən M.Ə.Rəsul-

zadə, bu fikrini onlarda hələ milli mənlik şüurunun lazımınca formalaşmaması faktı ilə əsaslandırırdı (78, s. 471).

Sonralar M.Ə.Rəsulzadə belə bir qənaətə gəlirdi ki, vəziyyəti düzəltmək üçün milli özünüdərkin inkişafı və milli ideologiyanın formalaşdırılması zəruridir. O, milli özünüdərk prosesini xalqın tarixi yaddaşının bərpasından başlamağı təklif edir, məhkum millətlərin, o cümlədən Azərbaycan türklərinin oyanış və tərəqqi prosesində milli dilin inkişafına xüsusi əhəmiyyət verməyi tövsiyə edirdi. Əlbəttə ki, "Milli dirilik"də M.Ə.Rəsulzadə hələ birmənalı şəkildə Azərbaycan xalqının milli özünəməxsusluğunu qəbul etmək səviyyəsinə gəlib çatmamışdı (15, s. 43). Lakin artıq 1915-ci ilin oktyabr ayında onun təsis etdiyi "Açıq söz" qəzetinin bütün fəaliyyəti milli özünəməxsusluq probleminin həllinə yönəlmişdi. Çünki çoxdan təşəkkül tapmış Azərbaycan milli hərəkatı hələ də öz adı ilə adlandırılmırdı və M.Məmmədzadənin təbirincə desək, "adsız qəhrəmanı" (63, s. 52) xatırladırdı. Belə bir şəraitdə həmin boşluğu doldurmağa çalışan "Açıq söz" qəzeti (2 oktyabr 1915-ci il) "müsəlman" və "tatar" sözlərini "türk" sözü ilə əvəzləməyə girişdi, millətə "Sən kimsən!", rus hökumətinə isə "Biz türkük!" deyə xitab etdi. Beləliklə, qəzet fəal surətdə türk birliyini kütlə arasında yaymağa başlamaqla yaxın gələcəkdə sırf Azərbaycan birliyinə keçid üçün zəmin yaratmış oldu (15, s. 44). Bu artıq o dövr idi ki, digər ziyalılar da millətin adı üstündə açıq mübarizəyə qalxmışdılar. Ö.F.Nemanzadənin "Mən kiməm?!" adlı məqaləsindəki müraciəti bu baxımdan çox səciyyəvidir" (70, s. 266-268).

"Milli dirilik" sərlövhəli silsilə məqalələri ilə M.Ə.Rəsulzadə milliyyət məsələsini, milliyyəti təşkil edən amilləri təhlil edərək sonralar "Müsavat"ın yeni proqramına salınan nəzəriyyənin əsasını qurmağa müvəffəq olmuşdur. Şeyx Cəmaləddin Əfqani kimi Məmməd Əmin bəy də islamiyyətin və müsəlmanlığın milliyyət deyil, "ümmətçilik" ifadə etdiyini, milliyyətin isə din üzərində deyil, dil və kültür birliyi üzərində

qurulduğunu və bu milli diriliyin təməlini təşkil edən milli mədəniyyətin ünsürlərini izah edərək milli hərəkatın ictimai fəlsəfəsini qurmuşdur. Bu fəlsəfəyə görə: "Millət dili, dini, ənənələri, ədəbiyyatı, tarix və adətləri bir olan cəmiyyeyi-bəşəriyyəyə deyilir. Təkcə din birliyi milləti təşkil etməz" (74; 78, s. 461-487; 63, s. 52; 121, s. 45). Müəyyən məqamlarda ziddiyyətli təsir bağışlayan yanaşmaları nəzərə almasaq, M.Ə.Rəsulzadə dil və mədəniyyət, mədəniyyət və milliyyət amillərini bəzən qarşılıqlı anlayışlar kimi işlədirdi ki, bu mövqe özünü onun milli əxlaq konsepsiyasında da büruzə verirdi. Millətin birliyini və bütünlüyünü qorumaq vəzifəsini milli əxlaqın başlıca əsası hesab edən M.Ə.Rəsulzadə türklük prinsiplərinə sədaqəti milli əxlaqın ikinci, verilən sözə və bağlanılan müqavilələrə riayət olunmasını üçüncü, haqqı, hürriyyəti, sülhü və demokratiyanı qoruma və müdafiə, zülmə və təcavüzə qarşı açıq bir mübarizə aparmağı dördüncü, milli səviyyəni daima uca tutmağı, geriliyə və cəhalətə qarşı savaşmanı beşinci mütləq şərtlərindən sayırdı (133, s. 2-3). Çünki onun mövqeyinə görə, həmin konseptual şərtlərə riayət edən millətlərə dünya ictimaiyyəti də mədəni, tərəqqi etmiş, sağlam və gələcəyi parlaq millətlər kimi qiymət verməkdədir.

1905-1907-ci illər rus inqilabından sonra 1906-cı ildə Səttərxanın rəhbərliyi ilə başlayan İran məşrutə hərəkatı ilə 1908-ci ildə "Gənc türklərin" siyasət səhnəsinə çıxması ilə nəticələnən Osmanlı məşrutəsi öz təsirləri baxımından bu üç dövlətin əhatəsində olan Azərbaycanda da millətçilik düşüncəsinin formalaşmasına güclü təkan vermişdir. Bu üç qaynar inqilab mərkəzləri ilə sıx əlaqədə olan Azərbaycan ziyalıları bütün vasitələrlə bu fürsətdən faydalanıb özünüdərk prosesinin sürətlənməsinə çalışırdılar. Təbii ki, müvafiq olaraq həmin inqilab mərkəzlərində proseslərin oxşar və fərqli tərəfləri var idi. Xüsusilə də, milli şüurun güclənməsi ilə bağlı Osmanlı mühitində cərəyan edən heç bir əhəmiyyətli hadisə Azərbaycana təsirsiz ötüşməmişdir.

İstanbulda cərəyan edən hadisələrin Azərbaycan ziyalıları üzərində buraxdığı təsirlər içərisində Ziya Göyalpın türkçülük nəzəriyyəsi xüsusi qeyd edilməlidir. Təbii ki, söhbət türkçülük ideyasından getdiyi təqdirdə yalnız qarşılıqlı təsirlənmələr müzakirə mövzusu ola bilər. Çünki hələ 1906-cı ildə Ə.Hüseynzadə "Füyuzat"da "Füyuzat" haqqında yazır ki, onun "tutduğu yol – türklük, müsəlmanlıq və avropalılıqdır, türk hissiyyatı ilə mütəhəssis, islam dini ilə mütədəyyin və Avropa mədəniyyəti ilə mütəməddin olmaqdır". Düz on iki il sonra, 1918-ci ildə isə Ziya Göyalp eyni sözləri öz kitabının titul səhifəsinə yazır: "Türkləşmək, islamlaşmaq, müasirləşmək" (109). Çox uzun müddət "etnik" istilah kimi geniş bir şəkildə işlədilən "tatar", "müsəlman", "Qafqaz tatarları", "osmanlılar" kəlməsi "azəri" və "türk" şəklində bir də məhz "Füyuzat" dərgisindəki yazılardan sonra konkretləşir. Bir istilah kimi "türklük", bir hərəkat kimi "türkçülük" Əli bəyin adı ilə bağlıdır. Lakin onu da qeyd etmək lazımdır ki, Y.Qarayevin təbirincə desək, "İslamçılıq, türkçülük, qərbçilik" kültürdə vahid bədii məkan, inteqrasiya (mənəvi Turan!) təlimində yalnız son mərhələdir, onun yekun və kamal dövründə kəsb etdiyi düstur və tənlikdir. O vaxta qədərki hər mərhələ isə ayrılıqda bu düsturu təşkil edən vahidlərdən, tərkib komponentlərindən biri ilə səciyyələnir" (52, s. 439-440). Bu mənada Ziya Göyalp da öz kitabında (108, s. 10-11) Ə.Hüseynzadənin adını böyük ehtiramla çəkməkdədir.

Milliyyət fikrinin ortaya çıxmasını şərh edərkən Ziya Göyalpla Azərbaycan ziyalılarının, məsələn M.Ə.Rəsulzadənin ortaq məqamların çox olduğunu görürük (108; 137). Milliyyət fikrinin mətbuatla doğması, qəzetlə başlaması ilə bağlı fransız sosioloqlarının fikrilərini təsdiqləyən Z.Göyalp yazır ki, qəzet eyni dillə danışan insanları bir arada toplayaraq xalqı meydana gətirir və onlara ortaq bir vicdan verir. Qəzet şüursuz olaraq etdiyi bu təsirdən ayrı olaraq, sırf dövriliyini təmin edə bilmək üçün oxucularının öyünmə və vətənpərvərlik duyğularını oxşamağa, onların milli ənənələrini və fəxarət oyadan milli

xatirələrini canlandıran sözlər yazmağa məcburdur (109, s. 8-9). Milliyyət duyğusunun yayılmasında da mətbuatın roluna önəm verəm ziyalıların fikrincə bu hiss və duyğu oyandıqdan sonra qonşu qövmlərə də asanca yayılır. Çünki milliyyət duyğusu oyanar-oyanmaz sahiblərində yardımlaşma, fədakarlıq və mübarizə hisslərini artıraraq onların əxlaq, dil, ədəbiyyat, iqtisadiyyat və siyasət sahələrində irəliləməsinə təkan verir. Bu vəziyyəti qibtə və qısqanclıqla izləyən qonşu qövmlərin də milli dildə qəzetləri varsa, onlarda da milliyyət düşüncəsinin dərhal yayılması çox normal bir hal olacaqdır.

Milli şüurun formalaşmasında qəzet amilinə bu qədər mühüm yer verilməsində, fikrimizcə müəyyən şərtiliklər də vardır. Çünki bir qisim ziyalıların fikrincə milli "mən" şüuru, hər şeydən əvvəl, "özünüdərk" şəklində (kök, mənşə, əcdad probleminə maraq şəklində) özünü göstərməyə başlayır (52, s. 285).

Milli Azərbaycan tarixinin "Türkləşmək, islamlaşmaq və müasirləşmək" şüarı altında başladığını və Rusiya əsarətindən qurtulmağı hədəfə alan milli bir hərəkat halında inkişaf etdiyini, milliyyət, din və mədəniyyət kimi üç təməl prinsipin sintezini təşkil edən bu tarixi prinsiplərin mənasını və böyük milli hərəkatın mahiyyətini açan M.B.Məmmədzadəyə görə, türkləşmək – ən yüksək səadət milliyyətdə olduğu üçün, milliyyət əsaslarına bağlı qalmaq, millət halında yaşamaq, yabançılaşmaqdan qurtulub milliyyətə dönmək, mənsub olduğu millət türk olduğu üçün türkləşmək, türk olaraq yaşamaq və türk olaraq qalmaq deməkdir. İslamlaşmaq – ən yüksək mənəvi hüzur və əxlaqi nizamın dində və Allaha imanda olduğundan din etibarilə müsəlman olanların müsəlmanlıqdan uzaqlaşmaması, uzaqlaşmışsa müsəlmanlığa dönməsi, islam dininin əsaslarına bağlı və sadiq qalması, müsəlman olaraq yaşaması deməkdir. Müsəlmanlığın panislamizm şəklində siyasi bir vasitə olaraq istifadə edildiyi dövrdə söylənilən bu kəlmə dini siyasətdən ayırmaq və əslinə qaytarmaq mənasına gəlməkdə idi. Müasirləşmək – azad və mədəni millətlər karvanından geri qalmamaq, onlarla ayaq-

laşmaq üçün müasir mədəniyyəti qəbul etmək, əsriləşmək, azad və mədəni bir millət olmaq mənasına gəlməkdədir (118, s. 5-6).

Təməli Ə.Hüseynzadə tərəfindən qoyulan bu üçlü düsturun M.B.Məmmədzadə tərəfindən şərhi də belə bir fikri söyləməyə əsas verir ki, Azərbaycan ictimai fikrində təsir göstərmiş olan pantürkizm öz məzmunu, xarakteri və mahiyyəti etibarı ilə panislamizmdən təcrid edilə bilməz. XX əsrin əvvəlində pantürkizm həmişə, hər yerdə panislamizmin əsas prinsipləri ilə uzlaşmağa çalışmış və nəzəri əsası kimi islam ideologiyasını özündə ehtiva etmişdir. Azərbaycan ictimai fikrində 1905-ci il inqilabına qədər, habelə bir çox hallarda onun baş verdiyi müddətdə pantürkizm əgər panislamizmin prinsiplərindən biri kimi, onun siyasi doktrinasının tərkib hissəsi kimi, həm də çox zaman üstüörtülü, müəmmalı şəkildə öz ifadəsini tapırdısa, sonralar, xüsusən, 1910-cu illərdən etibarən isə müstəqil bir dini-etnik, ictimai-siyasi doktrina kimi özünü göstərmiş və formalaşmışdır. Lakin bu dövrdə belə, yəni 1910-1920-ci illər ərzində də bir cərəyan kimi Azərbaycan ictimai fikrində təsir göstərən pantürkizm heç zaman özünü panislamizmə qarşı qoymamış, həmişə onunla əlaqədə olmuşdur. Doğrudur, 1918-1920-ci illərin mətbuat səhifələrində pantürkistlərlə panislamistlərin bir-birinə qarşı çevrilmiş bir sıra tənqidi mülahizələrinə, bəzən də ittihamlarına rast gəlmək olar. Lakin bu "tənqid" prinsipial xarakter daşımamış, yalnız taktiki səhvlərin tənqidi kimi özünü göstərmişdir (69, s. 214).

Ümmətçilikdən millətçiliyə keçid mərhələsi yalnız Azərbaycan miqyası üçün səciyyəvi olan bir proses deyildi. Bu, özünü bütün Rusiya miqyasında cərəyan edən siyasi hadisələrin gedişatında da büruzə verirdi. Belə ki, bu mənada Rusiya müsəlmanlarının siyasi həyatlarındakı inkişafın iki mühüm mərhələsini təsdiqləyən iki tarixi hadisə xüsusilə diqqətəlayiqdir. Bunlardan birincisi, Nijni-Novqorodda keçirilən Rusiya müsəlmanları qurultayı (1905), ikincisi isə Moskvada təşkil edilən (1917) qurultay idi. Rusiya müsəlmanlarının siyasi

istəkləri əsasən bu iki qurultayda formalaşmışdır. İstər birinci, istərsə də ikinci qurultayda siyasi müqəddəratın formulunu Azərbaycan nümayəndələri vermişdilər: müvafiq olaraq Rusiya Duması Müsəlman fraksiyasının rəisi Ə.M.Topçubaşovla "Müsavat" Xalq Firqəsinin rəisi M.Ə.Rəsulzadənin təklifləri eynilə qəbul edilmişdir.

Burada bir məsələni xatırlatmaq lazımdır ki, milli şüurun formalaşması prosesində türkçülük və turançılıq böyük tarixi missiya daşımış olsa da, Azərbaycan və Türkiyədəki cümhuriyyət quruculuğu dövründən etibarən bu cərəyanların məqsəd və məramlarına fərqli münasibətlər yarandı. Panturanizm siyasi fikir sistemində iki meyl meydana çıxmağa başladı: mərkəzçilərin romantik cərəyanı və federalistlərin realist cərəyanı. "Azərbaycanın siyasi xadimləri, xüsusən də "Müsavat" partiyasının xadimləri romantik panturanizmi heç bir real əsası olmayan xülya sayır və ona münasibətdə müxalifətdə dururdular. Əksinə, onların fikrincə, Qafqaz xalqlarının konfederasiyası şüarı Azərbaycanın və bütün türk dünyasının cari real mənafelərinə daha münasib idi" (79, s. 117-118). Bu mənada M.Ə.Rəsulzadənin turançılıq ideologiyasına yaradıcı münasibəti ondan ibarət idi ki, o, "türk birliyi"ni bütün türk xalqlarının Osmanlı dövlətinə birləşməsi anlamında deyil, ümumi məqsəd – milli istiqlal uğrunda mübarizədə onların bərabərhüquqlu ittifaqının yaradılması mənasında qəbul edirdi. Məhz belə bir yanaşma nəticəsində, o, türkçülük ideyalarına əsaslanaraq yeni və orijinal olan azərbaycançılıq konsepsiyasını yaratmışdır ki, bu konsepsiya Azərbaycan türklərinin milli özünəməxsusluğunun və milli dövlətçiliyinin əsasını təşkil etmişdir (15, s. 27). Daha sonralar – 1930-cu ildə M.Ə.Rəsulzadə "Panturanizm haqqında" məqaləsində yazırdı ki, hal-hazırda biz müəyyən dövr türk xalqlarının ictimai-siyasi həyatında rol oynamış romantik panturanizmin bütün xülyaları ilə qəti olaraq bütün əlaqələri kəsmiş realist türkçülüklə qarşılaşırıq (79, s. 113).

Ümumilikdə XIX əsrdən bəri cərəyan edən modernləşmə prosesini izləyəndə görürük ki, Azərbaycan cəmiyyətinin ümmətçilik düşüncəsindən özünüdərkə keçidində mədəni inkişafa təkan verən amillər ön plana çıxır. O cümlədən cədidçilik hərəkatı, Qori seminariyası kimi elmi-mədəni faktların azərbaycanlıların milli özünüdərkində və milli şüurunun formalaşmasındakı təsirləri danılmazdır. Azərbaycanın fikir həyatında mühüm xidmətləri olmuş Ü.Hacıbəyli, C.Məmmədquluzadə, S.Qənizadə, N.Nərimanov, M.Maqomayev, S.S.Axundov, F.Ağazadə, S.Vəlibəyov R.Əfəndiyev, M.Mirzəyev, H.Mahmudbəyov, F.Köçərli kimi ziyalıların Qorui seminariyasının məzunu olmaları faktı dediklərimizin sübutu ola bilər.

Ə.M.Topçubaşov 1906-cı il fevralın 20-də Tiflisdə canişin sarayının böyük zalında açılmış qurultayda (erməni-müsəlman münaqişəsinin həlli ilə bağlı) belə bir məsələ qaldırmışdı ki, müsəlmanların həyati mənafelərinin müzakirəsində onların özlərinin rəyləri nəzərə alınsın, müsəlmanlara təkcə tədris ocaqlarının təsərrüfat məsələlərində deyil, həm də təlim-tərbiyə məsələlərində iştirak etmək hüququ verilsin (84, 68). N.Nərimanov isə 1906-cı il iyunun 18-də "Həyat" qəzetində dərc edilmiş məqaləsində "Qori seminariyasının Azərbaycan əhalisinin mərkəzindəki başqa şəhərə" köçürülməsi məsələsini qoymuşdu (153, s. 99). Canişin canişin qraf Vorontsov-Daşkov da Qoridən daha münasib olan yerdə müəllimlər seminariyası açılmasının mümkünlüyü üzərində də dayanmışdı ki, sonralar bu təkliflərin reallaşması milli-mədəni inkişafa təkan vermişdir. Nəhayət, 1914 ildə Gəncədə müəllimlər seminariyası açılmış və 1916 ildə belə bir seminariya Bakıda fəaliyyətə başladı. 1918 ildə Qori seminariyasının Azərbaycan şöbəsi Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən Qazaxa köçürüldü və müstəqillik statusu aldı.

Təbii ki, bu seminariyanın təşkilində çarizm tamamilə başqa məqsədlər güdürdü. Hələ XIX əsrin 30-cu illərindən başlayaraq çarizm qeyri-rus xalqların nümayəndələrindən rus meylli

ziyalı hazırlamaq siyasətinə keçmişdi. "Rus-tatar" məktəbləri də, sonralar Qori seminariyası da əsasən məhz bu siyasətə xidmət etmək məqsədilə yaradılmışdı və həmin təhsil ocaqlarına Çar Rusiyası böyük ümidlər bəsləmişdir. Ona görə də çar idarəsindəki türk xalqının milli oyanışının önünü kəsmək üçün bu təhsil qurumlarında oxuyan azərbaycanlı türk tələbələrə təzyiq edilirdi. Müəyyən dövrlərdə Qori Müəllimlər Seminariyasında baş müəllim vəzifəsində çalışmış rus alimi Smirnov türk tələbələrinə qarşı tətbiq edilən təzyiqi bu sözlərlə ifadə edirdi: "Azərbaycandan olan tələbələrin sadəcə öz dillərində danışmaları deyil, düşünmələri belə yasaqlanmışdı" (143, s. 67). Bu siyasətdən belə bir niyyət güdülürdü ki, rus təhsili almış hər hansı azərbaycanlı tam rus meylli olacaq və xalqını ruslara yönəltmək işində Rus dövlətinin əsas dayağına çevriləcək. Çarizmin bu siyasətinin ideoloji layihəsini hazırlayan N.N.İlminski isə ruslaşdırma işinin mahiyyətini türkdilli xalqların xristianlaşdırılmasında görürdü. Belə bir qərəzli siyasətində çarizm bir çox uğurlu tədbirlər həyata keçirsə də, məqsədinə nail ola bilmədi, çünki bu siyasi tədbirlər paralel olaraq həm də millətçilik duyğularının yaranmasına rəvac verirdi. Nümunə olaraq deyək ki, 1902-ci ildə Qahirədə "türk" məfhumunu önə çəkən "Türk" adlı qəzet nəşr olundu, Y.Akçura "Üç tərz siyasət" (1904) məqaləsində türkçülük haqqında əsas fikirlərini irəli sürdü, Ə.Hüseynzadə "Həyat" (1905) qəzetində "Türkləşmək, islamlaşmaq, müasirləşmək" düsturunun elmi izahını verdi ki, sonradan Z.Göyalp "Türkçülüyün əsasları"nı məhz bu ideya zəmininə hazırladı, M.Ə.Rəsulzadə isə bu ideyanı milli dövlətin atributu səviyyəsinə qaldırdı.

Milli-dini düşüncə sahiblərinin qənaətincə, əgər "islamlaşmaq, islamı dərk etmək "İttifaq və ittihad" nemətini dərk etməkdirsə, onda "türk ənsarının islamı bulması" da "türkləşmək", türk birliyinin, "türk ittihadı"nın meydana gətirilməsi deməkdir. Yəni əslində "islamiyyətə" xidmət etmək "türk qövmünə " xidmət etmək, "türk qövmü"nə xidmət etmək də "islamiyyət"ə xidmət

etmək deməkdir. Əli bəy Hüseynzadənin və Əhməd bəy Ağaoğlunun (39; 40; 3; 93; 96) əsərlərində xüsusilə geniş şərhini tapmış bu məsələnin əsas məqsədi Osmanlı imperiyasının himayəsi altında əvvəlcə bütün türk dilli xalqları, ümumiyyətlə cəmi müsəlmanları birləşdirməkdən ibarət idi. A.Ağaoğlunun "Türk aləmi" (93) silsilə məqalələrində və həm də onun başqa yazılarında, eləcə də Əli bəy Hüseynzadənin, Y.Z.Talıbzadənin və digərlərinin əsərlərində dini mövqe belə idi: İslamiyyətin, islam mədəniyyətinin yeganə hamisi, onun istinadgahı və "əvvəlki əzəmətini bərpa edib rövnəqləndirəni" yalnız türk millətidir.

Azərbaycanda milli özünüdərk prosesini sürətlənməsində Türkiyə ilə əlaqələr və təbii ki, bu əlaqələri yaradan ziyalıların oynadıqları rol xüsusilə diqqətəlayiqdir. Vaxtilə çarizmin təqiblərindən qaçaraq İstanbula pənah aparmış həmin ziyalıların çoxu oradakı türkçü təşkilat, dərnək və nəşrlərdəki fəal iştirakları ilə bütün Türk dünyasına xidmət edirdilər. Bu baxımdan Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə kimi azərbaycanlı ziyalıların bu dərnəklərdə, xüsusilə isə "Türk ocağı"nda və "Türk yurdu" dərgisində iştirakları, fikrimizcə ayrıca bir tədqiqat mövzusudur. Bu dərnək və dərgilərin məqsədləri ilə ilkin tanışlıq, həmin ziyalıların hansı amallar uğrunda mübarizə apardıqlarına aydınlıq gətirir. Məsələn, "Türk dərnəyi"nin nizamnaməsinin ikinci maddəsində deyilirdi ki, "cəmiyyətin məqsədini türk deyə anılan bütün türk qövmlərinin keçmişdəki və bugünkü əsərlərini, işlərini, durumlarını, mühitini öyrənməyə və öyrətməyə çalışmaq, yəni türklərin əski əsərlərini, tarixini, dillərini, avam və xavas (şifahi və yazılı) ədəbiyyatını, etnoqrafiya və etimologiyasını, sosial durumlarını və mövcud mədəniyyətlərini, türk məmləkətlərinin əski və yeni coğrafiyasını araşdırıb ortaya çıxararaq bütün dünyaya yayıb tanıtmaq və dilimizin açıq, sadə, gözəl, elm dili ola biləcək şəkildə geniş və mədəniyyətə əlverişli bir dərəcəyə gəlməsinə çalışmaq və imlasını ona görə incələməkdir" (97, s. 165). "Türk ocağı"nın rəsmi fəaliyyəti isə "Türk yurdu"nun nəşrə başlamasından bir

neçə ay sonraya – 12 mart 1912-ci (1328) ilə təsadüf etsə də qurulması üçün göstərilən təşəbbüslər daha öncədən başlanmışdır. 1913-də İstanbuldakı "Mətbəəyi-Xeyriyyə və Şürəkası" adlı mətbəədə çap olunmuş "Türk ocağı"nın əsası və daxili nizamları" adlı ilk nizamnamənin ikinci maddəsində cəmiyyətin əsas məqsədi "islam qövmlərinin başlıca mühümü olan türklərin milli tərbiyə və elmi, sosial, iqtisadi səviyyələrinin irəliləmə və yüksəlməsi ilə türk irq və dilinin zənginləşməsinə çalışmaqdır" (97, s. 169) – şəklində açıqlanırdı.

J.M.Landau "Pantürkizm" adlı əsərində yazırdı ki, Osmanlı imperatorluğunda ya da Avropada yaşayan Hüseynzadə, Ağaoğlu, Akçura və digərləri kimi dış türklərin görüşləri Türkiyədə bir çox şəxs üzərində getdikcə artan bir təsir etdi. Bu təsir, 1908-ci il inqilabından sonra daha aşkar bir şəkildə ifadə edilməsilə daha da artdı. Bundan başqa Gənc türklər də milliyyətçi təbliğatın aparılmasına müsbət yanaşırdılar (110, s. 57). Həqiqətən də, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə kimi Azərbaycan ziyalılarının "Türk dərnəyi" (dərnəyin cəmi 7 sayı işıq üzü görmüş eyniadlı dərgisi də vardı), "Türk ocağı" və "Türk yurdu"ndakı ("Xalqa doğru" adlı əlavəsi ilə birlikdə) iştirakları bu dərnək və nəşrlərin Osmanlı İmperatorluğunda bir neçə il pantürkçülüyün ən önəmli elmi-mədəni mərkəzləri halına gəlməsində müstəsna xidmətləri olmuşdur. Bununla yanaşı, "Çarlıq Rusiyasındakı dış türklər arasında da pantürkçülük böyük ölçüdə intellektuallar arasındakı bir məsələ olaraq qaldı. Dövlət bunun əleyhinə idi. Türk xalqları da son ana qədər bu düşüncələr ətrafında yaxşı təşkilatlana bilməmişdilər. Ancaq Osmanlı İmperatorluğunun son zamanlarında pantürkçülük dövlətin siyasi liderliyində olduqca önəmli yer tutdu. Nəticə olaraq hərəkat, yaradılan daha əlverişli şərtlər içində daha anlamlı bir təşkilatlanma gerçəkləşdirə bildi" (110, s. 61-69).

Vaxtilə "Türk yurdu" dərgisi ətrafında toplanmış dəyərli fikir adamları XX əsrin əvvəlləri kimi mürəkkəb və ziddiyyətli bir tarixi dövrdə türk millətinə işıq tutmuş, yol göstərmişlər.

Tərəddüdsüz demək olar ki, “Türk yurdu” ötən yüzilin birinci rübündə türk təfəkkür həyatının birinci dərəcəli mədəniyyət hadisələrindəndir.

“Türk yurdu”nun yeni nəşrinə Dr. Arslan Tekinin yazdığı girişdə ifadə edildiyi kimi “Osmanlı dövlətinin sonuna gəlindiyi bir zamanda “Türkçü” aydınlar Türk Ocaqları bünyəsində toplandılar və “Türk yurdu”nu çıxartdılar. Türk fikir və ədəbiyyatının təməl daşı deyə biləcəyimiz həmən bütün isimlər, bu dərgidə yazmışlar. Dil, tarix, ədəbiyyat, sənət, siyasət, iqtisad, elm və kültür həyatımızla əlaqəli ağla gələ biləcək bütün mövzular işlənmişdir. Türk Dünyası bir bütün olaraq görüldüyü üçün, dövrün coğrafi sərhədlərindən də kənara çıxılaraq, harada Türk varsa oranın hər əhvalı ələ alınmışdır” (147, I c., s. XI).

“Türk yurdu” dərgisinin Azərbaycan fikir və kültür həyatına təsiri baxımından son dərəcə önəmli bir yeri olmuşdur. Ümumilikdə isə, zaman-zaman bir-birilərinə qarşılıqlı yardımlar göstərmiş Azərbaycan və Anadolu türklərinin ötən əsrin ilk illərindən etibarən əlaqələri yeni bir mahiyyət qazanmış, II məşrutiyyət dövründə, Balkan və I Dünya Savaşı əsnasında xalqlarımız arasındakı qardaşlıq yardımları möhtəşəm bir hərəkat halını almışdır. Təbii ki, bu yardımlaşmaların kökündə insanlıq duyğuları ilə bərabər, milli, dini və mədəni faktorlar daha önəmli yer tutmuşdur. Ziyalılarımız da xalqı qardaş köməyinə səsləyərkən bu ana faktorları önə çəkmiş, xalqı bunun, istərsə siyasi partiya və təşkilatların, istərsə zəngin şəxslərin, istərsə də sadə insanlarımızın vicdani borcu, milli və dini vəzifəsi olduğuna inandırmışlar.

Türkiyə ilə bağlılıqları olan mütərəqqi dünyagörüşlü, intibah ruhlu bu universal şəxsiyyətlər gərgin və böhranlı anlarda belə ruhdan düşməmiş, əqidələri yolunda çarpışmış, ictimai fikrin formalaşdırılması üçün bütün mövcud təbliğat vasitələrindən istifadə etmişlər. Bu ziyalılar, dövri mətbuatda müntəzəm çıxışları ilə yanaşı, həm də Bakıda təşəkkül tapıb fəaliyyət göstərən bir çox mədəni-maarif cəmiyyətlərinin rəhbərliyində təmsil olunmuşlar.

Maarifçilik səyləri daha qabarıq nəzərə çarpan həmin cəmiyyətlərin fəaliyyətinə bu ziyalılar öz töhfələrini vermişdir.

Azərbaycan ziyalıları türkçülük hərəkatındakı iştirakları sayəsində Türk dünyasına verdikləri töhfələr qədər də Azərbaycanın gələcək mədəni-siyasi təminatı baxımından da zəngin təcrübələr toplamışdılar. Eləcə də, 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilmiş əfv-ümumidən sonra Bakıya qayıdan M.Ə.Rəsulzadənin ictimai-siyasi və bədii yaradıcılığında Türkiyə mədəni mühitinin təsirinin də hiss olunduğu yeni bir mərhələ – Azərbaycançılıq ideyasının, istiqlal məfkurəsinin formalaşdığı dövr başlandı ki, bu dövrdə "Azərbaycan məfkurəsi türk millətpərvərliyinin məfkurəsi ilə izdivac etdi" və "Turançılıq, türkçülük ədəbi məsləki Türkiyə ilə Azərbaycanı bir-birinə bağlayan ən davamlı bir bağ oldu" (76, s. 35). M.Ə.Rəsulzadə 1915-ci ilin avqustundan nəşrinə başladığı "Açıq söz" qəzeti vasitəsilə öz ideyalarını proqram şəklinə saldı. Özünün yazdığı kimi, "Turançılıq məfkurəsi doğulunca millət beynəlmiləl islamiyyətçilik və federasiyon formullarını çıxarmış, sosiologiyada da "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" kimi üç ayaqlı bir şüar ortaya atmışdı. İstanbul yurdçuları bu şüarları nəzəri şəkildə yaymaqda ikən, Azərbaycan turançıları bunu siyasi bir fəlsəfə kimi qəbul edərək qurduqları milli siyasi partiyanın prinsipi elan etdilər (76, s. 36). Çox çəkmədən bu əsasda dünyəvi, demokratik cəmiyyət quruculuğuna başlanıldı. Nəticədə, "türk mənşəli bütün dövlətlər əsasən dini təməl üzərində qurulduğu halda" 1918-ci ilin 28 mayında istiqlaliyyətini elan edən Azərbaycan Xalq Cümhuriyyəti "dünyəvi təməl üzərində qurulan ilk türk dövləti" (34, s. 87) oldu.

## Milli birliyin kulturoloji təməlləri

XIX əsrin ikinci yarısında olduğu kimi XX əsrin əvvəllərində də Azərbaycanda maariflənmənin və mədəni intibahın kulturoloji amilləri sırasında teatr və mətbuat ön yerləri tuturdu. H.B.Zərdabi, M.F.Axundovun dramaturji irsi əsasında ilk milli teatrımızı və onun mətbuat nəzəriyyəsi əsasında ilk milli demokratik mətbuatımızı yaratdıqdan sonra, onların açdıqları bu cığırın yolçuları sonralar yeni-yeni mətbuat orqanları və dram əsərləri vasitəsilə xalqın xidmətində durdular. Üzeyir Hacıbəyovun opera və operettaları isə Azərbaycan teatrının musiqi istiqamətini müəyyənləşdirdi. Bunun əhəmiyyətli tərəflərindən bir də onunla izah edilə bilər ki, əgər ədəbi-bədii əsərlərlə yalnız savadlı təbəqəni maarifləndirmək mümkün idisə, artıq teatr və musiqi ilə əhalinin bütün təbəqələrinin şüuruna və zövqünə təsir etmək imkanı yaranmışdı.

Milli maarifləndirmə, ana dilli təhsil, teatr, mətbuat, mədəni-maarif və xeyriyyə cəmiyyətləri XX əsrin milli-mədəni intibahını şərtləndirən mühüm kulturoloji amillərə çevrildi ki, bu prosesdə ziyalılarla milli burjuaziyanın həmrəyliyi faktı xüsusilə qeyd edilməlidir. Yaranmaqda olan milli burjuaziya azərbaycanlılar üçün istər iqtisadi, istər mənəvi, istərsə də maarifçilik maraqlarının qorunmasında yeganə ümid yeri idi. Bu səbəbdən rus və erməni bolşeviklərinin uzun illik səylərinə baxmayaraq, əksər azərbaycanlılarda milli və dini təəssübkeşlik sinfi həmrəylikdən üstün idi. Ziyalılarla milli burjuaziyanın həmrəyliyə nümunə kimi, Ə.Topçubaşov, Ş.Əsədullayev, Ə.Ağaoğlu, A.Ziyadxanov, Q.Zülqədərov və digər ziyalıların daxil olduqları "Cənubi Qafqaz müsəlman əhalisinin səlahiyyətli nümayəndələri" adlı təşkilatı göstərə bilərik ki, H.Əzizoğlu bunu açıq fəaliyyət göstərən ilk milli siyasi qurum adlandırır (29, s. 185). Təşkilatın ilk rəsmiləşdirilmiş siyasi müraciəti Ə.M.Topçubaşov tərəfindən hazırlanmış və Rusiya Nazirlər Kabinetinə təqdim edilmişdi. 1905-ci ildə çar hökumətinin

ünvanına buna bənzər bir neçə xahişnamə göndərilmişdi ki, bu təşəbbüslərin mahiyyətində müsəlman əhalinin mənafeyini qorumaq və mədəni tərəqqi yolu ilə milli şüuru formalaşdırmaq dururdu. Ziyalılarla milli burjuaziyanın həmrəylik ideyalarının mətbuat vasitəsilə təbliği belə əsaslandırılırdı ki, birincilər öz ağlı, biliyi, istedadı ilə xalqın köməyinə gəlməlidirlər, ikincilər isə öz imkanları ilə bu vəzifələri yerinə yetirmək üçün ziyalılara maddi əsas yaratmalıdırlar.

Bu dövrdə Qafqaz canişininin və Peterburqda hökumət dairələrinin müsəlmanları qəbul etməsi, Bakı müəllimlərinin toplantısının keçirilməsi, müsəlman fəhlələrinin 1905-ci il may tətilində iştirakı əslində ancaq sinfi mübarizə deyil, əsasən müsəlmanların öz hüquqlarının tələbinin təzahürü idi. "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin və "Müsəlmanlar Arasında Savadlanmanı Yayma Cəmiyyəti"nin yaradılması ilə bağlı müsəlman cəmiyyətinin Qafqaz canişininə xahiş məktubu ilə müraciəti də artıq milli həmrəyliyin işartılarından xəbər verirdi. Habelə, bu dövr, çar tərəfindən verilmiş məşhur islahatlar, ilk genişmiqyaslı erməni-azərbaycanlı qarşıdurması, azərbaycanlılar və ümumiyyətlə, müsəlmanların inqilabi proseslərə qoşulması, azərbaycanlılar arasında ilk siyasi partiyaların yaranması, milli düşüncənin aktiv şəkildə inkişafı ilə xarakterizə olunur. Bu dirçəliş prosesində "Kaspi", "Həyat" və "İrşad" qəzetlərinin müstəsna rolu olmuşdur ki, 1905-ci ildən sonra qəzet nəşri sahəsində müşahidə edilən inkişaf nəticəsində artıq milli düşüncə dini düşüncəni üstələməkdə idi və Azərbaycan xalqı arasında başlamış dirçəlişin aparıcı qüvvəsi milli burjuaziya və milli ziyalılar idi.

XX əsrin əvvəlləri türklüyün milliyyət dövründən millət dövrünə keçdiyi bir dövrdür. Bununla bağlı o dövrün əksər ziyalılarının baxışlarını belə xülasə edə bilərik: bunlardan birincisi, yəni milliyyət – dil, dini, irqi, qövmi, tarixi, coğrafi, iqtisadi və siyasi amillərin təsiri ilə hasilə gələn bir mühiti ifadə etdiyi halda, digəri, millət – bu mühitdə hasilə gələn kollektiv bir iradəni ifadə edir. Başqa sözlə, dili, tarixi, adətləri, dini,

vətəni bir olan insanlar bir milliyyət təşkil edirlər, lakin bir milliyyətin millət halına keçməsi ümumi şüur və kollektiv iradənin doğmasına bağlıdır. Bu isə yalnız "ictimai hafizə" vəzifəsini görən orqanın təşəkkülü ilə vücuda gəlir ki, bu da müxtəlif zamanlara görə dəyişir. Məsələn, M.B.Məmmədzadə yazır ki, orta əsrlərdə bu vəzifəni feodal zümrə görürdü. Bu zaman milliyyətin ictimai həyatının və ənənələrinin mühafizəsində xan sarayları və cəngavər qalaları əhəmiyyətli rol oynayırdı. Zaman dəyişdikcə təbii ki, bu orqan da dəyişdi. Burjuaziyanın zühuru ilə feodalizm sistemi dağıldı. Mənəviyyat mərkəzi qalalardan şəhərlərə keçdi. Şəhərlərdə yetişən ziyalı zümrə ümumi şüurun tərbiyə və iradəsini təmsil edən bir sinif halına gəldi. Bu sinfin ən böyük aləti mətbuatdır (63, s. 23; 121, s. 17). M.Ə.Rəsulzadəyə də bu fikri təsdiqləyir ki, danışdığı dildə ilk qəzetə malik cəmiyyət artıq milliyyətdən millətə keçidin təməlini qoymuş olur. Həyatında mətbuat ənənəsinə malik olan bir xalq isə artıq təşəkkül tapmış bir millətdir: "Milli şüur bir milliyyət içərisindən çıxan rəhbər zümrənin digər zümrə və fərdlərlə daimi və üzvi bir münasibət və ixtilat təmin etməsilə doğar. Qəzetlərin bu xüsusdakı rolu aşkardır" (125, s. 2).

Çarizm inqilabi çıxışların nəticəsində imzalamağa məcbur olduğu 17 oktyabr manifestində vəd edilən azadlıqlar müvəqqəti olsa da, məhz bundan sonra vüsət almışdır. 1905-ci ildən etibarən artıq "milli dillərdə qəzet və jurnallar nəşrə başlayır, mətbəələr, nəşriyyatlar yaradılır, yeni üsullu məktəblər açılır, xeyriyyə cəmiyyətləri təşkil edilir, yığıncaqlar, mitinqlər keçirilir və s. və i." (91, s. 98). Mədəni həyatın hər sahəsində dəyişikliklərin müşahidə edildiyi bu dövrün ziyalılar nəsli zamanın zəruri ehtiyacına görə universal tərzdə fəaliyyət göstərir, millətin, vətənin tərəqqisi və çiçəklənməsi naminə bütün bilik, bacarıq və istedadlarını sərf edirdilər. Şeir, nəsr, dram, mətbuat, publisistika, tənqid, teatr, elm, siyasət, fəlsəfə, musiqi, tərcümə, məktəb, maarif, bir sözlə, yaradıcılığın, ədəbi-mədəni və ictimai-siyasi fəaliyyətin demək

olar ki, bütün sahələrində bu və ya digər dərəcədə öz sözünü deyən o dövr Azərbaycan ziyalısı hərtərəfli hazırlığa, həm Şərq, həm də ki, Qərb oriyentasiyalı təhsilə və biliyə malik idi (1, s. 10).

Bu mərhələnin hələ ilk illərində ilhamını zəngin "milli kültür xəzinəsindən" və "tarixi dövlətçilik ənənəsindən" alan milli hərəkat formalaşmış və əsl xarakterini tapmışdı. Milli mətbuat çiçəklənmiş, milli maarif öz nurunu "ən hücrə köşələrə" qədər yaymağa başlamış, modern milli bir iqtisadi həyat qurulmuş, milli ziyalılar başda olmaqla milli idealı təmin edən təşəbbüskar milli bir kadrlar yetişmişdi (118, s. 4-7). Milli dram, milli komediya və milli opera teatrları da məhz bu dövrdə mükəmməlləşmiş və zənginləşmişdi.

M.Şahtaxtlı "Novoe obozrenie"nın səhifələrində (1905-ci il, № 243) çap olunmuş "Müsəlmanlar və konstitusiya" adlı məqaləsində yazırdı ki, 17 oktyabr manifesti, şübhəsiz, çox böyük mədəni-tarixi əhəmiyyətli olan hadisədir. Konstitusiya Avropa xalqlarının siyasi-sosial idealının gerçəkləşməsi vasitəsidir. Bu idealı təxminən belə ifadə etmək olar: "Bəşəriyyətin can atdığı hədəf ayrı-ayrı şəxsiyyətlər və yaxud bu və ya digər insan qrupları, zümrə və ya silklərin deyil, böyük insan ailəsinin istisnasız bütün üzvlərinin xoşbəxtliyi olmalıdır. Əgər xalqlar özləri öz talelərinə sahib çıxarlarsa, yer üzündə yaşayan hər bir insanın həyatının təmin olunması mümkündür". M.Şahtaxtlı yzırdı ki, biz, ziyalı müsəlmanlar, bütün gücümüzlə onun üçün çalışmalıyıq ki, xalqlarımız həyata indiki baxışlarını yuxarıda göstərilən Avropa dünyagörüşü ilə dəyişsinlər (13, s. 62).

Dövrün əksər ziyalıları 1905-ci il inqilabını Azərbaycan türkləri üçün də mühüm hərəkatların başlanğıcı hesab edirdilər. Çünki həqiqətən də Azərbaycan türkləri ədəbiyyat, teatr, musiqi və təhsildə olduğu kimi sosial və siyasi sahədə də irəliləməyə başlamışdılar. Bilavasitə milli mətbuatın yardımı ilə siyasi, sosial və milli fikirlər də inkişaf edirdi. Mətbuatın başlıca mövzuları içərisində ziyalıları narahat edən aşağıdakı məsələlər əsas yer tuturdu: üsuli-cədidi yerləşdirmə, məhəllə, kənd və molla

məktəblərində farsca yerinə türkcə təhsilə keçilməsi və tədrisin modernləşdirilməsi; şiə və sünni dini idarələrini birləşdirilməsi, vəqflər idarəçilərinin və din adamlarının xalqın ümumi səsverməsi ilə seçilməsi; xeyriyyə təşkilatlarının, mədəni-maarif cəmiyyətlərinin, ictimai dərnəklərin və nəşriyyatların qurulması; bələdiyyə və Duma seçkilərində iştirak etmək üçün türklərə qoyulan məhdudiyyətlərin aradan qaldırılması, müsəlmanlara da ruslarla bərabər haqlar verilməsi və s. Mətbuatın tələbkar yazılarının da əhəmiyyətli təsiri ilə 1905-ci ildə Azərbaycanda mədəni-maarif dərnəkləri qurulmağa başlamışdı. H.Zərdabinin təşəbbüsü və Z.Tağıyevin maddi yardımı "Müsəlman Xeyriyyə Cəmiyyəti" yaradılmış, milli məktəblər açmaq və bu məktəblər üçün müəllimlər yetişdirmək məqsədilə "Nəşri Maarif Cəmiyyəti" qurulmuşdu. Bundan əlavə "Nicat", "Səadət", "Ədəb Yurdu", "Səfa" kimi yarı siyasi, yarı mədəni cəmiyyətlər qurulmuşdu ki, bütün bu fəaliyyətlər milli burjuaziya ilə ziyalıların həmrəyliyinin nümunəsi idi. Təbii ki, bu həmrəylik təşəbbüsləri xalqın birliyinə və milli şüurunun oyanmasına bilavasitə təsir göstərən amillərdən idi.

Qeyd edilməlidir ki, H.Zərdabi hələ 1871-ci ildə xeyriyyə cəmiyyəti yaratmağa təşəbbüs göstərmişdi. O, cəmiyyətin nizamnaməsini tərtib edərək Bakıda, Gəncədə, Tiflisdə nüfuzlu adamlara müraciət etmiş və onları təşəbbüsü müdafiə etməyə və bu cəmiyyətə müntəzəm surətdə pul yardımı göstərməyə çağırmışdı. "Lakin cəmiyyət çox adi, eyni zamanda onun təsisçisi üçün acı bir səbəbə görə bağlandı – o öz fəaliyyətinin əsas şərtini yerinə yetirə bilmədi, iki il ərzində özünün mədaxili və məxarici barədə məlumat təqdim edə bilmədi" (84, s. 13-14). 1905-ci ildə yenidən xeyriyyə cəmiyyəti yaratmağa cəhd göstərildikdə bu dəfə artıq hakimiyyət orqanları buna mane oldular. Ə.Ağayev "Kaspi" qəzetinin 1 aprel 1905-ci il tarixli sayında yazırdı: "75 min müsəlmanın yaşadığı Bakının müsəlmanları xeyriyyə cəmiyyəti yaratmağa icazə verilməsi barədə vəsatət qaldırdılar. Onlardan bir ay sonra müsəlmanlarla müqayisədə sayca çox cüzi olan gürcü cəmiyyəti belə bir

vəsatət qaldırdı. Gürcülərə icazə verdilər, müsəlmanlara isə rədd cavabı verdilər" (84, s. 15).

Çarizm ana dilində məktəblər açılmasına mane olur, məktəblərdə ana dilinin tədrisini qadağan edir, məktəblərdə tədrisi ən yeni metod ilə aparmaq sahəsində hər cür cəhdləri təqib edərək buna mövcud rejimə qarşı çıxmaq kimi baxardı (155, s. 87-96). Müsəlmanlara təkcə Zaqafqaziyada deyil, həm də bütün Rusiya imperiyasında orta məktəblərdə dərs deməyə icazə verilmirdi. Ə.Ağayevin orta məktəb müəllimi vəzifəsinə təsdiq edilməsinə on bir il imtina olunması buna nümunədir (84, s. 15).

Ümumiyyətlə, istər orta, istərsə də ali savadlı adamların sərbəst peşə seçməsi imkanı məhdud idi. Bəzi ali tədris müəssisələrinin qapıları azərbaycanlıların üzünə bağlı idi. Təhsil alan gənclərin dövlət təqaüdü almaq hüququ yox idi. Ali məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra onlar həmin tədris müəssisəsində yuxarı vəzifələrə keçmək imkanından məhrum idilər. Misal üçün, Ə.Topçubaşov Peterburq universitetinin hüquq fakültəsini əla qiymətlərlə bitirdikdən sonra ona təklif olunmuş kafedranın professoru vəzifəsini bu səbəbdən tuta bilməmişdi. O, Bakıya qayıtmış və özünü ictimai-siyasi fəaliyyətə həsr etmişdi. Moskva universiteti hüquq fakültəsinin məzunları Fətəli xan Xoyski və Xəlil bəy Xasməmmədov yalnız ona görə uzun illər Yekaterinodar mahal məhkəməsi prokurorunun köməkçisi vəzifəsində işləmişdilər ki, onların öz yaşayış yerlərində işləmək hüququ yox idi. Müsəlmanın andlı müvəkkil olmasını ədliyyə naziri təsdiq etməli idi (84, s. 14-15). Vəkillər korporasiyasında müsəlmanların sayı 5 faizdən çox ola bilməzdi. Məhkəmə icraatının əhalinin başa düşdüyü ana dilində aparılması qadağan idi. Məhkəmə icraatının mühüm təsisatlarından biri olan andlı iclasçılar yox idi. İ.Ziyadxanov Dövlət Dumasının iclasındakı çıxışı problemlə bağlı bir sıra məqamlara aydınlıq gətirirdi (165)

Mövcud qadağa və əngəllərə baxmayaraq artıq əsrin əvvəllərində milli kapital sahiblərinin vəsaiti hesabına nəşr olunan dövri mətbuat səhifələrində milli oyanışa, maarifçiliyə və xeyriyyə təşkilatlarının yaradılmasına çağıran məqalə və yazılar dərc olunurdu. 1905-ci il hadisələri xalqın azadlıq mübarizəsinin böyük sıçrayışına kömək etmiş, cəmiyyətin bütün təbəqələrinin siyasi fəallığı, ümummilli tələblərin irəli sürülməsi, xalqın əsas baxışlarının və mənafelərinin ifadəsi üçün obyektiv şərait yaranmışdı. Cəmiyyətdə siyasi və maarifçilik həyatının geniş vüsət almasında Rusiya və Avropanın ali məktəblərində təhsil almış Azərbaycan ziyalıları ilə iri milli sahibkarlar arasındakı həmrəylik çox mühüm rol oynamışdır (84, s. 36).

Qarşıdan gözlənilən islahatlara böyük ümidlər bəsləyən Azərbaycan ideoloqları bu islahatlarda öz əksini tapmalı olan problemlərdən yazırdılar. Onlar yerli əhalinin dövlət idarəetmə orqanlarında təmsilçiliyinin genişləndirilməsi məsələsini qətiyyətlə qoyurdular. Müntəzəm olaraq dövri mətbuat səhifələrində milli mədəniyyətin vəziyyəti haqqında tənqidi materiallar dərc olunurdu ki, bunların bir qismində müsəlmanları şəriət qaydalarına əməl etməyə, lakin eyni zamanda Avropa xalqları mədəniyyətinin ən yaxşı ənənələrini mənimsəməyə də çağırışlar yer alırdı.

Xalqın başına gələn bəlaların bir qisminin məhz nadanlıqdan doğduğunu sərt şəkildə qələmə alan ziyalıları mədəni cəhətdən geri qaldıqlarına görə ilk növbədə müsəlmanların özlərini günahlandırırdılar. Ə.Ağaoğlu, Ə.Topçubaşov, Ə.Hüseynzadə kimi ziyalılar xalqın milli oyanışı və özünüdərki yolunda bütün mümkün sivil vasitələrdən istifadə etməyə çalışırdılar (84, s. 37).

Azərbaycanın demokratik fikirli bütün ziyalıları, o cümlədən, H.Zərdabi, S.M.Qənizadə, H.Mahmudbəyov, M.Mahmudbəyov, Ə.B.Hüsynzadə, Ə.Ağaoğlu, Ə.B.Topçubaşov, F.Köçərli, N.Nərimanov, M.Ə.Rəsulzadə, R.Əfəndiyev, Ü.Hacıbəyov, S.S.Axundov, C.Məmmədquluzadə, M.Şahtaxtılı, M.T.Sidqi, M.Ə.Sabir,

A.Səhhət, A.Şaiq, Ö.F.Nemanzadə, Ə.Nəzmi, E.Sultanov və başqaları xalq maarifi sahəsində böyük ictimai-siyasi və elmi əhəmiyyət kəsb edən, xalq üçün çox səmərə verən faydalı işlər görmüşlər. Bunlar içərisində məktəb şəbəkələrinin genişləndirilməsi, yeni məktəblərin açılması, elmin demokratikləşdirilməsi, ana dilində təlim, dərs kitabları və tədris proqramlarının tərtib edilməsi məsələləri ön planda dururdu (69, s. 30). Ziyalılar tədris və təlim işi aparmaqla yanaşı, ciddi çətinliklərə, məhrumiyyətlərə baxmayaraq, qiraətxanalar, kitabxanalar yaradır, həvəskar gəncləri, tələbələri öz ətrafında toplayaraq teatr tamaşaları verir, mühazirələr təşkil edir, cəhaləti, geriliyi, ətaləti tənqid atəşinə tutan bədii əsərlər yaradır, milli ədəbi dilin, ədəbiyyatın, mətbuatın, teatrın inkişafı uğrunda yorulmadan mübarizə aparırdılar.

Nəhayət, Bakı Xeyriyyə Cəmiyyəti nizamnaməsinin baxılmaq üçün Ə.M.Topçubaşov tərəfindən 1905-ci ilin iyulunda canişinə təqdim olunmuş layihəsi oktyabrda təsdiq edildi. Xeyriyyə Cəmiyyətinin açılmasına razılıq 1905-ci ilin axırlarında – 1906-cı ilin əvvəllərində alındı (84, s. 37-38). Azərbaycanda mədəni-maarif və sosial yardım sahələrində fəaliyyət göstərən ilk könüllü ictimai qurum kimi "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin (BMXC) nizamnaməsi 1905-ci il oktyabrın 10-da Qafqaz canişini qraf İ.İ.Vorontsov-Daşkov tərəfindən təsdiq edilmişdi. Cəmiyyətin təşkilinin təşəbbüsçüləri H.Z.Tağıyev, H.Zərdabi, Ə.Topçubaşov, Ə.Ağayev, Ə.Hüseynzadə və b. idi. Cəmiyyətlərin yaradılmasından məqsəd ziyarətə gedən, müalicəyə ehtiyacı olan qocalara, əmək qabiliyyətini itirmiş imkansız müsəlmanlara, şagird və tələbələrə kömək göstərmək, zəruri hallarda, maliyyə yardımı etmək və s. idi. Maddi yardımla yanaşı, əhalini maarifləndirmək məqsədilə məktəb və kurslar açan xeyriyyə cəmiyyətləri də yaranırdı. Bakıda 1906-07-ci illərdə bir-birinin ardınca "Nəşri-maarif", "Nicat", "Səadət" və s. xeyriyyə cəmiyyətləri fəaliyyətə başlamışdı. Bu cəmiyyətlərin nizamnamələri oxşar olsa da, fəaliyyət yönlərinə görə fərqlənirdilər. Bu cəmiyyətlərdə təhsil almış bəzi mütəxəssislər

ictimai-siyasi fəaliyyətlə məşğul olmuş, Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi-mədəni həyatında yaxından iştirak etmişlər (9, s. 230).

BMXC-nin ideya istiqamətini H.B.Zərdabi və onun həmfikirləri müəyyənləşdirirdi. Cəmiyyət əvvəllər, başlıca olaraq, Bakıda və onun ətrafında fəaliyyət göstərirdi. Birinci dünya müharibəsi (1914-18) illərində öz nizamnaməsində bəzi dəyişiklik edərək, geniş fəaliyyət göstərmiş, Qafqaz cəbhəsindən qaçqın düşənlərə, yetim uşaqlara, əsir düşmüş türk əsgərlərinə yardım etmişdir. "Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkilliyin" nəzdində BMXC-nin baş müvəkkili var idi. Bu vəzifə Xosrov Paşa bəy Sultanova həvalə olunmuşdu. BMXC Azərbaycanın ictimai-siyasi, sosial və mədəni həyatında əhəmiyyətli rol oynamışdır (8, s. 228).

"Bakı şəhər və xalq məktəblərinin şagirdlərinə yardım cəmiyyəti"nin qeyri-hökumət xeyriyyə təşkilatı kimi (1907) yaradılmasında məqsəd Bakı şəhər və xalq məktəblərinin ehtiyacı olan şagirdlərini geyim, yemək və mənzillə təmin etmək, onlara tibbi yardım göstərmək, valideynləri işdə olan şagirdləri gündüzlər sığınacaqla təmin etmək idi (8, s. 237). Qeyri-hökumət humanitar qurumu olan "Gəncə müsəlman xeyriyyə cəmiyyəti" isə Ələkbər bəy Rəfibəylinin təşəbbüsü ilə yaradılmışdı (1906) ki, (8, s. 394-395) bu cəmiyyət də Azərbaycan mədəni-ictimai həyatında mühüm rolu olmuşdur.

Azərbaycanda mədəni-maarif işləri sahəsində fəaliyyət göstərmiş xeyriyyə cəmiyyəti "Nəşri-maarif" öz fəaliyyətinin ilk mərhələsində "Bakı quberniyası müsəlman əhalisi arasında savadı artıran cəmiyyət" də adlandırılırdı. Təsisçiləri İ.Səfərəliyev, H.Həsənov, M.H.Hacınski, Ə.Əhmədov, A.Tağıyev, Ə.Həsənov və H.Mustafayev idilər. "Nəşri-maarif"in idarə heyətinə 1906 il noyabrın 24-də keçirilən ilk seçkilərdə cəmiyyətin tərkibinə H.Z.Tağıyev (sədr), M.H.Hacınski (sədr müavini), Ə.Ə.Əmircanov, H.Məlikov, M.Ə.Nəzirov (təftiş komissiyası), Ə.Ağayev, Ə.İ.Cəfərov, M.Əfəndiyev (katiblik),

A.Tağıyev (xəzinədar) və 14 nəfərdən, o cümlədən İ.Məlikov, M.Muxtarov, Ə.Həsənov, Ə.Əhmədov, İ.Aşurbəyov, Q.Qarabəyli və başqalarından ibarət idarə heyəti, fəxri və ömürlük üzvlər (H.Z.Tağıyev, M.Nağıyev, İ.Əsədullayev, M.Muxtarov, Y. Dadaşov və A.Tağıyev) seçilmişdilər. "Nəşri-maarif"in əsas məqsədi müsəlman əhalisi arasında Azərbaycan türkcəsində savadın yayılması idi. Cəmiyyətin müxtəlif bölgələrdə, hətta Azərbaycandan kənarda da şöbələri açılmışdı. "Nəşri-maarif"in təkcə Bakı şəhərində və onun kəndlərində 20 məktəbi fəaliyyət göstərmişdir. Cəmiyyət 1907-ci ildə Bakıda Darülmüəllimin – "İslam" müsəlman müəllimlər seminariyası açmış və İstanbuldan dəvət olunmuş Məhəmməd Cövdət bəy seminariyanın müdiri təyin edilmişdir. Burada M.Mahmudboyov, F.Ağazadə, S.Əbdülrəhmanbəyov, Y.Əfəndiyev, Q.Mirzəzadə (Qafur Rəşad) kimi görkəmli pedaqoqlar çalışmışlar (9, s. 265).

1906-cı ildən mədəni-maarif fəaliyyətinə başlamış "Nicat" cəmiyyətinin əsas məqsədi azərbaycanlı əhali arasında milli oyanışa nail olmaq üçün maarifi yaymaq, orta və ali təhsil müəssisələrinin ehtiyacı olan tələbələrinə maddi yardım göstərmək, həmçinin Azərbaycan dilinin və ədəbiyyatının, milli teatr sənətinin inkişafına kömək etmək idi. Cəmiyyət Bakıda və onun ətraf rayonlarında kitabxana və qiraətxanalar, məktəblər, savadsızlığı ləğv etmək üçün axşam kursları açır, xeyriyyə məqsədilə konsert-gecələr, ictimai-siyasi və elmi-kütləvi mövzularda mühazirə və məruzələr təşkil edir, Azərbaycan dilində qəzet və kitab nəşrinə qayğı və kömək göstərirdi. "Nicat" cəmiyyətinə müxtəlif illərdə H.Ağayev, İ.Aşurbəyov, M.Ə.Rəsulzadə, Ə.Topçubaşov sədrlik etmişlər. "Nicat"ın tərkibində demokratik ziyalılarla yanaşı, milli burjuaziya nümayəndələri də var idi (9, s. 266-267).

Bakıda fəaliyyət göstərən və xalqın maariflənməsində, milli oyanışında mühüm rolu olmuş müsəlman xeyriyyə cəmiyyətlərindən biri də "Səadət" (1907) idi. Cəmiyyətin yaranması və fəaliyyətində görkəmli xeyriyyəçi, maarifpərvər H.Z.Tağıyevin böyük rolu olmuşdur. "Səadət"in əsas məqsədi xalqı maarif-

ləndirmək, onun mədəni inkişafında özünəməxsusluğunu qorumaq olmuşdur. Cəmiyyət köhnə üsullu məktəb və mədrəsələrin yenidən qurulmasına, təkmilləşdirilməsinə, onların yayılmasına, kitabxanalar, qiraətxanalar açılmasına çalışırdı. 1908 ildə cəmiyyət tərəfindən Bakıda açılmış "Səadət" məktəbində Fərhad Ağazadə, Üzeyir və Ceyhun Hacıbəyli qardaşları, Axund Molla Ağa Əlizadə, Molla Qədir İsmayılzadə, Məmməd Hənəfi Terequlov, Əli Hüseynov, Kərim bəy Məlikov və b. müəllimlik edirdilər. Məktəbin müdiri Ə.Hüseynzadə idi. Cəmiyyətin bütün məktəb proqramlarına Qori seminariyasının məzunu Fərhad Ağazadə rəhbərlik edirdi. Cəmiyyətin fəaliyyətində mütərəqqi din xadimləri yaxından iştirak edirdilər. "Səadət" cəmiyyəti Azərbaycanın bir sıra şəhərində məktəb və mədrəsələr açmış, Cənubi Azərbaycandan gəlmiş fəhlələrin uşaqları üçün Bakıda "İttihad", Tiflisdə isə "İttifaq" məktəbi təşkil etmişdi (9, s. 331-332).

1912-20 illərdə Bakıda fəaliyyət göstərmiş "Səfa" mədəni-maarif cəmiyyəti Cəfər Bünyadzadənin təşəbbüsü, Seyid Hüseyn və digər ziyalıların köməkliyi ilə təsis olunmuşdu. "Səfa"nın məqsədi baxımsız uşaqları təhsilə cəlb etmək, əhalinin yoxsul təbəqəsinə tibbi yardım göstərmək, xalqın mədəni səviyyəsini yüksəltməkdən ibarət olmuşdur (9, s. 333).

"Nicat", "Nəşr-maarif", "Səfa" kimi cəmiyyətlərin başında duran Ü.Hacıbəyov, Z.Hacıbəyov, H.Q.Sarabski, H.Ərəblinski, M.A.Əliyev, C.Zeynalov, S.Ruhulla kimi görkəmli teatr və musiqi xadimləri xalqın maarifləndirilməsi yolunda çalışır, müxtəlif konsert və teatr tamaşaları, siyasi və elmi məruzələr keçirirdilər. Bu dövrdə Azərbaycan mədəniyyətinin ən sürətlə irəliləyən sahələrindən biri teatr sənəti idi. Azərbaycan dramatik teatrı çox çətin şəraitdə fəaliyyət göstərir və həqiqi xalq sənəti uğrunda mübarizə aparırdı. Məhz bu teatr milli opera sənətinin yaranmasında xüsusi rol oynamış və ilk Azərbaycan operaları bu teatr ustalarının qüvvələri ilə, bu teatrların səhnələrində qoyulmuşdu.

Bu zaman Azərbaycan ictimai fikrində maarifçilik ideyası dövrün tələbi kimi xüsusi yer tutmuşdur ki, Azərbaycanda demokratik maarifçiliyin yuxarıda adları qeyd edilən görkəmli nümayəndələri maarifin, elmin inkişafı, milli mədəniyyətin formalaşması uğrunda çalışmış, cəhalətə, mövhumata, köhnə adət-ənənəyə, dini xurafat və fanatizmə qarşı mübarizə aparmışlar. Öz əksini həm də dövrün mənəvi-mədəni həyatında tapan ictimai fikrin bu əsas ideya istiqamətləri milli şüurun oyanması, milli maarif, ədəbiyyat, teatr və mətbuatın meydana gəlməsi, inkişafı, danışıq dili ilə yazılı dilin yaxınlaşması və milli ədəbi dilin formalaşması, dünya elm və mədəniyyətinə marağın artması prosesində özünü göstərirdi. Bu prosesdə şüurlarda hökm sürən əvvəlki ictimai-siyasi, fəlsəfi-əxlaqi və dini görüşlər ciddi dəyişikliyə məruz qalmağa başlamışdı.

Miqyas baxımından ictimai fikir və onun əsas istiqamətləri hər şeydən əvvəl öz ifadəsini milli mətbuatda, birinci növbədə milli dövri mətbuatda tapmışdır. İctimai fikrimizin müxtəlif sahələrinin ifadəsi kimi nəşrə başlayan və ideya istiqamətləri müxtəlif olan "Əkinçi" (1875-1877), "Ziya" (1879-1880), "Ziyayi-Qafqaziyyə" (1880-1884), "Kəşkül" (1883-1891) qəzetləri bağlandıqdan sonra 1903-cü ilədək Azərbaycanda ana dilində qəzet və jurnal buraxılmamışdır. Bu müddət ərzində Azərbaycan mütərəqqi ziyalılarından M.Şahtaxtılı, C.Mehmandarov, S.M.Qənizadə, H.Mahmudbəyov, N.Nərimanov və bir çox başqaları ana dilində qəzet və jurnal nəşr etmək haqqında hökumətdən icazə almaq üçün dəfələrlə təşəbbüs göstərsələr də, bu təşəbbüslər nəticəsiz qalmışdır. Çar hakim dairələri mütərəqqi istiqamətli qəzet və jurnal nəşri haqqında verilən ərizələri müxtəlif bəhanələrlə rədd etmişdir. Çünki çarizm rus olmayan xalqların milli mətbuatının inkişafına milli şüurunun oyanması və milli hərəkatın genişlənməsi vasitəsi kimi baxmış, buna görə də ona qarşı qəti mübarizə tədbirlərinə əl atmışdır.

Bu dövrdə ana dilində dövri mətbuat olmadığından Azərbaycan ziyalıları öz məqalələrini rus, tatar, fars, ərəb və s. dil-

lərdə nəşr edilən müxtəlif istiqamətli mətbuatda: "Kaspi" (Bakı), "Qafqaz", "Tiflisski listok", "Novoye obozreniye" (Tiflis), "Moskovskiye vedomosti" (Moskva), "Tərcüman" (Bağçasaray), "Həblülmətin" (Kəlküttə), "Sürəyya" (Qahirə) və başqa qəzetlərdə nəşr etdirməyə məcbur olmuşlar. Bu dövrdə Azərbaycanda əsas etibarı ilə Peterburqdan, Moskvadan və qismən də yaxın və orta şərq ölkələrindən bu və ya digər yolla daxil olan qəzet və jurnallar oxunurdu (69, s. 30-31). 1905-ci il inqilabının təmin etdiyi nisbi hürriyyət sayəsində isə, gündəlik "Həyat", "İrşad" və "Tərəqqi" qəzetlərindən sonra "Füyuzat", "Dəbistan" və "Molla Nəsrəddin" kimi ədəbi, elmi, əxlaqi, tərbiyəvi və satirik jurnallar nəşrə başladı. Azərbaycanın ədəbiyyat, mətbuat və fikir həyatında yeni bir dövr açan bu nəşrlərin başında Ə.Topçubaşov, Ə.Hüseynzadə. Ə.Ağaoğlu, C.Məmmədquluzadə kimi şəxsiyyətlər dururdu. Azərbaycanın milli şairi M.Ə.Sabirin də yetişməsində əhəmiyyətli rolu olan "Molla Nəsrəddin" məcmuəsində ərəb, fars, türk, tatar, özbək, hind, türkmən, ləzgi, alban, əfqan, yunan, çin, bolqar, serb, alman xalqlarının həyatı və taleyi ilə bağlı problemlər qaldırılır və məcmuə Tehran, İstanbul, Kəlküttə, Bağdad, Buxara, Səmərqənd, Aşxabad, Daşkənd, Peterburq, Moskva, Həştərxan, Ufa, Tiflis, İrəvan kimi şəhərlərdə yayılır və oxunurdu. "Molla Nəsrəddin"in məzmununa orijinal bir rəng qatmış M.Ə.Sabir bədii sisteminin mahiyyəti və strukturu o qədər aydındır ki, Y.Qarayevin təbirincə desək, "millilik və bəşərilik, qloballıq və konkretlik burada elə bir üzvi vəhdətdədir ki, bu şeir heç bir zaman və məkan məhdudluğu tanımayıb. Bu gün də Sabir ətrafında ideya mübahisələri yoxdur" (50, s. 259) və bu gün də müasir səslənir.

Bu qədər zəngin mətbuat orqanlarında dərc edilmiş yazılar müəlliflərin bəzi fərqli mövqelərini ortaya qoyurdusa, ümumxalq mahiyyətli məsələlərdə ziyalılar adətən həmrəylik nümayiş etdirirdilər. Burada milli burjuaziyanın bir qisim nümayəndələri fəallıqları ilə seçilirdilər. Məsələn, H.Z.Tağıyevin maddi

köməyilə nəşrə başlayan "Füyuzat"ın ətrafina toplanan ziyalılar – Ə.Hüseynzadənin "ideyalarına işıq tutan" (31, s. V) Azərbaycanın və Türk dünyasının bir çox şair və ədibləri idilər. Bu müəlliflər içərisində M.Hadi, H.Cavid, A.Y.Talıbzadə, M.Ə.Rəsulzadə, A.Şaiq, A.Sur, H.B.Zərdabi, X.Z.Üşşaqizadə, İ.T.Musayev, Ə.Həsənzadə, Ə.Kamal, Ə.Raiq, A.Cövdət, H.S.Ayvazov, M.Ə.Rəcaizadə, A.Səhhət, T.Fikrət, S.Səlmasi kimi ədəbiyyat və mədəniyyət xadimləri vardı. "Həyat" 1905-ci il iyun ayının 7-də nəşrə başladığından, qəzetin həmin dövr fəaliyyəti Ə.Cəfəroğlunun dediyi kimi, "Azərbaycanda oyanan milli hərəkat xarakter etibarilə bir növ hazırlıq mahiyyətində idi" (103, s. 25-26). "Füyuzat" isə bu cəhətdən "Həyat" qəzetindən fərqli idi. Ə.Hüseynzadə "Həyat"la başladığı işi, əsasən "Füyuzat" jurnalında davam etdirmişdir. Belə ki, o, "Həyat"da turançılıq, türkçülük məramını tam açıq təbliğ edə bilməmişdirsə, "Füyuzat"da isə məqsədinə nail olmuşdur (31, s. VI). Ə.Hüseynzadənin fikirlərinin açıq-aşkar mətbuatla söyləmək imkanını qazanması "Füyuzat" jurnalını sırf turançılıq mövqeyində dayanan mətbuat orqanına çevirmişdir. Dövrün ədəbi, siyasi qüvvələri "Füyuzat" məcmuəsi ətrafında mərkəzləşərək, XX əsrin ilk onilliyində Azərbaycanda füyuzatçılıq adlı siyasi, ədəbi cərəyan yaratmışdılar.

Ə.Hüseynzadə tərəfində irəli sürülmüş fikir cərəyanı və mətbuat hərəkatı Azərbaycan xalqının ictimai, siyasi, ədəbi və estetik fikrinin inkişafında yeni mərhələ açmış və ortaq türk mədəniyyətinin gələcək təşəkkülü üçün zəmin hazırlamışdır. Ə.Ağaoğlu isə "Həyat"da bir ilə qədər çalışdıqdan sonra ayrılaraq Azərbaycan türklərinin ikinci gündəlik müstəqil qəzeti olan "İrşad"ı çıxarmağa başladı. Ə.Ağaoğlu "İrşad"ın əsas məramını belə izah edirdi: "Bir tərəfdən rus hökumətinə qarşı mücadilə edərək hər növ siyasi və ümumi hüquqdan məhrum olan türk ünsürünə bu hüququ da təmin etməkdən, digər tərəfdən türk ünsürünün özündə birlik fikrini təmin etmək məqsədi ilə məzhəb ayrılığını və xüsusən sünni-şiə düşmənçiliyini

qaldırmağa çalışmaqdan ibarət idi. Bununla bərabər, xalqı elm və irfana isindirmək, türkcə məktəb və digər irfan müəssilərini vücuda gətirmək üçün çalışmaq lazımdır" (97, s. 157).

Mövqe baxımından bu dövrün ziyalıları iki qismə bölünürdü: inqilabın sosial-siyasi yönünü ön plana alanlar və bunu milli bir hərəkat hesab edənlər. Birincilərə daxil olanların önündə, özünü liberalların sol qanadının nümayəndəsi kimi tanıdan Ə.Ağaoğlu gedirdi. "Azadlıq, bərabərlik, ədalət" devizinə əsaslanan "İrşad"da N.Nərimanov, M.Əzizbəyov, R.Əfəndiyev kimi hümmətçilərin yazılarına da geniş yer verilirdi. "İrşad" inqilab mövzusunda bir çox qəzetlər kimi ehtiyatlı mövqe tutmur, aktual məsələlərdə cəsarət nümayiş etdirirdi. Bununla yanaşı, qəzeti zənginlərdən birinin maliyyələşdirməsinə baxmayaraq, Ə.Ağaoğlu özü də bəzən yerli kapitalistlərə qarşı ittiham xarakterli yazılar yazırdı.

Dövri mətbuatdakı müzakirə və mübahisələr kontekstindən baxıldıqda görürük ki, qəzetlərdə ifadə edilən baxışların çoxu milliyyətçilik təmayüllüdür. "Tərəqqi"də bu görüşləri xülasə edən Ə.Ağaoğlu "Tərəqqi"nin 1909-cu il 16-cı sayında yazırdı ki, "...millətlər inkişaf edir və hamısı millətçilik deyilən mərhələdən keçmək zorunda. İngilis, fransız, italyan və almanların tutduqları xətti izləyərək onun tərəfdarı olmamızın səbəbi budur". Onun məqalələrində milli həmrəyliyə çağırış ruhu da özünü göstərirdi. O, mövqeyini açıqlayan bir səbəb kimi bunu göstərir ki, "milliyyətçilik" (nasionlizm deyir) "toplumdakı bütün sinifləri birləşdirir". Amma bunu da bir daha qeyd etməliyik ki, 1905-ci il inqilabı ilə artıq azərbaycanlıların milli kimliklərinin müəyyənləşdirilməsi zamanının gəldiyinə inanan və bu kimliyin nə olacağından şübhəsi olmayan ziyalıların ilk yol göstərəni Ə.Hüseynzadə olmuşdur. Bu mənada onun həmin dövr ziyalılarının əksəriyyəti üzərindəki təsirləri danılmazdır. "İslamçı bir qəzet" olan "Həyat" əvvəllər türkçü-milliyyətçi mövqedən çox panislamist və dini bir təmayüldə olsa da Ə.Hüseynzadə yavaş-yavaş türkçülük təbliğatı aparmağa başlamış və ilk dəfə olaraq, sonralar məşhur bir şüar halına gəlmiş

“Türkləşmək, islamlaşmaq, avropalaşmaq” düsturunu ortaya qoymuşdur. Mahiyyətində “laiqləşmə olmadan modernləşməni təmsil edən” bu şüar Ə.Hüseynzadə tərəfindən “Füyuzat” səhifələrində açıqlandı. “1906-cı ildə qurulan bu ədəbi-sənət dərgisi yüksək səviyyəsi, geniş çərçivəsi və İstanbulda nəşr edilən məşhur “Servet-i Fünun” ilə qarşılaşdırıla bilən keyfiyyəti ilə digərlərindən fərqli idi” (145, s. 88-89). Məlum ədəbi dil mübahisələri istisna olunarsa, “Füyuzat” jurnalının Azərbaycan milli-mədəni həyatında, türkçülüyün təbliğində, milli həmrəyliyin və milli şüurun formalaşmasındakı müstəsna rolu Ə.Hüseynzadənin həm tərəfdarları, həm də opponentləri tərəfindən qeyd edilməkdədir.

Haqqında danışılan mətbuat orqanlarından sonra Azərbaycan ictimai fikrinə fərqli mövqelərdən təsir göstərmiş “Rəhbər” və “Bəhlül” (1906), “Təkamül” (1907), “Tazə Həyat” (1907-1908), “İttifaq” (1908-1909), “Zənbur” (1901-1910), “Səda”, “Sədayi Vətən”, “Sədayi Haqq”, “Sədayi Qafqaz” (1908-1916), “Həqiqət”, “Günəş”, “Yeni Həqiqət”, “Məlumat”, “Yeni İrşad”, “Yeni Füyuzat”, “Hilal”, “Nicat”, “İqbal”, “Yeni İqbal” (1909-1917) kimi gündəlik qəzet, ədəbi və satirik jurnallar da işıq üzü görmışdır (116).

Cümhuriyyətə qədərki mətbuat orqanları içərisində milli kimliyi və milli birliyi açıqlığı və kəskinliyi ilə ortaya qoyan “Açıq söz” (1915-1918) həm də “istiqlal davasının ələmdarı” olmuşdur. Bu səbəbə görə 1918-ci il qırğını zamanı bolşeviklər bu qəzetin idarəsini də, mətbəəsini də yandırmışdılar. Həftəlik “Bəsirət” (1914-1920), “Füyuzat” ənənəsini davam etdirən “Şəlalə” (1913-1914), milliyyət prinsiplərini yayan “Dirilik” (1914-1916), elmi, ədəbi və tərbiyəvi “Məktəb” (1911-1920) və eyni xarakterdə olan “Qurtuluş” kimi jurnalların hər birinin Azərbaycanın mədəni həyatında müəyyən rolu olmuşdur. “Molla Nəsrəddin” qədər olmasa belə, “Tuti”, “Babayi Əmir” və “Məzəli” kimi satirik və tənqidi jurnallar da müəyyən oxucu auditoriyasına malik idi. Azərbaycan Xalq Cümhuriyyəti döv-

ründə isə aşağıdakı mətbuat orqanları nəşr edilmişdir: "Azərbaycan" (1918-1920) qəzeti, "Azərbaycan Hökumətinin Əxbarı" (1918-1920), "İttihad" (İttihadi İslam Partiyasının orqanı), "İl" (Əhrar Partiyasının orqanı), "Doğru yol" (Menşevik Sosialistlərin orqanı), "Xalqçı" (Azərbaycan Xalqçı Sosialistlər Partiyasının orqanı), "Al bayraq" (Müstəqil Sosialistlərin orqanı), "Xalq sözü" (Müstəqil milliyyətçi mühərrirlərin orqanı), "Evraqi Nəfisə" (sənət dərgisi), "Zəhmət Həyatı" və "Qurtuluş yolu" (kooperativçilər dərgisi), "Mədəniyyət Məcmuəsi" (milliyyətçi münəvvərlərin dərgisi), "Müsavat" ("Müsavat" Partiyasının orqanı) və "İstiqlal" (eyni partiyanın orqanı) (116, s. 9-10).

Qabaqcıl dünya təcrübəsini mənimsəməyə çalışan Azərbaycan ziyalıları "maarifin və mədəniyyətin ən birinci vasitəsinin kitab və qəzetlər – mətbuatdır" fikrində həmrəy idilər ki, bunların inkişafını da mətbəələrsiz təsəvvür etmək olmaz. Ö.F.Nemanzadə yazırdı ki, "hər millətin mədəniyyət və qüvvəti mətbəələrin sayı ilə mütənasibdir. Yəni mətbəəsi, mətbuatı çox olan millətlərin sərvət və qüvvətləri də çoxdur. Əks halda mətbuatı yox və ya az olan millətlərin mədəniyyət və gücləri də yox hökmündədir". Cəmiyyətdə ümumi dil birliyinin formalaşması da yenə mətbəə və mətbuata bağlıdır. Çünki "mətbəə və mətbuatı olmayan millətin dili yox hökmündədir. Dili olmayanın da mövcudiyyəti yox deməkdir" (13, s. 410). "Açıq söz"ün 1915-ci il 25 oktyabr nömrəsində Hüseyn Cavid də bənzər fikirlərlə çıxış edtmişdir: "Ədəbiyyat, bir millətdəki əhvali-ruhiyyənin inikası deməkdir. Gələcək nasıl isə, şimdiki ədəbiyyat və fəlsəfənin təsir və nüfuzuna qapılır və heç bir dürlü də qurtuluş imkanı bulamaz. (...) Ruhanilər və hakimlərin korluq və bacəriksizliyi də təsirsiz deyil, amma eyicə diqqət buyurulsa ən mühüm səbəb, yenə ədəbiyyat və mətbuatdır" (13, s. 576).

Azərbaycan ziyalılarının mədəni tərəqqi və milli həmrəylik yolunda mətbuatın dəyərini belə vahid mövqedən təqdir etmə-

ləri, mətbəələrin yaradılmasının və beləliklə kitab, qəzet və jurnal çapının zəruriliyini qarşıya bir problem kimi qoymaları 1905-ci ildən sonrakı mədəni sıçrayışın əsas səbəblərindən biri idi. Lakin təəssüflər olsun ki, bir müddət sonra baş verən ictimai-siyasi hadisələr bu mədəni tərəqqi və həmrəylik prosesinin eyni axarla davam etməsini əngəllədi və çarizmin siyasi təzyiqləri artmağa başladı.

Çarizmin qadağaları mədəni-maarif fəaliyyətlərinin qarşısında da böyük maneələr yaratdı. "Daxili İşlər Nazirliyi bəzi təlimatlarla müsəlmanların cəmiyyət fəaliyyətlərini əngəlləyirdi. II Dumada "müsəlman Fraksiyası"na sədrlik edən Ə.B.Topçubaşov çarın Dumanı dağıtmasına protest məqsədilə qələmə aldığı "Vıborq Bəyənnaməsi"nə imza atdığı üçün həbs edildi. Bu təzyiqlərə dözə bilməyən Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Yusuf Akçura kimi türk ziyalıları Türkiyəyə qaçmaq məcburiyyətində qaldılar. Bakıda da türk ziyalılarını həbs və sürgün bir xeyli artmışdı. Yuxarıda adı çəkilən dərnəklərin bir çoxu qapadıldı" (104, s. 133).

Lakin bütün bu qadağalara baxmayaraq xalqın düşüncəsində yaranmış həmrəylik hissləri getdikcə milli şüur səviyyəsinə istiqamət alırdı. Ağır şəraitdə çalışmaq məcburiyyətində qalsalar da ziyalılar xeyriyyə cəmiyyətləri, təhsil, teatr, sənət dərnəklərindəki fəaliyyətlərini davam etdirməkdə qərarlı idilər. Bu mədəni canlanmanın rəmzilərindən biri də 1908-ci ildə "Leyli və Məcnun" operası ilə yeni bir mədəniyyət faktının yaranması oldu. Zəngin azərbaycanlıların maliyyə dəstəyindən də yararlanan Azərbaycan mətbuat orqanlarından bəzisi "gerçək mətbuat kralları" halına gəlmişdi. Milli fəaliyyətlərə hər vasitə ilə dəstək duran H.Z.Tağıyev "Kaspi" və "Həyat"la yanaşı "Füyuzat" və daha sonra çıxan gündəlik "Təzə xəbər"i də maliyyələşdirirdi. İsa Aşurbəyli bəzi hümmətçi nəşrlərlə yanaşı müstəqil "İrşad"ı və daha sonra "Şəlalə" ədəbiyyat jurnalını maliyyələşdirirdi. Murtuza Muxtarov isə gündəlik "Tərəqqi"yə maddi dəstək dururdu. Qismən də olsa "mətbuat

azadlığının artması ilə birləşən iqtisadi dəstək" (145, s. 85-86) qəzetçilik sahəsində bir çox istedadların ortaya çıxmasına imkan verdi.

Ziyalıların fədakarlığın nəticəsində milli dəyərlərin, ədəbiyyat və mədəniyyətin, maarif və məktəb işinin, milli ideologiyanın inkişafı istiqamətində böyük uğurlar qazanıldı. Təsadüfi deyil ki, tədqiqatçılar mədəniyyət tariximizin 1905-ci ilə qədərki dövrünü "hazırlıq dövrü", 1905-ci ildən 1918-ci ilə qədərki dövrü "fikir və ideal dövrü", 1918-1920-ci illəri isə "istiqlal dövrü – əməl dövrü" kimi səciyyələndirirlər (7, s. 283).

M.Ə.Rəsulzadə ədəbiyyatı və incəsənəti ən güclü silahdan da kəsərli bilərək "Azərbaycan" qəzetinin 1919-cu il 7 iyul tarixli sayında yazırdı ki, "azadlıq və istiqlaliyyət əsas süngüləri ilə yox, ədəbiyyat və incəsənət vasitəsi ilə əldə olunur". Bir millətin tərəqqi və tənəzzülünü bilmək üçün o millətin məktəblərini, daha doğrusu, ibtidai məktəblərini görməyin kifayət etdiyini söyləyən Hüseyn Cavid isə bildirirdi: "Avropaya meydan oxuyan Almaniyanın, qoca Rusiyanı həyəcana düşürən Yaponiyanın bütün bu tərəqqiyyati-ciddiyyələri həp ibtidai məktəblər sayəsindədir ...Demək ki, bir millətin hər halını tədqiq etmək üçün ən doğru meyar, ən kəsdirmə yol o millətin məktəbləridir (13, s. 580). Ona görə də Ö.F.Nemanzadə "İrşad" qəzetinin 1906-cı il 282-ci sayında "millətpərəstlik zamanıdır" – deyə xalqa müraciətlə soruşurdu: "Bir Tağıyevdən savayı hansı bir dövlətlimiz özbaşına bir məktəb, bir mədrəsə, bir kitabxana vücuda gətirib?". Y.V.Çəmənzəminli isə "Bir də deyirəm, mədəni olmalıyıq. Mədəniyyətdən savayı ayrı bir şey bizə nicat yolu ola bilməyəcək" fikrini qətiyyətlə müdafiə edirdi. O, "nicatımız mədəniyyətə bağlıdır!" – deyə ana dilinin – türk dilinin tədrisi üçün yeni məktəblərin açılması zərurətini dönə-dönə təkrarlayırdı: "Müəllimə və müəllimlər yetirmək üçün milli məktəb açılmalıdır. Belə məktəb qurtarmışlar aramızda milli toxumlar saçmağa artıq lazımdırlar. Ədəbiyyatımızı əcnəbi əsirliyindən qurtarmalıdır, təqlidçilik kifayət edər, indisə ortalığa

milli bir şey çıxartmalıdır. Musiqimiz millətimizin şan və adıdır, onun tərəqqisi bizim nüfuzumuzu qonşularımız arasında artırır. Musiqikarımız Üzeyir bəy Hacıbəyov cənablarının qədri bilinməlidir (13, s. 652-653).

Üzeyir Hacıbəylinin ortaya çıxışı Azərbaycan musiqi mədəniyyətinin bütün sonrakı tarixi müqəddəratını müəyyənləşdirdi. Onun yaradıcılığı ilə başlayan yeni dövr professional Azərbaycan musiqisi olaraq tarixə keçir və milli ruhun oyanışına, milli ruhun yüksəlişinə takan verdi. Ümumilikdə Azərbaycanda maarifçi ədəbi-mədəni hərəkat həm kadr tərkibi, həm də məzmununun əhatə və miqyası baxımından yeni hüdudlar kəsb etdi. Avropada və Rusiyada, həmçinin Qafqazın Qori, Tiflis şəhərlərində ali təhsil alıb Azərbaycana qayıtmış gənc ziyalı nəsil H.Zərdabi və N.Vəzirov kimi ağsaqqallarla çiyin-çiyinə ədəbiyyat, tədris, teatr və mətbuat cəbhəsində qızğın fəaliyyətə başladı (52, s. 256).

Bu dövrdə Azərbaycanda müasir mənada milli mənlik şüurunun oyanması işində mətbuat böyük rol oynamış, o dövrlərin mətbuatını təmsil edən ziyalıların əksəriyyəti yenicə yaranan milli şüurun intişarı ilə hər gün, hər saat məşğul olmuşlar. Çünki mətbuat yalnız hadisələri bildirən və fikirləri aydınlaşdıran bir vasitə deyildir. M.B.Məmmədzadənin ifadəsilə desək, mətbuat "yaxınlaşdırma ilə birlikdə" həm də fikirləri və beyinləri bir ideal ətrafında birləşdirmək, tərbiyə və sövq etmək qüdrətinə malikdir. "Fikir isə hər bir işin anasıdır. Ortada bir fikir və ideal olmadıqdan sonra ortaq bir həmlə və hərəkət də ola bilməz. Mətbuat eyni zamanda, toplayıcı, birləşdirici və qoruyucu amildir" (63, s. 177-178).

Milli həmrəylik müzakirə mövzusu olduğu üçün deməliyik ki, bu proses heç də birmənalı şəkildə eyni istiqamətdə getmirdi, bu məsələdə də fikir ayrılıqları, bir-birinə zidd mövqe tutmuş qüvvələr vardı. Belə ki, bu zaman çox az Azərbaycan qəzeti müəyyən bir siyasi xətt tuturdu, bu baxımdan "hümmətçi nəşrlər də elastik davranırdı". Bununla belə burjua qəzetlərində

sosialistlərin çıxışlarına da tez-tez rast gəlinirdi. Mətbuatın ümumi mənzərəsinə diqqət yetirdikdə bu nəşrlərin "gündəmdə olan düşüncə axınlarını əks etdirdiyi, daha önəmlisi ziyalıların qarşılaşdıqları təməl ikiləmələri sərgilədikləri"nin şahidi oluruq. Dövri mətbuatın bu dövrdəki ümumi təmayüllərinin təhlili, bunu deməyə əsas verir ki, bu nəşrlər arasında "dövrün inqilabi havası və millətçi kimlik axtarışı" məsələsində ziddiyyət vardı (145, s. 86). Qəzetlərdə milliyyətçilik kəlməsi işlədilməsinə baxmayaraq, sonralar daha açıq bir termin olaraq millət gündəmə gəldi və artıq qəzetlər sadəcə müsəlmanlara səslənmək əvəzinə, Qafqaz türklərindən və ya sadəcə türklərdən bəhs etməyə başladılar.

Azərbaycan mətbuatının, söz azadlığının hüquqi əsasını isə 1919-cu il oktyabrın 30-da parlament tərəfindən qəbul edilmiş və mətbuat üzərində hər cür senzuranı qadağan edən "Mətbuat haqqında Nizamnamə" təşkil etdi. Həmin sənədə əsasən, mənbələrin yaradılması, çap məhsullarının istehsalı və satışı, dram əsərlərinin tamaşaya qoyulması, eləcə də qiraət evlərinin təşkili üçün hakimiyyət orqanlarının heç bir razılığı tələb olunurdu (164). Kütləvi mətbu orqanın təsis olunması üçün də hökumətin razılığı tələb olunmurdu. Qəzet və ya dərgi yaratmaqdan ötrü sadəcə olaraq mətbuat üzrə müfəttişi məlumatlandırmaq kifayət idi. Mətbuat orqanı yalnız məhkəmənin qərarı və yalnız qüvvədə olan cinayət məcəlləsində nəzərdə tutulmuş cinayətlərə görə məsuliyyətə cəlb oluna bilərdi (15, s. 168). Azərbaycan Xalq Cümhuriyyəti dövründəki mədəniyyət quruculuğu təcrübəsi təsdiqlədi ki, milli şüurun, özünüdərketmənin, istiqlalçılıq düşüncəsinin formalaşmasında bir əsrlik oyanış dövrünün, maarifçilik hərəkatının, məktəb, maarif, ədəbiyyat və mətbuatın, mədəni-maarif və xeyriyyə cəmiyyətlərinin teatr, musiqi, rəssamlıq kimi incəsənət sahələrində müşahidə edilən milli tərəqqinin əvəzedilməz və danılmaz rolu olmuşdur.

## Dil və kültür birliyi

Dünyanın bir çox elm, mədəniyyət və siyasət xadimləri dil və kültür birliyini milli şüurun və özünüdərkin əsas amili hesab etmişlər. Həyatlarını Azərbaycanın mədəni tərəqqisinə və milli istiqlal ideyaları uğrunda mübarizəyə həsr etmiş ziyalılar da xalqın bu ideallar ətrafında birləşməsinin, bu ideaların məfkurə halına gətirilməsinin, milli şəxsiyyətin formalaşması üçün mənəvi-ruhi birliyin vacib və mühüm şərt olduğunu bildirmişlər. Bu mənada onlar, dil və kültür birliyi anlayışı altında bir xalqın ruhi və mənəvi dəyərlərinin məcmusunu ifadə etmişlər.

Tarixi təcrübə bizə bunu diktə edir ki, milləti meydana gətirən ünsürlər içərisində kültür birliyi və bütünlüyü ən önəmli yer tutur. Çünki bir millətin kültürü, onun milli tarixindən qopub gələn ulularn mirası və maddi varlığının, inanc və əxlaq ucalığının, dil və sənət zənginliyinin, adət-ənənələrinin yaratdığı ortaq bir dəyərlər toplusudur. Ona görə də bir millətin var ola bilməsi, dünya millətlərinə varlığını qəbul etdirə bilməsi üçün, həmin millət mədəni dəyərlərini elmi şəkildə araşdırmaq, tanıtmaq, yaradıcı şəkildə yanaşaraq inkişaf etdirmək məcburiyyətindədir.

Mövzuya bu kontekstdən baxıldıqda, belə bir həqiqət ortaya çıxır ki, milli varlığın, milli birliyin, milli kültürün ən davamlı daşıyıcısı dildir. Dil deyərkən, ilk növbədə nəinki tərkib hissəsi olduğu kültür və mədəniyyət, həm də məhz məxsus olduğu millət göz önünə gəlir. Milliyyətin təyinində ən mühüm amil olması səbəbindəndir ki, dillə millət məfhumları çox vaxt eyni anlamda qavranılır. Bu prinsip, demək olar ki, bütün sosioloq, kulturoloq və digər fikir adamları tərəfindən mənimsənilmişdir. Dil birliyi təmin edilməyən bir cəmiyyətdə milli kimlik və milli şəxsiyyət axtarışı da mənasızdır. Bir toplumun kültürünün inkişafı baxımından dilin əhəmiyyətini danmaq və ya kiçiltmək, lazımi qiyməti əsirgəmək həqiqəti

inkar etməkdən başqa bir şey deyildir. Dolayısı ilə bir millətin dilində anarxiya yaratmaq, qarışıqlıq salmaq – o millətə qarşı işlənən cinayət deməkdir.

Dünya elmi fikrinin qənaətləri də təsdiqləyir ki, dil daim bir millətin təməlini təşkil edir. Bu nöqtədə dil, kültür və millət məfhumları ilə birləşməkdədir. Yəni dil, kültür və millət bir bütündür ki, bir-biri ilə tamamilə qaynayıb-qarışmış, birləşmişdir. Bu tarixi, sosial və kulturoloji gerçəklik dilin dəyərini ortaya qoymaqdadır. Bu da bir reallıqdır ki, dil tarixən müxtəlif şərt və amillərin təsiri altında meydana gəlmişdir. Yəni dil, cəmiyyətin mahiyyət və strukturundan doğmuş, cəmiyyətə xas olan başlıca bir kültür ünsürüdür. Hər hansı bir toplumun dilini soysuzlaşdırmaq, degenerasiya etmək – həmin toplumu bütün varlığı ilə ortadan qaldırmaq deməkdir.

Çağdaş kulturoloji fikrin ortaya qoyduğu qənaətlərə görə dil birliyi o zaman təmin edilə bilər ki, ayrı-ayrı fərdlərin dilindən təşəkkül tapmış milli dilin mühafizəsi və zənginləşməsi üçün zəruri olan hər şey edilsin (23, s. 11). Milli varlığın təməlini milli şüurda və milli birlikdə görən Atatürk də eyni mövqedən çıxış edərək deyirdi ki, “milli mənliyi olmayan millətlər başqa millətlərin ovudur” (54, s. 122-125). Eyni yanaşmanı biz Həsən bəy Zərdabidən üzü bəri əksər Azərbaycan ziyalılarının baxışlarında da izləyirik. Əli bəy Hüseynzadə də vaxtilə yazırdı ki, “elm və maarifin xalq tərəfindən mənimsənilməsi üçün, millət gərək öz dilində təhsil alsın, millət dilinin qədrini bilsin və onun tərəqqisinə çalışsın” (40, s. 69). Türk “dil və kültür birliyi” ideyasını təbliğ etmiş ziyalılar Azərbaycan türkcəsini böyük və vahid türk dilinin bir qolu hesab etmişlər.

Dilin milli varlığın mühafizəsindəki roluna dair dünya xalqlarının mütəfəkkirləri də çoxsaylı əsərlər yazmış, zəngin elmi-nəzəri irs qoyub getmişlər. Onların dil, kültür, millət məfhumlarının mahiyyəti haqqında gəldikləri qənaət və yekdil fikir budur ki, dil hər bir milli mədəniyyətin canı, cövhəridir. Dil milli mədəniyyətin ən mühüm və davamlı daşıyıcısıdır. Dil

milliyyətin təyinində başlıca amildir. Çox vaxt ana dili kimi də adlandırdığımız milli dil xalqın ruhu, psixologiyası və mənəvi dünyasıdır (4, s. 3). Ümumiyyətlə, dilin xalqın davranış və yaşam tərzi ilə bağlılığını tədqiq edən dilçilik məktəblərinin əksər nümayəndələri bu qənaətdədirlər ki, dil xalq ruhunun xarici təzahürüdür, mənəvi sərvətidir, elə bir güzgüdür ki, xalqın tarixi, dünyabaxışı, adət və ənənəsi öz əksini həmin güzgüdə tapır.

Kulturoloji tədqiqatlarda da dilin ictimai, sosial mahiyyətinə dair saysız-hesabsız fikirlər söylənilmişdir. Bu araşdırmaların müəlliflərindən bir qismi hesab edir ki, dil və kültür problemi istər kulturologiyada, istərsə də dilçilikdə hələ tam həll olunmamış məsələlərdəndir. Ona görə də dillə kültürün digər ünsürlərinin qarşılıqlı əlaqəsi və nisbəti problemi alimlər tərəfindən müxtəlif səviyyələrdə işlənmişdir. Buna səbəb dil, kültür və mədəniyyətin mahiyyətinin fərqli şəkildə qavranılmasıdır (86, s. 34-35). Lakin dilin ictimai-siyasi təhlili problemində alimlər bir-biri ilə nə qədər fikir mübahisələrində olsalar da, dilin milli-tarixi və pedaqoji mahiyyəti ilə bağlı onlar arasında elə bir ciddi fikir ayrılığı olmamışdır (89, s. 113).

Bir qisim dilçilərdən fərqli olaraq Uşinski, dillə təfəkkürün vəhdətdə olduğunu göstərir və dilin statik deyil, dinamik olduğunu təsdiqləyir. O, milli tarix və milli psixologiya ilə bağlı olan dili tarixən təşəkkül tapan və inkişaf edən bir hadisə kimi təqdim edir (89, s. 113). Ə.Ağaoğlu da bir kültür ünsürü kimi dilin dinamik olduğunu qeyd edir. “Üç mədəniyyət” əsərində bir millətin tarixində ən sağlam və dəyişməyən ünsürün dil olduğunu, dilin əslini dəyişdirmədən inkişaf etdiyini yazır. O, “Əcəba bir millətdə dəyişməyən, ölümsüz, müqəddər bir özəllik, bir özlük vardırmı?” – sualını cavablandırarkən mədəniyyətin heç bir ünsürünün, o cümlədən dinin də dəyişməz olmadığını bildirir: “Tarixində dinini ən azı iki kərə dəyişməyən hansı millət vardır?” (95, s. 14). Dil və din məfhumlarının müqayisəli təhlilində Ə.Ağaoğlu eynən S.C.Əfqani və M.Ə.Rəsulzadə mövqeyində durur. Habelə

millət məsələsində də bu mütəfəkkirlərin yanaşmaları fərqlənmir. Onlar milli varlığın qorunması baxımından dil, kültür və millət məfhumları arasında bərabərlik işarəsi qoyurlar. Lakin dilin də zaman və şərtlərə görə dəyişməsinə xüsusi diqqət yetirən Ə.Ağaoğluna görə: "Az-çox əbədilik qoxusu dildən gəlir. Fəqət, bu da gerçək və ümumi deyildir. Məsələn, bu gün slavyancanı qəbul etmiş olan bolqarlar öz əski dillərini qeyb etmişlər. Bunun kimi, bugünkü ingiliscə, İngiltərədə yaşayan başlıca dörd ünsürdən hansına aid dilin davamıdır? Hansı özəl bir tərzdə onu mənimsəyə bilir? Bununla bərabər, bir millətin tarixində ən sağlam olan və həmən dəyişməzlik dərəcəsinə varan amil dildir, yəni yalnız dildir ki, mahiyyəti dəyişmədən inkişaf xüsusiyyəti daşıyır. Demək ki, ümumilikdə şəxsiyyət və özlük deyilən məfhum dillə bərabər bir millətin maddi varlığından başqa bir şey deyildir" (95, s. 14-15).

Dilin, milli tarix və adət-ənənə ilə əlaqəsi probleminin ilk tədqiqatçılarından biri alman filosofu İ.Q.Herder olmuşdur. XX yüzillikdə isə F.Baas dillə kültürün əlaqəsinə dair yeni fikirlər irəli sürmüşdür. O, Amerika hindularının kültür və məişətini, adət və ənənəsini tədqiq edərək bu nəticəyə gəlmişdir ki, dil necədirsə, kültür də elədir. Dilçilik elmində etnoloqivistikanın banisi hesab edilən Eduard Sepir də dillə kültürü vəhdətdə tədqiq etmişdir. Habelə, Danimarka alimi Otto Jespersen də problemə oxşar mövqedən yanaşır: "Millət necədirsə, dil də elədir" (86, s. 35).

Kulturoloji ədəbiyyatda dilin özünəməxsus cəhətləri ümumi şəkildə belə səciyyələndirilir ki, dil ictimai hadisədir, onun yaranmasında və formalaşmasında bioloji amillər mühüm rol oynasa da, dominantlığı ictimai faktorlar təşkil etmişdir. Cəmiyyətin məhsulu olan dil sinfi, bazis və ya üstqurum hadisəsi deyil, tarixi kateqoriyadır, kültürün mühüm daşıyıcısı və formasıdır. Dil bioloji, irsi, irqi, psixoloji hadisə olmayıb, ünsiyyət vasitəsidir və yalnız insana məxsusdur. Təfəkkürlə vəhdətdə olan dil, fikrin ifadəsi kimi nitq vasitəsilə özünü

reallaşdırır. Dil cəmiyyətlə birlikdə inkişaf edir, dilin xidmət etdiyi cəmiyyət öldükdə dil də ölür. Dil, kültürün bütün ünsürləri ilə birlikdə və vəhdətdə götürüldükdə mədəniyyət fenomenidir (72; 86; 152; 154).

Amma demək olmaz ki, bütün bu qənaətlərə münasibət birmənalı olmuşdur. "Dil nədir?" sualına müvafiq sahə mütəxəssisləri tərəfindən bir-birindən fərqli çoxsaylı cavablar verilmişdir. Həm dilçilik, həm də ictimai-siyasi mövqedən verilən cavablar müəlliflərin elmi dünyagörüşünü əks etdirmiş, dilin tədqiqat metodlarının, forma və inkişaf qanunauyğunluqlarının müəyyənləşdirilməsinə ciddi təsir göstərmişdir. Müəyyən istisnaları, xüsusilə də Ə.Cəfəroğlu və Y.V.Çəmənzəminli kimi tədqiqatçıların dilçiliklə bağlı əsərlərini nəzərə almasaq, Azərbaycan ziyalılarının (xüsusilə də, mühacirət mətbuatında) əsərlərində də dil problemlərinə əsasən milli-tarixi, ictimai-siyasi və ideoloji mövqedən yanaşılmışdır. Çünki milli istiqlalını itirmiş bir millətin ziyalısı üçün hər hansı elm və ya mədəniyyət hadisəsi olmasından asılı olmayaraq dil problemi həm də milliyyət amili kimi önə çəkilmiş, dilin milli-ideoloji funksiyaları həyat gerçəkliyi və dünya reallıqları müstəvisində qabardılmışdır.

Bir sözlə, müxtəlif sahə mütəxəssislərinin dilə münasibətində ümumi və fərqli cəhətlər vardır. Məsələn, sosioloqlara görə, dil insan həyatının elə bir sahəsidir ki, bu fenomensiz nəinki insanın fəaliyyətini, hətta bir ictimai, sosioloji varlıq kimi insanın özünün varlığını, mövcudluğunu təsəvvür etmək mümkün deyil. Çünki belə olmuş olsaydı, onda dilsiz insan ictimai varlıq kimi mövcudiyyətini itirib, ictimai funksiyasından məhrum olub bioloji varlığa çevrilərdi.

Digər tərəfdən də dil tarixi kateqoriya olduğundan, yalnız bəşər tarixinin çərçivəsində inkişaf edir; bu çərçivədən kənarda nəinki dilin inkişafından, hətta onun mövcudluğundan belə söhbət gedə bilməz. Dil inkişafda olan dinamik sabitlikdir, lakin bu sabitliyi sükunət vəziyyəti kimi deyil, ünsiyyətə

xidmət edən, daima işlənən dilin inkişafı kimi başa düşmək lazımdır. Dili həm fəaliyyət, həm də bu fəaliyyətin məhsulu hesab edən V.Humboldtun fikrincə, dilin daimi keyfiyyəti olan dəyişkənlik, tarixi inkişaf, dinamizm onun mahiyyətini təşkil edir (152, s. 51). "Dil sabit olanla dəyişkən olanın, statik olanla dinamik olanın vəhdətindən ibarətdir" (72, s. 127-128). İctimai hadisə olan dilin vəziyyəti xalqın ümumi mədəni səviyyəsindən, təfəkkür tərzindən asılıdır. Bu mənada dil prosesləri bir sıra dillər üçün ümumidir. Çünki bütün xalqlar üçün cəmiyyətin, təfəkkürün və mədəniyyətin inkişaf qanunauyğunluqları xeyli dərəcədə ümumidir.

Millətlərinin gələcəyini milli-mədəni birliyə bağlayan dünya mütəfəkkirləri, o cümlədən tədqiq edilən dövrdə Azərbaycan ziyalılarının böyük bir qismi milli birliyin formalaşmasını milli mədəniyyətin mühafizəsi və inkişafında görürdülər. Bu mənada mədəniyyətin mühüm amillərinin, ilk növbədə dilin milli tərəqqidə, milli özünüdərkdə oynadığı mühüm rola dair M.F.Axundov, H.B.Zərdabi, Ş.C.Əfqani, İ.Qaspıralı, Ə.Ağayev, Ə.Hüseynzadə kimi bir çox türk böyükləri də əsərlər yazmış, dəyərli fikirlər söyləmişlər. Bunların içərisində M.K.Atatürk, M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə kimi "milli dövlət ideoloqları" bir az da irəli gedərək "dil-kültür-millət" məfhumlarını eyni mövqedən dəyərləndirmişlər. Belə ki, dili kültürün ifadə vasitəsi, milli birliyin ən sağlam dayağı kimi dəyərləndirən Atatürkə görə milli dövlətin də əsasını dil və kültür təşkil edir: "Türkiyə Cümhuriyyətinin təməli kültürdür" (54, s. 87, 52). M.Ə.Rəsulzadəyə görə də "dil bir nöqteyi-nəzərdən həmən millət deməkdir". "Dil millətin böyük bir hissəsidir. ...zahiri və batinidir. Millətləri bir-birindən ayıran ən böyük əlamət məhz bu dil damğasıdır", "Milliyyətin ümdə rüknünü təşkil edən şey dildir. ...Dil milliyyətin hamısını təşkil etməsə də, yüzdə doxsanını vücuda gətirən böyük bir amildir" (78, s. 476-479). O, millətin tarixi formalaşma prosesində də dilin rolunu önə çəkir, "milliyyət"lə "millət"i mahiyyətcə fərqləndirir (136, s. 2-3) və millətin yalnız "ictimai

hafizə" vəzifəsini görən orqanın təşəkkülü ilə vücuda gəldiyini yazır. Milliyyət etnik bir anlam ikən, millət siyasi bir anlamdır. Milliyyət müəyyən şərtlər və hadisələr nəticəsində vücuda gəlmiş statik bir varlıqdır; millət isə bu statik varlığın şüurlaşan dinamik (fəal) bir şəklidir. Statik bir keyfiyyət ərz edən milliyyət baxımından vətən coğrafi bir anlamdır. Halbuki şüur və iradəyə malik olan millət baxımından vətən, siyasi bir məna ifadə edir" (137, s. 19-20). Milliyyət dövlət olmaq əzmi göstərdiyi və bunda israr etdiyi zaman ancaq millət ola bilər (137, s. 24-25).

Millətin və dövlətin təşəkkülündə kültürün roluna birincilik verən M.B.Məhəmmədzadə bu fikirdədir ki, "milli dövlət kültür yaradıcılığının ən yüksək şəklidir". O, milli dövləti kültür yaradıcılığının zirvəsi hesab etməklə yanaşı, həm də belə bir tezis irəli sürür ki, "milli istiqlala malik olmayan bir millət hürriyyət və kültürünü hifz edə bilməz" (121, s. 54-55). Bəşər mədəniyyətini milli kültürlər məcmusu hesab edən M.B.Məhəmmədzadəyə görə millətlər müstəqil olmadıqca milli mədəniyyətlərini mühafizə edə bilməzlər və buna görə də bəşər mədəniyyəti qüsurlu olar (121, s. 54). M.Ə.Rəsulzadəyə görə də "mədəniyyəti-bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur" (78, s. 462). Mədəniyyətə belə bir qlobal kontekstdən yanaşan Ə.Ağaoğlu da mədəniyyəti həyat tərzi kimi tədqiq edir (95, s. 3-4).

M.F.Axundov, H.B.Zərdabi, Ş.C.Əfqani, İ.Qaspıralı kimi mütəfəkkirlərin əlifba və dilə dair nəzəri irsindən qaynaqlanan bu münasibət mövzuya dair əksər tədqiqatlarda özünü aşkar göstərməkdədir. İ.Qaspıralının "Dilsiz adam nə isə, ədəbi və ümumi dili olmayan millət də tamamən eynidir" ideyasına (141, s. 12) tapınan və Ş.C.Əfqaninin "Millətdən kənarda səadət yoxdur, dilsiz də millət ola bilməz. Əgər dil millətin bütün sənət və peşə sahiblərinin ünsiyyəti və istifadəsi üçün lazımi ehtiyacı təmin etmirsə, onu dil adlandırmaq olmaz" – prinsipinin təsir dairəsində olan azərbaycanlı ziyalıların yaradıcılığı həmişə bu xətti izləmişdir.

Bu ziyalıların kulturoloji irsində dəyişməz bir mövqe müşahidə olunur ki, dil kültürün ən böyük, ən başda gələn

ünsürüdür. Bu mövqeyi ümumiləşdirilmiş şəkildə belə şərh edə bilərik ki: Dil, kültürün ilk və təməl ünsürü olduğu kimi, digər kültür ünsürlərinin də başlıca daşıyıcısı və xəzinəsi durumundadır. Bu mənada millət hər şeydən öncə və daha çox dil birliyi deməkdir. Dil, kültür ünsürü olaraq milli birliyi saxlayır və milli həyatı mühafizə edərkən bu vəzifələrə xidmət edir. Dolayısı ilə dil milli damğası ən bəlli, aydın olan mədəniyyət ünsürüdür. Dil hər millətin düşüncə tərzini, düşüncə sistemini, fəlsəfəsini əks etdirir. Hər millətin fəlsəfəsi dilinin içindədir. Dil fərdlər və nəsillər arasında sosial qohumluq bağıdır. Bu mənada dil fərdlər arasında olduğu kimi, nəsillər arasında da milli bütünlüyü, kültür birliyini təmin edir. Dil milli hafizənin, milli xatirələrin, duyğu və düşüncələrin, bütün maddi və mənəvi dəyərlərin müştərək xəzinəsidir, keçmişdən gələcəyə yüksələn millət həyatının davamlı körpü və nərdivanıdır.

Təəssüflər olsun ki, dilin təsir gücündən insanlığa zidd təbliğatlarda da istifadə olunmuş və işğalçı imperialistlər bütün imkanları ilə bu amildən yararlanmağa çalışmışlar. Orta məktəbləri İngiltərənin Hindistan üzərindəki "kültür imperializmi politikası"nın tətbiqat məkanları hesab edən Mahatma Qandi yazırdı ki, "Mən oxuduğum 300 nəfərlik məktəbdə əldə edilən bilgilər öyrəncilərin özəl bilgi mülkləri sayılırdı. Öyrəncilər bu bilgilərini öz milləti ilə paylaşa bilmirdilər. ...Mən ingilis dilində tərbiyə aldıqca, gündən-günə ailəmlə mənim aramda dərin uçurum yaranırdı. Çünki onlar ingilis dilini bilmirdilər (49). Belə bir mənəvi işğal təhlükəsinin mövcudluğunu xatırladan M.Ə.Rəsulzadə isə yazırdı ki: "Bir milliyyəti məhv edib aradan götürmək qəsdində olan siyasilər də əsl bunun üçündür ki, assimilyasiya əməliyyatı icra edərkən ən birinci fikirlərini dilə verər və ən əvvəl bir millətin dilini yaddan çıxarmağa səy edərlər" (78, s. 476).

Bu mənada türk dil birliyi ideyasını əngəlləyən və ya bəlkə də müəyyən mənada ona təkan verən, sürətləndirən amillər də nəzərdən qaçırılmamalıdır. Belə ki, hələ vaxtilə Kazan

universitetinin türk ləhcələri və ilahiyyat üzrə professoru Nikoloy İlminski rus dilinin öyrədilməsi və xristianlığın təbliği yolu ilə Rus hakimiyyəti altında yaşayan qeyri-millətlərin ruslaşdırılması ideyasını irəli sürmüş və bunun Rus hökumət dairələri tərəfindən qəbul edilməsinə nail olmuşdur. Xüsusilə də, maarif naziri D.A.Tolstov bu ideyanın bütün müsəlman türk ölkələrində, əsasən Türkistanda tətbiq edilməsinə qərar verərək məsələni çar II Aleksandra bildirmişdir. Bununla da çar hökuməti 1870-ci ildə İlminski metodunun rus maarif nazirliyi tərəfindən qəbul edildiyini və rus olmayan millətlərin yaşadığı bölgələrdə tətbiq ediləcəyini elan etdi. Hökumətin bu qərarını təbliğ edərkən Tolstov belə deyirdi: "Ana vətənimizin sərhədləri daxilində yaşamaqda olan bütün yabançı millətlərin təhsili, onları qeydsiz, şərtsiz ruslaşdırma və rus xalqı ilə qaynayıb-qarışdırma hədəfini güdməlidir" (141, s. 28).

"İslam dini var olduqca rus hərflərinin ərəb əlifbasına qarşı savaşı güc olacaqdır" (122, s. 167) tezisini irəli sürən İlminski 25 may 1876-cı ildə rus əlifbasının müsəlman türklərinin ayrı-ayrı ləhcələrinə uyğunlaşdırılmasını təklif etmişdir. Bununla da kifayətlənməyən İlminski "müştərək bir türk-tatar dili yerinə, hər bir boy üçün boy şivəsinin ana dili olaraq qəbul etdirilməsini"(141, s. 29) və nəyin bahasına olursa olsun islamiyyətin Rusiyada ortadan qaldırılması vacibliyini sübut etməyə çalışırdı. Bunun türklük və islamiyyət üçün nə dərəcədə təhlükəli olduğunu bildirməkdən ötrü təkcə bir faktı göstərmək kifayətdir ki, İlminski metodunun tətbiq edildiyi məktəblərdə (XIX əsrin II yarısında) yüz min müsəlman uşağına xristianlıq qəbul etdirilmişdir. Lakin, bunların əksəriyyəti formal olaraq xristian (ortodoks) idi və faktiki olaraq müsəlmanlığı buraxmamışdı. Bu insanlar ilk fürsətdə, yəni çarlıq hökumətinin son illərində din dəyişdirmək (din azadlığı) barəsində yaratdığı sərbəstlikdən istifadə edərək ortodoksluğu atmışdılar (141, s. 31).

Bu metodun mənfur mahiyyəti sonrakı dövrlərdə də özünü çılpaqlığı ilə göstərir. Çarizm irticasının şiddətləndiyi dövr-

lərdə Stolıpinin təbliğ etdiyi fikirlər bunun bariz nümunəsidir: "Xristian millətinin müsəlman dünyası ilə olan çarpışmaları dini olmayıb siyasi, kültürəl və dövlət səviyyəsində bir savaşdır. Panislamizmin son zamanlarda qazandığı müvəffəqiyyət bu üzdəndir. Bu uğur bizim Rusiyada böyük önəmə malikdir. Bir çox millətləri əhatə edən rus müsəlmanlığının, bəzi əhəmiyyətsiz istisnalarla, müxtəlif ləhcələrlə olsa da, ümumilikdə bir dildə danışan türk irqinə mənsub olduğu, xüsusilə, göz önündən uzaq tutulmamalıdır"(142, s. 27).

İ.Qaspıralının "Tərcüman" vasitəsi ilə yaydığı və maarif islahatının təbliğinə həsr olunmuş yazıları Orenburqda çıxan "Vaxt" qəzeti, Kazanda çıxan "Yıldız" qəzeti və "Şura" dərgisi, Azərbaycanda çıxan "Molla Nəsrəddin" dərgiləri tərəfindən də dərc edilir, bu qəzet və dərgilər isə bütün Türküstanda oxunurdu. Sadə türkcə ilə nəşr olunan "Tərcüman" qəzeti yayıldığı hər yerdə, xüsusilə Kazanda, Şərqi və Qərbi Türkistanda, Balkanlarda və Osmanlı Türkiyəsində yaşayan bütün türklər tərəfindən başa düşülən tərzdə, anlaşılan bir dildə idi. İ.Qaspıralı bütün gücüylə məsləkdaşlarını sadə dildən istifadəyə təşviq etmişdir. Azərbaycan millətçi ziyalıları ilə vaxtaşırı əlaqə yaratmış və onların ideya mübarizəsinə təsir göstərmiş İ.Qaspıralının Ə.Hüseynzadəyə ünvanlanmış məktubu bu baxımdan çox səciyyəvidir: "Füyüzat"ın birinci sayını aldım. Gözəl tərtib və dərc olunmuş, xeyirli olsun. Dilini bir az daha sadələşdirsəniz avam arasında daha ziyadə nəşrə faydalı olurdu, zənnindəyəm. Yazmaqdan usanmıyoram, lakin lisansızlıqdan canım yandı. Volqa, Kazan və bu aralıq çıxardıqları qəzetləri müxtəlif və qaba dilləri və "Tatarlıqları" millət qəzetəsənin təsisinə məni məcbur etdi. Sadə türkcəyi intişara məxsus olacaqdır" (102, s. 13).

1905-ci ilin avqustunda eyni düşüncə, əqidə ətrafında birləşən İ.Qaspıralı, Ə.Topçubaşov və Y.Akçuraoğlu "Rusiya Müsəlmanları İttifaqı"nı quraraq türklərin haqlarının Dumada tələb olunması barəsində fəaliyyətə başlamışlar ki, bu ittifaqın

irəli sürdüyü başlıca prinsiplər vicdan azadlığı, kültür sahəsində milli inkişafa qanuni icazə verilməsi və bütün Rusiya vətəndaşları arasında hüquq bərabərliyinin tələb olunmasından ibarət idi. 1906-cı ilin yanvarında Peterburqda toplanmış ikinci qurultay "İttifaqın" nizamnaməsini müzakirə və qəbul etmiş, eyni ilin avqustunda Ə.Topçubaşovun sədrliyi və İ.Qaspıralı, Yusuf Akçuraoğlu, Sədri Maqsudinin, Fateh Kərimbəy və digərlərinin iştirakı ilə Nijni-Novqorodda toplanan üçüncü qurultay "İttifaqın" proqramını qəbul və Ə.Topçubaşovun sədrliyində mərkəzi komitəni təsdiq etmişdir (100, s. 143-158; 16, s. 145-163). Bu qurultayda İ.Qaspıralının dil birliyi haqqında təklifi alqışlarla qarşılanmış və yekdilliklə qəbul edilmişdir: "Ümumi Türklərin əsli nəsli birdir. Zaman və məkan ixtilafiylə şivə və adətlərimizdə ixtilaf peyda olmuşdur. Bu ixtilaf biri digərini anlamayacaq dərəcəyə gəlmişdir. Bundan sonra məktəblərimizi bir olan ədəbi dilimizə yararlı olacaq hala gətirmək lazımdır. Konqrenin məktəb və mədrəsə komissiyası tərəfindən hazırlanmış layihəsində ibtidai məktəblərimiz üçün dörd illik tədris təyin olunmuşdur. Bunun üç ilində sadə məhəlli şivə ilə tədrisat icra edilib, son ilində ümumi türk dili ilə yazılmış kitablar oxunmalıdır. Bunun sayəsində tədricən müxtəlif şivə və ləhcələr birləşmiş olur" (119, s. 6).

"Can və Həyat Məsələsi" adlı məqaləsində İ.Qaspıralı məhəlli dil, yəni şivə yerinə türkcə oxutmanın zərurətini anlatmağa çalışırdı (141, s. 54). Dilimizə müxtəlif adlar qoyanlara cavab verərək İ.Qaspıralı deyirdi: "Tatar qövmü mövcud deyil, tatar dili məlum deyil, lisanımıza hər nə isim verilirsə verilsin, həqiqətdə türk dilindən başqa bir şey olmayacaqdır" (107, № 26 s. 1). Və yaxud: "Doğma dil demək, qövmin, millətin ədəbi dilidir. Rusların doğma dili Voloqodski, Yaroslanski, Kurski, Saranski şivələri deyildir. Rusların lisani-ədəbiyyəsidir. Bizim də doğma dilimiz türk dilidir, lisani-ədəbiyyəmizdir. Əski lisani-ədəbiyyəmizin bir sütunu Mir Əlişir Nəvai isə, yeni lisani ədəbiyyəmizin sütunu Füzulidir" (107, № 50, s. 2).

Bütün bu saydığımız fəaliyyətlərin nəticəsi idi ki, 1917-ci ildə (1-11 may) M.Ə.Rəsulzadənin də proqram xarakterli məruzə ilə çıxış etdiyi Rusiya Müsəlmanları Qurultayında dil və maarif məsələləri müzakirə olunarkən İ.Qaspıralının xatirəsi şərəf və hörmətlə anılmış və dil xüsusunda qərar qəbul edilmişdir: "Maarif və kültür işləri hər xalqın öz idarəsində yürüdülür. İbtidai məktəblərdə təhsil dili olaraq, hər qəbilənin öz ana dili işlədilir, orta məktəblərdə ümumi türk dilinin işlədilməsi məcburidir. Yüksək məktəblərdə də təhsil dili türk-tatar qəbilələri üçün ortaq olan türk dili olacaqdır" (141, s. 60).

Lakin dil və kültür birliyi siyasəti heç də bütün türk ziyalıları tərəfindən birmənalı qarşılanmamışdır. Bir çoxları bu ideyaya qarşı çıxmış və hər cür təhsilin qəbilələrin, qövmlərin danışdığı ləhcədə və ya şivədə olmasını müdafiə etmişlər. H.Zərdabi və İ.Qaspıralı tərəfindən irəli sürülmüş dil birliyi ideyasının ən etibarlı və ardıcıl tərəfdarları Türkiyədə Hüseyn Kazım Kadri bəy, Ziya Gökalp bəy, Rusiya türkləri içərisində isə Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov, Y.Akçuraoğlu və M.Ə.Rəsulzadə kimi türkçülər olmuşlar ki, heç şübhəsiz, bu ziyalılar içərisində də məsələyə fərqli yanaşmalar var idi. Məsələn, Y.Açkura, Ə.Ağa-oğlu və Ə.Hüseynzadə bir az da irəli gedərək dil, fikir və kültür birliyi ilə yanaşı türklər arasında əsgəri və siyasi birlik fikrini də müdafiə edirdilər. Lakin Ənvər Paşanın aqibətini gördükdən sonra, siyasi baxımdan yanıldıqlarını başa düşmüş, Ziya Göyalp və onun məsləkdaşlarına qatılaraq Türk Milli Mücadiləsini və onun öndəri Qazi Mustafa Kamal Paşanı bütün gücləriylə dəstəkləmişlər (141, s. 70-71).

Bütün hallarda Azərbaycan ziyalılarının dil probleminə münasibətində S.C.Əfqani və İ.Qaspıralının təsiri açıqca hiss olunmaqdadır. Dilin milli birlik və tərəqqidəki rolunu Ş.C.Əfqani belə dəyərləndirirdi: "Əgər dil birliyi olmasa, milli vəhdətin həqiqi mahiyyəti və həyat gücü ola bilməz. Dil birliyi insanlar arasında çox mühüm əhəmiyyət kəsb edən əsas əlaqə vasitəsidir. O, müxtəlif məzhəbə qulluq edən tayfaları, müxtəlif arzularla

yaşayan qəbilələri vahid bir millət bayrağı altına səsləyən, onların gücünü-qüvvəsini birləşdirib bir məqsədə doğru yönəldən, ictimai qüsurları birlikdə dəf etməyə, milli çətinlikləri birlikdə aradan qaldırmağa çağıran, ümumxalq səadətinə nail olmaq, müsibət və bədbəxtliklərdən nicat yolları arayıb tapmaq üçün hamını yekdil, həmrəy olmağa dəvət edən, gözəl yaşayışdan ibarət təzə həyata qovuşduran, vətəndaşlarının əyinlərinə istiqlal paltarı geydirən əsas vasitədir" (23, s. 9-10). Bu mövqe tərəfdarlarına görə, millətin kimliyi onun dilindən başlanırdı və türk xalqları bir-birini gərəyincə tanımaq, sevmək, öz milli mənliyini dərk etmək üçün, vahid, güclü millətə çevrilməkdən ötrü mütləq vahid dildə – ümumtürk ədəbi dilində danışmalıdırlar (47, s. 143). Əhməd Cəfəroğlu İ.Qaspırinskinin bu ideal yolundakı çalışmalarından bəhs edərək yazırdı ki, "Dildə, fikirdə, işdə birlik!" şüarı ilə meydana atılan İsmayıl bəyi "… nə rus missionerləri, nə də türk-rus bolşevikləri türk dili birliyindən dolayı əfv etmədilər, onu türk ölkələrinə yakıştırmadılar. İsmayıl bəyin böyük rus ittihadına qarşı qoyduğu bu böyük türk birliyi, onlarca nə qədər zərərli isə, bizcə o qədər əziz və o qədər hörmətlidir" (101, s. 169). Y.V.Çəmənzəminli də ortaq türk dili məsələsinin üzərində ətraflı dayanmış, İ.Qaspıranskinin dildə birlik ideyasını təqdir etmiş, hətta Rusiya türklərinin mədəni birliyinə, ilk növbədə isə dil birliyinə nail olmağın yolları barədə maraqlı mülahizələr irəli sürmüşdür. Onun fikrincə: "Biz böyük türk ailəsinə mənsubuq. Tarix, ənənə, dil və adətlər birliyi bizləri birliyə çağırır" (90, s. 162).

Türk kültür birliyi uğrunda çalışmış fikir adamları "türklər kimdir", "türklərin dünyada yeri", "türkləri nə gözləyir" və s. bu kimi taleyüklü problemlərə baş vurublar. M.Ə.Rəsulzadə kimi azərbaycanlı ziyalıların əqidəsi də həmişə türk kültür birliyi amalına xidmət etmişdir (130, s. 1-3). Təbii ki, XX əsrə kimi türklər çox geniş coğrafi, siyasi, mədəni bir diferensiasiya prosesi keçirmişdilər və bu ictimai-siyasi amillər onları bir-birindən fərqləndirmişdi. Nizami Cəfərovun fikrincə, bu diferensiasiya prosesi dil fərqi ilə nəticələnmişdi. Çünki türk

xalqlarının hamısında ictimai, siyasi, mədəni inkişaf eyni olmamışdır. Bəzi türk xalqları bir çox səbəblərdən müəyyən sahələrdə inkişafdan geri qalmışlar. Müxtəlif səbəblərdən zamanın inkişafından geri qalmış türk xalqlarının geniş ziyalı təbəqəsi, ideoloqları yox idi. Ancaq Osmanlı türkləri, Azərbaycan türkləri və nisbətən tatarlar inkişaf xəttinin önündə idilər. Amma ən maraqlı cəhət ondan ibarətdir ki, XIX əsrin sonlarından başlayaraq artıq türk ziyalılarının – diferensial şəkildə olsalar da, mənəvi birliyi yaranmışdı. Bu mənəvi birliyin qarşısında çox böyük problemlər var idi. Həmin dövrdə mütəşəkkillik kifayət qədər deyildi. Düzdür, eyni əqidə və məsləyin daşıyıcısı idilər. XIX əsrin sonlarında türklərin dünyaya çıxmaq imkanları orta əsrlərə nisbətən çox aşağı idi. Tarix sübut edir ki, türklərin ictimai-siyasi səviyyəsi orta əsrlərdə daha yüksək olub (21). Türklərin tarixi müqəddəratında dilin və dinin rolundan bəhs edərək M.Ə.Rəsulzadə yazırdı ki, onların toplu halda yaşadıqları Orta Asiya dövründə şübhəsiz ki, aralarında tam bir kültür birliyi vardı. Bu müştərəkliyin müasir ölçülər baxımından nə qədər uyğun olmasından asılı olmayaraq, hər halda yabançı təsirlərdən daha çox azadə idi. Çünki türklər Orta Asiyada hakim bir durumda olduğundan, təmasda olduğu yabançı kültürlərin nə maddi, nə də mənəvi təsiri altına düşməmişlər (130, s. 1).

Türk kültürünün tarixən böyük bir ərazidə dominantlığı ilə yanaşı, türkləri birləşdirəcək ideyalar yalnız XIX əsrin sonu, XX əsrin əvvəllərində gündəmə gətirilmişdi. Həmin dövrün türkçüləri fikir və düşüncələrini İ.Qaspıralının Krımda nəşr etdiyi "Tərcüman" qəzeti ilə bəyan edirdilər. Türk dünyasının böyük mütəfəkkiri Ə.Ağaoğlu Avropa parlamentinin kürsüsündən sözünü deməyə müvəffəq olmuşdur. Ancaq N.Cəfərov belə hesab edir ki, həmin dövrdə türklərin ümumi güc potensialı ilə müqayisədə görülmüş işlər qaneedici deyildi. Bunun ardınca da bütün türklərin inam və güvənc yeri olan Osmanlı imperiyası çökməyə başladı. Eyni tarixi dövrdə Türkiyənin qonşuluğunda vaxtilə çar

Rusiyasının işğalına məruz qalmış türk respublikalarında bolşevikləşməyə start verildi (21). M.Ə.Rəsulzadə hələ işğalın ilk vaxtlarında yazırdı ki, sonralar yayıldıqları ərazilərdə hakim mövqedə olduqları vaxtlarda da kültür birliyini qorumuşlar. Yalnız hürriyyət və istiqlaliyyətlərini itirdikdən sonra kültür birliyindən uzaqlaşmışlar. Taleyin bu gərdişində ən mühüm qoruyucu amil yenə də dil və din olmuşdur (130, s. 1-2).

Burada bir məqam diqqəti çəkir ki, türklərin böyük bir hissəsinin bolşevik əsarətində qaldığı dövrdə Türkiyə müstəqil dövlət siyasəti yeritsə də, türk dil və kültür birliyi baxımından, onlar da türk dünyasından təcrid vəziyyətdə qalmışlar. İlkin dövrlərdə Türkiyə digər türk respublikaları ilə müəyyən əlaqələr qursa da, sonradan bu bağlantılar tamamilə qırıldı. Hətta Sovetlər Birliyinin tərkibində yaşayan 15-ə qədər türk xalqı bir-birindən təcrid olundu. Aparılan ideoloji-siyasi kurs bütün vasitələrlə onları bir-birindən aralı salır, nəyin bahasına olursa-olsun, bu xalqların birliyinin qarşısını alırdı. Kremldən yürüdülən siyasət nəticəsində hər bir türk xalqı üçün ayrıca dil yaradılırdı ki, onlar bir-biri ilə ünsiyyətdə olmasınlar. Bunun üçün müxtəlif üsul və vasitələrə əl atırdılar (21). Türk xalqlarının bir-birini başa düşmənləri üçün terminologiyanı fərqli etmək, rus dili vasitəsi ilə imperiya xalqlarını birləşdirmək, bu və ya digər üsullarla mənşəyi məlum olmayan bir mühit yaratmaqla məqsədlərinə nail olmaq istəyirdilər. Bu mənada M.Ə.Rəsulzadənin bu qənaəti müasir dövrdə də məntiqi səslənir ki, tarixi gedişat nəticəsində hətta buddizmin və xristianlığın hakim olduğu ölkələrdə yayılmış türklər də əgər müxtəlif dinləri qəbul etmiş olsaydılar aralarındakı ortaqlıqdan az şey qalardı. Lakin türklərin 95%-nin islamı qəbul etmiş olmaları bu böyük təhlükəni aradan qaldırmışdır. Nəticədə bu gün türklüyün tək bir dili olduğu kimi, tək də bir dini vardır (130, s. 2). Onun fikrincə bu birliyin təmin olunmasında türk dili ilə bərabər, islam dini də mühafizə funksiyası daşımışdır.

Azərbaycandakı dil mübahisələri görkəmli alim Svietoçovskinin də diqqətini çəkmişdir. O da mətbuatında müzakirə edilən mövzular içində ədəbi dil mövzusunun daha uzun zaman davam etdiyini yazır. Onun fikrincə də "arxa plandakı əsl mövzu Azərbaycan kimliyinə bağlı idi. Türk millətinə mənsub olma düşüncəsi aydınlar arasında qəbul edilmişdi, təhsil görmüş azərbaycanlılar indidən özlərini türk olaraq tanıtmağa başlamışdılar, fəqət bəzi sorular hələ keçərli idi; Nə cür türkdürlər, türklüklərini necə təyin edəcəkdilər və xüsusilə, özlərini osmanlılarla eyniləşdirməli idilərmi?" (145, s. 89-90). Bu sualların qoyuluşundakı məntiqə uyğun olaraq deyək ki, həmin dövrdə Osmanlı meylli ziyalılar müvafiq olaraq osmanlıcanı təbliğ edirdilər. Lakin əksər Azərbaycan ziyalıları H.Zərdabi, Ş.C.Əfqani və İ.Qaspıralı tərəfindən irəli sürülən dil və kültür birliyi ideyasını təbliğ etməklə yanaşı, həm də sadə və təmiz türkcə tezisini də dəstəkləmişlər. Hətta ortaq türk dili ideyasına fərqli yanaşan ziyalılar belə sadə və təmiz dil məsələsində vahid mövqedən çıxış edirdilər. Məsələn, bəzən anlaşılmaz, qarmaqarışıq dil mənasında da işlədilən "volapuk"a, daha doğrusu 1879-cu ildə Şleyer (Johann Martin Schleyer) tərəfindən düzəldilmiş süni beynəlxalq dilə qarşı çıxan F.Köçərli qələm sahiblərinə ən qəliz fikri belə sadə şəkildə ifadə etməyi tövsiyə edirdi: "Millətini sevən, onun mənəvi diriliyinə çalışan, tərəqqisi yolunda əmək sərf edən yazıçılarımızdan, ədiblərimizdən və şairlərimizdən çox-çox təvəqqe edirik ki, dillərini asanlaşdırsınlar, ana dilindən uzaq düşməsinlər, meymunluqdan əl çəksinlər, fikirlərini açıq və sadə dildə yazsınlar, ta ki, onların yazdıqlarını oxuyan anlasın, düşünsün və ayılsın. Ancaq bu yolla yazan ilə oxuyanın arasında dostluq, ittifaq və birlik əmələ gələ bilər (48, s. 126).

"İstanbul ləhcəsi bütün türklərin ümumi dili olmalıdır" fikrini açıq şəkildə təbliğ edən və "bu dil vasitəsi ilə bütün türk dünyasını birləşdirmək" ümidində olan Ə.Hüseynzadənin türkçülük ideologiyasında təbii ki, əlahiddə rolu olmuşdur (21).

Təbii ki, osmanlı türkcəsinin təbliği çox vaxt ziyalılar tərəfindən etirazla qarşılanırdı. Çünki əslində Ə.Hüseynzadənin dil məsələsinə baxışlarında ziddiyyətli məqamlar da vardı. Onun dilə münasibətində mübahisə doğuran cəhətlər, əsasən ifratçılıqla bağlı idi və əməkdaşlıq etdiyi mətbu orqanlar bütün türk aləmi üçün Osmanlı şivəsini ədəbi dil səviyyəsinə qaldırmağa cəhd edirdi. H.B.Zərdabi, İ.Qaspıralı, M.Ə.Rəsulzadə mövqeyində duran ziyalılardan fərqli olaraq Ə.Hüseynzadənin dili həm forma, həm də məzmunca daha mürəkkəb idi ki, o özü də sonralar (1926-cı ildə Bakıda keçirilən türkoloji qurultayda iştirakı zamanı) bunu səmimiyyətlə etiraf etmişdi.

Amma bir az fərqli şəkildə olsa da türk dil birliyi ideyası sonralar da aktuallığını itirmədi. Bu ideyanı çox gərgin, son dərəcə ağır şərtlər altında H.Cavid davam etdirdi. C.Cabbarlı, A.Şaiq, M.Müşfiq, hətta S.Vurğun ilkin mərhələlərdə imkan daxilində İstanbul ləhcəsindən istifadə edirdilər. Amma 1930-cu illərdən sonra onlar, Azərbaycanın xalq dilində daha çox yazmağa başladılar. H.Cavid isə idealından dönmədi. Onun üçün turançılıq bir ideologiya idi. Adlarını burada çəkdiyimiz və çəkmədiyimiz yazarlar üçün İstanbul ləhcəsində yazmaq ideologiya yox, mədəniyyət faktoru idi. İctimai sifariş idi ki, sadəcə, bu dildə yazırdılar. Bir daha vurğulayaq ki, turançılıq H.Cavidin məsləki idi. İstanbul ləhcəsində yazmağın faciəsi H.Cavidin şəxsi faciəsində təsdiq olundu. Ortaq türk dili məsələsinə münasibət necə idisə, H.Cavidə də münasibət o cür idi (21).

Kültür istilası mövzusundan bəhs edən Arslan Topçubaşıya görə, Şərq məsələsinin ən son hədəflərindən biri olan "əritmə və yox etmə proqramının tələbi qərbliləşmə adı ilə passiv hücum-işğalın, yəni topsuz, tüfəngsiz türk millətinin mənən çökdürülməsi, həyata keçirilən bir strategiyanın tətbiqi olaraq bilinməkdədir (146, s. 138). Ona görə də birliyimizi sarsıtmağa və hətta tamamilə aradan qaldırmağa daha çox canfəşanlıq göstərən çar imperiyası ruslaşdırma siyasətini Avropa mədəniyyə-

tini yayma adı altında həyata keçirmişdir. Bu yolda ən qüvvətli silah kimi istifadə olunan rus məktəbi, rus mətbuatı və rus senzurasına qarşı kəskin mübarizə aparan M.Ə.Rəsulzadə, sonrakı dövrlərdə cildini dəyişmiş bu siyasətin "Sovetlər Birliyi" formasına qarşı da qətiyyətlə çıxış etmişdir.

Deməк olmaz ki, XX əsrin əvvəllərində türk dil və kültür birliyinin əhəmiyyəti hər kəs tərəfindən anlaşılırdı. Xeyr, bunun mahiyyətini dərk etməyənlər əksəriyyət təşkil edirdi. Çünki böyük bir qisim türklər bu dövrdə nəinki türk birliyindən danışmırdılar, özlərini adətən "müsəlman milləti"ndən hesab edirdilər. Halbuki "müsəlman adında millət yoxdur, müsəlman adında dil yoxdur, müsəlman – yəni islam dinini qəbul etmiş bir adam deməkdir. Din başqa, dil başqa. Din başqa, milliyyət başqa. Dində dil yoxdur, dində milliyyət də yoxdur" (13, s. 567-569).

Hətta özlərini ziyalı adlandıranların bir qismi heç türk dilində danışmağı belə özlərinə sığışdırmırdılar. Məhz belələrini nəzərdə tutaraq Ü.Hacıbəyov yazırdı ki, Azərbaycan türkcəsi bütün "Qafqazda yaşayan müxtəlif dilli millətlər arasında ümumi bir dil olmaq kimi belə bir beynəlmiləl əhəmiyyətə malik olduğu halda, yəni bir ermənin bir dağıstanlı, bir malakanın bir gürcü ilə qonuşub danışmaq üçün türk dilinə müraciət etməyə məcbur olduqları bir halda, bu dilə malik olan türklərin, rus dilinə möhtac qalması nə qədər qərib və nə qədər gülünc bir haldır" (33). C.Əfqani də bu fikirdə olmuşdur ki, dil məqsəd yox, vasitə olmalıdır. Hansı dildə oxumaq və yazmaq deyil, nə barədə oxuyub yazmaq önəmlidir (23, s. 32). Türk dilində danışmağı özünə əskiklik bilənlərə müraciətlə C.Məmmədquluzadə də xatırladırdı ki: "Sözümü tamam etdim, ancaq bircə üzrüm var: məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən sizlə türkün açıq ana dili ilə danışıram" (13, s. 208). O, müsəlman məclisilərində hökumətin məktəblərdə türk dilinə qarşı ögey münasibətindən gileylənən "obrazovannı müsəlman"ların dil davası edərkən belə rus dilində danışma-

larını "Meymunlar" məqaləsində "Molla Nəsrəddin"in dili ilə cavablandırırdı (13, s. 221). Problemə Y.Qarayevin münasibəti də orijinallığı ilə fərqlənir: "Hər kəs öz şəxsi şəcərəsini "əsilsiz" və "zatsız", "babasından bixəbər" elan eləyə bilər, lakin xalqı, milləti "babasından xəbərsiz" elan etməyə heç kəsin mənəvi hüququ yoxdur" (50, s. 455).

Birmənalı şəkildə deyilməlidir ki, XX əsrin əvvəllərində dil mübahisələri dilimizin adı üstündə deyil, ortaq ədəbi dil uğrunda olmuşdur. Bu, bir inkar olunmaz faktdır ki, ədəbi dilimiz uğrunda gedən mübarizədə mövcud fikir ayrılıqlarından, fərqli siyasi mövqelərindən asılı olmayaraq bütün ziyalılarımız dilimizi şərtsiz-şübhəsiz türk dili adlandırmışlar. Dil birliyi ideyasını hələ "Əkinçi" vasitəsilə qaldırmış H.B.Zərdabi "Həyat" qəzetində çap etdirdiyi "İttihadi-lisan" məqaləsində bildirirdi ki, "Bizim əsl dilimiz türk dilidir" (13, s. 13-14). O da, İ.Qaspıralı da sadə türkcə tərəfdarı olmuşdur. Dilin əsas zənginləşmə qaynağının da xalq arasında axtarılması tövsiyəsi bir çox ziyalıların mövzuya dair əsərləri üçün xarakterikdir. Məsələn, Y.V.Çəmənzəminliyə görə üç-dörd adamın bir dildə yazmağı ilə dil birliyi olmaz: "dil gərək işlənsin, tədricən gəlib birləşsin. (...) Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındadır, gərək onlar toplansın, öyrənilsin, əzbərlənsin. Dil axtaran gərək camaatımızın arasında gəzsin, dolaşsın, öyrənə bilsin. Əsil dilimiz bazarlarda, xalqın toplandığı yerlərdə, tərəkəmə elinin içində danışılmaqdadır" (13, s. 643). "Ey millətin istiqbalını təmin edəcək türk gəncliyi, haradasan?" – deyə müraciət edən M.Ə.Rəsulzadə gənclərə maraqlı və maraqlı olduğu qədər də faydalı bir işlə məşğul olmalarını tövsiyə edirdi ki, bu da hər kəsin yaşadığı yerdə mövcud lüğətləri, zərbi-məsəlləri, atalar sözlərini və s. xalq ədəbiyyatına aid hər bir şeyi toplayaraq arzu olunan türk lüğətini tərtib etməkdən ibarət idi. Onun fikrincə bununla ayrı-ayrı şivələrin lüğəti yazıldıqdan sonra ümumi bir türk lüğəti hazırlamaq olar ki, bu da narahatlıq doğuran dil təmizliyi məsələsinə yardım etmiş

olar (74, 1914-cü il, № 3; № 5). Ö.F.Nemanzadə də bu fikridə idi ki, "dil nə qədər açıq, sadə və anlayışlı olarsa, bildirdiyi fikirlər də o qədər tez mənimsənib işə keçər" (70, s. 451).

Öz millətindən olanlarla belə yad dildə danışan "oxumuşlar" bir çox Azərbaycan ziyalılarının tənqid hədəfinə çevrilmişdir. Ü.Hacıbəyov təkidlə bildirirdi ki, hətta "Azərbaycan hökuməti dairələrində qulluq etmək istəyən və türk dilinə malik olmayan məmurlar kurslara girib, türk dili öyrənməyə məcburdurlar (33). Y.V.Çəmənzəminli bu qənaətdə idi ki: "... Dil məsələsinə gəldikdə, əlbəttə, Azərbaycan məktəblərində işlənən türk dili olmalıdır. Çünki buranın çox camaəti türkdür... Bizim dil (türk dili) dövləti dil olduğundan onu bilmək cəmi azərbaycanlılara vacibdir" (71, 2 may 1995-ci il). N.Nərimanov da dilimizə qara yaxanlara qətiyyətlə cavab verirdi: "Azərbaycan bildiyimiz siyasi, iqtisadi mülahizələrə uyğun olaraq özünün torpaqlarından, təbii sərvətlərindən keçə bilər, amma doğma dilindən keçə bilməz. Və o heç kimin bu dili gözdən salmasına yol verməz. Qoy Azərbaycanda çeşidli bəhanələrlə türk dilinə qarşı çıxanların hamısı bunu yaxşı-yaxşı bilsin" (71, 2 may 1995-ci il). Sonralar Atatürk bu fikri belə bir qətiyyətli şəkildə ifadə etmişdir: "Türk millətindənəm, deyən bir insan, hər şeydən əvvəl və mütləq türkcə danışmalıdır. Türkcə danışmayan bir insan Türk mədəniyyətinə, cəmiyyətinə bağlılığını iddia edərsə, buna inanmaq doğru olmaz" (54, s. 124). Bu fikri təqdir edərək deməliyik ki, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin iclasları məhz Azərbaycan türkcəsində aparılmışdır. Hətta bu dili yaxşı bilməyən azərbaycanlı nümayəndələr belə öz dillərində danışmağa məcbur idilər. Yalnız Parlamentin başqa millətdən olan nümayəndələri və xarici qonaqlar rus dilində danışa bilərdilər. Müvəqqəti olaraq isə Parlamentin protokolları iki dildə – Azərbaycan və rus dillərində rəsmiləşdirilirdi (10, s. 26).

Dövrün mütərəqqi ziyalılarının dillə bağlı mübahisələrində M.Ə.Rəsulzadənin fikirləri obyektivliyi və orijinallığı ilə

fərqlənir. O, "Şəlalə"də dərc etdirdiyi "Asan dil-yeni lisan", "Yeni lisançılar və türkçülər", "Dil – ictimai mühüm bir amil kimi" məqalələrində (78) bir-biri ilə çarpışmada olan iki qütb arasında bir sintez yaratmağa müvəffəq olmuşdur. Dilin ictimai əhəmiyyətini təhlil edərək, onun birləşdirici ictimai bir rol oynaya bilməsi üçün, xalqın bütün təbəqələri tərəfindən anlaşılan formada olması vacibliyini irəli sürən M.Ə.Rəsulzadə hər iki cərəyanın ifrat tərəflərini rədd edirdi. O, "türk kültür birliyi", "türk dil birliyi", "sadə və təmiz dil uğrunda" tezislərini müdafiə etməklə bərabər həm də bu tezislərin əhəmiyyətini, mahiyyətini izah edərək xalqa çatdırmağa çalışırdı (130, s. 1-3; 131, s. 1-2). Eləcə də türklüyü bir küll olaraq qəbul edir və bu küllün də dil üzərində qurulduğunu iddia edirdi. M.Ə.Rəsulzadə bir yandan hər bir məhəlli şivənin müstəqil dilə çevrilməsini istəmirdi, digər yandan da heç kimin anlamadığı, türklüyə o qədər də aidiyyatı olmayan və milli təəssübkeşlik qayğısından uzaq olan osmanlıcanın ədəbi dil səviyyəsinə qaldırılmasını qəbul etmirdi. Onun sadə və təmiz türk dili formasında ifadə edilmiş tezisi qısa bir müddət ərzində özünə rəğbət qazandırdı. Geniş xalq kütlələrinin də bundan bəhrələnməsi, istifadəsi üçün o, tezliklə orta və təmiz türk dili cərəyanını daha da dərinləşdirdi və bu dildə millətçi bir ədəbiyyatın doğmasına yol açdı.

Ziyalıların yüzillik dil mübarizələrini qədirşünaslıqla xatırlayır və onların bu müqəddəs amal uğrundakı fəaliyyətlərinin müasir mədəni dünya tərəfindən də təqdir edildiyini vurğulamaq istəyirik. Bu gün də dünyada dil – hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və ən güclü vasitə kimi qəbul edilməkdədir. Dünyanın mədəni ekzotikasının qorunmasına çalışan beynəlxalq təşkilatların rəsmi sənədlərində də belə bir müddəa təsdiqini tapır ki, hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır. Ana dili insanın mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində, mükəmməl təhsil almasında, öz soydaşları ilə ünsiy-

yət qurmasında mühüm rol oynayır. Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurmağa imkan yaradır. Dilin bəşər tarixindəki əvəzedilməz yerinin bundan sonra da mühafizə olunması vacibliyini önə çəkən YUNESKO bu məqsədlə 1999-cu ildən etibarən 21 fevralı Beynəlxalq Ana Dili Günü elan etmişdir. Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2001-ci il tarixli (552 saylı) Fərmanı ilə 1 avqustun Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü elan edilməsi isə xalqımızın da bu prosesdən kənarda qalmadığının rəsmi sübutu idi.

Mədəni müxtəlifliyin bəşəriyyətin fərqləndirici xüsusiyyəti olduğunu təsdiqləyən Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş Konfransı isə 3-21 oktyabr 2005-ci il tarixində Paris şəhərində keçirilən 33-cü sessiyasında "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" konvensiya (Paris, 20 oktyabr 2005-ci il) qəbul edilmişdir ki, burada dil müxtəlifliyinin mədəni müxtəlifliyin fundamental elementi olduğu ayrıca bənd şəklində qeyd edilmişdir (18).

Ortaq dil məsələsində mövqeləri üst-üstə düşən Çingiz Aytmatov, Oljas Süleymenev, Şükrü Xaliq, Anar, Nizami Cəfərov kimi türk ziyalılarının dilimizin gələcəyi ilə bağlı düşüncələri də Türk dünyasının dil və kültür birliyi problemi ilə bağlı nikbin ovqat yaradır. Türk Dil Qurumunun başqanı Şükrü Xaliq Türk dünyasını təmsil edən ziyalıların bir-biri ilə rus və ya ingilis dilində deyil, məhz türk dilində ünsiyyətə girmələri zərurətini xüsusilə vurğulamışdır. O, həmçinin bu istiqamətdəki çalışmaların birləşdirilməsi üçün TDK ilə AMEA-nın toplantılarının müntəzəm xarakter daşıması ehtiyacına, ortaq bir mərkəzin yaradılması və mətbuat, radio, televiziya, internet yolu ilə ümumi ünsiyyət dilinin formalaşdırılması məsələsinə də toxunmuş, ən önəmli nöqtə kimi isə

toplantılarda elmi terminlərlə bağlı problemi və bu sahədə razılaşmaların əldə edilməsi vacibliyini qeyd etmişdir.

Türk dünyasının dil və kültür birliyi ideyası bu gün artıq dövlət başçıları və türk dövlətlərinin rəsmi qurumları səviyyəsində dəstəklənməkdədir. Arzulanan məqsədlərə doğru bir sıra real işlər də görülməkdədir. Türk dünyasının bu inteqrasiya prosesinin mədəni-etnik birlikdən siyasi birliyə doğru istiqamət alması ziyalılar və dövlət rəsmiləri tərəfindən də etiraf edilməkdədir. Məsələn, Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət Məsələləri Daimi Komissiyasının sədri Nizami Cəfərov da dil və kültür birliyi ilə başlanan bu inteqrasiyanın ilk növbədə mədəni-mənəvi birlik mahiyyətli olması qənaətindədir. Onun fikrincə də, mədəni dünya tərəfindən təbii sayılan belə bir mədəni-mənəvi birliyin açarı birinci növbədə dildir: “Bu mədəni-mənəvi birliyə çox nəsnələr daxildir. Buraya həyat tərzi və məişət vərdişlərindən tutmuş düşüncə tərzinə qədər hər şey daxildir. Bu gün türk dünyasında fərqliliklərin birləşməsi prosesi gedir. İnteqrasiya prosesi bütün dünyada getdiyi kimi, ayrı-ayrı ümumi tarixi mədəniyyətlər arasında da gedir. Vaxtilə ümumi olmuş, sonradan müxtəlif səbəblərdən diferensiasiya olunmuş mədəniyyətlərin özündə də gedir. Bütün dünya bu gün çəkinmədən ərəb birliyindən, slavyan birliyindən, anqlo-saks birliyindən danışır. Bunlar artıq xeyli vaxtdır dünya gerçəkliyinə çevrilib. Yeni dünya düzəninin formalaşdığı bir dönəmdə türklərin də birləşməsi təbiidir. Bu inteqrasiya dünya birliyi tərəfindən də normal qarşılanır. Ərəb, slavyan, anqlo-saks birliklərinin genetik əsasları olduğu kimi, türklərin də mənəvi-mədəni birliyinin özülündə kök, soy yaxınlığı durur” (21). Hələ vaxtilə “Azərbaycan Cümhuriyyəti” əsərində azərbaycanlıları milliyyət etibarı ilə türk, din etibarilə islam, mədəniyyəti-əsasiyyə etibarilə şərqli olaraq təqdim edən M.Ə.Rəsulzadə dünyaya bəyan edirdi ki, “Azərbaycan türkü müxtəlif şivələrə malik və olduğu yerlərə nisbətlə müxtəlif isimlər daşıyan böyük Türk ağacının bir budağıdır” (138, s. 7).

Dünya elmi fikrinin qənaətləri də təsdiqləyir ki, dil daima bir millətin təməlini təşkil edir. Bu nöqtədə dil, millət və milliyyət məfhumları ilə birləşməkdədir. Yəni dil, millət, milliyyət və milli mədəniyyət bir bütündür ki, tamamən bir-biri ilə qaynayıb-qarışmış, birləşmişdir. Bu tarixi, sosial və kulturoloji gerçəklik dilin dəyərini ortaya qoymaqdadır. Və bu da qaçılmaz bir reallıqdır ki, dil bir sıra çeşidli şərt və amillərin təsiri altında meydana gəlmişdir. Yəni dil, cəmiyyətin mahiyyətindən, strukturundan doğan, cəmiyyətə məxsus olan başlıca xarakterik bir ünsürdür. Hər hansı bir toplumun dilini soysuzlaşdırmaq, degenerasiya etmək, o toplumu hər şeyi ilə ortadan qaldırmaq deməkdir. Azərbaycan ziyalılarının əsərlərində dil mövzusu əsasən məhz bu aspektdən araşdırılmışdır. Onların gəldikləri qənaətlərə görə, dil birliyi bütün sadalanan məziyyətlərə ancaq o zaman sahib ola bilər ki, ayrı-ayrı fərdlərin dilindən təşəkkül tapmış milli dilin mühafizəsi və zənginləşməsi üçün lazım olan hər şey edilsin. Millətin ayrı-ayrı təbəqələrinin ifadə və istifadəsi üçün möhtac olduğu bütün istilahları və kəlmələri ahəngdarlıqla təmin edə bilməyən dil, o millətin fərdlərini ayrılıqdan, pərakəndəlikdən qurtarıb onların birliyini yarada bilməz.

Ümumiləşdirilmiş təhlil və şərhlərdən də göründüyü kimi, Azərbaycan mütəfəkkirlərinin kulturoloji irsində dil mövzusu millət və mədəniyyət fenomenləri kontekstində araşdırılmış, dilin tarixi-mədəni və milli-ideoloji aspektlərdən tədqiqi problemlərinə xüsusi diqqət yetirilmişdir. Onların qənaətincə, milliyyət xaricində səadət olmadığı kimi, dilsiz də milliyyət yoxdur. Mədəniyyət sinfi olmadığı kimi, dil də sinfi deyil, millidir. Bütün təbəqə və siniflərin ifadə və istifadəsini təmin etməyincə də bir dil qərarlaşmış olmaz. Ümumiyyətlə, türk dil birliyini müdafiə və təbliğ etmiş ziyalılarımız Azərbaycan dilinin tarixinin də yalnız türk dilinin tarixi ilə birgə öyrənilməsini elmi saymışlar. Bu mənada Azərbaycan xalqının tarixi də məhz kompleks şəkildə – xalqın mədəniyyətinin, milli-mənəvi dəyərlərinin, elminin, ədəbiyyatının və nəhayət dilinin

tarixilə əlaqəli şəkildə öyrənilməlidir. Məhz bu mənada XX əsrin ilk onilliklərində kulturoloji irsimizi öz dəyərli fikirləri ilə zənginləşdirmiş və millətimizi milli-mədəni birliyə səsləyən Azərbaycan mütəfəkkirlərinin əsərlərinin tədqiqi və təbliğini təmin etmək də ən başlıca milli vəzifələrimizdəndir.

Nəticə olaraq deyə bilərik ki, "milli həyat, milli varlıq, milli mənlik və milli ruhun əsasını, baş mənbəyini təşkil edən milli kültürdür" qənaəti istiqlalçı və milli şüur sahibi olan ziyalıların mövzuya dair yazılarının ana xəttini təşkil edir. Dil məsələləri də məhz bu mövqedən dəyərləndirilir. Onların düşüncəsinə görə, milli xüsusiyyətlərini və milli kültürünü yaşatmağa müvəffəq olan hər millət, gec-tez müstəqil bir milli dövlət qurmağa namizəddir. Milli xüsusiyyətlərini və milli kültürünü itirmiş olan millətlər, milli mənliklərini və ilham alacaqları milli qaynaqlarını da itirmiş olurlar. Bu kimi millətlərin gələcəyi yoxdur. Onlara ölmüş nəzərilə baxmaq lazımdır. Milli xüsusiyyət və milli kültürün başında isə milli dil gəlir. Milli varlığın mühafizəsində dilin rolu həlledicidir. Dil və kültür birliyi milli hafizə və düşüncəni möhkəmləndirməyin mühüm amili, milli şüurun əsas meyarıdır.

## Dövlət və mədəniyyət

Hər millətin özünəməxsus bir tərzi, özünə xas fiziki və ruhi bir strukturu olması inancı bir çox mütəxəssislər tərəfindən dəstəklənməkdədir. Bu struktur, millət olma heysiyyətini qazanmış cəmiyyətlərdə, tarixin dərinliklərindən bu yana gəlmiş və millət fərdlərində müştərək bir düşüncə və davranış örnəyi olaraq ortaya çıxmışdır. Buna müştərək kültür və ya milli kültür də deyə bilərik. Milli kültür isə öz əksini məhz fərdlərin müştərək davranış və düşüncəsində tapır. Milli kültür sayəsində fərdlər fərdilikdən qurtularaq özlərini şüurlu surətdə mənsub olduğu millətin bir parçası hesab edirlər. Çünki milli kültür elə bir dinamik gücdür ki, ona sevgi ilə yanaşanları milliləşdirir, yabançı qalanları isə kənara ataraq uzaqlaşdırır.

Əksər tədqiqatlarda belə bir fikir təsdiqlənir ki, millət keyfiyyətinə layiq bir cəmiyyət olmadan milli kültür, kültürdən məhrum olaraq da millət var ola bilməz. Millət olma keyfiyyəti baxımından bir cəmiyyət, ilk növbədə milli kültür birliyidir. "Bunun üçün hər şeydən öncə dövlət, parlament, hökumət səviyyəsində bir "millət və milliyyət" və bir "milli kültür" zərurətinin dərk edilməsi lazımdır" (98, s. 48).

Milli dövlət mövzusunu tədqiq edən mütəxəssislərin ümumi qənaəti əsasən budur ki, "milli dövlət kültür yaradıcılığının ən yüksək şəklidir" (MBM), "kültürün zəmini millətin səciyəsidir" (98, s. 50), "kültür nizamının ən yüksək təzahürü dövlət nizamıdır", millətsiz dövlət olmadığı kimi, dövlətsiz millət də, hələ millət deyil, toplumdur (24, s. 3). Dövlət kültürün ən yüksək forması olduğu üçün onu yalnız millət yarada bilər. Bu anlamda hər bir millətin öz dövlətçilik fəlsəfəsi vardır. "Dövlət millət həyatının ən əhəmiyyətli bir fenomenidir" (123, s. 17).

Bəşər mədəniyyəti milli kültürlərin iştirakından və gözəlliklərinin məcmusundan hasil olma bir yekun hesab edən M.B.Məmmədzadə yazırdı: "Mədəniyyətin təmini insanların cəmaətliklə yaşaması ancaq mədəni hökumət təsisi ilə müm-

kündür. Mədəniyyəti-bəşəriyyə milli harsların (kültür – M.S.) məcmusundan ibarət ikən ən müvafiq və ən təbii dövlətin də milli dövlət olması aşkardır. Milli istiqlala malik olmayan bir millət hürriyyət və harsını hifz edəməz" (121, s. 54). M.B.Məmmədzadəyə görə, bəşər mədəniyyəti naminə milli harsların mühafizəsini və bunun üçün də millətlərin hürriyyət və istiqlalını istəyən bu nəzəriyyə "millətin özünü də dili, dini, ənənələri, ədəbiyyatı, tarix və adətləri bir olan, yəni hars birliyi üzərində qurulu bir cəmiəyi-bəşəriyyə olaraq qəbul edir". Ona görə də Azərbaycan Milli Hərəkatı dövründə formalaşmış millətçilik "mistik və yaxud siyasi imperialist mülahizələrlə irəli sürülən süni millətçilik olmayıb harsi-ictimai vəhdət kimi reallığa əsaslanan sağlam bir millətçilikdir" (63, s. 61; 121, s. 54).

XVIII əsrin sonlarına qədər Avropada əsrlərdə millət və milli hakimiyyət fikir və məfhumları mövcud olmamışdır. Hətta kralların şəxsi hakimiyyətlərini xalqın hakimiyyətilə əvəz etdiyini elan edən və "Hər cür hakimiyyətin əsasını millətdə aramaq lazım gəldiyi prinsipini" irəli sürən 1789-cu il hüquqi bəşər bəyannaməsində belə milliyyətin mahiyyəti bugünkü mənasında deyildi. Millətin öz hakimiyyətini və milli dövlətini yaratmaq üçün Avropada XVIII əsrin sonlarından etibarən başlayan hərəkatın türk tarixində hələ VI-VII əsrlərdən başlandığını yazan M.B.Məmmədzadəyə görə, Fransa inqilabının təsis etmiş olduğu demokratiya dövrü nəticə etibarilə müasir milliyyət hərəkatını doğurmuşdur. Çünki get-gedə bir xalqın ancaq milli kültürü, milli dili, milli ədəbiyyatı və tarixi vasitəsilə siyasi bir canlılıq göstərib hakimiyyətini əldə edə biləcəyi həqiqəti anlaşılmışdır. Bir xalqın yalnız milli mədəniyyəti, milli dili və ədəbiyyatı, milli ənənə və tarixi vasitəsi ilə siyasi hakimiyyətini təsis edə biləcəyi qənaətində olan M.B.Məmmədzadə yazır ki, "hər bir demokratiya hərəkatı milli hərəkat demək olur. Necə ki, milliyyət hərəkatı da xalq hakimiyyətilə nəticələnir. Həqiqi və tam bir demokratik və

milliyyət hərəkatı hər zaman eyni şey və hər zaman bir-birinə qarışmış və bərabər irəliləyən qüvvələrdir" (62, s. 47).

Azərbaycanın milli dövlət ideoloqları əminliklə bildirirdilər ki, millətin "birləşdirici müqəddəs sementini təşkil edən amil yalnız din olmayıb milli şüurla tərif edilən əməldir". Onların inanırdılar ki, birləşmiş türk milləti dünya mədəniyyətinə orijinal və zəngin kültür əlavə edə biləcəkdir (63, s. 115). Çünki artıq XIX əsrin əvvəllərindən etibarən "mədəniyyət dünyası tarixində ən böyük rol oynayan və ilham verən milliyyət fikri XX əsrin girməsi ilə daha artıq qüvvətlənmiş, Avropa və Amerika hüdudunu aşaraq, yaxın və uzaq şərq məmləkətlərini də öz təsirilə bürümüşdü" (126, s. 118).

Vill Düranta görə, "dövlət son çağlarda gəlişən bir müəssisədir, yazılı tarixin başlanğıcından öncə rast gəlmirik. (...) Hər dövlət bir zorlama ilə başlar, fəqət itaət etmə vərdişi vicdanın mühtəvası olur və qısa bir zaman sonra da hər vətəndaş bayraq qarşısında özündən keçər" (105, s. 57). S.S.Xəlilov da bu fikri təsdiqləyərək yazır ki, "Dövlətçilik şüurunun, müəyyən bir dövlətə mənsub olmaq hissiyyatının mühüm əlamətlərindən və vasitələrindən biri də dövlət rəmzləridir. Buraya ilk növbədə dövlət bayrağı, gerb və dövlət himni aiddir" (42, s. 358). Bu mənada da cümhuriyyət ideoloqlarının millət və dövlət məfhumlarına konkret və orijinal baxış tərzləri olmuşdur. Bu ümumiləşdirilmiş dünyagörüşünü həmin dövrə qədər mövcud olan nəzəri və təcrübi qənaətlərlə müqayisəli təhlil etdikdə burada həm oxşar (ümumi), həm də fərqli (özünəməxsus) cəhətlər görürük. Ümumiyyətlə, millətin bir dövlətin zəruri ünsürü olub-olmaması və yaxud da bir dövlətin yaranması üçün müxtəlif millətlərdən (hansı millətlərdən təşəkkül edərsə etsin) ibarət bir əhalinin mövcudluğunun kifayət edib-etməsəisi məsələsi iki əsrdən artıqdır ki, müzakirə edilməkdədir. Xüsusilə də, bu məsələ böyük Fransa inqilabından sonra başlayaraq zamanımıza qədər ictimaiyyət və hüquq alimlərini ciddi surətdə məşğul etməyə başlamışdır.

Bu xüsusda, millətin mövcud olmadığı dərəbəylik dövrünün zehniyyətindən qurtarmamış mütəfəkkirlər mövcud olduğu kimi, bilavasitə demokratiya fikrinin inkişafı ilə meydana gələn baxışlar da vardır. "Mançiniyə görə, dövlət bir hüquqi şəxs ola bilməz, çünki belə bir heyət süni bir zihaqdır. Halbuki dövlət yerinə millət alınırsa, bu süni zihaq yerinə həqiqi zihaq vücuda gətirilmiş olur" (62, s. 5-6). Kappore də "bir dövlət təşkil olunarkən milliyyət əsasının nəzərə alınmasının ən yararlı bir əsas" olduğu qənaətində olmuşdur. Alman mütəfəkkirləri isə milliyyət məfhumu ilə dövlət məfhumunu bir-birinə qarışdırmağın əleyhinə olmuşlar. Blönçli, milliyyət fikrinin İtaliyada krallığı, Almaniyada imperatorluğu vücuda gətirdiyini bəyan etməklə bərabər milliyyətlə dövlət arasında bir əlaqə və ortaqlıq olduğunu, bir-birinə qarşılıqlı təsir icra edə biləcəklərini qəbul edirsə də, bunların bir dövlət içində yaşayan əhalinin mütləq bir millət təşkil edəcəkləri iddiasını yanlış bilir. Lakin bəşər mədəniyyətinin ortaya qoyduğu gerçəklik dövlətin milli dövlətə doğru təkamül etməkdə olduğunu göstərməkdə idi. M.B.Məmmədzadə yazırdı ki, artıq I Dünya müharibəsindən sonra bütün Avropa millətləri, müstəqil dövlət hüdudları daxilində təşəkkül etməkdə idilər (62, s. 6). Sərhədlərin müəyyənləşdirilməsi və ortaq maraqlara uyğun beynəlxalq səylərin təmin edilməsi məsələsi milli dövlət şəklində və milli ocaqları ətrafında təşəkkül etmiş olan Qərbi Avropa millətləri qarşısında duran əsas problem kimi durmaqda idi. Bu dövrdən etibarən milli dövlətçilik ideoloqları belə bir ideya uğrunda daha əminliklə mübarizə aparırdılar ki, istiqlal və milli dövlət – ən yüksək, ən qüdsi və ən insani bir məfkurəni milli sərhədlər daxilində gerçəkləşdirmək üçün bir vasitədir. "Zatən siyasi türkçülük, milli dövlət qurmaq hərəkatı milli varlığı qorumaq əndişəsindən və mədəni millətçiliyi gerçəkləşdirə bilmək arzusundan doğmamışdırmı?" (63, s. 210). "İnsan öz hərəkətlərini vicdanla dərk edən ictimai bir məxluqdur. O, cəmiyyət halında yaşayır və ancaq cəmiyyət halında yaşaya bilir.

Cəmiyyətin isə ən mükəmməl, ən dəyişməz şəkli dövlət halında təşəkkül etmiş millətdir" (63, s. 231).

XIX əsrin ortalarına doğru başlayıb 1905-ci ildə tamamilə yetkinləşən modern milli kültür hərəkatı, milli dövlət halında təşəkkül etmənin həyatı bir zərurət olduğu nəticəsinə varmışdı. Yabançı zülm və təzyiq altında milli kültürün mühafizə və inkişaf edə bilməyəcəyi bütün aşkarlığı ilə anlaşılmaqda idi. Milli kültürünü mühafizə edə bilməyən bir toplumun isə bir millət olaraq yaşamayacağı da aşkar idi. 1905-ci ildən sonra müxtəlif mərhələlərdən keçən və nəhayət "milli dövlət" tezisinə söykənən "milli dövlət şüuru" məhz bu təcrübələrin nəticəsində doğmuşdu. Rusiya inqilabının ilk aylarında Qafqaz Müsəlman Qurultayı (aprel 1917), bütün Rusiya Türkləri Konqresində (may 1917) və eyni ildə başlayan seçki dövründə milli dövlət tezisinin ələmdarı olan "Müsavat" partiyası bu şüarı meydana atmışdı: "Ən təbii dövlət milli olan dövlətdir. Milli istiqlalına malik olmayan bir millət, milli kültürünü və milli mövcudiyyətini mühafizə edəməz" (113, s. 5).

Artıq XX əsrin əvvəllərində çar hökumətinin ucqarlarda, xüsusilə müsəlman xalqları arasında yeritdiyi müstəmləkəçilik və ayrı-seçkilik siyasəti hüquqları tapdalanan xalqların bütün zümrələrindən olan nümayəndələrini milli zəmində vahid bir cəbhədə birləşməyə sövq edirdi. Müsəlman xalqlarının azadlıq mübarizəsinə hazırlığının təşkilində Azərbaycan ziyalılarının əvəzsiz xidmətləri olmuşdur. 1905-ci ildəki birinci rus inqilabı Rusiyada olan digər xalqlarla yanaşı, müsəlmanların da ictimai-siyasi şüurunun oyanmasında mühüm rol oynadı. Rusiya imperiyasının Birinci dünya müharibəsinin gedişində dağılması üçün real tarixi şərait yaranarkən isə Azərbaycan xalqı həm qədim dövlətçilik ənənələrinə görə, həm də özünün qabaqcıl oğulları ən müasir idarəçilik mədəniyyətinə yiyələndiyi üçün müstəqil dövlət halında yaşamağa hazır idi. Ölkənin qacarlar sülaləsi tərəfindən idarə olunan və İran şahlığının tərkibində qalmış cənub rayonlarından fərqli olaraq Şimali Azərbaycan

Rusiya ağalığı dövründə Rusiyanın və Rusiya vasitəsilə Qərbin yeni – demokratik dövlət quruculuğu ənənələri ilə – parlament mədəniyyəti ilə yaxından tanış ola bilmişdi. Azərbaycan ziyalılarının mühüm bir hissəsi, o cümlədən Ə.Topçubaşov, İ.Ziyadxanov, F.Xoyski, X.Xasməmmədov, M.Y.Cəfərov (M.Şahtaxtinski isə həm Sarbonna, həm də Leypsiq universitetlərində fəlsəfə üzrə təhsil almışdı) peşəkar hüquqşünaslar Rusiyanın Dövlət dumalarında zəngin parlamentçilik təcrübəsi qazanmışdılar. Onlar Rusiya mütləqiyyətindən tamamilə fərqlənən, bütün hüquq və azadlıqların hökmran olduğu ən demokratik respublika sistemi yaratmağa hazır idilər. Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin demokratik dövlət yaratmaq ideyaları onların hələ Rusiya Dövlət dumalarında fəaliyyət göstərdikləri dövrdə formalaşmışdı. Buna görə də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentli respublika kimi formalaşması tarixi reallıqdan doğurdu. Çarizmin devrilməsindən sonrakı hadisələrin real inkişafı da işi buna doğru aparırdı (58, № 6, s. 94-95).

"Dirilik" dərgisində, millətin elmi tərifini verən "Milli dirilik" başlıqlı silsilə məqalələrində millətin din birliyinə deyil, dil və kültür birliyinə dayandığını, müsəlmanlığın milləti deyil, dini bir camia olan ümməti ifadə etdiyini əsaslı bir surətdə izah edən M.Ə.Rəsulzadə, milliyyəti təşkil edən amilləri bir-bir təhlil etməkdədir. Milliyyətin dar və birtərəfli tərifi yerinə, Azərbaycan türklərinin, Rusiya İmperatorluğu daxilində hakim və işğalçı milliyyətlə heç bir münasibəti olmayan ayrı və müstəqil milli bir mövcudiyyət olduğunu izah edən M.Ə.Rəsulzadə "Açıq söz" qəzetini belə bir milli məfkurənin orqanı olmaq üzrə nəşrə başlamışdır. Milliyyət fikrinə əsaslı surətdə bağlı olan "Açıq söz" hələ ilk nüsxəsində M.Ə.Rəsulzadənin imzasını daşıyan ideoloji məqaləsini bu sözlərlə bitirirdi: "Ayrı-ayrı milliyyətlər, bir millət olaraq yaşaya bilmək üçün, hər şeydən əvvəl özlərini bilməli, müəyyən fikir və əməllər ətrafında birləşərək böyük bir məfkurəyə sahib olmalıdırlar" (117, s. 9). M.Ə.Rəsulzadənin həmin

dövrdəki qənaətləri təsdiqləyir ki, azərbaycanlıların milli mənlik şüurunun ümummüsəlman və ümumtürk şüurundan ayrılması prosesi artıq qarşısıalınmaz xarakter almışdı. Tədqiqatçı A.Balayevə görə, "şübhəsiz ki, həmin dövrdə azərbaycanlıların milli identikliyinin yetkinlik dərəcəsi, onun xalq kütlələri arasında yayılma miqyası barədə mübahisə etmək olar. Lakin onun mövcudluğu artıq inkarolunmaz fakt idi" (15, s. 59).

Azərbaycan milli dövlətinin yaradılması layihəsinin bitkin və ardıcıl konseptual sistemini işləyib hazırlanması və bu ideyanın praktikada reallaşması uğrunda mübarizə M.Ə.Rəsulzadənin sonrakı siyasi fəaliyyətinin əsas məzmununu təşkil etmişdir (15, s. 67). Dünyəvilik ideyalarının ardıcıl tərəfdarı olmuş M.Ə.Rəsulzadə dini ayinlərin yerinə yetirilməsi istisna olmaqla, ictimai həyatın bütün digər sahələrində ruhanilərin fəaliyyətinin tamamilə dayandırılması və yaxud, ən azı, maksimum məhdudlaşdırılmasını təklif edirdi. Bu mənada onun "Müsavat"ın I qurultayındakı çıxışı çox səciyyəvidir. Həmin nitqində o, qətiyyətlə bildirirdi: "Məscidə daxil olan şəxs siyasəti, partiyanı, ideyanı unutmalı və ancaq Allaha dua etməlidir. Ümumiyyətlə, ruhanilər siyasətlə məşğul olmamalı və siyasi mübarizədə məscid bitərəf qalmalıdır" (156, f.894, s.10). M.Ə.Rəsulzadənin təkidi ilə partiya proqramına əlavə olunmuş xüsusi bənd bənddə deyilirdi ki "hökumət din və məzhəblərdən heç birini digərlərindən üstün tutub, onu himayə və mühafizə edə bilməz". Bununla da, sonradan Azərbaycan Cümhuriyyətində həyata keçirilmiş dinin dövlətdən ayrılması prinsipinin əsası qoyulmuş oldu. Qurultayın yekunları göstərir ki, əsas müddəaları M.Ə.Rəsulzadə tərəfindən işlənib hazırlanmış azərbaycançılıq konsepsiyası rəsmi şəkildə "Müsavat"ın siyasi doktrinası qismində təsdiqlənmiş oldu. Bütövlükdə isə, "Müsavat" partiyasının proqramı "Şərqdəki milli qurtuluş ideyaları ilə Qərbin kültür və demokratik cərəyanlarının təbii sintezindən ibarət idi" (15, s. 79-80).

Dünyəvilik (sekulyarizm) ideyaları M.Ə.Rəsulzadənin siyasi baxışlar sistemində mühüm yer tuturdu. O, "bütün müsəlman ölkələrində milli özünüdərkin oyanışı prosesini gücləndirməyi" təklif edirdi, "çünki hər bir tərəqqinin ilkin mənbəyi, eləcə də milli istiqlalın təməli yalnız dərk olunmuş milli "Mən"in mövcudluğudur" (76, s. 41). Sonralar "Panturanizm haqqında" əsərində isə açıq şəkildə bəyan edirdi ki, islam dini müsəlman xalqlarının milli şüurunun oyanmasına maneçilik törədərək, onların tərəqqisini ləngidir. Bununla da, islam həmin xalqların müasir millətlərə çevrilməsinə mane olur. O, vurğulayırdı ki, "milli özünüdərkin oyanmasına mane olmaq – xalqların öz müstəqil dövlətlərini yaratmasını əngəlləmək deməkdir" (15, s. 167). Cümhuriyyətə qədərki dövrdə Azərbaycan topluluğundakı üç əsas fikir cərəyanından bəhs edərək M.Ə.Rəsulzadə yazır ki, bunlardan biri, dini düşüncədən irəli gələrək milliyyət fikrinə xor baxan islami ittihadçılıqdır. Buna müqabil, yenə milliyyət ayrılığını rədd edən kosmopolit bir fikir cərəyanı – sosializm vardı. Biri sağçı, digəri solçu olan hər iki kosmopolit cərəyana Azərbaycan çərçivəsi daxilində qalmaq çox dar gəlirdi. Azərbaycan məfhumu onları təmin etmirdi. Onlar üçün ya "Rusiyada müsəlmanlıq", ya da "Rusiyada sosializm" vardı. Milli olmayan bu cərəyanların arasında milli Azərbaycan milliyyətçiliyi mərkəzi bir mövqedə dururdu. Tarix və kültür anlayışında türkçü olan bu milliyyətçi zümrənin hədəfi, siyasi sahədə Azərbaycan muxtariyyət və istiqlalı idi (134, s. 3). Azərbaycan türk özəlliyinin formulunu verən və Rusiya hakimiyyətindəki türk elləri üçün milli-məhəlli avtonomiyalar halında öz müqəddəratlarını müstəqil idarəetmə tələbini irəli sürən bütün fəal qüvvələr "Müsavat" Xalq Firqəsi ətrafında birləşmişdilər. 1917-ci ildə təşəkkül edən "Türk Ədəmi Mərkəziyyət Firqəsi" ilə birləşən "Müsavat" partiyasının Bakıda toplanan ilk konqresi sadəcə Azərbaycan tarixində deyil, Rusiya məhkumu bütün türk ellərinin yaxın tarixində də mühüm bir hadisə olmuşdu.

Qəbul etdiyi proqramda Azərbaycan muxtariyyatını cəsarət və dəqiqliklə təsbit edən bu fikrə, o gündən etibarən, gürcülərdə menşevik, ermənilərdə daşnak partiyaları kimi, Zaqafqaziyada Azərbaycan türklüyünü təmsil edən üçüncü bir güc halına gəlmişdi (134, s. 4). Məqsədlərini hələ Rusiya inqilabından əvvəl elan etmiş "Müsavat" firqəsi "mədəniyyətin təmin və mühafizəsini mədəni hökumət təsisilə mümkün və bəşər mədəniyyəti bəhrələrindən ibarət olduğu üçün ən təbii hökumətin də milli hökumət olmasını" təbii görürdü (61, s. 140).

Çarlığın devrilməsindən bir ay belə keçmədən, 1917-ci il aprel ayının əvvəllərində Bakıdakı "İsmailiyyə Sarayı"nın möhtəşəm salonunda toplanan "Qafqaz Müsəlmanları Qurultayı"nda çarlığın yerinə gələcək rejim məsələsi qarşısında türklərin tutacaqları mövqe müzakirə və münaqişə edilərkən, yalnız dini və kültürəl muxtariyyətlə kifayətlənən "vahid və mərkəziyyətli Rusiya Cümhuriyyəti" tərəfdarlarının sağdan və soldan gələn hücumlarına qarşı türk demokratiyasının milli dövlət fikrini, Nəsib bəy Yusifbəyli ilə bərabər yalnız M.Ə.Rəsulzadə müdafiə edə bilmişlər. 1-11 may 1917-ci ildə Moskvada toplanan Rusiya türklərinin böyük qurultayında da şiddətlə çarpışan bu iki tezisdən milli dövlət fikri M.Ə.Rəsulzadənin hesabatından və müdafiə nitqindən sonra qəbul edilmişdir (117, s. 10).

Türk mədəni birliyini yalnız müstəqil türk dövləti daxilində gerçəkləşdirmənin mümkün olacağı qənaət və imanından doğan siyasi-dövlətçi türk milli hərəkatı həyat və həqiqətlə üz-üzə gəlincə ortaq kültür birliyi əsasına bağlı və sadiq qalmaqla bərabər ayrı-ayrı türk milli dövlətçiliyinə gətirib çatmışdır. Hələ 1917-ci ilin mayında Moskvada toplanan Rusiya türklərinin birinci qurultayında "torpaqlı-territorial milli muxtariyyət" tezisinə qarşı torpaqsız, sırf mədəni muxtariyyət tezisini dilə gətirənlər və ortaq ruhani idarəsinin təşkili ilə bütün türk və müsəlmanları bir mərkəzdən idarə etməyi düşünənlər də milli birlik əndişəsilə hərəkət edirdilər. Məlum olduğu kimi, həm

Bakı, həm də Moskva qurultaylarında milli dövlət tezisini dilə gətirən "Müsavat" firqəsi və onun nümayəndəsi M.Ə.Rəsulzadə idi, Moskva qurultayı onun bəyin tezisini qəbul etmişdi (63, s. 203).

İnsanlıq və mədəniyyət baxımından milli dövlət qurmağın zəruri və vazkeçilməz ən demokratik yol olduğunu isbat edən M.Ə.Rəsulzadə isə bütün millətlərlə bərabər rus əsarətində olan türklər üçün də milli dövlət qurmaq haqqının tanınmasını hərarət və müvəffəqiyyətlə müdafiə edə bilmişdir. O, milli mövcudiyyətlərini mühafizə və milli kültürlərini inkişaf etdirmək üçün milli hüdudları daxilinə çəkilib milli hürriyyət və istiqlala qovuşmalarını müdafiə etməklə bərabər, həm də bütün millətlərin "cahan federasyonu camiasında" birləşə biləcəklərinə inanmış və hər kəsi də inandırmışdır. 7 dekabr 1918-ci ildə Bakıda şəxsən onun açılış nitqi ilə fəaliyyətə başlayan Azərbaycan Parlamentində istiqlal fikrinin ələmdarı olan "Müsavat" partiyasının bəyannaməsini oxuyarkən M.Ə.Rəsulzadə bu məsələyə toxunmuşdur (117, s. 10). Onun, parlamentin təşkil etdiyi üçüncü Fətəli Xan hökumətinin bəyannaməsi ilə bağlı çıxışı (açılış nitqindən sonra) bir hökumət proqramı mahiyyətində idi. M.Ə.Rəsulzadənin yeni qurulan milli dövlətin istinad etməsi lazım olan demokratik əsasları, daxili və xarici siyasətini bir-bir izah edən bu nitqi, "milli kültür təməlinə dayanan gələcək demokratik konstitusiya layihəsini də təşkil edirdi. O, Azərbaycan Cümhuriyyətinin təşəkkülü ilə milli dövlət məfkurəsinin zəfərini görür və bu zəfər nəşəsi ilə coşur və hər kəsi çaşdırırdı". 28 may 1919-cu ildə, Azərbaycan istiqlalının birinci ildönümü münasibətilə "Azərbaycan" qəzetinə verdiyi bəyanatda: "Milli kültür əsasında dayanması və milli demokratik türk dövlətçiliyi təməli üzərinə qurulması etibarilə Azərbaycan, ilk türk dövləti və ilk müsəlman cümhuriyyətidir" deyir və bunu izah və isbat edirdi (117, s. 13-14).

Tarix milli dövlətçilik ideoloqlarının fikirlərinin nə qədər doğru olduğunu təsdiqlədi. Belə ki, nə qərbçilik, nə türkçülük,

nə islamçılıq, nə də etnik millətçilik öz namizədliyini “milli ideya” missiyasına sonralar da irəli sürə bilmədi. Xüsusən ilk Xalq Cümhuriyyətinin təşəkkülü ərəfəsində “azərbaycançılığın” dəyəri hələ ideya halında olan bütün digər dövlətçilik dəyərlərini üstələdi. “Azərbaycan” sözü müasir siyasi-hüquqi məzmunu Azərbaycan ideologiyası formalaşandan, rəsmi dövlət adı statusunu isə Azərbaycan Xalq Cümhuriyyəti yaranandan sonra alıb. İstiqlal düşüncəsinin təşəkkülündə milli-mənəvi (ədəbi-bədii-mədəni) amilin təməl rolunu sonralar milli-əməli hərəkat dövrünün öz xadimləri dəfələrlə etiraf etmişlər (51, s. 28). M.B.Məmmədzadə bununla bağlı yazırdı ki, “Azərbaycan milli xartiyasının” təşəkkülündə, istiqlal fikrinin təsisində Vaqifdən tutmuş Cavidə qədər, Mirzə Fətəlidən Üzeyirə kimi, “Əkinçi”dən “Azərbaycan” və “Yeni Qafqaziya”yadək hər birinin olduqca böyük və dəyərli rolları olmuşdur. Zənnimizcə, Mirzə Fətəli və Həsən bəy Zərdabi əlli il sonra dünyaya gəlsə idilər, istiqlal fikri, Azərbaycan milli xartiyası da əlli il sonra meydana gələcəkdi. Bunların arasında sıx bir münasibət və rabitə vardı... Özünü, türkçülüyünü və azərbaycançılığını dərk etməyən bir xalq istiqlal bəyannaməsini verə bilməzdi” (61, s. 132). Azərbaycan istiqlal məfkurəsinin formalaşmasında və milli xartiyanın ümumi mahiyyət qazanmasında mətbuat və ədəbiyyatının böyük rolu danılmazdır. A.Şaiq, Ə.Müznib, H.Cavid, Ə.Cavad kimi ədəbi simalar milli dövlət rəmzlərinin gözəlliyini, haqq və hürriyyəti idealizə edən əsərlər yazdılar. “Qəzetlər onun haqqını və hüququnu, istiqlal və hürriyyətini müdafiə etdilər, ümumiləşdirdilər. Mühərrirlər, dramaturqlar istiqlal mübarizəsinə aid dramlar yazdılar. Azərbaycanın tarixi, ədəbiyyat tarixi, məktəb kitabları milli istiqlal ruhunda yazıldı. “Müntəxabat”, “Türk çələngi”, “Türk ədəbiyyatı” və sairələri istiqlal dövründə, milli istiqlal ruhunda olaraq çıxdı. “Azərbaycan”, “İstiqlal” qəzetləri, “İstiqlal” məcmuəsi o zaman hakim olan ruhu, 1918-1920-ci illərdəki fikirləri bizə yadigar olaraq saxlamışdır” (61, s. 147). Milli istiqlal davasını mədəni millət-

lər ailəsində özünəməxsus bir evə, bir yuvaya malik olmaq davası ilə eyniləşdirən M.Ə.Rəsulzadəyə görə də 28 may, müasir Azərbaycan cəmiyyətinin hələ Mirzə Fətəli ilə başlayan milli tərəqqi və kültürəl inkişaf seyrini icmal edərək, ona yaşadığımız milli istiqlal məfkurəsilə dolu böyük dövr ilə mütənasib bir şəkil və istiqamət vermişdir (126, s. 119).

XIX əsrin ortalarından XX əsrin əvvəllərinə qədər olan bir dövr içərisində getdikcə güclənən milliləşmə prosesi, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və bu dövrdə görülən fəaliyyətlərlə dini kimlikdən milli kimliyinə, bir başqa deyişlə müsəlman camaatdan türk millətinə keçidin təməllərin atdı. "Müsəlman" qavramı rəsmi fikirdə yerini "türk milləti" qavramına buraxdı. Beləcə Əhməd Ağaoğlunun bildirdiyi kimi "mərifəti qövmiyyə" yəni milli kimlik, "ideal" sahədən "real" sahəyə verilmiş oldu (125; 143, s. 339).

Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclasında iştirak edən Həsən bəy Ağayev (sədr), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Usubbəyov, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybət Qulu Məmmədbəyov, Mehdi bəy Hacınski, Əli Əsgər bəy Mahmudbəyov, Aslan bəy Qar-daşov, Sultan Məcid Qənizadə, Əkbər Ağa Şeyxülislamov, Mehdi bəy Hacı-bababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firudun bəy Köçərlinski, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-Yeqanov və Hacı Molla Səlim Axundzadə Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul etdilər.

İstiqlal Bəyannaməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə bütün Şərqdə, ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun – parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Bu mənada Milli Şuranın qərarları olmasaydı, elan edilmiş olan istiqlal bir "Bəyannamə"dən ibarət olaraq qala bilərdi. Məhz bu qərarların bəşəri

dəyərləri ehtiva etməsi nəticəsində Milli Cümhuriyyət hökuməti, qısa bir zamanda, anarxiya halında olan məmləkətdə əmniyyət və asayişi təmin etdi, ordu, jandarma və polis təşkilatı vücuda gətirdi. Azərbaycan Parlamenti sosial islahatlar hazırladı, lisələr, müəllim seminariyaları və universitet təsis etdi, qonşu dövlətlərlə dostluq müqavilələri imzaladı (129, s. 6-7). 1918-ci il sentyabr ayının 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakı azad edildikdən sonra Azərbaycan Cümhuriyyəti hökuməti Bakıya köçdü, noyabrın ortalarında Azərbaycan Cümhuriyyəti Milli Şurası öz fəaliyyətini bərpa etdi. Noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz olundu. İctimai-siyasi, iqtisadi və mədəni həyatın müxtəlif sahələrində quruculuq işlərinə başlanıldı.

"Milli həyat, milli varlıq, milli mənlik və milli ruhun əsasını, baş mənbəyini təşkil edən milli harsdır (kültür – M.S.)" – deyən M.B.Məmmədzadə yazırdı ki, 28 may "milliyyət dövrü"nün sonu, "millət" dövrünün əvvəli idi. Mədəni-ictimai təşəkkül və inkişafın məhsulu olan "millət" dövrü ilə, Azərbaycan cəmiyyəti "milli bir məfkurə" ətrafında siyasi hakimiyyət davasına başlayırdı. Sonralar "milli davasını silah gücüylə davam etdirməyə məcbur olmuşdu. Bu surətlə biz 15 sentyabra qədər milli hərəkatımızda üç mərhələ görürük: 1 – Milliyyət dövrü dediyimiz kültürəl inkişaf dövrü. 2 – Millət dövrü dediyimiz siyasi şüur və müştərək məfkurənin təəssüsü, siyasi mücadilənin başlaması. 3 – Millətimizin bu müqəddəs haqqına, hürriyyət və istiqlal istəyinə qan və atəşlə mane olan rusluğa qarşı müsəlləh mücadilə" (112, s. 122-124). Azərbaycan istiqlal mübarizəsinin kültürəl, siyasi və hərbi olmaqla üç qol üzərində davam etdirildiyini yazan M.B.Məmmədzadəyə görə, kültürəl varlığımızın məntiqi nəticəsi olan siyasi şüur və istiqlal məfkurəsinin gerçəkləşməsi müsəlləh bir mübarizə ilə nəticələndi (112, s. 127). Bu mənada Azərbaycan Xalq Cümhuriyyəti, türk aləmində və müsəlman şərqində ilk demokratik

respublika olması etibarilə öz-özlüyündə bir inqilab təşkil edirdi. Qərbi Avropa üsulunda demokratik prinsiplər üzərinə qurulmuş və xalq hakimiyyətinin bərqərar olduğu bu cümhuriyyət, hər şeydən öncə, demokratik bir hərəkat olan milli kültür oyanışının məntiqi və təbii bir nöqtəsi, yəni milli bir dövlət idi (113, s. 5-7). M.Ə.Rəsulzadənin qeyd etdiyi kimi, "türk mənşəli bütün digər dövlətlər başlıca olaraq dini təməl üzərində qərar tutduqları halda, Azərbaycan Cümhuriyyəti müasir milli-mədəni müstəqillik təməlinə, türk milli-demokratik dövlət qurumu zəmininə əsaslanır və bu baxımdan bizim cümhuriyyətimiz ilk türk dövlətidir" (129, s. 4).

Millət və demokratiya məqaləsində M.B.Məmmədzadə yazırdı: "Bir xalq yalnız milli kültürü, milli dili və ədəbiyyatı, milli ənənə və tarix vasitəsilə siyasi hakimiyyətini təsis edə biləcəyindən hər demokratiya hərəkatına milli hərəkat deyilə bilir. Necə ki, milliyyət hərəkatı da xalq hakimiyyəti ilə sonuclanır. Gerçək və tam bir demokratiya və milliyyət hərəkatı hər zaman eyni şey və hər zaman bir-birinə qarışmış və bərabər yürüyən eyni qüvvələrdir" (62, s. 5-6; 148, s. 218-219) M.B.Məmmədzadəyə görə: "Millətlərin milli dövlət qurduğu və milli dövlət qurmaq üçün uğraşdığı və mücadilə etdiyi zaman vardır. Çünki millət varlığını qorumaq və gələcəyini əmniyyət altına almaq üçün dövlət halında təşəkkül edir. Dövlət halında təşəkkül etməyən və yaxud qurmaq üçün mücadilə etməyən milli toplumlar daha millət olmamışlar deməkdir" (148, s. 224).

1918-ci il dekabrın 7-də saat 13.00-da H.Z.Tağıyevin qızlar məktəbinin binasında təntənəli surətdə açılmış Azərbaycan Parlamenti bütün müsəlman şərqində o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış ilk parlament idi. Bu mənada Azərbaycan Xalq Cümhuriyyəti, şübhəsiz, 1917-1920-ci illərdə Avropa, Rusiya və Qafqaz miqyasında özünü geosiyasi maraqların obyektiv olaraq şərtləndirdiyi tarixi hadisə idi. Lakin o, daha əvvəl Azərbaycanda yaxın iki əsrin və xüsusən

ADR-ə qədərki son üç onilin sosial-ictimai və ədəbi-mədəni hərəkatı ilə hazırlanmış milli-məfkurəvi, mənəvi-ideoloji bir fenomen idi (52, s. 471). İqtidarın sabitliyi istiqamətində ən böyük iş Cümhuriyyət hakimiyyətinin "Milli istiqlal şüuru" baxımından təminatı sahəsində görüldü. M.Ə.Rəsulzadə Cümhuriyyətin birinci ildönümü münasibətilə "Azərbaycan" qəzetində (28 may 1919) yazırdı ki, "Milli kültür əsasına dayanması və milli demokratik türk dövlətçiliyi təməli üzərinə qurulması etibarilə, Azərbaycan ilk türk dövləti və ilk müsəlman cümhuriyyətidir". Qəzetin növbəti sayında (№ 190) Ü.Hacıbəyov da Azərbaycan Cümhuriyyətinin "sağlam bir milliyyət fikri, türklük şüuru üzərinə qurulduğu"nu vurğulayırdı. M.B.Məmmədzadə də, Cümhuriyyətin quruluşunu "xanlıq və dərəbəylik dövründən sonra demokratik bir hərəkat olaraq ortaya çıxan Azərbaycan türk milliyyətçiliyinin məntiqi bir sonucu" olaraq dəyərləndirməkdədir (120, s. 20). M.Ə.Rəsulzadə deyirdi ki, Rusiya idarəsindəki müsəlmanlara "türk" dedirtmək bu gün qazanılmış bir davadır. Yalnız "türk" kəlməsi deyil, "Azərbaycan" adı da qazanılmışdır" (81, s. 65; 143, s. 129-130).

Həm türk, həm də Azərbaycan kəlməsinin təsadüfi deyil, böyük bir milli şüur və özünüdərketmə prosesinin məhsulu olduğunu önə çəkən Y.Qarayev yazır (51, s. 29) ki, tarix boyu neqativ strateji qütblər də Azərbaycanda dövlətçilikdən əvvəl kültürü, mədəniyyəti məhv etmək, heç olmasa danmaq, inkar etmək yolunu əsas mübarizə üsulu kimi seçmişlər. Bu meyl özünü sosial-mədəni intibah məqamlarında xüsusilə hiss etdirmişdir. 1918-ci ilin tarixi mayı ərəfəsində Bakı mətbuatında açıq erməni imzası ilə "Azərbaycan" adını və simvolikasını ələ salan yazılar peyda olmuş, İran dövləti isə Xalq Cümhuriyyətinin "Azərbaycan" (AXC) adlanmasına hətta rəsmi şəkildə etiraz etmiş, "Aran Xalq Cümhuriyyəti" variantını təklif etmişdir. Eyni milli müəyyənlik meyarına və sosial-tarixi motivə görə, üçüncü təklifi – "Cənubi Qafqaz Türk Respublikası" adını da Milli Şura qəbul etməmişdi. Çoxqütblü, mürəkkəb

geosiyasi bir durumda, ən gərgin tarixi müqavimət, təzyiq və sınaq məqamında hələ pöhrə, kövrək Azərbaycan ideyası və adı qalib gəlmişdir. Milli-mənəvi və bəşəri inteqrasiyada strategiyanın strukturunu, yaxın və uzaq proqramını əvvəl Azərbaycan, sonra türk dünyası və nəhayət, Şərq və islam miqyasında mənəvi-mədəni yaxınlaşmanın fasiləsizliyi, bir-birini əvəz etməsi, tamamlaması və bütün bu mərhələlərin hamısında milli kültürün istiqlalı, suverenliyi təşkil edir.

Azərbaycan milli dövlətinin yarandığını dünyaya bəyan və bununla da şəxsin hürriyyət və bərabərliyini elan edən İstiqlal Bəyannaməsi, insanın hüquqi vətəndaşlığının mühafizəsini təmin edəcək qanunların "milli iradənin ifadəsi olduğunu" da qeyd etmişdir. Məhz bu prinsipin də dövlətlərin milliyyət əsası üzərinə qurulmasını zəruri etdirən ehtiyaca qüvvətli təsiri olmuşdur. M.B.Məmmədzadəyə görə, qanunun milli iradənin ifadəsi olduğunu elan etmiş 1789-cu il "Hüquq Bəşər Bəyannaməsi", bununla ən təbii dövlətin "Milli dövlət" ola biləcəyini də elan etmişdir. Çünki milli iradə yalnız milli dövlət, milli bir cəmiyyət daxilində ümumi ola bilir. Və ancaq belə bir ümumi iradədir ki, ümum üçün əmri bir mahiyyət kəsb edər (62). Belə bir təbii zərurətə söykənən "Müsavat" proqramının başında: "Milli istiqlala malik olmayan bir millət hürriyyət və harsını dəxi hifz edəməz", bayrağında isə "İnsanlara hürriyyət, millətlərə istiqlal!" sözləri yazılmışdı (63, s. 58; 121, s. 51). M.Ə.Rəsulzadə deyirdi ki, insan öz hərəkətlərini vicdanla dərk edən ictimai bir məxluq olduğu üçün cəmiyyət halında yaşayır və ancaq cəmiyyət halında yaşaya bilir. Cəmiyyətin isə ən mükəmməl, ən dəyişməz şəkli dövlət halında təşəkkül etmiş millətdir (63, s. 231).

Azərbaycan parlamentinin açılışındakı çıxışında M.Ə.Rəsulzadə deyirdi: "Cəbr ilə qəbul etdirilən bir şeydə səadət olmaz. Çünki səadət və hürriyyət istiqlaldır. (Alqışlar). İştə bunun üçün əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam

mədəniyyəti və müasir Avropa iqtidarı – əhrarınəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir" (10, s. 34-35). M.Ə.Rəsulzadənın parlamentin açılışında dilə gətirdiyi bu fikir bir əsrə yaxın bir müddətdə bütün istiqlal mücahidlərinin inanc və ilham mənbəyinə, mübarizə şüarına çevrildi. M.Ə.Rəsulzadə 1919-cu il 28 mayında "Azərbaycan" qəzetində (№ 190) dərc olunmuş "Nə böyük bayram" adlı məqaləsində də İstiqlal bayramı münasibətilə yazırdı ki, "Bir kərə yüksələn livai-istiqlal (istiqlal bayrağı – M.S.), bir daha enməz!" (80). Təbii ki, bu istiqlal şüarı, milli dövlətçilik tərəfdarı və cümhuriyyət qurucuları olan bütün ictimai-siyasi xadimlər və ziyalılar tərəfindən dəstəklənmişdir. Azərbaycan parlamentinin açılışında F.X.Xoyski deyirdi ki, "Hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur. Millətin hüququ, istiqlalı, hürriyyəti!" (10, s. 44).

İstər milli istiqlalın mühafizəsində, istərsə də mədəniyyət quruculuğu məsələlərində cümhuriyyətin bütün dövlət strukturları vahid mövqedən çıxış etmişlər. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin birinci iclasında Azərbaycan Hökumətinin fəaliyyəti barədə hesabat və onun istefası haqqında bəyanat verən F.X.Xoyski bildirirdi ki, "o vaxt nə məktəb var idi, nə ədliyyə idarələri var idi. Hökumət buna da diqqət etməli idi. Çünki, ədliyyə idarəsi olmayınca məmləkəti polis qüvvəsi ilə idarə etmək olmaz. Bu ikisi birdir ki, əvvəl baş milliləşməli idi. Şimdi məktəblər milliləşdilər. İbtidai məktəblər və bəzi siniflər milliləşmişlər, bir çox yeni məktəblər açılmışdır. Bundan əlavə hökumət əldən gələn qədər çalışaraq yox olan ədliyyə idarələrini təmdid etdi. İndi Allaha şükürlər hər yerdə olamaz isə də bir çox ədliyyə idarələrinə türk dili bilən adamlar təyin edilmişlər. Qüvvəmiz qədər vəzifəmizi ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur:

Millətin hüququ, istiqlalı, hürriyyəti!" (30, s. 117-118).

Bütün Azərbaycan Cümhuriyyəti vətəndaşlarının – erməni, rus, yəhudi, gürcü, nemes, polyak və sair azlıqda qalan millətlərin nümayəndələrinin heç bir ögey-doğmalığa məruz qalmadan bərabərhüquqlu haqlara sahib olmalarının parlament iclaslarında dəfələrlə dilə gətirilməsi Azərbaycan milli dövlətçiliyinin hansı humanist və demokratik əsaslara söykənməsi faktının bir dəlili idi. Parlamentinin beşinci iclasında isə F.X.Xoyskinin yeni təşkil etdiyi hökumətin proqramı və tərkibi haqqında məruzəsində daxili işlərdən bəhs edərək bildirirdi ki, bir məmləkətdə yaşayan millətlər özlərini o dövlətin övladı kimi görməlidirlər. Biz müsəlman türk milləti də heç bir zaman özümüzü vətənə (tək) övlad görməmişik. İndi hamı millətləri bir vətənin övladı kimi görməli və bizlər özlərimizə istəməyəcəyimiz şeyləri digərlərinə də istəməməliyik. Maarif məsələlərinə də toxunan F.X.Xoyski deyirdi: "Maarif nəzarəti hər kəsə imkan verməlidir ki, öz ana dilində məktəb açıb oxusun. Oxumaz, mənim sizin ilə danışdığım kimi olar. Maarif nəzarəti ana dilində milli məktəblər ilə bərabər sənət məktəblərinə də böyük əhəmiyyət verməlidir. Çünki bizə hamıdan artıq sənət məktəbləri lazımdır (30, s. 126).

Dövrünə görə misli görünməmiş tolerantlıqla yanaşı, digər dövlətçilik prinsiplərində də mədəni dünya standartlarından çıxış edən M.Ə.Rəsulzadə bunu da bəyan edirdi ki, "Firqə proqramımız ilə tanış olanlar bilirlər ki, biz federalist, türkçü və demokratizm məsləkimiz milli-demokrat məsələsidir. Demokratlığımız radikalizm dərəcəsinə qədər vardır. Millətin qüvvətli bir cəhəti-camiəsi yalnız dində deyil, xalqın "dili dilimdən, dini dinimdən" deyə kəndinə məxsus sağlam hiss ilə dərk eylədiyi düsturda görürüz. Bu mülahizə ilə biz məfkurəmizdə böyük türk millətini bu gün gəlibdə bir türk federasiyonu qurmaqla bütün görmək istəriz. Bu ittihadın mədəniyyəti bəşəriyyə sərgisinə qiymətdar bir hars (kültür) bəxş edəcəyinə əminiz (10, s. 51).

Azərbaycanın dövlət və siyasi xadimləri – M.Ə.Rəsulzadə, A.M.Topçubaşov, F.Xoyski, H.B.Usubbəyov, D.B.Hacinski, M.B.Hacinski, İ.Ziyadxanov, Ə.Haqverdiyev, X.B.Xasməmmədov, H.Şahtaxtinski, A.Pepinov, C.M.Qənizadə, S.Mehmandarov, H.Məlikaslanov, M.Y.Cəfərov və bir çox başqaları öz şəxsi nümunələri və həyat fəaliyyətləri ilə yüksək siyasi mədəniyyətin əsası olan dövlət quruculuğu, daxili və xarici siyasətin inkişafına yardım edirdilər (59, s. 397-398). Xalqın ümumi mədəni səviyyəsinin yüksəldilməsi, milli dövlət quruculuğunun prinsipial əsaslarından olan demokratik mədəniyyətin formalaşdırılması yolunda ziyalıların səy və təşəbbüskarlığı ilə yanaşı kütləvi informasiya vasitələrinin maarifçilik təbliğatının da mühüm rolu var idi. Hökumət dairələrindən başqa, demokratiya mədəniyyətinin formalaşmasına N.Nərimanov, A.Səfikürdski kimi bir çox fərqli dünyagörüşlü ziyalılar və siyasi partiya nümayəndələri təsir göstərirdilər. Azərbaycan diplomatiyasının uğurları ölkənin dövlət müstəqilliyinin beynəlxalq aləmdə tanınması uğrunda mübarizəsi ilə təsdiq edilən xarici siyasətində də öz ifadəsini tapırdı. Azərbaycan müstəqilliyinin 1919-cu ilin 1 noyabrında İran tərəfindən tanıması və 11 yanvar 1920-ci il tarixində Parisdə keçirilən dünya konfransında Azərbaycan müstəqilliyinin de-fakto tanınması Azərbaycan diplomatiyasının ən yüksək nailiyyətlərindən idi. Beləliklə, XX əsrin əvvəllərində sosial, siyasi və iqtisadi həyatda baş verən və Azərbaycanın yeni kapitalist cəmiyyətinə keçidini şərtləndirən əsaslı dəyişikliklər keyfiyyətcə yeni burjua-demokratik mədəniyyətinin formalaşmasına yardım edirdi ki, bu da Azərbaycan, müsəlman Şərqində demokratiya və parlament mədəniyyətinin istehkamına çevrildi.

Milli dövlətçilik hadisəsinə yüz illik bir zaman məsafəsindən baxıldıqda da görürük ki, həqiqətən də Demokratik Respublikanın yalnız bayrağı və gerbi yox, suverenlik və istiqlal təcrübəsi də Azərbaycan xalqının milli-mənəvi sərvətidir.

Cümhuriyyət dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti formalaşırdı. Parlamenti öz fəaliyyəti ərzində, o cümlədən 17 aylıq aramsız fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur. Təbii ki, Parlamentin belə bir uğurlu fəaliyyəti Azərbaycan hələ XIX əsrdən başlamış yeniləşmə təmayüllərində və XX əsrin əvvəllərinin milli-mədəni intibah hərəkatından qaynaqlanırdı. Azərbaycanda yeni burjua-demokratik mədəniyyəti formalaşdırılmasının ən ciddi göstəricilərindən biri isə Azərbaycan ziyalı nümayəndələrinin Rusiya dövlət Dumasındakı fəaliyyəti idi. Azərbaycan burjua ziyalıları monarxiyalı Rusiya şəraitində Qərbin demokratik ölkələrinə məxsus metodlarla – milli hüquq bərabərliyi sahəsində dəyişikliklər, siyasi sahədə demokratik islahatların həyata keçirilməsi yolu ilə mübarizə aparırdılar (59, s. 396-397). Azərbaycan Parlamenti tərəfindən respublikanın daxili həyatının demokratikləşdirilməsinə yardım edən Qanunun qəbul edilməsi ölkədə demokratik mədəniyyətin formalaşdırılmasında mühüm addım oldu. 21 iyul 1919-cu ildə qəbul edilmiş "Azərbaycan Respublikasının Təsisedici yığıncağına seçkilər haqqında əsasnamə seçkilərin bərabər, ümumi, birbaşa və gizli keçirilməsinin demokratik prosedurunu müəyyənləşdirdi. 11 avqust 1919-cu il tarixində Parlament tərəfindən, Azərbaycan ərazisində doğulmuş, milliyyəti və dini etiqadından asılı olmayaraq, keçmiş Rusiya imperiyasının hər bir vətəndaşının Azərbaycan vətəndaşı kimi tanıyan "Azərbaycan vətəndaşlığı haqqında qanun"un qəbul edilməsi demokratiyanın siyasi mədəniyyəti və humanizm prinsiplərinə sədaqəti təsdiq edən göstərici idi.

Toplumların millət olmasında şəxsiyyətlərin böyük rollarının olmasına və millət yaratma çalışmalarında "sosial

mühəndislik görəvini" şəxsiyyətlərin öz üzərlərinə götürmələrinə dair tarixdən çox misallar gətirmək mümkündür. G.Gəncalp "Rəsuzlzadə və antirəsulzadəçilər" adlı məqaləsində belə bir fikri xüsusilə vurğulayır ki, "bu gün dünyada bağımsız dövlət kimi tanınan ölkəni Rəsulzadə var etdi. Azərbaycan adını siyasi tarixə və uluslar arası ilişkilərə Rəsulzadə soxdu. Əgər Rəsulzadə olmasaydı bugünkü Azərbaycan da olmayacaqdı. Bizim milli kimliyimizin inşasında Rəsulzadənin böyük rolu olduğu üçün hər an onun mənəvi varlığını düşüncələrimizdə və duyğularımızda hiss edirik. Bizim Türk birliyi fəlsəfəmizi Rəsulzadə müəyyən etmişdir. Türk birliyi fiziki məsafə deyildir, mənəvi və fikri məsafədir. Biz Türk birliyindən yanayıq. Türk birliyini istəyirik (32, s. 227-233). S.Xəlilova görə də milli ruhun daşıyıcıları olan ayrı-ayrı şəxslərin düşüncə, həyat tərzi və fəaliyyət prinsiplərini bütün millətin malı edə bilmək üçün, milli-ictimai şüurun seçilmişlərin örnəyi, nümunəsi ilə formalaşdırılması üçün milli-siyasi iradənin də bu istiqamətə yönəldilməsi tələb olunur. Siyasi iradə (dövlətin yeritdiyi ideoloji xətt) milli ziyalı məfkurəsi ilə üst-üstə düşdükdə milli inkişaf təşkilatlanmış surətdə həyata keçir və milli-ictimai şüurun intibahı təbəddülatlarsız ötüşür. Əks təqdirdə, yəni siyasi iradə milli ruhu ifadə etmirsə və onların pozitiv həlli üçün mübarizə qaçılmazdır. Siyasi iradə milli ruhun və milli maraqların əleyhinə işləyirsə, onda sosial-mədəni mübarizədən daha çox, siyasi mübarizəyə ehtiyac yaranır" (43, s. 7).

Təbii ki, milli istiqlal, milli dövlətçilik uğrundakı mübarizəni konkret şəxslərin adına bağlanması mübahisəli məsələdir. M.Ə.Rəsulzadə özü də yazırdı ki, böyük bir milli davanı şəxslərə bağlamaq və onu parlament və ya hökumətdə təmsil olunmuş ayrı-ayrı insanların vərəsəlik malı kimi hesab etmək çox xatalı bir anlayışdır: "Davamızı" fikir müəssisələrinə deyil, ayrı-ayrı şəxslərə bağlayanlar, mənsub olduqları millətin inkişaf etməmiş, ibtidai bir cəmiyyət olduğunu bildirmiş

olduqlarının fərqində olmayanlardır. “Davamız”ın yaxın tarixini, tariximizdəki fikir müəssisələrindən təcrid edərək izaha qalxanlar, bilərək və ya bilməyərək, tarixi təhrif edənlərin ta özləridir (134, s. 4). Bununla M.Ə.Rəsulzadə heç də tarixdə şəxsiyyətlərin rolunu danmır. Onun qənaətinə görə, belə şəxsiyyətlərin dəyəri onların “fikirlərə sədaqətləri və fikir müəssisələrinə bağlılıqları nisbətindədir. Bu sədaqət və bağlılığın şəkil və dərəcəsi ancaq, bir şəxsi bir şəxsiyyət mərtəbəsinə yüksəldir. Tarixdə dəyər və əhəmiyyət kəsb edən şəxslər, məhz müəyyən fikir cərəyanlarına və müəssisələrinə bağlanan, onlara simvol olan şəxsiyyətlərdir” (134, s. 5). Yoxsa sadəcə hökumət və ya parlament üzvü olmaq, insana xüsusi bir imtiyaz və şərəf verməz. Əsl imtiyaz, əsl şərəf ideyaya sədaqətdə və ona hüsniyyət və səmimiyyətlə bağlı qalmaqdadır. Parlament və hökumətdən kənarda Firidun Köçərlilər, Piri Mürsəlzadələr, İslam Kabulzadələr, Mirzə Abbaslar, müəllimə Vəsilə xanımlar, Qasımzadə Qasım bəylər, Rəfibəyli Xudadat bəylər, Şair Hüseyn Cavid ilə Əhməd Cavadlar; gənc öyrənci və zabitlərdən Ağa Kərim Əlizadə, Ağa Səlim Rəhimzadə, Salman Rəhimzadə, İbrahim Axundzadə, Dr. Dadaş Həsənzadə və sairələri kimi nəmi-nişanı zikr edilməyən daha neçə qurbanlarımız və şəhidlərimiz vardır. İsimləri və xatirələri hamımıza əziz olan Fətəli Xan, Nəsib Bəy, Həsən Bəy, Səməd Paşa, Abuzər Bəy, Məmməd Bağır Bəy, Musayyib Bəy, Murataza Bəy, Rəhim Bəy və sairə kimi şəxsiyyətlərlə bərabər, düşmən tərəfinə keçmiş və milli iradəyə xəyanət etmiş Qarayevlər, Qarabəyovlar kimi bədbaxtlar da, təəssüf ki, parlamentin üzvü olmuşlar (134, s. 5). Bu ziddiyyətli mövqe sahibləri olan şəxsiyyətlərə müxtəlif dövrlərdə fərqli qiymət verilmişdir. Həmin mürəkkəb və ziddiyyətli dövrdə milli istiqlalın alternativ yollarının olmasını önə çəkən tədqiqatçılar da vardır. Məsələn, N.Nərimanovun şəxsiyyətinə fərqli kontekstdən yanaşılan tədqiqatçılar içərisində Ş.Qurbanovun, H.Əzizoğlunun, S.Xəlilovun adlarını çəkə bilərik (29; 35; 44; 45; 57).

Təbii ki, şəxsiyyətlərə münasibətdə müəyyən mübahisəli məqamlar olsa da Azərbaycan mədəniyyətinin inkişafında onların hər birinin müəyyən xidməti olmuşdur. Bu mənada tədqiqatçılar Azərbaycanın mədəniyyət tarixinin ən mürəkkəb, çətin və eyni zamanda ən şərəfli dövrlərindən birinin XX əsrin əvvəllərinə təsadüf etməsi fikrində həmrəydirlər. Lakin həmin şəxslərin hər birinin Azərbaycan mədəniyyət və dövlətçilik tarixində müəyyən yerləri olsa da, söhbət istiqlal məfkurəsindən və milli dövlətdən getdiyi təqdirdə, əksər tədqiqatçıların gəldiyi qənaət budur ki, həmin dövr Azərbaycan milli tarixinin ən parlaq şəxsiyyəti M.Ə.Rəsulzadədir. Ona görə də, "hətta ən möhtəşəm abidə də öz yerini Məhəmməd Əminə verməyə və etiraf etməyə hazırdır: Bakıda ən uca təməldə durmağa, ən işıqlı uzağı – zirvəni görməyə məhz sənin haqqın var. Çünki, hamıdan uzağı və irəlini, yüzilliyin sonunu, XXI əsri hələ onda, əsrin lap əvvəllərində hamıdan qabaq Sən gördün! Sonrakı ən çətin anlarda da, Vətən müharibəsi illərində də vətən oğlunun əlindən tutan, halına yanan Sən oldun! (50, s. 125-126). M.Ə.Rəsulzadə milli, müstəqil, azad Azərbaycan barədə həm ilk bitkin ideyanın, təlimin, elmi-siyasi proqramın, konsepsiyanın, həm də müasir tipli, vahid demokratik Azərbaycan dövlətinin yaradıcısı, rəhbəri və tarixçisidir. Azərbaycan Cümhuriyyətinin bütün islam aləmində ilk cümhuriyyət, bütün türk dünyasında ilk respublika kimi təşəkkülü, ümumbəşər və ümumtürk əhəmiyyəti kəsb etməsi Rəsulzadənin adı ilə bağlıdır (50, s. 369).

Sovet Rusiyasının beynəlxalq hüquq normalarını kobudcasına tapdalayan hərbi müdaxiləsi və XI Qırmızı Ordu hissələrinin qanlı döyüş əməliyyatları nəticəsində Şimali Azərbaycan yenidən Rusiya tərkibinə qatılsa da, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın azadlıq hərəkatı tarixində dərin iz qoydu və sübut etdi ki, ən qəddar müstəmləkə və repressiya rejimləri belə Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir.

Çünki M.Ə.Rəslzadənin xalqın öz ruhundan doğan bir ümummilli hərəkat və hadisə adlandırdığı Azərbaycan Xalq Cümhuriyyəti humanitar milli ənənənin, ədəbi, hüquqi, fəlsəfi fikrin, milli "mən" və milli dövlət şüurunun, bütövlükdə "xalqın azadlıq hərəkatının tarixən qanunauyğun və məntiqi yekunu kimi təşəkkül tapmışdı. Xalq hakimiyyəti, respublika və sosial-demokratiya istiqamətində ümumbəşəri tərəqqinin həm Qərb, həm də Rusiya və Şərq meyllərini öz məzmununda birləşdirirdi" (50, s. 358). Azərbaycan Xalq Cümhuriyyəti sonrakı nəsillərə zəngin bir milli dövlət təcrübəsi və mədəniyyət quruculuğunun bütün sahələrində tarixi varislik ənənəsi qoydu. Taleyin bütün amansızlıqlarına sinə gərən, həyatın hər bir məhrumiyyətinə qatlaşan Cümhuriyyət mücahidləri Azərbaycanın milli dövlətinin bərpasına və istiqlal ideyalarının yenidən qələbə çalacağına olan inamlarını heç vaxt itirmədilər. Bir sözlə, Azərbaycan xalqının tarixində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, bütün Şərqdə, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi. Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından geri qalmırdı. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin milli mədəniyyət siyasətinin ana xəttində belə bir ideya dayanırdı ki, hər şeydən öncə dövlətin milli şəxsiyyəti olmalıdır, milli siyasət isə milli mədəniyyət deməkdir. Məhz bu səbəbdəndir ki, milli dövlətçiliyin baniləri üçün milli dövlətin başlıca ölçüsü və meyarı milli mədəniyyətdən ibarət olmuşdur.

## Milli istiqlal məfkurəsi

XX əsrin əvvəllərində çoxəsrlik humanist ənənələrin varisliyindən bəhrələnən Azərbaycan milli-mədəni intibah hərəkatı, eyni zamanda maariflənmiş Avropanın mədəni standartlarından fəal istifadə etməklə demokratik yeniləşmə və tərəqqipərvər inkişaf yoluna qədəm qoydu. Cümhuriyyətin siyasi mədəniyyəti də məhz siyasi maraq və ehtiyacların dərki fonunda, Azərbaycan xalqının öz milli müstəqilliyi uğrunda mübarizəsi şəraitində, yeni siyasi quruluşa əhalinin müxtəlif qrup və təbəqələrinin ümumi münasibət platformasının yaradılması şəraitində formalaşırdı ki, bu siyasətin həyata keçirilməsində də mədəniyyət amili daima ön planda idi. Belə bir mədəniyyət təmayülü özünü poetik formada Cavidin "Turana qılıncdan daha kəskin ulu qüvvət, yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət" (19, s. 272) formulunda, siyasi şəkildə isə M.B.Məhəmmədzadənin "Acı təcrübələr göstərdi ki, milli hürriyyət və milli istiqlala malik olmayan millətlərin milli varlıq və milli mədəniyyətlərini qoruyub inkişaf etdirmələri imkan xaricindədir (63, s. 8) qənaətində təzahür etdirirdi. Ona görə də belə bir kulturoloji düşüncədən qaynaqlanan milli dövlətin siyasi mədəniyyəti də öz əksini ölkənin sosial-mədəni institutlarının – demokratik dövlət, parlament, hüquqi institutların fəaliyyətində tapırdı. "Bu burjua-demokratik mədəniyyətin daşıyıcısı və ifadəçisi Rusiyada və Qərbi Avropanın müxtəlif ölkələrində təhsil almış şəxslər, o cümlədən azərbaycanlıların Rusiya Dövlət Dumasındakı nümayəndələri, ictimai-siyasi xadimlər, maarifçilər, yazıçılar, publisistlərdən ibarət qabaqcıl Azərbaycan ziyalıları idi" (59, s. 395-396). Məhz bu amilin də çox önəm daşıması səbəbindən idi ki, yeni dövr Qərbi Avropa və Rusiya mədəniyyətlərindən təsirlənmiş Azərbaycan parlamentinin təntənəli açılışı ənənəvi Azərbaycan mədəniyyətində inqilabi dəyişikliklərin parlaq nümunəsi oldu.

Ölkədə siyasi mədəniyyət öz əksini icbari təhsilin tətbiqi istiqamətində aşağı və orta məktəblərin milliləşdirilməsi, rus və

ana dilində təhsil alma hüququnu təmin edən, milli azlıqların imtiyazlarının saxlanması, qaçqınlara yardım və dövlət quruculuğunun digər məsələləri üzrə tədbirlərdə tapırdı. Yaranan ziddiyyətlər demokratik üsullarla, zor və amirlik metodları işlətmədən, demokratik mədəniyyət prinsipləri, müstəqil dövlətin və cəmiyyətin maraqlarından çıxış edərək, qanunun aliliyi əsasında həll edilirdi. Ən mühüm prinsiplərdən biri də milli-mədəni özünəməxsusluğun qorunması ilə əlaqələndirilən dini-etiqad azadlığı və Azərbaycanda yaşayan milli azlıqların hüququnun tanınması idi. Azad əmək təminatı verən hüquq mədəniyyətinə ciddi fikir verilirdi. "Bununla belə, siyasi partiyaların yetkin olmaması, düşünülmüş siyasi proqramların olmaması, ümummilli maraqlarda əməkdaşlıq və siyasi mübarizə təcrübəsinin, Qərb demokratiyası mədəniyyəti sahəsində dərin bilik və bacarıqların olmaması halları mövcud idi" (59, s. 396-397)

Parlamentdə müzakirə edilən məsələlər və qəbul edilən qərarlar yalnız ümummilli mənafelər baxımından dəyərləndirilir və millətin gələcəyini təmin edəcək strateji mahiyyətli məsələlərə dair qərarlar gərgin müzakirələrdən sonra qəbul edilirdi (149, s. 449-450; 15, s. 170-171). Bu mənada 1919-cu il iyulun 21-də parlament seçki qanununun qəbulu zamanı M.Ə.Rəsulzadənin təkidi ilə qanun layihəsinə məscid və dini ayinlər üçün nəzərdə tutulmuş yerlərdə seçki təbliğatının aparılmasını qadağan edən xüsusi bənd əlavə olunmuşdu. Həmin bəndin tələblərini pozanları "altı aya kimi həbs cəzası gözləyirdi". Tədqiqatçı A.Balayev yazır ki, "M.Ə.Rəsulzadə bu yolla ruhanilərin mühafizəkar qüvvələr tərəfində siyasi proseslərə müdaxiləsini mümkün dərəcədə azaltmağa çalışırdı" (15, s. 165).

"İnsanlara hürriyyət – millətlərə istiqlal" tələb edən milli hərəkat təmsilçiləri "millətin vicdanına tərcüman" olduqları üçündür ki, sərbəst seçimlərdə yüzdə yetmiş beş rəylə tam bir qalibiyyət əldə etdilər. Belə bir uğurun məhsulu olan Azərbaycan Xalq Cümhuriyyətinin milli mədəniyyəti ön planda tutacağı təbii olduğu qədər də əminlik doğururdu. Bu dövrdə

başladılan mədəniyyət quruculuğu prosesinin nəticələri sözün tam mənası ilə bir mədəni inqilabdan ibarət idi. Çox qısa bir müddət ərzinə həyata keçirilən bu milli-mədəni inqilab Azərbaycan tarixində yaddaşlardan heç bir vaxt silinməyəcək bir mərhələ yaratmışdır. Belə ki, İran və Rusiya işğalı nəticəsində hakimiyyət mövqeyindən endirilmiş "türk dili, rəsmi dövlət dili olaraq, zəfər taxtına yenidən oturulmuş", bütün məktəblərdə türk dili tədris edilməyə başlamış, "türk ədəbiyyatı, türk tarixi, türk sənəti, türk ruhu ana dərslər halına gəlmişdi". Müəllim kadrları yetişdirmək üçün qadın və kişilərə məxsus müəllim məktəbləri və kurslar təsis olunmuş və Türkiyədən müəllim kadrları cəlb olunmuşdu. "Milli kültür inqilabı" adlı məqaləsində M.B.Məmmədzadə yazır: "Hərbi, donanma, ticarət, sənaye və bir çox peşə məktəblərindən başqa, Azərbaycan Parlamentinin 1919-cu ildə qəbul etdiyi bir qanun ilə, Bakıda bir dövlət universiteti qurulmuşdu. Türkləşdirilən əski məktəblər ilə açılan yeni məktəblərə kitab yetişdirmək üçün Maarif Nəzarəti yanında "Telif və Tərcümə Encüməni" təşkil olunmuşdu. Avropaya yüzə qədər tələbə göndərilmiş və daha artıq göndərilməsinə də qərar verilmişdi. Bakıda təsis olunan böyük və modern bir dövlət mətbəəsi, milli kitabxana, milli muzey, komediya, dram və opera şöbələri ilə bərabər, milli dövlət teatrı haqqında söz söyləməyə lüzum görmürəm". M.F.Axundovun həyata keçirməyə çalışdığı əlifba islahatının cümhuriyyət dövründə gerçəkləşdirilməsi üçün təşəbbüslər göstərildiyini, bu xüsusda tənzimlənən müxtəlif layihələri bir araya gətirmək üçün bir komitə qurulmasını və bu komitənin qəbul etdiyi yeni milli əlifba ilə örnək kitabların nəşr edilməsini qeyd etdikdən sonra M.B.Məmmədzadə yazır ki, "ən mühümü isə bu kültür inqilabının dayandığı demokratik prinsiplər idi" (113, s. 7).

Milli dövlətin həyata keçirdiyi mədəni inqilabın demokratik prinsiplərini çarizmin yürütdüyü siyasətlə müqayisəli təhlil edən M.B.Məmmədzadə yazır ki, milli dövlətdən əvvəl, rus hakimiyyəti dövründə: 1) Hər kəs oxuya bilməzdi. Maarif

ümumi və kütləvi deyildi. Bütün sinif və zümrələri bir gözlə görən və bərabərlik əsasına dayanan azad və sərbəst bir maarif siyasəti yox idi. Məhdud miqdardakı xalq məktəbləri yanında seçmə siniflər məktəbi, onun yanında da papaz (xristian din adamı) və missionerlər məktəbi vardı (bugünkü kommunist universiteti və Allahsızlar məktəbi kimi); 2) Maarif milli deyildi. Sovetlərdə olduğu kimi, çarlıq Rusiyasında da məktəb bir ruslaşdırma mexanizmindən ibarət idi. Türkcə orta, lisə və yüksək tədrisat imkansızdı. Uşaqlarımızı milli ruhda yetişdirmək qanuni yasaqdı; 3) Maarifdən məqsəd rejimə sadiq qapı qulu məmur sinfi yetişdirməkdən ibarət idi; 4) Yenə bu səbəblə tədrisatda azadlıq yox idi; Tədrisatda təhlükəsizlik mövcud deyildi. Terror, təzyiq və qorxu hakim idi (113, s. 6).

Bu imperialist, müstəbid, qeyri-milli və qeyri-mədəni maarif sistemini milli hökumət bir həmlədə yıxdı və onun yerinə bütün müsəlman şərqi üçün örnək ola biləcək yeni bir sistem qoydu. Bu maarif sisteminə görə: 1) Maarif dar – sinfi deyil, ümumi və tam mənasilə milli məktəb idi. Məktəblər bütün qadın və kişi vətəndaşlara açıqdı. İlk tədrisat hər kəs üçün məccani və məcburi idi; 2) Tədrisat kosmopolit deyil, milli idi və bəşəri dəyərlərə əhəmiyyət verirdi; 3) Tədrisat tamamilə azad olub proqramlara yalnız elmi üsullar hakim idi. Təfəkkür, vicdan, etiqad və içtihad hürriyyəti qanunun himayəsində idi; 4) Tədrisatdan məqsəd qapı qulu məmur hazırlamaq deyil, hür düşüncəli və kültür sahibi münəvvər vətəndaş yetişdirməkdi; 5) Məktəblərdə qorxu deyil – sakitlik və təhlükəsizlik, terror deyil – sevgi, təzyiq deyil – təşviq, himayə və şüurlu milli vəzifədən doğan bir intizam hakim idi (113, s. 6-7).

Azərbaycan Xalq Cümhuriyyətinin, strateji prinsipləri demokratik əsaslar üzərinə qurulmuş milli-mədəni inqilabının əsas məqsədi əvvəlki nəsillərin ideallarını gerçəkləşdirməkdən və Türk dünyası birliyində modern bir Azərbaycan türklüyü yarada biləcək ziyalı bir nəsil yetişdirməkdən ibarət idi.

Türklüyünə bağlı olan bu nəsil, həm də Avropa mədəniyyətini mənimsəmiş, hərtərəfli hazırlıq görmüş azad düşüncəli və azad vicdanlı ziyalı bir ordu təşkil etməyi öz qarşısına bir vəzifə olaraq qoymuşdu.

Belə bir milli-mədəni inqilab tərəfdarları kommunistlərin irəli sürdüyü "sinif kültürü" iddiasını tamamilə uydurma və yanlış hesab edir və buna qarşı "milli kültürü", başqa sözlə, "proletar mədəniyyəti"nə qarşı "milli mədəniyyət"i qoyurdular. Azərbaycan milli dövlətçiliyinin baniləri sonrakı mərhələdə də kommunistlərin "formaca milli, məzmunca sosialist" şüarına qarşı "məzmunca da, formaca da milli mədəniyyət" tezisini qoymuşlar. Onların fikrincə, millət xaricində hər hansı bir sinif mövcudiyyəti düşünülə bilməz. Çünki fəhlə də hər yerdə və hər zaman, bütün digər siniflər kimi, öz yurduna, dilinə, ədəbiyyatına, sənətinə və ümumiyyətlə milli varlığına və kültürünə bağlı və sadiq qalmışdır.

M.Ə.Rəsulzadə yazırdı ki, milliyyətini inkar edən hər hansı bir fəhlə sinfi təsəvvür edilə bilməz. "Milli kültürdə hər sinif xalqın payı və hissəsi vardır. Milli kültür hər sinif xalqın həyatını, istəklərini və dərdlərini əks etdirir. Hələ yoxsul xalq təbəqələri, ən böyük müdafiələrini və hamilərini milli ədiblərimizin, milli sənət ərbabımızın və elm adamlarımızın qüvvətli qələmlərində və fırçalarında tapırlar" (131, s. 1-2). "Kültür sinfi deyil millidir" başlıqlı məqaləsində fəhləni millətindən ayırma hədəfini güdən xəyanətkar kommunistlərin təşəbbüslərini, qoyunu sürüdən ayırmağa və boğmağa çalışan qurdun hərəkətinə bənzədən M.Ə.Rəsulzadə əminliklə bildirirdi ki, digər xalq zümrələri qədər fəhlə də rifahını və səadətini ancaq milli camiada və bütün millətin müştərək və yekdil səyi nəticəsində təmin edə bilər. Milli topluluq xaricində heç bir rifah və salamat olamaz! "Milli kültür yoxdur, sinif kültürü vardır" deyənlər, heç də kültürlə əlaqələri olmayıb, sırf imperialist məqsədlər güdən rus uşaqlarıdır. Bu kimilər, fəhləni öz dilindən, öz teatrından, öz musiqisindən məhrum edib, ona

rus dilini və kültürünü zorla qəbul etdirmək istəyirlər. Sinfin mücərrəd və müstəqil varlığı ola bilməyəcəyi kimi, özəl və ayrı bir kültürü də ola bilməz. Kültür birdir və müştərəkdir, yəni bütün millətin malıdır. Bu kültür, hər hansı bir dövrəyə və ya sosial nizama da məxsus olmayıb, millətin bütün tarixinə şamil siniflər fövqü bir varlıqdır. Bunun üçündür ki, adına milli kültür, yəni millətin bütün keçmişini əks etdirən bir kültür deyirik" (131, s. 2).

Hətta marksizm məktəbinin tarixə aid nəzəriyyəsini qismən qəbul edən, onun bir dünyəvi nəzəriyyə kimi bəzi müddəaları ilə razılaşan Ə.Ağaoğlu da mədəniyyət və xüsusilə də mənəviyyat məsələsində əks mövqedən çıxış edirdi. Ə.Ağaoğlu yazırdı ki, marksizm məktəbinin iddia etdiyi kimi maddiyyat və iqtisadiyyatın bəşərin inkişafı, müqəddəratı və tarixin tərəqqisi üzərinə dərin və geniş bir təsir icra etdiyində şübhə yoxdur. "Mədə əndişəsi, fikri, dərdi həqiqətən fərdlərdə olduğu kimi cəmiyyəti-bəşəriyyədə də böyük və qəti rol oynamaqdadır. Fəqət bu amil yalnız deyildir. Bununla yanaşı eyni dərəcədə mühüm və təsirli ruhi və mənəvi amillər vardır ki, marksizm məktəbinin bizcə ən böyük qəbahət və qüsuru bu amilləri inkar etməkdən ibarətdir. Cəmiyyətlər fərdlərdən ibarət olar. Fərdlər isə bir mədə ilə bərabər bir dimağ, bir qəlb də daşırlar. Mədənin ehtiyaclarını təminə nə qədər möhtac isələr, dimağ və qəlbin də ehtiyaclarını təminə o dərəcə mühtacdırlar" (94, s. 53-54). Ə.Ağaoğlu marksizmin bir həqiqətə sanki göz yumduğu qənaətinə gəlir. Onun fikrincə, insanları maraqlandıran mənfəətlər arasında yalnız maddiyyat deyil, bir də mənəviyyat və ruhaniyyat vardır: "Bəzən şərəf, namus, heysiyyət kimi mücərrəd və mənəvi qiymətlər bizə çörək və su ehtiyacı qədər iztirab verər və bunların təmini üçün ölümə qədər vararız" (94, s. 54). Ümumiyyətlə, marksizmin mədəniyyəti üstqurum hadisəsi hesab etməsi məsələsi bir çox alimlər tərəfindən müzakirə obyektinə çevrilmişdir və fikrimizcə, hazırda da kulturoloji fikrin problematik mövzularındandır.

Azərbaycan Xalq Cümhuriyyətinin elanı və İstiqlal Bəyannaməsinin qəbulu zamanı dövlətin demokratik bir cümhuriyyət olacağı düsturu Milli Şuranın siniflərə və ümumən xalqa aid olan nöqteyi-nəzərini şərh edirdi. Fəqət, bu, yenə həlli Şərq üçün hələ yetişməmiş olan qadın məsələsinin nə surətlə həll ediləcəyini göstərmirdi. Halbuki, dördüncü maddə "cins fərqi gözləmədən" tarixi ifadəsilə din və sinif məsələlərindən daha mühüm və daha yeni bir məsələ meydana atır, Şərq aləmində daha böyük bir inqilab etmiş olur. Milli dövlət ideoloqları bu qərardan çıxan mənanı, bütün qadınların kişilərlə bərabər haqq və səlahiyyətə malik olacaqları tərzdə şərh edirdilər. M.B.Məmmədzadə yazırdı ki, "Qadınlar sair vətəndaşlarla bərabər vətəni və siyasi hüquq kəsb edirdilər ki, bu hal bütün Şərqdə deyil, Avropada belə tamamilə tətbiq edilmiş deyildi. Azərbaycan milli xartiyası bu qərar ilə nə qədər ülvi, bəşəri və mədəni qayələrlə doymuş olduğunu isbat etməkdədir" (61, s. 142).

Qadınların sosial həyatda və ümumi ictimai fəaliyyətdə fəal iştirak etmələri və onların millətin işgüzar bir üzvü, məhsuldar və fayda verən bir zümrəsi olmaları uğrunda ziyalıların hələ bu vaxta qədər də çox təşəbbüsləri olmuşdu. Lakin ilk dəfə olaraq İstiqlal Bəyannaməsində bu mövzuya rəsmən toxunulması məsələsi həmin dövrün mətbuatında da müzakirə edilən aktual mövzulardan idi. Çünki, daha öncə bu yolda mübarizə aparmış Avropa mütəfəkkirləri də qadın məsələsini hər bir şeyin əsası, hətta cümhuriyyətin belə təməli hesab edirdilər. Montöskiye deyirdi ki, "bir milləti təşkil edən ailələr nə kimi bir ictimai üsul ilə idarə olunarlarsa, o millətin yaradacağı dövlət də, nə adlanırsa adlansın eyni ruh və şəkildə olur". Çünki millət bir çox ailələrin məcmusundan ibarət böyük bir ailədən başqa bir şey deyildir. Ailədə hökmran olan qanun-qaydalar eyni ilə o millətin ictimai həyatına və xüsusən siyasətinə də hakim olur. Qadınların oxumaları zərurətini meydana qoyan səbəb də yenə milli mövcudiyyət məfkurəsi idi. Bu səbəb Həsən bəy Zərdabi tərəfindən başlamış ümumi tərəqqi və yüksəliş hərəkatı ilə

bağlı olub onun vəcdə gətirdiyi bir cərəyandır. M.B.Məmmədzadə bu hərəkatı bütün tərəqqi və yüksəliş hərəkatının tamamlayıcısı hesab edərək yazırdı ki, "Qadın qisminin, millətin tərəqqi və yüksəlişindəki roluna verilən əhəmiyyət və qiyməti yüksəlməyə başlamışdı. Cavidin, Sabirin, Hadinin, Cavadın, Şaiqin fəaliyyət qələmləri bütün bir mövzu ətrafında idi. Şeir, ədəbiyyat, mətbuat, məktəb və maarif bir tərəfdən; xalqın nəzərini, fikrini, məişət tərzini vahimələr və xəyalatına acı və kəskin zərafətilə qırmanclayaraq milli və vətən şüurunun oyanmasına səy edən Mirzə Fətəlinin və onu təqlid edən fədakar nəslin teatr və təmsillərdə, digər tərəfdən, əfkar ümumiyyənin yüksəlməsinə səbəb olmuş, qadın qisminin dərəcəsini ucaltmış, ona mənən bütün mədəni hüquqları bəxş etmişdi. Artıq "ilk məktəb analar qucağıdır" etiqadı ilə "inandım ki, cənnət cənin ayağının altındadır" təranəsi ümumiləşmişdi" (61, s. 143-144).

Qadın problemi Cümhuriyyət parlamentinin də diqqətdə saxladığı aktual mövzulardan idi. Parlamentin ikinci iclasında "Hümmət" fraksiyasından Şeyxülislamov qadın hüquqlarından bəhs edərək deyirdi: "Millətimizin yarısını təşkil edən qadınlar qul sifətindədirlər. Biz onlara insan surətində baxmalıyıq. Millətin yarısı işləyib, yarısı işləməsə o millət çolaqdır. Üzərinə heç bir xeyir yetirə bilməz. Bu gün qadınlarımız gələcək övladlarımıza tərbiyə verməkdədirlər. Əgər onlar azadə olmasalar dövlət və vətənimizi müdafiə edən azad fikirli övlad dəxi yetirə bilməyib, özləri qul və əsir yaradarlar" (10, s. 64-65).

Demokratik müzakirələr və məqsədyönlü siyasət nəticəsində qadınların məşğulluq imkanlarının artması, biznesə qoşulması üçün Cümhuriyyət parlamentində qanun qəbul edilir, qadınların daha çox məşğul olduğu kustar sənayeni inkişaf etdirmək və genişləndirmək məqsədilə yerli sahələrə kömək göstərən kustar sənaye kursları təşkil edilir və vəsait ayrılırdı (160). İşsizliyin aradan qaldırılması və iqtisadiyyatın gücləndirilməsi məqsədilə bir sıra bölgələrdə toxuculuq və tikiş emalatxanası açılması barədə müxtəlif layihələr müzakirəyə

çıxarılırdı (161). Səhiyyə sahəsində də xidmətin keyfiyyətinin yüksəldilməsində qadınların maraqları dövlət tərəfindən müdafiə olunurdu (11, s. 990; 158; 166). AXC hökumətində milliləşmə ilə bağlı həyata keçirilən tədbirlər zamanı məktəblərin adlarının dəyişdirilməsi prosesində məzmun və keyfiyyət dəyişikliklərinə cəhd göstərilmiş, milli qadın kadrlarından təhsil prosesində istifadə edilməsi həyata keçirilmişdir (150, s. 251-252; 157).

Cümhuriyyət dövründə təhsilin yeniləşməsi, dünya təhsil və təlim-tərbiyə sisteminə inteqrasiyası yolunda da uğurlu addımlar atılmış, tədrisdə oğlanlarla qızların birgə təlimi həyata keçirilməyə başlanmışdı (53, s. 50). Eləcə də uşaqların erkən yaşlarından təlim-tərbiyəsinə dövlət qayğısının artırılması və anaların əmək fəaliyyəti ilə səmərəli məşğul olmasının həyata keçirilməsi məqsədi ilə I Milli Qadın Gimnaziyası nəzdində Frebel sistemli uşaq bağçası yaradılması ilə bağlı qanun layihəsi qəbul edilmişdi (159; 46, s. 37).

İlk gündən təhsil sahəsində qadınların kişilərlə bərabərhüquqlu fəaliyyətlərinə xüsusi önəm verən Xalq Maarif Nazirliyi (162) qadın tədris müəssisələrində pedaqoji şuraların vəzifələrini dəqiqləşdirərək qızların əxlaq tərbiyəsinin istiqamətlərini, tədris kursunun formasını, həcmini və məzmununu müəyyənləşdirməyə, fənlər üzrə daha münasib dərslik və dərs vəsaiti seçməyə, qızların əxlaqını və biliklərini qiymətləndirməyin metodikasını işləyib hazırlamağa çalışmışdır. Belə bir təhsil siyasəti sayəsində məktəblərdə idarəetmənin strukturu təkmilləşdirilmiş, kişi orta təhsil müəssisələrinə müvafiq olaraq qadın orta təhsil müəssisələrində də sinif müəllimi köməkçisi vəzifəsi ləğv edilmişdi (150, s. 123). 1919-cu il iyun ayının 2-də qadın orta təhsil məktəblərində qanunlara dəyişikliklər və əlavələr edilərək (150, s. 64, 251-252) pedaqoji şuranın sədri vəzifəsi direktor vəzifəsi ilə əvəz edilmiş və onlara bu vəzifədə kişi orta təhsil müəssisələrinin direktorları ilə bərabər hüquqlar verilmişdi. Eyni zamanda sinif xanımı vəzifəsi sinif müəllimi ilə

əvəz edilmiş, onlara da kişi məktəblərində dərs deyən müəllimlərlə eyni hüquqlar verilmişdi (163; 46, s. 38).

Xalq Maarif Nazirliyinin yeni kişi və qız məktəbləri və seminariyalarının açılmasına dair Azərbaycan Parlamentinə təqdim etdiyi qanun layihəsi əsasında 1919-cu ildə 4 kişi, 3 qadın kurslarının açılması qərara alınmış (150, s. 401), qadın orta məktəblərində sinif müəllimi müavini vəzifəsinin təsis olunması barədə qanun layihəsi qəbul edilmişdi (11, s. 480-481). Dövlətin təhsilə və yaradıcılıq sahələrinə belə ciddiyyətlə diqqət yetirməsi sayəsində ədəbi-mədəni mühitin formalaşmasında da qadınların fəallığı artmışdı. "Bu dövrdə elmi publisistik və bədii yaradıcılıqla məşğul olan Ş.Əfəndizadə, Ş.Qaspralı, Ş.Axundzadə, E.Yusifbəyli, Ü.Sadıqzadə kimi qadın ziyalıların məqalələrində, əsərlərində dövrün ictimai-siyasi milli-mənəvi problemləri öz dolğun ifadəsini tapmışdır" (46, s. 38).

Cümhuriyyətin mədəniyyət siyasətinin strateji istiqamətlərindən birini də dövlət dili məsələsi təşkil edirdi. Təbii ki, müstəqil dövlətin mühüm atributlarından biri olan dil məsələsi elə bir mövzudur ki, mədəniyyət quruculuğunu ondan ayırmaq qeyri-mümkündür. Cümhuriyyətin mövcud olduğu dövr ərzində dil məsələsi həmişə diqqət mərkəzində saxlanılmış və dövlət dili statusu bərqərar edilmişdir. Belə ki, Azərbaycan Cümhuriyyəti Parlamentinin iclasları türk dilində aparılmışdır. Hətta bu dili "yaxşı bilməyən azərbaycanlı nümayəndələr öz dillərində danışmağa məcbur idilər. Yalnız Parlamentin başqa millətdən olan nümayəndələri və xarici qonaqlar rus dilində danışırdılar. Parlamentin protokolları iki dildə – Azərbaycan və rus dillərində rəsmiləşdirilirdi" (10, s. 26). Təhsil sisteminin milliləşdirilməsini sürətləndirmək məqsədilə Azərbaycan dilində dərsliklərin hazırlanması və nəşri üzrə xüsusi komissiya yaradılmış və həmin komissiyanın fəaliyyəti sayəsində təxminən bir il ərzində ibtidai və orta məktəblər Azərbaycan dilində xeyli sayda dərsliklərlə təmin olunmuşdu.

Nazirlər Kabinəsinin 27 iyun 1918-ci il tarixli əmrini əsasa alan "Dövlət dilinin türk dili" olması qəbul edildi və Azərbaycanda ortaq ünsiyyət dili olan türkcə rəsmi status qazandı. Türk dilinin dövlət dili elan edilməsi haqqında qərara əsasən, ölkədə məhkəmə, inzibati idarəçilik və digər vəzifələrin başında duranlar dövlət dilini lazımi səviyyədə öyrənənədək, Hökumət müəssisələrində rus dilinin də işlənməsinə yol verilirdi. Lakin bu real şəraitdən doğan müvəqqəti tədbir olmuş və yalnız idarəçilikdə milli kadrların yetişməsinə qədər olan müddət üçün nəzərdə tutulmuşdu (8, s. 66). Hökumət 1918-ci il avqustun 28-də ibtidai və orta təhsil müəssisələrində təhsilin ana dilində aparılması haqqında qərar qəbul etdi ki, bu qərara görə, bütün ibtidai tədris müəssisələrində tədris ana dilində aparılır, eyni zamanda, dövlət dili icbari qaydada tədris olunurdu (8, s. 66-67). Xalq Maarifi Nazirinin 7 oktyabr 1919-cu il tarixində məktəb müdirlərinə göndərdiyi təlimatda isə hazırlıq və ibtidai siniflərdə oxumaq istəyən türk şagirdlərin, yalnız türkcə təhsil ala biləcəkləri, xüsusilə bildirildi.

Təhsildə milliləşmə fəaliyyəti çərçivəsində tarix, ədəbiyyat və digər sahələrdə də bənzər tətbiqi fəaliyyətlər gerçəkləşdirildi. Xalq Maarifi Nazirliyi strukturunda orta dərəcəli məktəblərin dərs proqramlarını yenidən işləyib hazırlamaq üçün xüsusi bir komissiya təşkil edildi. Türk tarixi, türk coğrafiyası, türk dili və ədəbiyyatı dərslərinin proqramları mütəxəssislər tərəfindən təhsilin məqsədinə uyğun hala gətirildi. Yeni dərs proqramları cəmiyyətə milli kimliyini qazandırmaq və türkçülüyü qüvvətləndirmək məqsədi daşıyırdı. Tarix dərsi proqramında əsas diqqət türk boylarının milli və ictimai hərəkatlarının tədqiqinə verilmişdi. Bu proqramların "müəyyən bir coğrafiyada eyni dövlət çatısı altında yaşayan bir xalqın tarixi deyil, dil və kültür birliyinə sahib olan, Asiyanın geniş ərazisinə yayılmış bütün bir türk millətinin tarixi olduğu xüsusi olaraq vurğulanırdı. Eyni şey ədəbiyyat dərs proqramı sahəsin-

də də edilirdi. Burada da əsas diqqət türk boylarının ədəbiyyatına verilmişdi (143, s. 133-134).

Hərbi nazir Səməd bəy Mehmandarovun 1918-ci il 27 dekabr tarixli 34 saylı əmrinə əsasən orduda dövlət dili olan türk dilini bilməyən zabitlər bir ay müddətində, heç olmasa, komanda sözlərinin öyrənməli və əsgərlərə bu dildə komanda verməli idilər. Bir ay müddətində bu tələbi yerinə yetirə bilməyən zabitlər dərhal ordudan xaric edilməli idilər (8, s. 67).

Ümumiyyətlə, dil və ədəbiyyat mövzusu XX əsrin əvvəllərində ən çox müzakirə və mübahisə edilən məsələlərdən biri olmuşdur. Cümhuriyyət dövründə də ədəbiyyat və mətbuatı məşğul edən əsas problemlərdən biri dil mövzusu idi. "Azərbaycan" qəzetinin 1919-cu il 21 noyabr nömrəsində dərc olunmuş "Milliləşmək" başlıqlı məqaləsində Ö.F.Nemanzadə yazırdı: "Canlı işlər, tarixi dəyişikliklər bizə göstərir ki, hər cəmiyyət, hər fərd, hər dürlü ənənəsindən, müqəddəsatından, imkan və etiqadından az-çox əl çəkdiyi halda milli dilindən əsla və əsla vaz keçməmişdir. Və heç vaxt da keçəməz. Çünki hər millətin ədəbiyyata malik dili o millətin ruhu, nişaneyi-mövcudatıdır. Ondan məhrum olduğu gün mərhum olmuş, ondan uzaqlaşdığı gün qəbrinə yaxlaşmış deməkdir. Tarix bizə göstərir ki, bir millətin cahangirliyi, hökuməti, hətta yeri-yurdu da əlindən alınsın, madam ki, milli ədəbiyyatı var, o millət məhv edilməz. Dili kəsilməyən millətin vücudu kəsilməz, ədəbiyyatı yaşayan millət heç vaxt ölməz. Dünyada bədbəxt o millətdir ki, özgə millətin silahından ziyada dil və ədəbiyyatına əsir olaraq yaşamaqdadır (13, s. 450-451).

Cümhuriyyət Hökumətinin dil siyasətinin həyata keçirilməsində mətbuatın rolu ayrıca qeyd edilməlidir. Lakin bu heç də o demək deyildir ki, bu illərdə çıxan bütün mətbuat orqanları dövlətin dil siyasətini razılıqla qarşılamışlar. Düzdür milli mədəniyyətin mühüm tərkib hissəsi kimi bu dövrün mətbuatı əvvəlki dövrlə müqayisədə həm keyfiyyət, həm də kəmiyyət baxımından Azərbaycan həyatının salnaməsinə çevrilmişdi. İki

il içərisində 100-ə yaxın qəzet və jurnal çıxmışdır. Lakin heç də bunların hamısı dövlətin siyasətini dəstəkləmirdi. Bakıda rus, gürcü, yəhudi, polyak, fars və başqa dillərdə də, əslində Milli Hökumətə qarşı çıxan ayrı-ayrı xarici qüvvələrin mənafeyini müdafiə edən bir sıra dövri mətbuat orqanları da nəşr edilirdi. Dövlətin mədəniyyət siyasətini dəstəkləyən milli istiqlal ideyalı mətbuat orqanları içərisində "İstiqlal" (1918-1920), "Azərbaycan" (1918-1920), "Övraqi-nəfisə" (1919), "Müsəlmanlıq" (1917-1919), "Qurtuluş" (1920), "Mədəniyyət" (1920), "Gənclər yurdu" (1918), "Şeypur" (1918-1919), "Zənbur" (1919) kimi nəşrlər xüsusilə seçilirdi.

Bolşevik, eser-menşevik, erməni-daşnak mətbuatının Cümhuriyyət əleyhinə təbliğat aparmalarına baxmayaraq Azərbaycan Hökuməti və Parlamenti mətbuatın və nəşriyyatların işini dövrün tələbləri səviyyəsində qurmaq üçün bir sıra demokratik qərarlar qəbul etmişdi. Belə ki, Parlamentin 1919-cu il 30 oktyabr tarixli qərarı ilə qəbul etdiyi "Mətbuat haqqında nizamnamə"də (9, s. 195) göstərilirdi ki, "Mətbuat, litoqrafiya və buna bənzər müəssisələrin açılması üçün, habelə çap məhsulunun nəşri və satılması üçün Hökumət idarələrinin heç bir icazəsi tələb olunmur". Dövri nəşrlərin təsis olunması üçün ancaq öz məqsədləri barədə mətbuat işləri üzrə baş müfəttişə ərizə təqdim edilməsi kifayət idi. Mətbuat azadlığını milli şüurun, milli mədəniyyətin inkişafı üçün mühüm şərtlərdən hesab edən Cümhuriyyət Hökuməti 1918-ci il 9 noyabr tarixli sərəncamı ilə mətbuat və kütləvi informasiya vasitələrinin məzmunu, nəşri və yayılması üzərində dövlət nəzarəti ləğv olunmuşdu (8, s. 70-71).

Əhalinin müxtəlif zümrələrinin marağını əks etdirən dövri mətbuat içərisində Azərbaycan mətbuatı tarixində ədəbiyyat və incəsənətdən bəhs edən ilk jurnal "Övraqi-nəfisə" idi. 1919-cu ilin mart-avqust aylarında Bakıda cəmi 6 sayı nəşr edilmiş bu jurnalın redaktoru Əlabbas Müznib, naşiri bəstəkar Zülfüqar bəy Hacıbəyli, rəssamı Əzim Əzimzadə olmuşdur. F.Köçərli,

A.Şaiq, C.Cəbrayılzadə, Z.Hacıbəyli, Ə.Müznib, Əmin Abid, M.Hadi kimi ziyalıların çıxış etdikləri jurnalda musiqi, teatr, memarlıq abidələri haqqında məqalələr və fotoşəkillər dərc olunur, aktyorların həyatı və səhnə fəaliyyəti barədə yazılar verilirdi. İlk sayı 1920-ci ilin əvvəlində çap olunmuş "Qurtuluş" jurnalı da ədəbi-mədəni sahədə çox iş görmüş milli mədəniyyət siyasətini təbliğ etmişdir.

Azərbaycan ziyalılarının təşəbbüskar fəaliyyətləri və gərgin çalışmaları özünü mədəniyyət quruculuğunun bütün istiqamətlərində göstərirdi. Ümumilikdə isə, Azərbaycan Xalq Cümhuriyyəti yaranışı ilə ədəbi-mədəni həyata təbii bir canlanma gətirmişdi. Bir əsrdən bəri çarizm siyasətinin məngənəsində sıxılan xalq milli dövlətin mahiyyətini dərk etməyə və bununla qürur duymağa başlamışdı. Ona görə də dövlətçilik quruculuğu istiqamətində özünü büruzə verən ən kiçik yeniliklər belə cəmiyyətdə böyük maraq və məhəbbətlə qarşılanırdı. Ədəbiyyatda, sənətdə milli istiqlal ideyalarının, vətənpərvərlik və qəhrəmanlıq mövzusunun tərənnümü ön plana keçirdi ki, teatr xadimləri də incəsənətin bu sahəsinin inkişafı üçün bütün imkanları ilə çalışırdılar. Bu dövrdə Bakıda Dövlət Türk Teatrının yaradılması isə milli ruhlu tamaşaların kəmiyyət və keyfiyyət göstəricilərinə müsbət təsir etdi.

H.Z.Tağıyev Teatrının binası, "İsmailiyyə" və digər mədəniyyət ocaqları 1918-ci il mart soyqırımında erməni tərəfindən yandırıldığına görə tamaşalar Mayılov teatrında, bəzən isə Haşımov mülkündəki "Türk ocağı"nın salonunda göstərilirdi. İsa bəy Aşurbəyovun "Azərbay-Can", Namiq Kamalın "Vətən, yaxud Osmanlı müharibəsi", Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar", "Pəri Cadu", Nəriman Nərimanovun "Nadir şah Əfşar", "Şamdan bəy", Mirzə Rza Vaizzadənin "Səyavuş", Cəlil Məmmədquluzadənin "Ölülər", Nəcəf bəy Vəzirovun "Müsibəti Fəxrəddin", Cəfər Cabbarlının "Ədirnə fəthi", "Ulduz və ya Trablis müharibəsi", "Bakı müharibəsi" pyesləri oynanılır, tamaşaçıların diqqətini özünə

çəkirdi (83, s. 46-51). M.B.Məmmədzadə isə "Bakı uğrunda müharibə" (1919) faciəsinin ilk pərdələrini mart soyqırımına həsr etmişdi (82).

Hökumətin 1918-ci il 9 oktyabr tarixli qərarına əsasən teatr işi Xalq Maarifi Nazirliyinin sərəncamına verilmiş və oktyabrın 18-də Dövlət Teatrının təşkili haqqında nazirin məruzəsi dinlənərək, Mayılov qardaşları teatrının binasının həmin teatr üçün alınması barədə qərar qəbul edilmişdir. M.B.Məmmədzadə "Hökumət və teatro" adlı məqaləsində Dövlət Teatrının açılması, onun tarixi əhəmiyyəti və vəzifələri, aktyorluq sənəti və teatr qarşısında duran aktual problemlər haqqında geniş məlumat vermişdir (8, s. 88).

1919-cu il 17 noyabr tarixli iclasında Xalq Maarifi Nazirinin türk opera-dram teatrının təşkili haqqında məruzəsi Nazirlər Şurasında dinlənilmiş və Dövlət Türk Opera-Dram Teatrının yaradılmasını nəzərdə tutan qanun layihəsini bəyənmişdir. Beləliklə, teatr milliləşdirilmiş və dövlət xidmətinin şərtləri ilə tanış olmaq üçün aktyor və aktrisaların dövlət teatrına dəvət olunmasına başlanılmışdır. Bunu nəticəsi olaraq, 1919-cu il oktyabrın 24-də teatr mövsümün Azərbaycan Dövlət Dram Teatrının opera və operetta truppası açmışdır. Parlament və Hökumət üzvlərinin iştirak etdiyi açılışda İsa bəy Aşurbəyovun "Azərbaycan" adlı tarixi pyesi böyük uğurla oynanılmışdır (8, s. 90). Ümumiyyətlə, Cümhuriyyət dövründə Xalq Maarifi Nazirliyi teatrın inkişafına qayğı ilə yanaşmış, Parlamentə teatr kollektivləri və digər mədəniyyət müəssisələri üzərinə qoyulmuş vergilərin ləğv olunması barəsində məruzə təqdim etmişdir. Məruzədə həmin vergilərin hədsiz dərəcədə çox olmasını təsdiq edən faktlar göstərilirdi. Nəticədə, Parlament teatr tamaşalarına və digər kütləvi tamaşalara qoyulmuş dövlət vergilərini yarıbayarı azaltmışdır.

Cümhuriyyət dövrünün öz böyük poeziyası, nəsri, dramaturgiyası və teatrı olmuşdur. Üzeyir Hacıbəyli, Məhəmməd Hadi, Abdulla Şaiq, Cəfər Cabbarlı, Əhməd Cavad kimi qabaqcıl milli ziyalılar Cümhuriyyətin rəhbər tutduğu milli

azadlıq və istiqlal xəttinin fəal ideoloqları olmuşlar (50, s. 365). Məhz Cümhuriyyət ziyalılarının əlbir işi və təşəbbüskar fəaliyyətlərinin nəticəsi idi ki, mədəniyyət quruculuğu sahəsində qısa müddətdə bir sıra uğurlara imza atılmışdır.

Azərbaycan hökumətinin milliləşmə məqsədilə həyata keçirdiyi fəaliyyətlərdən biri də xalqın tarixi yaddaşının, milli hafizənin canlandırılması sahəsində görülən işlər idi ki, burada tarixi yer, qəsəbə və şəhər adlarının bərpası xüsusi yer tuturdu (143, s. 138-139). İstiqlal muzeyinin yaradılması da ziyalıların bu sahəyə nə qədər diqqət və qayğı göstərdiklərinin göstəricisi sayıla bilər. Parlamentin nəzdində fəaliyyət göstərmiş muzeyin açılışının Azərbaycan Parlamentinin fəaliyyətinin bir illiyi gününə təsadüf etməsi də rəmzi məna kəsb edirdi (8, s. 77). Muzeydə Azərbaycanın azadlıq və istiqlalına dair sənəd və materiallar, tarixi və maddi mədəniyyət örnəkləri, arxeoloji tapıntılar, silahlar, numizmatika nümunələri, rəsm əsərləri, xalça və xalça məmulatı, bədii tikmələr, dulus və mis qablar, bəzək əşyaları və digər sənət əsərləri, Qurani-Kərimin nadir nüsxələri, müxtəlif əlyazmalar və s. toplanmışdı. Muzeyin açılışına hazırlıq görülərkən 1919 il noyabrın 6-da tərtib olunmuş bir sənəddə göstərilirdi ki, muzeyə verilən hər bir əşya milli sərvətdir, əşya sahiblərinin ailə üzvləri gələcəkdə onları tələb edə bilməzlər. Muzeyə hədiyyə olunmuş əşyalar geri qaytarılmır. Sənədin 3-cü bəndində deyilirdi: "İstiqlal muzeyi milli bir müəssisə olduğu üçün muzeydə mövcud bütün əşya milli mal hesab edilir. Heç kəs və heç bir müəssisə o şeylərə sahib ola bilməz". Muzeyin təşkili və fəaliyyəti ilə bağlı bütün xərclər Azərbaycan Parlamenti rəyasət heyətinin hesabına idi (9, s. 65).

Cümhuriyyət Hökuməti əhalinin maariflənməsində, elmi biliklərə yiyələnməsində mühüm rol oynayan kitabxana şəbəkəsinin genişlənməsinə xüsusi diqqət yetirmiş, bu məqsədlə Bakıda dövlət və kütləvi xalq kitabxanalarının açılması haqqında layihələr işləyib hazırlanmışdır. Bakının mərkəzi hissəsində açılması nəzərdə tutulmuş Milli kitabxananın yaradılması və

Azərbaycana aid kitabları, qəzet və jurnalları, əlyazmaları və digər qaynaqları toplamaq üçün Hökumət tərəfindən İstanbul, Qahirə, Beyrut və Avropanın bir sıra paytaxt şəhərlərinə mütəxəssislər ezam edilmişdir. Parlamentin 1919-cu il sentyabr 18-də qəbul etdiyi qanuna görə, xalq məktəbləri kitabxanalarına türk dilində yeni kitablar almaq üçün dövlət xəzinəsindən Xalq Maarifi Nazirliyinin sərəncamına 1 milyon manat ayrılmışdır (8, s. 77-78).

Mədəniyyət quruculuğu, o cümlədən təhsil sahəsində milliləşmə adı altında aparılan türkçülük fəaliyyətləri, cəmiyyət həyatının digər sahələrində də sürətli bir şəkildə həyata keçirilirdi. Bunlardan ən əhəmiyyətlisi, vaxtilə İstanbulda Ə.Hüseynzadə, Ə.Ağaoğlu və M.Ə.Rəsulzadənin yaxından iştirak etdikləri "Türk Ocaqları" tipində "Bakı Ocağı" adlı mədəni cəmiyyətin qurulması idi. "Bakı Ocağı" ilə bağlı dövri mətbuatda çıxan yazılarda cəmiyyətin quruluş məqsədinin, "Osmanlı türklərinin Azərbaycan türkləri ilə yaxınlaşmasını təmin etmək və kültürəl əlaqələri genişləndirmək olduğu bildirilirdi" (9, s. 410). Cəmiyyətin qurucuları arasında Abdulla Şaiq, Kazımzadə Nağıyev, Mikayılov kimi dövrün milliyyətçi ziyalıları vardı. 1919-cu ilin dekabrında Müsavat Partiyasının Bakı şöbəsinin təklifi ilə Türk ocaqlarının siyasi klubunun təşkil edilməsi qərara alınmış və bu məqsədlə M.Ə.Rəsulzadə, G.R.Şərifzadə, Ş.Rüstəmbəyov, R.Ağabəyov və M.Şeyxzamanovdan ibarət komissiya yaradılmışdı (9, s. 410). Klub tərəfindən geniş xalq kütlələrinin iştirakı ilə təşkil edilən toplantılarda türkçülük təbliğatı aparılır, siyasi məsələlərdə panellər təşkil edilirdi. Bakıda, "Türk Ocağı"ndan başqa milli düşüncəli şair, yazar və kültür adamlarını birləşdirən "İttifaqi-Müəllim", "Əhali ittifaqı", "Müsəlman şagirdləri ittifaqı", "Qurtuluş" cəmiyyəti və onun "Turan" şöbəsi vardı. Bu cəmiyyətlərin başlıca məqsədini milli kimliyin cəmiyyətə təbliği və mənimsədilməsi təşkil edirdi. Milli-mədəni dəyərlərin elmi baxımdan araşdırılmasına xüsusi diqqət göstərilirdi. Azərbaycanın tarixi, ədəbiyyatı, iqtisadiyyatı, coğrafiyası mövzularında

bir çox elmi əsər meydana gəlmişdi. Bundan başqa Azərbaycanı tanıtmaq məqsədi ilə ingilis və fransızca kitab və broşuralar nəşr edilmişdi (143, s. 138).

Əlifba məsələsi də mədəniyyət quruculuğu və təhsilin milliləşdirilməsi çərçivəsində hökumətin cari fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi. 1918-ci ilin dekabrında keçirilən Bakı müəllimlər qurultayında latın əlifbasına keçilməsinin zərurətinə dair müzakirələr aparılmışdı. Qurultayda latın əlifbasına keçilməsi ilə bağlı layihə hazırlanaq Xalq Maarifi Nazirliyinə təqdim edilmişdi. Bilavasitə milli kimliklə bağlı olan əlifba dəyişikliyi məsələsi ictimaiyyətdə, rəsmi dairələrdə və mətbuatda da geniş müzakirə edilmişdi. İctimai fikirdə problemə dair iki fərqli münasibət vardı. Bir qisim latın əlifbasına keçidin zərurətini təbliğ edirdisə, digər qisim ərəb əlifbasının dəyişdirilməsinə qarşı çıxırdılar. Azərbaycan xalqının əsrlərdən bəri bu əlifba ilə əhəmiyyətli əsərlər yaratdığını və yeni əlifbaya keçməklə xalqın öz ədəbiyyatından, zəngin mədəni dəyərlərdən ayrılacağı qənaətində olan mühafizəkarları daha çox narahat edən məsələlərdən biri də, ərəb əlifbasının dəyişdirilməsi ilə Azərbaycanın İslam dünyasından ayrı salınacağı fikri idi. Latın əlifbasına keçid tərəfdarlarının söykəndikləri arqument isə bundan ibarət idi ki, ərəb əlifbasının strukturundan qaynaqlanan səbəblər üzündən yazıb-oxumaq, eləcə də Qərb texnologiyası və elminin öyrənilməsi çətinləşir (144, s. 380-386).

Əlifba islahatı Azərbaycan hökumətinin maarifçilik fəaliyyətinin və xalq təhsili üzrə proqramların reallaşdırılmasına xidmət edirdi. 1919-cu ilin mart ayında Xudadat bəy Məlik-Aslanovun sədrliyi ilə əlifba islahatı üzrə xüsusi komissiya təşkil edilmişdi. O vaxt təqdim olunmuş layihələrdən ancaq maarifçi müəllim Abdulla bəy Əfəndizadənin təqdim etdiyi variant parlament tərəfindən bəyənilmiş və yeni əlifba üçün əsas kimi qəbul edilmişdi (12, s. 484). Eyni dövrün yeni milli əlifba ilə nəşr olunan örnək əsərləri və "Azərbaycan" qəzeti bu

fikri təsdiqləməkdədir.

Azərbaycan Xalq Cümhuriyyətinin mənəviyyat binasının ən böyük sütunlarından birini, heç şübhəsiz, təhsil islahatları təşkil edir. Milli dövlətin bərqərar olması ilə Azərbaycanda təhsil məsələləri ilk dəfə dövlət səviyyəsinə qaldırılmışdır. 1918-1919-cu illərdə Respublika Xalq Maarifi Nazirliyinə işə qəbul olunmaq üçün təqdim edilmiş onlarla ərizəni araşdıran edən Teyyub Qurbanın tədqiqatlarından (55, s. 9-11) öyrənirik ki, vətəndaşların bu ərizələrinə vaxtında baxılmış və onların əksəriyyəti müvafiq vəzifələrə işə qəbul olunmuşlar. Xalq Maarif Nazirliyinin 28 avqust 1918-ci il qərarı ilə Azərbaycan Respublikasının bütün məktəblərində tədris dövlət dilində aparılırdı. Respublikada yaşayan digər xalqların uşaqları üçün rus dilində fəaliyyət göstərən tədris müəssisələrində də dövlət dili olan Azərbaycan türkcəsinin öyrənilməsinə xüsusi diqqət yetirilirdi. Nəsib bəy Yusifbəyli parlamentin 14 aprel 1919-cu il tarixli iclasında istiqlalın gələcəyinin maarifə bağlı olduğunu dilə gətirərək deyirdi ki, əgər milli maarifimiz, milli məktəbimiz tərəqqi etməzsə bizim üçün qurtuluş və nicat ümidi qalmaz. Hökumətin bu məsələni diqqətə saxladığını xüsusilə vurğulayan N.Yusifbəyli bunun üçün ibtidai təhsilin ümumi olmasına çalışdıqlarını, sentyabrdan etibarən ibtidai məktəblərin açılmasına təşəbbüs göstərəcəklərini və habelə sənaye məktəblərinə ayrıca diqqət edəcəklərini parlament qarşısında bəyan edirdi (10, s. 447-447).

Dövlət arxivində tarixi islahatların qətiyyətlə həyata keçirilməsinə dair çoxlu sənədlər saxlanılır ki, bunların böyük bir qismi T.Qurbanın "Mədəniyyət dünyası"nda dərc edilmiş "Cümhuriyyət tələbələri" əsərində (55, s. 5-32; 56, s. 25-42) təqdim edilmişdir. Cümhuriyyət hökuməti kütləvi savadsızlığı aradan qaldırmaq üçün bütün mövcud imkanlardan istifadə etməyə çalışmışdır. Əhalinin, yaş səviyyəsindən asılı olmayaraq bütün təbəqələrinin savadlanması üçün müxtəlif yollar aranırdı. Ona görə də məktəb yaşından böyük vətəndaşlar da unudul-

mamış, onlar üçün gecə kursları açılmışdı. Bu kursların təşkilindən başlıca məqsəd dövlət xidmətində olan məmurların türkcə tam oxuyub yazmalarını təmin etmək idi. Qadın hüquqlarının təminatına xüsusi diqqət yetirən hökumət təhsil siyasətində onlara da ayrıca qayğı ilə yanaşmış, qadınlar üçün fərdi gündüz kursları açılmış və cəmiyyətlə əlaqəli dərslər tərtib edilmişdi" (156, f.51, siy.3, iş 8, v. 67). Kurslara türk ədəbiyyatı, türk tarixi, türk coğrafiyası və digər fənləri öyrənməyi arzulayan qadınlar qəbul edilirdi. Heç oxuyub-yaza bilməyən qadınlar üçün isə xüsusi siniflər açılmışdı (143, s. 136).

1918-1920-ci illərdə Xalq Maarifi Nazirliyi çox geniş səlahiyyətlərə malik olmasını tarixi faktlar da təsdiqləməkdədir. Hökumətin ali təhsilə olan diqqəti Nəsib bəy Yusifbəylinin parlamentin 29-cu iclasındakı (14 aprel 1919-cu il) çıxışında da öz əksini tapır (10, s. 448, 450). Azərbaycan hökumətinin həll etməli olduğu ən kəskin məsələlərdən biri də maarif işçilərinin maddi təminatı, onların güzəranının yaxşılaşdırılması idi. 1919-cu ilin sentyabrında parlament Azərbaycan Cümhuriyyəti qulluqçularının məvacibinin artırılması və maaşların müvafiq şəkildə sistemləşdirilməsi haqqında qanun qəbul etdi. Bu qanuna görə, müəllimlərə xeyli imtiyazlar verilməli, onlara əlavə işlər üçün əmək haqqı xüsusi cədvəl üzrə ödənilməli idi (12, s. 483-484).

Mədəniyyət quruculuğunun ən əlamətdar hadisələrindən biri kimi Parlamentin Bakıda universitetin təsis olunması haqqında qəbul etdiyi qanun mütəxəssislər tərəfindən də xüsusi bir hadisə kimi qeyd edilməkdədir. Çünki milli universitetin açılması Cümhuriyyət xadimlərinin doğma xalq qarşısında çox mühüm tarixi xidməti idi. Parlamentin 21 avqust 1919-cu il tarixli 67-ci iclasında M.Ə.Rəsulzadə bildirirdi ki, əlbəttə, yaxşı olardı bu fənn ocağı, bu elm mənbəyi öz dilimizdə olaydı və oradakı professor və müəllimlər türkcə tərbiyə verəydilər. Təəssüf ki, faktiki olaraq hələlik bunu tətbiq etmək və belə bir fənn ocağı açmaq imkanımız yoxdur. "Madam ki, biz hamımız bir nöqteyi-nəzərdəyik ki, ülum, finun bizə lazımdır. Etiraf

etməliyik ki, darülfünun da bizə lazımdır" (11, s. 10). Daha ixtisaslı və bilikli adamlar yetişdirmək üçün gənclərin təhsil dalınca Avropanın ali məktəblərinə göndərilməsinin təşəbbüskarlarından olan M.Ə.Rəsulzadə eyni zamanda məmləkət daxilində bir fənn və elm ocağının yaradılmasının qızğın tərəfdarlarından olmuşdur. M.Ə.Rəsulzadə fikrini əsaslandırarkən belə bir məntiqdən çıxış edirdi ki, bu ali məktəbin işi təkcə tələbələr hazırlamaqla bitməyəcək, universitet eyni zamanda elm və sənətə yiyələnmiş insanların, ixtisas sahiblərinin müqəddəs bir ocağı halına gələcək. Universitet təhsil və təlim-tərbiyə işləri ilə yanaşı ölkənin keçmişini və bu gününü öyrənməklə, xalqın xüsusiyyətini, əhval-ruhiyyəsini təhlil və tədqiq etməklə milli-mədəni inkişafın gələcəyinə dair elmi proqnozlar da verəcəkdir. Elə bu məqsədlə də universitetdə çalışmaq üçün xaricdən bir çox alimlər və professorlar cəlb ediləcəkdir.

Universitetdə tədrisin hansı dildə olacağı və burada kimlərin dərs deyəcəyi məsələsi ətrafında da Parlamentdə uzun-uzadı müzakirələr aparılmışdır (8, s. 66; 11, s. 11). Ümumtəhsil məktəblərində milliləşmənin birmənalı şəkildə tərəfdarı olan ziyalıların əksəriyyəti universitetin təşkil məsələsində bəzi fərqliliklərin nəzərə alınmasının və müvəqqəti olaraq bəzi güzəştlərə gedilməsi məcburiyyətində qaldıqlarının zərurətini izah etməyə çalışırdılar. Onlar əminliklə bildirirdilər ki, vaxt gələcək universitet tamamilə milliləşəcək. Bununla bərabər orada türk dili ümumi surətdə məcburi olaraq keçiləcək və öyrədiləcəkdir. Tələbələrimiz get-gedə rus və ya əcnəbi bir dildə aldıqları təhsili, öyrəndikləri bir elmi öz dillərində ifadə edə biləcəklər.

M.Ə.Rəsulzadə və M.Şahtaxtinski kimi ziyalıların fikrini təqdir edən Qara bəy Qarabəyli deyirdi ki, "inqilabları yapan kəndlilər olmayıb, darülfünunda oxuyanlar olubdur. Bunlar həqiqətdir. Gün kimi aşkardır. Danışmağa lüzum yoxdur" (11, s. 22). Maarif naziri R.Qaplanov da ali təhsil müəssisəsinin

açılmasının zərurətini əsaslandıraraq bunu, müqəddəslik baxımından dini ocaqlarla bərabər tuturdu (11, s. 28). Ziyalıların məhz belə bir qətiyyətli mövqeləri nəticəsində Parlamentin 1 sentyabr 1919-cu il tarixli 70-ci iclasında "Azərbaycan darülfünunun təşkili haqqında" layihə səsə qoyuldu. Demək lazımdır ki, S.M.Qənizadənin sədrliyi ilə keçən səhər iclasında təhsil sahəsinə dair üç məsələ müzakirə olunmuşdur: Dövlət Universitetinin açılması barədə; xarici ölkələrin ali məktəblərində təhsil almaq üçün gənclərin göndərilməsinə dair və türk dilində kitabların alınmasına 1 milyon manat vəsait ayrılması haqqında. Beləliklə, parlamentin həmin iclasında Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında tarixi bir qanun qəbul edildi (9, s. 10-13; 12, s. 486; 149, s. 626-627).

Bu universitet "milli istiqlal və milli hakimiyyət nəticəsində əldə edilmiş olan bir qazanc" olaraq görülürdü (143, s. 133-134). Universitetin rektoru tanınmış tibb alimi və cərrah Vasili İvanoviç Razumovski idi. Tarix-filologiya fakültəsində M.Ə.Rəsulzadə və xalq maarif naziri R.Qaplanov Osmanlı ədəbiyyatından, M.Şahtaxtinski Azərbaycan dilinin qrammatikasından mühazirələr oxuyurdular. 1919 il dekabrın 29-da Azərbaycan tarixi və mədəniyyətinin öyrənilməsi və təbliği məqsədilə universitetin nəzdində "Müsəlman Şərqini öyrənən cəmiyyəti" qurulmuşdu (8, s. 77). Bu qeyri-hökumət elm təşkilatının əsas məqsədi islam dininə etiqad edən xalqların, onların yaşadıqları ölkələrin tarixini, həmçinin müsəlman mədəniyyətinin inkişafına bu və ya digər dərəcədə təsir göstərmiş tarixi və mədəni amillərin öyrənilməsi idi. Bakı Universitetinin nəzdində yaradılmış cəmiyyət tərəfindən müsəlman ölkələrinin, xüsusilə Azərbaycan, İran, Türkiyə, Türküstanın tarix, dil, arxeoloji və etnoqrafik baxımından öyrənilməsinə xüsusi önəm verirdi. L.A.Zimin cəmiyyətin sədri, Y.A.Belyayev sədrin müavini, Seydiyev katib, Abdulla bəy Sübhanverdixanov (Divanbəyoğlu) xəzinədar seçilmişdilər. Cavad bəy Rəfibəyli, general-leytenant Məmməd bəy Sulkeviç də cəmiy-

yətin üzvləri arasında idilər. Cəmiyyət müsəlman Şərqinin, xüsusən də Azərbaycan, Türkiyə, İran və Türküstanın Əldə olunan əlyazmalar və materiallar cəmiyyətin muzeyində toplanmalı, mühafizə və sistemləşdirilmək üçün "İstiqlal" milli muzeyinə verilməli, onların nəşri və tədqiq olunması ilə Bakı Universiteti məşğul olmalı idi. Qədim sikkələrin toplanmasına, salamat qalmış köhnə binaların və qədim şəhər qalıqlarının dəqiq və ətraflı qeydiyyata alınmasına xüsusi diqqət yetirilirdi. Müsəlman Şərqinin öyrənilməsi ilə maraqlanan azərbaycanlıların işə cəlb olunmasını və onların lazımi elmi hazırlıq keçməsini cəmiyyət özünün əsas vəzifələrindən hesab edirdi (9, s. 234-235).

Cəmiyyətdə türkçülüyün güclənməsi üçün görülən fəaliyyətlərdən biri də "Türk gecələri" adı altında 1918 ilin sonlarında Bakıda təşkil edilən konsert proqramları idi. Milli ruhun və milli ideyalarını güclənməsi nəticəsində milli mədəniyyətin təbliğinə və tədqiqinə, tarixi və milli ənənələrə maraq fövqəladə dərəcədə artdığından "Türk gecələri"nin təşkili də bu məqsədə xidmət edirdi. Bu tədbirlərdə tatarlar, osmanlı türkləri, Azərbaycan və Türkiyə şair və yazıçıları, artistlər və rəssamlar iştirak edirdilər. Geniş proqramlı "Türk gecələri"ndə türk xalqlarının etnoqrafiyasına və məişətinə həsr olunmuş "Türk ocağı", "Türkmən çadrası", "Atəşgah", "Şərq salonları" kimi sərgilər də nümayiş etdirilirdi (8, s. 92). Xüsusi bir komissiya tərəfindən təşkil edilən bu proqramlarda müxtəlif türk boylarının musiqisindən parçalar səsləndirilir, Azərbaycan, Türkiyə və Tatarıstanın şair, rəssam və aktyorlarının iştirak etdiyi teatr tamaşaları verilirdi. Səhnəyə qoyulan əsərlərin adları da maraq çəkici idi: "Azərbaycan istiqlalı", "Türk tipləri", "Türk qadınının dünyası", "Milli birlik" və s. Yuxarı səviyyəli hökumət səlahiyyətlilərinin bu konsert proqramlarında aktiv olaraq iştirak etməsi türkçülüyün dövlət siyasəti olduğunun bir göstəricisi idi (143, s. 139). "Türk gecələri" konsertlərində M.Ə.Rəsulzadə məsul müdir kimi çıxış edirdi. Gecələrin bədii tərtibat hissəsinə Əzim Əzimzadə, ədəbi-

vəkal hissəyə “Yaşıl qələm” cəmiyyətinin üzvləri rəhbərlik edirdilər (9, s. 410).

Mədəniyyət quruculuğunun həyata keçirilməsində elm və təhsil sahəsində ali təhsilli milli kadrlar hazırlığı məsələsi daha çox narahatlıq doğurmuşdur. Bir sıra tədbirlərlə yanaşı, yüz nəfər azərbaycanlı gəncin xarici ölkələrin ali məktəblərində təhsil almasına qərar verilməsi də mədəniyyət tariximizdə əlamətdar bir hadisəyə çevrilmişdir. Belə ki, Parlamentin 1919-cu il sentyabrın 1-də keçirilən 70-ci iclasında universitetinin təsisi ilə yanaşı, 1919-1920-ci tədris ilindən başlayaraq, yüz nəfərin xarici ölkələrin nüfuzlu ali məktəblərinə göndərilməsi haqqında məsələ də müzakirə edilmişdir. Əhməd bəy Pepinovun məruzəsinin müzakirəsində iştirak edən ziyalılar iqtisadiyyatın, elm, təhsil və mədəniyyətin gələcək inkişafı üçün tələbələrin xarici ölkələrdə ali təhsil almağa göndərilməsinin əhəmiyyətini vurğulamışlar. Parlamentin stenoqrafik hesabatlarında (11, s. 71-75) bu məsələ ilə bağlı geniş məlumat verilmişdir.

Xaricə göndəriləcək tələbələri seçmək üçün Xalq Maarifi Nazirliyi yanında M.Ə.Rəsulzadə (sədr), Əhməd bəy Pepinov, Qara bəy Qarabəyli, Mehdi bəy Hacınski və Abdulla bəy Əfəndizadədən ibarət çox nüfuzlu münsiflər heyəti yaradılmışdı. Münsiflər heyətinin diqqətlə seçdiyi tələbələrdən 10 nəfərinin İngiltərəyə, 23 nəfərinin İtaliyaya, 45 nəfərinin Fransaya, 9 nəfərinin Türkiyəyə göndərilməsi nəzərdə tutulurdu. Nəticədə isə Xalq Maarifi Nazirliyi tərəfindən xaricə göndərilən tələbələrdən 49 nəfərinə Almaniyanın, 27 nəfərinə Fransanın, 4 nəfərinə İtaliyanın, 1 nəfərinə İngiltərənin, 6 nəfərinə isə Türkiyənin müxtəlif ali məktəblərinə göndərilmələri barədə rəsmi sənəd verilmişdi. Qalan 13 nəfər isə Rusiyaya göndərilməli idi. Rusiyada vətəndaş müharibəsi ilə əlaqədar yaranmış şəraitə görə oraya tələbə göndərmək mümkün olmamışdı (9, s. 15).

Sözügedən komissiya üzvləri Xalq Maarifi Nazirliyində tələbələrin seçilməsi məsələləri ilə məşğul idilər. Bu sahədə nazirliyin nəzdində olan “Yaşıl qələm” cəmiyyətinin də rolu

böyük idi. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün "Yazıçılar birliyi" hesab edə biləcəyimiz bu cəmiyyətin təsis toplantısı 1919-cu il avqust ayının 26-da keçirilmişdi. Təsis yığıncağında Seyid Hüseyn, Məhəmməd Ağaoğlu, Ümmugülsüm, Əli Yusif, Mirzə Bala Məmmədzadə idarə heyətinə seçilmişdilər. Seyid Hüseyn yekdilliklə sədr olmuşdu. Cəmiyyətin iclaslarında M.Ə.Rəsulzadə, H.Ağayev, Ü.Hacıbəyov, H.Cavid, Ə.Cavad, C.Cabbarlı, S.Mümtaz, A.Şaiq və başqaları iştirak edirdilər (55, s. 26).

Türk-islam aləmində o vaxta qədər bənzəri olmayan və milli tariximizə 28 may 1918-ci il İstiqlal Bəyannaməsi ilə daxil olmuş Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qısa bir müddət ərzində dövlət quruluşunun təməli hesab olunan bir çox tədbirləri həyata keçirməyə müvəffəq olmuşdur. İstiqlal Bəyannaməsinin elan edildiyi gündən dövlət rəmzlərinin yaradılmasına xüsusi önəm verilmiş, ən mühüm dövlət atributlarından biri kimi Dövlət bayrağının qəbul edilməsi daha tez həyata keçirilmişdir. Hökumət 1919-cu il martın 23-də dövlət gerbinin və üzərində dövlətin adı və gerbi təsvir edilən dövlət möhürünün layihələrini hazırlamaq məqsədilə müsabiqə elan olunması barədə qərar qəbul etmişdi. Çox güman ki, müsabiqəyə göndərilən layihələrin heç biri bəyənilmədiyindən qəbul edilməmişdi. Buna görə də hökumət hərbi ordenlər, milli himn, dövlət gerbi və möhürü üçün layihələrin hazırlanması üçün yeni müsabiqə elan olunması barədə qərar çıxarmışdır (8, s. 92; 26, s. 7; 27, s. 80-86).

Apardığımız tədqiqatlar bizə bir faktı əminliklə söyləməyə əsas verir ki, çox mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin parlament və hökuməti elmin, təhsilin, xalq maarifinin inkişafını diqqət mərkəzində saxlamışdır. Mədəniyyət quruculuğu prosesini dövlətçiliyin tələblərinə uyğun istiqamətə yönəltmək üçün Cümhuriyyət hökumətinin həyata keçirdiyi ilk tədbirlərdən biri təhsil müəssisələrinin milliləşdirilməsi olmuşdur. Eyni zamanda

ölkənin ayrı-ayrı yerlərində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq bağçaları, qısamüddətli müəllim kursları, teatrlar, kitabxanalar və muzeylər açılmış, milli mədəniyyəti tədqiq və təbliğ edən müxtəlif cəmiyyətlər yaradılmışdır. Ali məktəb təsis edilmiş, mədəniyyət quruculuğunu uğurla həyata keçirmək və ölkəni yüksək ixtisaslı kadrlarla təmin etmək məqsədilə dünyanın ən tanınmış elm və təhsil ocaqlarına tələbələr göndərilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının milli dövlətçilik və özünüdərkinin inkişafı tarixində misilsiz bir hadisə idi. Onun mövcudluğu millətin bütün sosial təbəqələrində sevinclə duyulmuş, fəaliyyəti cəmiyyətin bütün qurumlarına, milli həyatın hər sahəsinə nüfuz etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti öz fəaliyyətində milli mədəniyyətin, o cümlədən təhsilin, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsinə xüsusi diqqət yetirmişdir. Faktlar Azərbaycan parlamenti və hökumətinin sosial-mədəni sahənin köklü inkişaf etdirilməsi üçün sistemli və məqsədyönlü şəkildə iş apardığına dəlalət edir. Müharibə və daxili qarma-qarışıqlıq nəticəsində dağıdılmış məktəb şəbəkəsinin bərpa edilməsi, məktəblərin yeni şəraitə uyğunlaşdırılması, təhsil müəssisələrinin milliləşdirilməsi, milli incəsənətə kömək göstərilməsi və s. bu kimi sahələrdə hökumət tərəfindən mühüm quruculuq tədbirləri görülmüşdür. Belə şəraitdə məktəb sisteminin dağıdılmasını dayandırmaq, maarif və mədəniyyət sisteminin işini xalqın milli mənafelərinə yönəltmək hökumət qarşısında duran mühüm vəzifələrdən olmuşdur. Xüsusilə də, görülmüş işlərin ziddiyyətli tarixi şərait, mürəkkəb ictimai-siyasi vəziyyət və 23 aylıq qısa bir zaman kontekstində dəyərləndirilməsi bizə belə bir danılmaz həqiqəti söyləməyə imkan verir ki, Azərbaycan Xalq Cümhuriyyəti həyata keçirdiyi mədəniyyət quruculuğu zamanına görə fövqəladə mədəniyyət hadisəsi idi.

## Son söz əvəzinə

XX əsrin əvvəllərində Azərbaycanda reallaşmış milli-mədəni intibah faktı birdən-birə baş vermiş, hazır şəkildə alınmış, mənimsənilmiş bir mədəniyyət hadisəsi deyildi. Bu intibahın zəminində XIX əsr boyunca tədricən formalaşmış bir yeniləşmə hərəkatı dururdu. Milli-mədəni intibahın mütərəqqi fikirli şəxsiyyətlərinin, qabaqcıl ziyalılarının yetişməsində də ilk növbədə əvvəlki yüzilliyin oyanış və yeniləşmə proseslərinin təsiri şəksizdir.

Yüz illik yeniləşmə prosesi ərzində mütərəqqi fikirli ziyalılar cəmiyyətin ümumi tərəqqisi naminə mədəniyyətin bütün sahələrinin inkişafı qayğısına qalmışlar. Elmi-mədəni, ədəbi-bədii yaradıcılıq mühitinin formalaşması üçün məktəb və mətbuatdan başlayaraq teatr və musiqiyə qədər incəsənətin fərqli sahələrinin inkişafına yönəlmiş həmin fəaliyyətlərin bəhrəsi artıq XX əsrin əvvəllərində göz qabağında idi. Belə bir yeniləşmə prosesinin zəminində yeni bir əsrə qədəm qoymuş Azərbaycan cəmiyyətindəki mədəni hərəkat bütün aşkarlığı ilə milli bir şəkil və mahiyyət almağa başlamışdı. XX əsrin əvvəlləri artıq sinfi mübarizənin kəskinləşməsi, milli azadlıq hərəkatının coşması və tədricən yeni mərhələyə qədəm qoyması ilə müşayiət olunurdu. Azərbaycan milli burjuaziyası ilə millətçi ziyalıların həmrəyliyi və bu birlik ilə mübarizə mövqeyində duran sosializm ideyaları tərəfdarlarının çarpışmaları bu dövrün əsas səciyyəvi xüsusiyyətlərindən idi.

Milli-mədəni intibah prosesini yönəltmiş Azərbaycan ziyalıları məhz belə bir mühitin yetirməsi idilər. Qədim tarixə, zəngin varislik ənənəsinə malik Azərbaycan mədəniyyəti ilə müasir Avropa mədəniyyətinin yüksək nailiyyətlərinin çulğaşdığı yeni mədəni mühitin yetirməsi olan bu ziyalılar ölkənin və xalqın gələcək taleyində mühüm rol oynadılar. Azərbaycan mədəniyyətinin son yüzillik boyu əldə etdiyi nailiyyətlər, qabaqcıl ideyalar həmin ziyalıların ictimai-siyasi görüşlərinin və kulturoloji baxışlarının təşəkkülündə mühüm rol oynadı.

Hətta deyə bilərik ki, XX əsrin əvvəllərinin milli-mədəni intibahına öz töhfələrini vermiş bu şəxsiyyətlər Azərbaycan xalqının əsrlər boyu yaratdığı böyük və zəngin mədəniyyətinin, onun humanist hisslərinin, qabaqcıl ideyalarının, müqəddəs ideallarının məntiqi sonucu, qanunauyğun bəhrəsi idilər. Lakin onlar, keçmiş yolları təkrar etmədilər, mədəni irsdən yaradıcı şəkildə istifadə etməklə dövrün tələbindən doğan zəruri, müasir, demokratik və həm də orijinal fikirlərin bayraqdarı və carçısı oldular. Bununla da təkcə Azərbaycanın deyil, bütün Yaxın Şərq xalqlarının mədəniyyət tarixində örnək bir cəmiyyətin qurucuları səviyyəsinə yüksəldilər.

Azərbaycan türklərinin özünüdərketmə, maariflənmə, həmrəylik meyllərinə istiqamət verən ziyalılar müxtəlif konsepsiyalarla çıxış etsələr də, ümumi gedişat milli bir məcraya yönəlirdi. Türk dilində maariflənmə işinə daha çox diqqət yetirilməsi, milli məktəblərin yaradılması istiqamətdə uğurlu addımların atılması, mətbuat sahəsində bu vaxtadək görünməmiş bir canlanmanın müşahidə edilməsi, türk dilində dramaturgiya, teatr, opera, operettanın inkişafı və digər mədəni-maarif fəaliyyətləri Azərbaycan türklərinin milli özünüdərkinin mühüm amilləri idi.

Milli maarifləndirmə, ana dilli təhsil, teatr, mətbuat, mədəni-maarif və xeyriyyə cəmiyyətləri XX əsrin milli-mədəni intibahını şərtləndirən mühüm kulturoloji amillərə çevrildi və bu prosesdə ziyalılarla milli burjuaziyanın həmrəyliyi mühüm bir tarixi hadisə idi. Yaranmaqda olan milli burjuaziya azərbaycanlılar üçün istər iqtisadi, istər mənəvi, istərsə də maarifçilik maraqlarının qorunmasında yeganə ümid yeri idi. Bu səbəbdən rus və erməni bolşeviklərinin uzun illik səylərinə baxmayaraq, əksər azərbaycanlılarda milli və dini təəssübkeşlik sinfi həmrəylikdən üstün idi. Ziyalılarla milli burjuaziyanın həmrəylik ideyalarının mətbuat vasitəsilə təbliği belə əsaslandırılırdı ki, birincilər öz ağlı, biliyi, istedadı ilə xalqın köməyinə gəlməlidirlər, ikincilər isə öz imkanları ilə bu vəzifələri yerinə yetirmək üçün ziyalılara maddi əsas yaratmalıdırlar.

Milli həmrəylik prosesi heç də birmənalı şəkildə eyni istiqamətdə getmirdi, bu məsələdə də fikir ayrılıqları, bir-birinə zidd mövqe tutmuş qüvvələr vardı. Dövri mətbuatın bu dövrdəki ümumi təmayüllərinin təhlili, bunu deməyə əsas verir ki, bu nəşrlər arasında "dövrün inqilabi havası və millətçi kimlik axtarışı" məsələsində ziddiyyət vardı. Qəzetlərdə milliyyətçilik kəlməsi işlədilməsinə baxmayaraq, sonralar daha açıq bir termin olaraq millət gündəmə gəldi və artıq qəzetlər sadəcə müsəlmanlara səslənmək əvəzinə, Qafqaz türklərindən və ya sadəcə türklərdən bəhs etməyə başladılar.

Dünyanın bir çox elm, mədəniyyət və siyasət xadimləri kimi Azərbaycan ziyalıları da dil və kültür birliyini milli şüurun və özünüdərkin əsas amili hesab edir, xalqın bu ideallar ətrafında birləşməsi, bu ideralların məfkurə halına gətirilməsi, milli şəxsiyyətin formalaşması üçün mənəvi-ruhi birliyin vacib və mühüm şərt olduğunu bildirirdilər.

Azərbaycan mütəfəkkirlərinin kulturoloji irsində dil mövzusu millət və mədəniyyət fenomenləri kontekstində araşdırılır, dilin tarixi-mədəni və milli-ideoloji aspektlərdən tədqiqi problemlərinə xüsusi diqqət yetirilirdi. Onların qənaətincə, milliyyət xaricində səadət olmadığı kimi, dilsiz də milliyyət yoxdur. Mədəniyyət sinfi olmadığı kimi, dil də sinfi deyil, millidir. Bütün təbəqə və siniflərin ifadə və istifadəsini təmin etməyincə də bir dil qərarlaşmış olmaz. Ümumiyyətlə, türk dil birliyini müdafiə və təbliğ etmiş ziyalılar Azərbaycan dilinin tarixinin də yalnız türk dilinin tarixi ilə birgə öyrənilməsini elmi saymışlar. Bu yanaşmaya görə Azərbaycan xalqının tarixi də kompleks şəkildə – xalqın mədəniyyətinin, milli-mənəvi dəyərlərinin, elminin, ədəbiyyatının və nəhayət dilinin tarixilə əlaqəli şəkildə öyrənilməlidir.

Milləti meydana gətirən ünsürlər içərisində mədəniyyət birliyi və bütünlüyü ən önəmli yer tutur. Çünki bir millətin milli mədəniyyəti, onun milli tarixindən qopub gələn ulularin mirası və maddi varlığının, inanc və əxlaq ucalığının, dil və

sənət zənginliyinin, adət-ənənələrinin yaratdığı ortaq bir dəyərlər məcmusudur. Millətlərin ölməzlik məsələsinin ana ünsürü milli mədəniyyətdir. Bu mədəniyyətə sahib çıxan millətlər, demək ki, milli varlıq məsələsini həll etmişlər. Millətlərə həyat verən, milli birliyi canlı tutan milli mədəniyyətin qüdrətidir. Bir millətin var ola bilməsi, dünya millətlərinə varlığını qəbul etdirə bilməsi üçün, həmin millət mədəni dəyərlərini elmi şəkildə araşdırmaq, tanıtmaq, yaradıcı şəkildə yanaşaraq inkişaf etdirmək məcburiyyətindədir.

